**AMEA akademik Z.M.BÜNYADOV adına**
**ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

YAXŞIXANIM NƏSİROVA

# Osmanlı hakimiyyəti dövründə Urmiya və Xalxal bölgələri

(XVIII əsrin 20-ci illəri)

**Bakı – 2021**

*AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.*

**Elmi redaktor**: akademik Ş.M.Mustafayev

**Yaxşıxanım Nəsirova.** Osmanlı hakimiyyəti dövründə Urmiya və Xalxal bölgələri (XVIII əsrin 20-ci illəri). Bakı: "Elm", 2021, – 188 səh.

**ISBN** 978-9952-514-61-1

Monoqrafiyada Osmanlı hakimiyyəti dövründə tarixi Azərbaycan əraziləri olan Urmiya, Xalxal və Salmas bölgələrinin sosial-iqtisadi vəziyyəti, inzibati ərazisi, əhalisinin etnik-dini tərkibi araşdırılır. İlk dəfə olaraq, Osmanlı arxiv sənədi – 1728-ci ilə aid "Urmiya və Xalxal livasının müfəssəl dəftəri" (maliyyə-vergi reyestri) əsasında XVIII əsrin üçüncü onilliyində bu bölgələrdə gedən demoqrafik proseslər müəyyən edilmiş, şəhər həyatı, kənd təsərrüfatının vəziyyəti, vəqf təsisatları və əhalidən toplanan vergilərlə bağlı mühüm statistik məlumatlar ümumiləşdirilərək tədqiq edilmişdir.

Monoqrafiya Azərbaycan tarixi üzrə mütəxəssislər, ali məktəb tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

© Nəsirova Y.B., 2021
© AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2021

# MÜNDƏRİCAT

**Giriş** ..................................................................................... 4

**I Fəsil**. XVIII əsrin əvvəllərində Osmanlı-Səfəvi münasibətləri və Azərbaycan ........................................................ 11

1.1. XVIII əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət ........................................................ 11

1.2. Osmanlı-Səfəvi-Rusiya hərbi qarşıdurması və nəticələri ........................................................ 20

**II Fəsil**. Urmiya, Xalxal livalarının və Salmas qəzasının inzibati quruluşu, etnodemoqrafik vəziyyəti və vəqf təsisatları ........................................................ 36

2.1. Urmiya, Xalxal livalarında və Salmas qəzasında idarəçilik sistemi və inzibati bölgü ........................................................ 36

2.2. Urmiya, Xalxal livalarının və Salmas qəzasının etnodemoqrafik vəziyyəti ........................................................ 58

2.3. Urmiya və Salmas şəhərlərinin həyatı və əhalisi ............. 73

2.4. Urmiya və Xalxal livalarında vəqf təsisatları ................... 94

**III Fəsil**.Urmiya, Xalxal livalarında və Salmas qəzasında kənd təsərrüfatı və vergilər ........................................................ 104

3.1.Urmiya livasında kənd təsərrüfatı və vergilər ................... 104

3.2. Xalxal livasında kənd təsərrüfatı və vergilər .................... 126

3.3. Salmas qəzasında kənd təsərrüfatı və vergilər .................. 140

**Nəticə** ..................................................................................... 153

**İstifadə edilmiş ədəbiyyat** ..................................................... 160

**Coğrafi adların göstəricisi** ..................................................... 172

**Резюме** ..................................................................................... 181

**Summary** ..................................................................................... 183

# GİRİŞ

XVIII əsrin əvvəllərində Osmanlı hakimiyyəti dövründə Azərbaycanın Urmiya, Salmas və Xalxal bölgələrinin sosial-iqtisadi vəziyyəti bu günə qədər tarixi araşdırmalarda xüsusi elmi tədqiqat mövzusu olmamışdır. Bunun əsas səbəblərindən biri kimi bu dövrün tarixi ilə bağlı yerli mənbələrin azlığını göstərmək olar ki, tarixi qaynaq yetərsizliyi qeyd edilən məsələlərin araşdırılma imkanlarını məhdudlaşdıran ən mühüm amil olmuşdur. Məlum olduğu kimi, XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Səfəvi dövləti həddindən artıq zəifləmiş və 1722-ci ildə daxili üsyanlar və xarici hücumlar nəticəsində süquta uğramışdır. Ölkənin paytaxtı İsfahan şəhərinin əfqanlar tərəfindən zəbt və talan edilməsinin nəticəsində dövlətin mərkəzi maliyyə-vergi idarəsində toplanmış mühüm sənədlərin və ya arxivin böyük hissəsi məhv edilmişdir. Beləliklə, Səfəvi dövlətinin son dövrü sosial-iqtisadi inkişaf tarixinin öyrənilməsi üçün əlavə mənbələrin axtarışı, üzə çıxarılması və tədqiqata cəlb edilməsi Azərbaycan tarixşünaslığı qarşısında aktual bir məsələ olaraq qalırdı.

Son onilliklərdə bir sıra şərqşünas-tarixçilərimiz tərəfindən Azərbaycanın müxtəlif bölgələrinə aid Osmanlı arxiv mənbələrinin elmi dövriyyəyə daxil edilməsi yuxarıda qeyd edilən boşluğu müəyyən dərəcədə doldurmağa imkan yaratmışdır. O cümlədən, Urmiya və Xalxal livalarına (sancaqlarına) dair Osmanlı vergi-maliyyə reyestrinin (təhrir dəftərinin) əldə edilməsi bu bölgələrin Osmanlı idarəçiliyi dövründə, yəni XVIII əsrin 20-ci illərində inzibati-ərazi bölgüsü, sosial-iqtisadi vəziyyəti, əhalinin etnik-dini tərkibi və burada baş verən demoqrafik prosesləri öyrənməyə əlverişli imkan yaratmışdır.

Ayrı-ayrı bölgələrimizin sosial-iqtisadi tarixinin yeni arxiv mənbələri əsasında araşdırılması son nəticədə Azərbaycanın bir bütöv olaraq orta əsrlərdə keçdiyi tarixi mərhələlərin, onun icti-

mai-iqtisadi inkişafının tipoloji xüsusiyyətlərinin daha təfərrüatlı və dolğun şəkildə öyrənilməsinə şərait yaradır. Bu baxımdan regional və ya lokal tarix tədqiqatlarının bizim elmimizdə xüsusi əhəmiyyəti var. Osmanlı idarəçiliyi dövründə Azərbaycanın qeyd edilən bölgələrində – Urmiya və Xalxal livalarında – baş verən sosial-iqtisadi proseslər haqqında yeni təsəvvürlərin meydana çıxması, etnik-dini struktur məsələlərinin, demoqrafik proseslərin təhlil edilməsi, inzibati-ərazi bölgüsünün müəyyən olunması, kənd təsərrüfatı, sənətkarlıq və ticarət sahələrinə aid konkret məlumatların toplanması bütövlükdə Azərbaycanın XVIII əsrin 20-ci illərinə aid sosial-iqtisadi mənzərəsini yaratmağa imkan verir.

Bununla yanaşı, monoqrafiya müasir İranın Qərbi Azərbaycan vilayətində (ostanında) son onilliklərdə baş verən sosial və etnodemoqrafik proseslərin, kəskinləşməkdə olan etnik sərhəd mübahisələrinin və onların tarixi köklərinin düzgün dəyərləndirilməsi və həll edilməsi baxımından da böyük aktuallıq kəsb edir.

Tədqiqat işinin xronoloji çərçivəsi XVIII əsrin əvvəllərində Azərbaycanın tarixi torpaqlarının, o cümlədən Urmiya, Salmas və Xalxal bölgələrinin Osmanlı imperiyası tərəfindən fəth edildiyi və Osmanlı idarəçiliyi altında qaldığı dövrü – 1724-1735-ci illəri əhatə edir.

Monoqrafiya, əsasən, XVIII əsrin əvvəllərində tərtib olunmuş "Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi" adlı Osmanlı arxiv sənədində əks olunan statistik məlumatların araşdırılması və təhlili əsasında yazılmışdır. Bununla yanaşı, Türkiyə Respublikasının Başbakanlık Osmanlı Arxivində saxlanılan, Azərbaycanın orta əsrlər dövrü tarixi ilə bağlı onlarla digər sənəd və materiallara da müraciət olunmuşdur. Bu zəngin sənəd xəzinəsində son illərdə Azərbaycana aid bir sıra önəmli materialların aşkarlanması orta əsrlər Azərbaycan tarixinin tədqiqinə yönəlik yeni bir baxışın formalaşmasına şərait yaratmışdır. Tarixin bu mərhələsinin ictimai-siyasi aspektləri ilə yanaşı, artıq

onun sosial-iqtisadi və etnodemoqrafik problemlərinin yeni faktlar əsasında araşdırılmasına da imkan yaranmışdır.

Mövzunun tədqiqi prosesində müraciət edilən Osmanlı maliyyə-vergi reyestrləri (müfəssəl və icmal dəftərləri), onların tərtib xüsusiyyətləri və əhatə etdiyi sosial-iqtisadi göstəricilər haqqında monoqrafiyada ümumi məlumatlar əks olunmuşdur. Qeyd edilməlidir ki, Osmanlı dövlətinin fəth siyasətinə uyğun olaraq, yeni ərazilərdə Osmanlı idarəçilik prinsiplərini və vergi siyasətini həyata keçirmək, iqtisadi məsələləri həll etmək üçün həmin yerlərin təhririnə, yəni ərazidə yaşayan vergi ödəyicilərinin və bütün gəlir mənbələrinin siyahıya alınmasına xüsusi əhəmiyyət verilirdi. Bu proses Osmanlı mərkəzi hakimiyyətinin hazırladığı və qəbul etdiyi xüsusi qanunnamələr əsasında həyata keçirilirdi. Sultanın tuğrası ilə qanuniləşən bu sənədlər həmin əyalət və livalarda idarəçilik və maliyyə məsələlərini tənzimləyirdi. Xatırladaq ki, Osmanlı idarəçilik sisteminin əsasını təşkil edən qanunnamələr Gəncə-Qarabağ (1727) və İrəvan (1593) əyalətləri istisna olmaqla, başqa Azərbaycan əraziləri üçün hazırlanmış maliyyə-vergi sənədlərində, o cümlədən, "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri"ndə ("Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi") yoxdur.

Müraciət edilən vergi reyestri İstanbulda Başbakanlık Osmanlı Arxivində 910 sayı ilə qeydə alınmışdır. 409 səhifəlik sənəd siyaqət xətti ilə yazılmışdır. Əlyazmanın 4, 141, 151, 168-170, 176-178, 338, 354-357-ci səhifələri boşdur. Dəftərin dəqiq tərtib ilini əlavə mənbələrin məlumatına əsasən müəyyənləşdirmək mümkündür. Tarixi əsərlərdə Ərdəbil, Urmiya, Qəzvin və digər ərazilərin Osmanlı ordusu tərəfindən 1725-ci ilin payız – qış kompaniyasında ələ keçirilməsi haqqında məlumat verilir [133, s. 95-96; 34, s. 123]. 1725-ci ilin dekabrında isə Urmiyaya sancaq (liva) statusu verildiyi qeyd edilmişdir [65, s. 100-103; 21]. Bundan əlavə, Osmanlı sənədlərində 1726-cı il fevral tarixli əmrə əsasən, ələ keçirilmiş bir çox ərazilərlə yanaşı "...Urmiyanın təhriri üçün nə lazımsa, edilməsi gərəkdiyi" göstərilmişdir [65, s. 20; 20]. Bu məlumatları nəzərə alaraq, dəftərin 1726-cı

ilin əvvəlində hazırlanmağa başlandığını qəbul edib, onun 1726 – 1728-ci illərin təhrir məlumatları əsasında tərtib edildiyini söyləyə bilərik. Dəftərdə Osmanlı dövlətinin tərkibinə keçmiş Urmiya, Salmas və Xalxal ərazilərində aparılan siyahıyaalma işlərinə aid məlumatlar və statistik göstəricilər əks olunmuşdur.

Mövzunun işıqlandırılmasında Azərbaycanda şərqşünas alimlərimiz akademik Z.M.Bünyadov, akademik Ş.M.Mustafayev, t.ü.e.d. H.M. Məmmədov (Qaramanlı), E.Arıklı tərəfindən tərcümə və nəşr edilən Azərbaycanın bir sıra tarixi ərazilərinə aid təhrir dəftərlərinə də geniş müraciət edilmişdir. Bu mənbələrin arasında "İrəvan əyalətinin icmal dəftəri" [39] , "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" [37], "Naxçıvan sancağının müfəssəl dəftəri" [50], "Tiflis əyalətinin müfəssəl dəftəri (Qazax və Borçalı)" [56], "Lori vilayətinin icmal dəftəri" [46], "Ərdəbil livasının müfəssəl dəftəri" [35] kimi Osmanlı vergi-maliyyə reyestrlərinin adını çəkmək lazımdır.

Bunlarla yanaşı, əsərdə Türkiyə Respublikasında Başbakanlık Osmanlı Arxivində, Ankara Tapu-Kadastro Arxivində saxlanılan və Türkiyə tarixçiləri tərəfindən tədqiq olunmuş sənədlərin məlumatlarına müraciət olunmuşdur [68; 73; 76; 60; 84].

Həmçinin, orta əsrlər Azərbaycan tarixi ilə bağlı XVII əsr türk səyyahı Övliya Çələbinin "Səyahətnamə" [53; 141], görkəmli Osmanlı tarixçisi, yazıçı, salnaməçi və coğrafiyaşünası Katib Çələbinin (Mustafa ibn Abdullah) (1609-1657) "Cihannüma" (83), Mustafa Naimanın (Naim) (1655-1716) "Tarix-i Naima" [89], Kiçikçələbizadə İsmayıl Asim Əfəndinin (1675-1759) "Tarix" [97], Osmanlı tarixçisi Şəmdanizadə Fındıqlı Süleyman Əfəndinin (?-1779) "Mür'ət-təvarix" [96] əsərləri kimi narrativ mənbələrdə əks olunmuş tarixi fakt və məlumatların mövzunun tədqiqində əhəmiyyətli yer tutduğunu xüsusi vurğulamaq istərdik.

XVIII əsrin əvvəllərində Azərbaycanın cənub torpaqlarının sosial-iqtisadi tarixinin araşdırılmasında farsdilli mənbələrin əhəmiyyəti də xüsusi qeyd olunmalıdır.

Orta əsrlər Səfəvi dövlətinin daxili vəziyyəti haqqında geniş məlumat verən "Təzkirət əl-mülük", İskəndər bəy Türkmanın

(Münşi) "Tarix-i aləm arayi Abbasi", A.A.Bakıxanovun "Gülüstan-i İrəm" əsərlərində xeyli zəngin məlumatlar əks olunmuşdur [142; 40; 25].

Tədqiq etdiyimiz dövrün və problemin bəzi mühüm məsələləri rus və Avropa mənbələrində də işıqlandırılmışdır. Bununla əlaqədar, 1715-1718-ci illərdə Rusiya imperiyasının Səfəvi dövlətində diplomatik nümayəndəsi olmuş A.A.Volınskinin siyasi fəaliyyəti ilə bağlı məlumatların əks olunduğu "Jurnal"ı, müxtəlif məqsədlərlə Səfəvi dövlətinə səyahət etmiş, burada yaşamış C.Hanvey, K.Bruin, C.Spilman, Y.Kruşinski kimi avropalı missioner və tacirlərin hesabat xarakterli yol qeydlərinin əks olunduğu məlumatlar müstəsna yer tutur [122; 140; 127; 139; 41].

Mövzunun tədqiqində Türkiyə Respublikasının Başbakanlık Osmanlı Arxivində saxlanılan, Azərbaycanın orta əsrlər dövrü tarixi ilə bağlı xeyli sayda sənəd araşdırılmış və təhlil olunmuşdur. Bununla yanaşı, Azərbaycanda Osmanlı tarixinin müxtəlif dövrlərini əhatə edən tədqiqat əsərlərinə də müraciət edilmişdir [105; 118; 44;117].

Orta əsrlər Azərbaycan tarixinin öyrənilməsində böyük əhəmiyyət kəsb edən Osmanlı mənbələrinin mühüm hissəsi Türkiyənin İstanbul şəhərində yerləşən Başbakanlık Osmanlı Arxivində saxlanılır. Burada qorunan *"Mühimmə"* dəftərlərinin (sultan tərəfindən verilən hökm və ya fərman topluları), "Tapu-təhrir" dəftərlərinin (maliyyə-vergi reyestrlərinin) statistik məlumatları XVI-XVIII əsrlərdə Azərbaycanın sosial-iqtisadi tarixinin elmə məlum olmayan bir çox məsələlərinin üzə çıxarılması və tədqiqi üçün mühüm qaynaqdır.

Osmanlı imperiyasının tərkibinə keçdikdən sonra Urmiya, Xalxal və Salmas ərazilərində dövrün sultanının verdiyi hökmə əsasən siyahıyaalma işlərinin (təhririn) aparılması ilə əlaqədar verilmiş fərmanların əks olunduğu mühimmə və maliyyə-vergi reyestrlərinin məlumatları olduqca dəyərlidir. Elmi tədqiqat zamanı müraciət etdiyimiz 62, 70, 133, 134 saylı "Mühimmə dəftərləri"ndə Urmiya, Xalxal və Salmas ərazilərinin təhrir edilməsi

məqsədilə sultanın verdiyi hökmlərlə bağlı əhəmiyyətli məlumatlar əksini tapmışdır [18; 19; 20; 21].

Başbakanlık Osmanlı Arxivində qorunan mənbələr arasında Azərbaycanın sosial-iqtisadi tarixi ilə bağlı nadir, qiymətli sənədlər olan maliyyə-vergi reyestrlərini (müfəssəl və icmal dəftərlərini) xüsusi qeyd etmək istərdik. Orta əsrlər Azərbaycan əraziləri üçün tərtib edilən dəftərlərin bir neçəsi istisna olmaqla əksər qismi, əsasən, XVIII əsrin 20-ci illərində sultan III Əhməd (1703-1730) dövründə tərtib edilmişdir [90, s. 95].

Tədqiqat işində müraciət olunan Osmanlı mənbələri arasında Başbakanlık Osmanlı Arxivində saxlanılan XVIII əsrə aid Urmiya bölgəsinin sosial-iqtisadi həyatı ilə bağlı müxtəlif sənədlər də yer tutur. Bu sənədlərdə Urmiya şəhəri və ətrafında baş vermiş müxtəlif hadisələr, vergilərin toplanması prosesi zamanı yaranan problemlər və Osmanlı sarayının onlara münasibəti əks olunmuşdur [16; 17].

XX əsrin 80-ci illərindən başlayaraq akademik Z.M.Bünyadovun təşəbbüsü, rəhbərliyi və birbaşa iştirakı ilə Osmanlı arxivində saxlanılan və Azərbaycanın sosial-iqtisadi tarixinə aid olan maliyyə-vergi reyestrlərinin tədqiqinə başlanılmışdır. İlk dəfə olaraq, akademik Z.M.Bünyadov, akademik Ş.M.Mustafayev, t.ü.e.d. H.M.Məmmədov (Qaramanlı) və E.Arıklının araşdırmaları nəticəsində Azərbaycanın sosial-iqtisadi tarixinə dair yuxarıda adları çəkilən və İrəvan əyaləti, Gəncə-Qarabağ əyaləti, Naxçıvan sancağı, Tiflis əyaləti, Lori vilayəti, Ərdəbil livasına aid təhrir dəftərləri hazırlanaraq elmi ictimaiyyətə təqdim olunmuşdur. Bu əsərlərdə həm də Osmanlı təhrir dəftərlərinin Azərbaycan tarixinin öyrənilməsi baxımından önəmi, bu mənbələrin əhatə etdikləri tarixi informasiya nöqteyi-nəzərindən xüsusiyyətləri və digər mühüm məsələlər barədə geniş məlumat verilmişdir.

Monoqrafiyada araşdırılan problemin və sosial-iqtisadi məsələlərin bəzi aspektləri Azərbaycan, Türkiyə, Rusiya, Avropa və İran tarixçilərinin tədqiqat əsərlərində işıqlandırılmışdır.

Azərbaycan tarixçilərindən H.B.Abdullayev, T.T.Mustafa-zadə, F.M.Əliyev, H.Ə.Dəlilivə digər müəlliflərin əsərlərində orta əsr tariximizin bir sıra dövrləri və hadisələri, həmçinin Osmanlı – Səfəvi – Rusiya münasibətləri ilə bağlı mühüm məsələlərə toxunulmuşdur [102; 133; 33; 30] .

Osmanlı imperiyasının sosial-iqtisadi vəziyyətinin araşdırılmasında Türkiyə tarixçilərindən İ.H.Uzunçarşılı, Ö.L.Barkan,H. İnalcık, Y.Halaçoğlu və başqa tədqiqatçıların əsərlərində əks olunan gərəkli məlumatlar faydalı olmuşdur [99; 61; 79; 75].

Rusiya tədqiqatçılarından İ.P.Petruşevski, V.N.Leviatov, S.F.Oreşkova, M.S.Meyer, Qərbi Avropa tarixçisi J.von Hammer Purgstallın və başqalarının əsərlərində [136; 128; 135; 131; 77] tədqiq olunan dövrün ictimai siyasi və iqtisadi məsələlərinə dair qiymətli faktlar və materiallar əks olunmuşdur ki, bunlardan yeri gəldikcə bəhrələnilmişdir.

Bəhs olunan bölgələr və şəhərlərlə bağlı müqayisəli təhlilin aparılmasında müasir İran tədqiqatçılarının əsərlərindəki məlumatlar faydalı olmuşdur [143; 148; 146; 144].

Monoqrafiyanın nəşri üçün göstərdiyi köməyə görə Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər xanım Baxşəliyevaya təşəkkürümü bildirirəm. Tədqiqat işini hazırladığım zaman dəyərli məsləhətlərini əsirgəməyən elmi rəhbərim, akademik Şahin Mustafayevə, əsərin ərsəyə gəlməsində əməyi olmuş F.Süleymanoğluna, Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin əməkdaşlarına və əməyi keçən hər kəsə minnətdarlığımı bildirirəm.

# I FƏSİL

# XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ OSMANLI-SƏFƏVİ MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN

## 1.1. XVIII əsrin əvvəllərində Səfəvi dövlətində ictimai-siyasi vəziyyət

Orta əsrlərin ən qüdrətli dövlətlərindən olan Osmanlı imperiyası və Səfəvi dövləti arasında uzun müddət mövcud olmuş siyasi, iqtisadi, dini və hərbi qarşıdurma XVIII əsrin əvvəllərində də davam etmişdir. Bir sıra dövlətlərin, xüsusilə qonşuluğundakı imperiyaların öz mühüm coğrafi və strateji mövqeyi ilə seçilən Azərbaycanı təsir altına almaq istəkləri Cənubi Qafqaz və şimal-şərqi İran regionunda geosiyasi vəziyyəti daha da gərginləşdirirdi. Digər tərəfdən, Avropa və Asiya ölkələri arasında intensiv iqtisadi əlaqələrin təmin edilməsində böyük əhəmiyyət daşıyan quru ticarət yollarının önəmli bir hissəsi Azərbaycan torpaqlarından keçirdi və bu ərazilər üzərində nəzarətin ələ alınması Avrasiya regionunda hegemonluq üçün əlverişli imkan yarada bilərdi. Ona görə də, Avropa dövlətlərinin, xüsusilə, Rusiyanın strateji maraqlarında Azərbaycan özəl yer tuturdu. Başqa sözlə desək, XVIII əsrin əvvəllərində "Rusiya, Türkiyə (Osmanlı) və s. dövlətlərin Qafqazda nüfuz dairəsini ələ keçirməsində Azərbaycan mühüm iqtisadi, siyasi və strateji əhəmiyyət daşıyırdı" [102, s. 3].

İ.P.Petruşevskinin qeyd etdiyi kimi, XVI əsrin əvvəllərində "Azərbaycan türkdilli tayfaları – qızılbaşların mübarizəsi və dəstəyi ilə yaranmış, bəzi hallarda "İran dövləti" adlandırılan Qızılbaşlar dövləti" tədricən öz hüdudlarını genişləndirib tərkibinə

Azərbaycanla yanaşı İranı, Qafqazın bəzi ərazilərini, Xorasanı və Mavərannəhrin bir hissəsini də qataraq [136, s. 38] nəhəng bir dövlətə çevrildi. Türk salnaməçisi Şəmdanizadə Fındıklı Süleyman Əfəndi yazırdı ki, " ...bu Ali-i Səfəviyyə 11 nəfər Şahan olub, İran məmləkəti – İraq-i Əcəm, Xuzistan, Luristan, Sicistan, Rabilistan, Dağıstan, Gürcüstan, Faris, Kirman, Məkran, Mazandaran, Gilan, Rəvan, Şirvan, Xorasan və Qəndəharı əhatə edərək 16 padişahlıq məmləkətləriylə 228 (?) il hakimiyyətdə oldular" [96, s. 46]. Lakin XVII yüzilliyin ortalarından etibarən bir sıra siyasi və iqtisadi amillərlə bağlı olaraq dövlətin daxilində baş verən tənəzzül daha da dərinləşdi, bu proses ölkə iqtisadiyyatına və sosial həyata təsirsiz ötüşmədi [133,s. 9].

İqtisadiyyatda baş verən böhran və dövlətin tənəzzülü şah hakimiyyətinin nüfuzdan düşməsi, rüşvətxorluq, saray idarəçiliyinin səmərəsizliyi, siyasi məsələlərə ruhani təsirinin güclənməsi, saraydaxili çəkişmələr və s. ilə əlaqələndirilirdi [33, s.12-13]. Rus çarı I Pyotrun (1682-1725) Səfəvi dövlətinə səfir olaraq göndərdiyi A.P.Volınski (1715-1718) öz məlumatında ölkənin bu durumunu müfəssəl şəkildə təsvir edir və bunları bildirirdi: "...onlar öz dövlətlərini elə dağıtmışlar ki, heç Makedoniyalı İskəndər sağ olsaydı belə, buranı belə xaraba qoya bilməzdi..." [122, s. 6]. XVIII əsrə aid Osmanlı mənbəyi qeyd edir ki, "Şah Hüseynin şərab içməyi qadağan etməsi çoxlarının xoşuna gəlmədi və hətta Validə Sultan (şahın anası) vasitəsilə şahın özünü bu işə aludə etdilər. Beləliklə şah dövlət işlərindən daha çox xanəndələr və sazəndələr ilə əylənməyə davam etdi" [96, s. 47].

Tarixçilər vaxtilə Şərqin ən güclü dövlətlərindən biri olmuş Səfəvi imperiyasında siyasi və iqtisadi tənəzzülün səbəbi kimi şahın və ətrafının fərasətsizliyi ilə yanaşı digər əsaslı səbəblər də göstərirlər. Belə ki, XVII əsrin son rübündən etibarən Ön və Orta Asiya ölkələrində də təsərrüfat tənəzzülü hiss olunurdu. Tarixi ədəbiyyatda, bunun əsas səbəblərindən biri kimi, XV əsrin sonunda portuqaliyalı səyyah Vasko da Qama tərəfindən kəşf edilmiş, Afrika qitəsinin qərb sahillərini dolanmaqla Hindistana gedən su yolunun avropalılar tərəfindən ələ keçiril-

məsi nəticəsində Avropa–Asiya ticarətinin əsas yollarının ənənəvi istiqamətinin dəyişməsi göstərilir. Nəticədə, istər indiki Cənubi Azərbaycan ərazisindən, istərsə də Cənubi Qafqaz ölkələrindən keçən quru karvan yollarının əhəmiyyəti hissediləcək dərəcədə azalmış və bununla da şah xəzinəsinə daxil olan gəlirlərin həcmi kiçilmişdi [133, s. 44; 125, s. 308]. Həmçinin, hərbi səfərlərdən əldə edilən qənimətin azalması, yeni ərazilərin ələ keçirilməməsi şah xəzinəsinin və feodalların gəlirinin məhdudlaşmasına səbəb olmuş, "orduda nizam-intizamın pozulmasına və əsgərlərin məvacibinin vaxtında ala bilməməsinə gətirib çıxarmışdı" [140, s. 6]. Mənbələr qeyd edir ki, "uzun müddətdən bəri hərbi qənimət əldə edilmədiyindən, ordu hissələri talançılıqla məşğul olurdular" [127, s. 212].

Tədqiqatçılar digər səbəb kimi, dövlət adamlarının, bürokratik aparatın və hərbi elitanın səriştəsizliyi nəticəsində ölkədə siyasi və iqtisadi vəziyyətin daha da dözülməz olduğunu göstərirlər [136, s. 44]. Bəylərbəyilər, xanlar və digər iri feodallar şaha tabe olmaq istəmir, müstəqil hərəkət etməyə can atırdılar. A.P.Volınskinin yazdığına görə, "...onların şahı suveren olsa da, əslində hakimiyyətdən təkcə bir ad qalmışdır. Tamahkar hakimlər meyvələri özləri götürüb, yarpaqlarını dövlətə verirlər" [122, s. 6; 23, s. 318-319]. Ölkəni bürüyən iqtisadi böhran ərzaq qıtlığına və qiymət artımına səbəb olmuşdu. XVIII əsrin əvvəllərində Azərbaycanda olmuş Hollandiyalı səyyah (rəssam) Korneli de Bruin Şamaxıda "çörəyin və başqa malların qiymətinin dəfələrlə artdığını" yazırdı [43, s. 38].

Bununla yanaşı, ölkənin həyatını sarsıdan səbəblərdən biri kimi, iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən dövlətin hər yerində əhalinin istismar səviyyəsinin artması amili göstərilir. Belə ki, feodal istismarı artdıqca kəndli təsərrüfatları daha da müflisləşirdi [34, s. 23]. Ölkəni bürüyən bu iqtisadi geriləmə təbii olaraq şəhər sənətkarlığına da ciddi təsir göstərirdi.

Rusiya səfiri A.P.Volınskinin "...öz təbəələrinin deyil, təbəələrinin təbəəsi" [122, s. 12] adlandırdığı Şah Hüseyn (1694-1722) ölkəni böhrandan çıxarmaq məqsədilə dövlətin gəlirlərini

artırmaq üçün yeni vergi siyasəti tətbiq etdi. Bu məqsədlə imperiyanın 15 yaşından yuxarı bütün kişi əhalisinin və onların əmlakının siyahıya alınması keçirildi [130, s. 64]. Şah Hüseyn zamanında yaşamış alban (ağvan) katalikosu Yesayi Həsən Cəlalyan-bu siyahıyaalma prosesini təsvir edərək yazırdı ki, "...yeni siyahıya əvvəllər vergidən azad edilmiş xristian ruhaniləri də cəlb etmişdilər. Bura torpaqların ölçüsü, insanların istifadə etdiyi suyun həcmi, bağlar, çəmənliklər və insana lazım olan hər şey daxil edilmişdi" [120, s. 11-12]. Yeni vergi qanununa görə yerli əhali ilə yanaşı "köçərilər, onların heyvan sürüləri, otlaq yerləri və s. də vergiyə cəlb edilmişdi" [136, s. 42].

XVII əsrin sonu–XVIII əsrin əvvəllərində vergilərin 2-3 dəfə artırılması iqtisadiyyatın get-gedə yüksələn gərgin vəziyyətindən xəbər verirdi. Şahın fərmanına görə, əhali keçən 3 ilin köhnə vergilərilə yeni vergilər arasındakı fərqi də ödəməli idi [24, s. 319]. Lakin onun ölkəni böhrandan çıxarmaq üçün həyata keçirdiyi tədbirlər heç bir nəticə vermədi. Əksinə, tətbiq olunan yeni vergi siyasəti kənd təsərrüfatını, sənətkarlıq və ticarəti tamamilə iflasa uğratdı [125, s. 307].

Bu dövrdə Azərbaycanın daxili və xarici ticarətinin həcmi sürətlə azalır, şəhərlərin ölkə həyatında iqtisadi rolu zəifləyirdi. Feodal zülmünün artması, kəndlilərin onsuz da ağır olan vəziyyətinin daha da dözülməz hala gəlməsi narazılıqların genişlənməsinə səbəb olurdu.

Narazılıqlarını yaşadığı yerləri tərk edib getməklə, daha kəskin şəkildə isə üsyanlar və qiyamlar qaldırmaqla bildirən kəndlilərin etirazları bütün Səfəvi dövlətini bürümüşdü [34, s. 48; 140, s. 49]. Səfir A.P.Volınski ölkənin vəziyyətini qiymətləndirərək yazırdı: "...xalq öz başçısından qorxmur, ...qiyam qaldırır" [122, s. 6].

XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin müxtəlif əyalətlərində başlayan etiraz dalğaları daha da genişlənməyə başladı. 1707-ci ildə Car-Balakəndə baş verən üsyan açıq şəkildə hakimiyyətə qarşı yönəlmişdi. Tez bir zamanda yatırılmış bu üsyan 1711 – 1722-ci illərdə yenidən vüsət aldı.

1709-cu ildə Şirvanda hakimiyyət əleyhinə çıxışlar başladı. Əhalisinin əksəriyyəti sünni olan bu bölgədə etirazlar get-gedə təriqət xarakteri alaraq sünni-şiə qarşıdurmasına çevrildi. Səfəvi dövləti ərazisində baş verən etirazlarda kəndlilər və zəhmətkeş şəhər əhalisi ilə yanaşı, hökumətdən narazı olan yerli feodallar da iştirak edirdilər [109, s. 63].

1709 – 1711-ci illərdə Təbrizdə şəhər əhalisi üsyan qaldırıb "... valinin sarayına hücum etdi..." [34, s. 51]. Car-Balakəndə yenidən vüsət almış üsyana rəhbərliyi yerli feodal Əli Sultan ələ keçirdi. Bəzi mülahizələrə görə carlılar "...şah hakimiyyəti altındakı əyalətlərə basqın etməyəcəklərini öhdələrinə götürdüklərinə görə, şah xəzinəsindən onlar üçün ayrılan maliyyə vəsaitini ala bilmədikləri səbəbindən" üsyan qaldırmışdılar. Digər səbəb kimi, Car-Balakən əhalisinin sünni olduğuna görə dini təqibə məruz qalması göstərilirdi [34, s. 52]. Əli Sultanın başçılığı altında üsyançılar Şəki, Qəbələ, Ağstafa və digər bölgələrə hücum edərək, qarətlər törətmiş, Şamaxıyadək gəlib çatmışdılar. Əli Sultanın heç bir ciddi müqavimətlə rastlaşmayan üsyançı dəstələri hətta Gəncəyə də basqın etdilər, lakin 1721-ci ildə Bərdə ətrafında Gəncə və İrəvan xanlarının birləşmiş qüvvəllərinin əks-həmləsi sayəsində geri çəkildilər. Buna baxmayaraq, tam məğlub olmayan üsyançı dəstələr 1721-ci ilin aprelində yenidən Gəncəyə hücum etdilər. Bu dəfə isə Kartli çarı VI Vaxtanqın ordusu Əli Sultanı geri çəkilməyə məcbur etdi [34, s. 52-53].

Səfəvi dövləti üçün böyük təhlükə yaratmış üsyanlardan biri də kürdlərin 1715-ci ildə başlamış və bir neçə il davam etmiş üsyanı idi. Hökumət ətraf şəhərlərə basqınlar edən və İsfahanı ələ keçirmək niyyətində olan üsyançılara qarşı qoşun göndərsə də, onlarla döyüşməkdən imtina edən həmin qüvvəllər geri qayıtmışdılar [34, s. 53].

Şah rejimi üçün ən təhlükəli etirazlardan biri də 1716-cı ildə Heratda başladı. Əfqanların Abdali tayfası özbək xanları ilə ittifaqa girərək, Heratı ələ keçirib Abdali hakimlərinin müstəqil mərkəzinə çevirdilər. Üsyan və tayfa başçısı Əsədulla xan böyük

qüvvə ilə ətraf ərazilərə basqınlar edərək mərkəzi hakimiyyət üçün real təhlükəyə çevrilmişdi [125, s. 310].

Artıq Səfəvi dövlətinin bir sıra vilayətlərində mərkəzdən asılı olmayan müstəqil əyalətlər yaranmağa başlayırdı. 1721-ci ildə Bəlucistanda başlamış üsyana başçılıq edən Sistan hakimi Məlik Mahmud özünü müstəqil hökmdar elan edərək, 1723-cü ildə Məşhədi ələ keçirdi [106, s. 38].

Üsyan dalğası genişlənərək artıq şəhərlərə də yayılırdı. 1715 – 1717-ci illərdə Qəzvin, Gilan və Təbrizdə yerli hakimiyyətə, vergi siyasətinə və ərzağın qiymətinin bahalaşmasına qarşı antifeodal və antisəfəvi xarakter daşıyan üsyanlar baş verdi. İsfahanda aclıq və səfalət üzündən 1707-ci ildə başlayan xalq etirazları 1717-ci ildə yenidən vüsət aldı. Bu dəfə üsyan əhalinin daha geniş təbəqələrini əhatə edirdi. Şah hakimiyyətinin üsyanları sakitləşdirmək cəhdləri boşa çıxdı. Minlərlə üsyançı şah sarayına hücuma keçdi. Qorxuya düşmüş şah sarayı tərk etdi. Güclü müqavimətə baxmayaraq, mərkəzi hakimiyyət üsyanı çətinliklə də olsa yatıra bildi [106, s. 36].

Şah hakimiyyətinə qarşı baş vermiş ən mütəşəkkil kütləvi üsyanlardan biri də Hacı Davudun başçılığı altında olmuşdu. Daha çox sünni əhalinin iştirak etdiyi, dini və siyasi rəng verilən bu üsyana Dağıstan feodallarından Qaytaqlı Əhməd xan da qoşularaq, Qazıqumux hakimi Surxay xanın da iştirakı ilə Səfəvi hakimiyyətinə qarşı geniş üsyan planı hazırlandı. "Nuxa, Quba və Şirvanda şahın təyin etdiyi xanları hakimiyyətdən uzaqlaşdırmaq qərarına gələn müttəfiqlərin başçılığı ilə üsyançı qüvvəllər hücuma başladılar. Lakin 1719-cu ilin sonunda silahlı üsyan yatırıldı və Hacı Davud həbs edildi. 1720-ildə həbsdən qaçmağı bacaran Hacı Davud üsyana rəhbərliyi yenidən əlinə keçirib müttəfiqlərlə birlikdə Şabran və Xudatı nəzarəti altına aldı. Bakını da almaq məqsədiylə irəliləyən üsyançıları şəhərin hakimi Dərgahqulu bəy geri oturtdu. Müttəfiq qoşunlarının Quba və Dərbəndi ələ keçirmək cəhdləri də boşa çıxdı [106, s. 25-27].

Şirvanda möhkəmlənmək məqsədilə Hacı Davud və müttəfiqləri Şamaxı şəhərinə hücum etməzdən əvvəl kömək üçün Ru-

siya dövlətinə müraciət etdilər. Lakin Rusiya Osmanlı imperiyasının Qafqazda möhkəmlənmək əzmində olduğunu nəzərə alaraq, iğtişaşların yatırılmasında səfəvilərə kömək etmək qərarına gəldi və bu əraziləri özü ələ keçirmək niyyətində olduğu üçün Hacı Davudun müraciətinə cavab vermədi [43, s. 49; 133, s. 30].

1721-ci ilin avqustunda Şamaxı şəhəri üsyançılar tərəfindən ələ keçirildi və bu zaman sünni əhalinin köməyi ilə şəhərə daxil olan müttəfiq qoşun dəstələri qarət və talançılığa başladılar. Şamaxı bazarlarında ticarətlə məşğul olan rus və digər əcnəbi tacirlər öldürüldü və əmlakları qarət olundu, "üsyançılar qızılı, gümüşü şəhər kənarında hissə-hissə parçalayıb bölüşdürdülər" [25, s. 123-124; 106, s. 33].

Yesayi Cəlalyan qeyd edirdi ki, "car-talalıların və Əli Sultanın yürüşlərindən sonra Arsaxın dağlarında gizlənən Qarabağ melikləri Gəncə yaxınlığında gürcü ordusu ilə birləşərək Surxay xan və Hacı Davudun əlində olan Şamaxıya hücum etmək üçün rus ordusunun gəlişini gözləməyə başlayırlar [120, s. 30-32; 54, s. 141-143]. Lakin dəniz fəlakəti nəticəsində ordunun təchizatını itirməsi və Osmanlı imperiyası ilə münasibətlərdə gərginliyin artması səbəbindən I Pyotrun Dərbənddən tələsik geri qayıtması onların bu planını pozdu.

Vəziyyətdən çıxış yolu axtaran Hacı Davud Şirvanda mövqeyini saxlamaq və möhkəmləndirmək məqsədilə Osmanlı hökumətinə müraciət etdi və nəticədə İstanbula dəvət olundu. 1722-ci ildə Hacı Davudun Şirvanda hakimiyyəti sultan tərəfindən təsdiq edildi və bununla əlaqədar olaraq Hacı Davudun yanına elçi göndərildi [43, s. 49-50; 97, s. 56-57].

XVIII əsrin əvvəllərində hökumət əleyhinə baş vermiş üsyanlardan biri də Qəndəhar vilayətində yaşamış yarımköçəri gilzay əfqan tayfasının üsyanı idi. Sünni gilzayların iştirak etdiyi bu etirazlar daha çox dini və antişiə xarakterli olmaqla yanaşı həm də hakimiyyət zülmünə və özbaşınalığına qarşı çevrilmişdi. Üsyana gilzayların irsi hakimi Mir Veys başçılıq edirdi. F.Şəmdanizadə qeyd edir ki, "onlar (üsyançılar – Y.N.) qarətlə məşğul olur, döyüş zamanı isə çox təlimlidirlər və hətta birinin sağ qolu yarala-

narsa, sol qolu ilə döyüşürlər. Nizə və tüfəngdən məharətlə istifadə edirlər, qənaətcildirlər. Belə ki, tavada qovrulmuş buğdaya da qənaət edirlər” [96, s. 44]. Üsyançılara qarşı Qəndəharın bəylərbəyi gürcüstanlı Şahnavaz xanın (Kartli çarı XI Georgi) başçılığı ilə ordu qüvvələri göndərildi. 20 minlik ordunun yaxınlaşması xəbərini eşidən etirazçılar dağıldılar. Ordu üsyançılara amansız divan tutdu [49,s. 9-11]. Lakin həbs edilən və İsfahana gətirilən Mir Veys hiyləgərcəsinə özünün günahsız olduğunu sübut etdi və o, Məkkəyə həcc ziyarətinə göndərildi. Məkkənin sünni ruhanilərilə əlbir olan və tezliklə vətənə qayıdan Mir Veys 1709-cu ildə yenidən hərəkatın başına keçdi. Üsyançı gilzaylar Qəndəhara hücum edib Şahnavaz xanı öldürdülər. Osmanlı mənbəyində qeyd edilir ki, “Mir Veys hiylə ilə gürcü bəyi Yorgi xanı (Kartli çarı XI Georgi) öldürdü. Zahirən özünü Yorgi xana dost olaraq göstərən Mir Veys salamlaşmaq bəhanəsilə irəli gələrək xanı əhatə etmiş tərəfdarlarına onu öldürməyi əmr etdi. O, Yorgi xanı öldürdükdən sonra 3 min adamla Qəndəhara daxil oldu, qaladakı əsgərləri və zabitləri qətl etdirdi” [96, s. 49-50].

Üsyanın gedişində şahın iki ordusunu məğlub edən gilzaylar Səfəvi sarayı üçün real təhlükəyə çevrildilər. F.Şəmdanizadə məlumat verir ki, “Yorgi bəyin qardaşı Xosrov bəy qardaşının intiqamını almaq məqsədilə 1124-cü (1712) ildə gürcü və səfəvi qoşun birləşmələri ilə Qəndəhara hücum təşkil etdi. Üsyançılar hiyləgər Mir Veysin əmri ilə əkinləri biçərək qoşunun keçəcəyi yolda olan ot-ələfi yandırdılar. Heyvanlar üçün qidanın olmaması birləşmiş qoşun qüvvələri üçün irəliləməyi çətinləşdirdi. Üsyançılar aclıqdan əldən düşmüş qoşuna qəfil hücum edərək Xosrov bəyi öldürdülər” [96, s. 51].

Mir Veysdən sonra qısa müddət ərzində üsyana onun varisi (qardaşı) Mir Abdulla başçılıq etdi. O bəzi güzəştlərlə Şah Hüseynlə razılığa gəlmək niyyətində idi. Bu addımı xəyanət kimi qiymətləndirən gilzaylar Mir Abdullanı öldürüb, Mir Veysin oğlu 18 yaşlı Mahmudu özlərinə başçı seçdilər. Mahmudun rəhbərliyi altında üsyançılar ölkənin digər ərazilərinə hücum etsələr də, bu onlar üçün uğursuz oldu. Lütfəli xanın ordu qüvvələri gilzay-

ların hücumunun qarşısını aldı. Buna baxmayaraq, üsyançılar Kirman, Yəzd, Məşhəd və Herat şəhərlərini ələ keçirmək məqsədilə ciddi hazırlıq görürdülər [41, s. 23-100]. Ətraf ərazilərdən üsyana qoşulanlarla birlikdə 60 minlik ordu toplayan Mahmud 1721-ci ilin oktyabrında Kirman şəhərini, demək olar ki, döyüşsüz ələ keçirdi və 1722-ci ilin əvvəllərində İsfahana doğru hücuma başladı [124, s. 80-81; 34, s. 60]. Bu zaman uğurlu hərbi əməliyyatlar nəticəsində Lütfəli xanın başçılığı ilə şah ordusu Kirmanı geri aldı. Bu müvəffəqiyyət şah sarayında qısqanclıqla qarşılandı və "xanı şahın gözündən salmaq məqsədilə ona (Lütfəli xana – Y.N) iftira edildi, gözlərinə mil çəkdirilərək, saraydan uzaqlaşdırıldı" [96, s. 52 ].

Şah hakimiyyətinin üsyançılarla döyüşmək üçün göndərdiyi ordu 1722-ci ilin martında məğlubiyyətə uğradı, Şamaxı və Şirvan ələ keçirildi. Yeni Culfa qəsəbəsini də ələ keçirdikdən sonra Mahmud irəli sürdüyü şərtlər qarşılığında şahla sülh bağlamağa hazır olduğunu bildirdi. Mahmudun Sistan və Xorasanın ona verilməsi, 50 min tümən təzminat qarşılığı və şah qızı ilə evlənmə kimi şərtləri Şah Hüseyn tərəfindən qətiyyətlə rədd edildi. Bundan qəzəblənən Mahmud 1722-ci ilin mart-oktyabr aylarında İsfahanı mühasirəyə aldı. Osmanlı salnaməçisinin qeyd etdiyinə görə "kənardan qüvvə toplamaq məqsədilə 800 atlı ilə gecə vaxtı İsfahandan qaçan şahın oğlu Təhmasib Qəzvinə gəldi, 30 min qüvvə topladı, lakin İsfahanlı şahımızın (Təhmasibin – Y.N) tədbirsiz olması səbəbindən" hücum baş tutmadı. Nəticədə, paytaxtda aclıq və səfalət son həddə çatdı. "Şəhər sakinləri at, qatır, pişik, it, hətta insan ətindən istifadə etməyə məcbur idilər" [96, s. 55]. Hökumətin fərasətsizliyi onu Mahmudla razılığa gəlməyə məcbur etdi. Lakin Mahmud bu dəfə heç bir şərt olmadan İsfahanın təslim edilməsini tələb etdi. 1722-ci ilin oktyabrında Şah Hüseyn "təqdir-i əzəl İran taxt-ı tacını məndən alıb sənə layiq gördü" deyərək, İsfahanı təslim etdi və beləliklə, Mahmud şah taxtına oturdu [125, s. 311; 96, s. 56].

## 1.2. Osmanlı – Səfəvi – Rusiya hərbi qarşıdurması və onun nəticələri

Bu dövrdə Osmanlı imperiyası da mürəkkəb tarixi bir mərhələni yaşayırdı. Belə ki, Osmanlı tarixçiləri bu illəri, xüsusilə, XVII əsrin ortalarından başlayan dövrü Osmanlı dövləti üçün "ən böyük sıxıntıların və geriləmələrin yaşandığı" dövr kimi səciyyələndirmişlər [66, s. 94]. Yüksək vəzifəli dövlət adamlarının arasındakı çəkişmələr, xəyanətlər dövlətin əvvəlki qüdrətinə təsir etmiş, onu zəiflətmişdi. Naima Osmanlı dövlətinin "böhran və qərarsızlıq içində olduğunu" yazaraq, sosial, siyasi və iqtisadi məsələlərlə bağlı ciddi nöqsanlar olduğunu qeyd edirdi [71, s. 199].

Hərbi məğlubiyyətlər, iqtisadi səbatsızlıq Osmanlı imperiyasının beynəlxalq nüfuzunun aşağı düşməsi ilə müşayiət olunurdu. Bürokratik istismar, vergilərin artması, torpaq sahibləri ilə kəndlilər arasında ziddiyyətlərin dərinləşməsi ölkədə böhranı daha da artırırdı. Özbaşınalıq sultan sarayında da geniş intişar tapmışdı. Vəzifələrin pul və ya qiymətli hədiyyələrin qarşılığında satın alınması geniş yayılmışdı. Y.Hammer Purgstall qeyd edirdi: "O dövrdə qazı vəzifəsi 3-4 min quruşa satılırdı. Sultan İbrahim də (1640-1648) valilikləri, vəzirlikləri pul ilə satmağa başlamışdı. Anadolu valiliği üçün Dərviş Paşadan 10 min quruş, sonra isə yenə də 20 min quruş istəmişdi" [77, s. 464]. Dövlət xərclərinin çoxalması fonunda xəzinənin boşalması vergi siyasətinin kəskinləşməsinə səbəb olurdu. Bu vəziyyət Osmanlı imperiyasının xarici ölkələrlə hərbi münasibətlərinin gərginləşdiyi bir dövrdə daha da ağırlaşdı [134, s. 43].

XVII əsrin sonunda Avropa dövlətləri koalisiyası ilə müharibəyə cəlb edilən Osmanlı imperiyası hərbi uğursuzluğa düçar oldu və nəticədə, 1699-cu ilin yanvarında Avstriya, Polşa və Venetsiya Osmanlı imperiyası ilə sülh müqaviləsi bağladılar. H.B.Abdullayevin fikrincə, Karlovitsada (Karlofça) bağlanmış bu sülh müqaviləsindən sonra Osmanlı imperiyasının birinci bölüşdürülməsi baş verdi [102, s. 29]. Bu müqaviləyə görə, Mərkəzi Macarıstan, Transilvaniya, Sloveniya, Sağsahil Ukraynası,

Moreya və s. ərazilər imperiyanın əlindən alındı.Tarixçilər XVII əsrin sonundakı bu hadisələri "türklərin hücum gücünün qırılması" kimi qiymətləndirirlər [34, s. 32; 135, s. 41-43].

Beynəlxalq vəziyyətin son dərəcə gərgin olduğu bir zamanda Səfəvi dövlətində yaranmış hakimiyyət böhranından Rusiya və Osmanlı imperiyaları öz mənafeləri üçün yararlanmağı planlaşdırırdılar. Geosiyasi üstünlük əldə etmək istəyən bu dövlətlərin hər ikisi Qafqazda möhkəmlənmək əzmində idilər. Belə ki, Cənubi Qafqaz, o cümlədən, "Avropa və Asiya arasında körpü rolunu oynayan Azərbaycan hər iki imperiyanın strateji planlarında əsas yeri tuturdu" [102, s. 8-12; 34, s. 65].

Şimal müharibəsini (1700–1721) qələbə ilə başa vuran Rusiya dövləti Şərq siyasətini daha da aktivləşdirərək Xəzərsahili əyalətlərə yürüş təşkil etmək niyyətində idi. I Pyotr bölgədə hakim mövqe əldə etmək üçün Volqa–Xəzər yolunda möhkəmlənməyi, qərb dövlətlərini və Osmanlı imperiyasını Xəzəryanı əyalətlərə yaxın buraxmamağı planlaşdırırdı [133, s. 24-25]. Rusiya hökuməti şimal-şərqi Azərbaycanda mövqelərinin möhkəmlənməsi üçün xüsusi tədbirlər həyata keçirməyi nəzərdə tuturdu, çünki "türklərin İranda (Azərbaycanda–Y.N.), xüsusilə Xəzər dənizinə tərəf irəliləməsini çox təhlükəli" hesab edirdi. Rusiya hökumətinin xüsusi məxvi sənədində "xristianlardan başqa erməni, gürcü və digər xoşniyyətli xalqların, həmçinin, iranlıların da bizim tərəfimizdə olması və onlara yardım vəd edilməsi" nəzərdə tutulurdu [102, s. 13-14].

Zahirən Səfəvi dövlətinə qarşı müharibə etmək niyyətində olmadığını iddia edən Rusiya Şamaxıda tacirlərinin soyğunçuluğa məruz qalmalarını, Osmanlı imperiyası isə əfqanların hücumlarından torpaqlarını qorumağı bəhanə edərək hərbi yürüşlərə başlamağı planlaşdırırdı. Əsas məqsəd isə şübhəsiz, regionda siyasi üstünlük və iqtisadi hegemonluq əldə etmək idi. Çünki, H.B.Abdullayevin də qeyd etdyi kimi, "2 dəniz (Qara dəniz və Xəzər dənizi) arasında körpü rolunu oynayan Qafqaz Avropa və Asiya qitələrini birləşdirmiş və uzun illər boyu bir çox dövlətlə-

rin, xalqların qarşılıqlı münasibətlər kontekstində böyük əhəmiyyət kəsb etmişdir" [102, s. 53].

O dövrdə Osmanlı imperiyası üçün xarakterik olan maliyyə çətinlikləri, xalq etirazları və ölkədə baş verən sosial-iqtisadi dəyişikliklər XVIII əsrin əvvəllərində xarici siyasət məsələsinə yeni baxışı formalaşdırdı [77, s. 48]. İmperiya Avropa dövlətləri ilə hərbi münaqişədə itirdiyi torpaqların əvəzini çıxmaq, ticarət yollarına nəzarəti gücləndirməklə Qafqazda möhkəmlənmək istəyirdi. Avropa ilə Xəzərsahili ölkələr arasında mühüm tranzit yoluna nəzarəti əldə saxlamaq istəyən Osmanlı imperiyası həm də bu bölgənin müdafiə üçün çox əlverişli mövqedə olmasından maksimum yararlanmaq niyyətində idi. Rusiya imperiyası isə Xəzər dənizi vasitəsi ilə özünə azad çıxış yolu təmin edərək ticarətdə önəmli mövqeyə sahiblənmək istəyirdi [102, s.10-12].

Xəzərsahili əyalətlərin zəngin təbii sərvətləri, o cümlədən, neft, ağ neft, duz və s. uzun müddət idi ki, qonşu dövlətlərin diqqət mərkəzində idi. Bu yerlərin təbiəti, coğrafi şəraiti və məhsuldar torpaqları ölkədə pambığın, xam ipəyin, zəfəranın və dənli bitkilərin əkilib-becərilməsi üçün əlverişli imkanlar yaradırdı. Məhz bu səbəbdən "I Pyotr, xüsusiləAzərbaycanı – bu zəngin ölkəni yenicə inkişaf etməkdə olan rus manufakturaları üçün xammal bazasına çevirmək niyyətində idi" [102,s. 14]. Ölkənin malik olduğu xammal və materiallar, ipək, pambıq, yun, boyaq, bəzək əşyaları, meyvə, şərab və s. çox gərəkli idi. Rusiyanın Şərq ölkələrilə tranzit ticarətində Azərbaycan mühüm məntəqə idi. Bununla bağlı olaraq, beynəlxalq ticarət yolları üzərində yerləşən Təbriz, Şamaxı, Gəncə, Ərdəbil, Bakı, Dərbənd və b. şəhərlərin adları xüsusi qeyd edilirdi [23, s. 492].

Təsadüfi deyil ki, iqtisadi və strateji maraqlarını təmin etmək məqsədilə Rusiya hökuməti mütəmadi olaraq Xəzərsahili əyalətlərə yürüşlər təşkil edirdi. Hələ XVII əsrin sonlarında I Pyotr yürüş etmək əzmində olduğu Xəzərin şərq və qərb sahillərinin təbii-coğrafi şəraitini dərindən öyrənmək üçün bu yerlərə ekspedisiyalar göndərməyə başlamışdı. Rusiya hökuməti bu məqsədlə Fon Verdenin başçılığı ilə F.İ.Saymonovun və

V.A.Urusovun iştirak etdiyi ekspedisiyanı Xəzər dənizinə göndərdi. 1719-cu ilin may ayında açıq dənizə çıxan ekspedisiyanı "Müqəddəs Aleksandr", "Müqəddəs Yekaterina" və "Həştərxan" gəmiləri müşayət edirdi. Həmin ilin sentyabr ayında işini başa çatdıran ekspedisiya üzvləri Həştərxana qayıtdı. Ekspedisiya zamanı Xəzər dənizinin qərb sahilləri, Bakı körfəzindən keçərək, Kür çayının mənsəbi dəqiqliklə öyrənilmiş və bu yerlərin xəritəsi hazırlanmışdı. 1719-cu ilin oktyabrında hazırlanmış xəritə "Volqa çayının mənsəbindən Kür çaynın mənsəbinə qədər Xəzər dənizinin səthi xəritəsi..." adlanırdı [102, s. 11; 24, s. 325; 42, s. 17]. Heyətin işindən razı qalan I Pyotr F.İ.Saymonova ekspedisiyanı yenidən davam etdirməyi əmr etdi. Bu dəfə Astara çayından keçərək Ənzəli limanı, Astrabad, Mazandarana qədər dəniz sahili öyrənildi və nəticədə, hər iki ekspedisiyanın nəticələrini əks etdirən yeni mükəmməl xəritə hazırlandı [42, s.18-19].

Artıq XVIII əsrin əvvəllərindəI Pyotr Səfəvilər dövlətinə məxsus Xəzərsahili vilayətlərin işğal edilməsi planını reallaşdırmaq məqsədilə hərbi qüvvələrin və donanmanın yürüş hazırlıqlarına başlanılması haqqında göstəriş vermişdi. Həştərxan qubernatoru təyin edilmiş keçmiş səfir A.P.Volınski Şamaxıda rus tacirlərinin qarət edilməsi və öldürülməsini əsas götürərək Rusiya hökumətinə təcili hərbi əməliyyatlara başlanmasını təklif etdi. Onun fikrincə, Səfəvi dövləti dağılmaq üzrə olduğuna görə, Rusiya "kiçik qüvvələrlə onun ərazisinin müəyyən hissəsini" ələ keçirə bilər [133, s. 41]. Nəzərdə tutulan hərbi yürüşlərin məqsədi təkcə Xəzərsahili ərazilərin Rusiya tərəfindən işğalından ibarət deyildi. Rusiya hökuməti Səfəvilər dövlətinin digər vilayətlərini də zəbt etmək üçün geniş planlar hazırlayaraq hərbi əməliyyatların sonrakı gedişində fəaliyyət istiqamətlərini müəyyən etmişdi.

I Pyotr yürüşə başlamazdan əvvəl ordunun irəliləməsində heç bir maneə olmayacağına əmin olmaq üçün ehtiyat tədbiri görərək yerli əhaliyə, o cümlədən "sənətkarlara, usta və onların köməkçilərinə" "Müraciət" – "Manifest" imzaladı. Xəzəryanı əyalətlərə göndərilən və yerli əhalinin ona rəğbətini təmin etmək üçün nəzərdə tutulan bu müraciət Azərbaycan, fars və ərəb dillə-

rində mətbəə üsulu ilə çap edilmişdi [49, s. 15; 34, s. 78]. Rus ordusunun hərbi yürüşünün səbəblərinin özünəməxsus şəkildə izah edildiyi bu sənəddə I Pyotr Xəzəryanı əyalətlərin bütün əhalisinə onların əmlakının toxunulmazlığı ilə bağlı zəmanət vermiş, hərbçilərinin yerli əhalini incitməməsi barədə göstərişi verdiyi xüsusi vurğulamışdı [102, s. 39-43].

1723-cü ilin yayında başlanması nəzərdə tutulan hərbi yürüş təyin olunan vaxtdan 1 il tez başladı. Buna səbəb 1722-ci ilin martında şah qoşunlarının Mir Mahmudun üsyançı dəstələri tərəfindən məğlubiyyətə uğradılması idi. Osmanlı imperiyasınıın da hərbi əməliyyatlara başlayacağından ehtiyat edən I Pyotr 1722-ci ilin iyulunda Həştərxana gəldi [133, s. 42-43].

1722-ci il iyul – avqust aylarında rus qoşunları Həştərxan ərazisindən hərbi əməliyyatlara başladılar. İmperatorun şəxsən başçılığı ilə Rusiya gəmiləri Həştərxandan Dərbəndə istiqamət götürdülər. Şəhərdə yaranmış inamsızlıq və çaxnaşma nəticəsində 1722-ci ilin avqustunda Dərbənd ruslara müqavimətsiz təslim oldu [34, s. 79; 133, s. 5-51]. Bakını da Dərbənd kimi müqavimətsiz alacağını güman edən I Pyotr Bakı əyanlarına göndərdiyi məktuba gözlədiyi kimi müsbət cavab almadı [110, s. 211-212]. Bakının cavabından narazı qalan çar hökuməti şəhəri almaq üçün ciddi hazırlaşırdı. Lakin bir sıra səbəblər üzündən Rusiya komandanlığı hərbi qüvvələrini Həştərxana geri çəkməli oldu. Geri çəkilmə səbəblərindən biri kimi, Xəzər dənizində baş vermiş təbii fəlakət nəticəsində ərzaq və silah-sursat təchizatının pozulması, Rus əsgərlərinin səhhətinə mənfi təsir edən Qafqazın sərt təbiəti göstərilir [34, s. 81]. Bununla yanaşı, tarixi ədəbiyyatda Hacı Davudun rus ordusunun irəliləməsinin qarşısını almaq və müqaviməti gücləndirmək məqsədilə şəxsən dağlara gedərək xeyli sayda qüvvə topladığı da qeyd edilir. Az bir müddətdə 10 min nəfərlik qoşun toplayan Hacı Davudun artıq Samur çayı yaxınlığında rus ordusuna qarşı hücuma hazır olması xəbəri və Bakı ilə "danışıqların" nəticəsiz qalması Rusiya komandanlığının hücum planlarında dəyişiklik etməsinə səbəb oldu. Hücum planının pozulması Gürcü çarı VI Vaxtanqın və Yesai Həsən

Cəlalyanın başçılığı ilə Qarabağın xristian əhalisinin birləşmiş qüvvələrinin rus ordusu ilə birləşməsi təşəbbüsünü də nəticəsiz qoydu [133, s. 48-49; 54, s. 142-143].

Bu hadisələrin fonunda Səfəvi dövlətində siyasi vəziyyət gərgin olaraq qalırdı. Əfqanlar tərəfindən İsfahanın mühasirəsi davam edirdi. Şəmdanizadə Süleyman Əfəndi qeyd edirdi ki, "şəhər sakinləri aclıqdan qırılmaqdansa, İsfahandan çıxıb hücum etmək məqsədilə Şaha müraciət etdilər. Lakin Şah "Təhmasib əsgərləri ilə imdadımıza gəlir" deyə onları sakitləşdirməyə çalışırdı. Aylarla davam edən mühasirə nəticəsində şəhəri aclıq bürüdü. İnsanlar ləl, cəvahir, qızıl və dəyərli əşyalarını satıb bir günlük çörək almaq məcburiyyətində idilər" [96, s. 54-56]. Nəticədə İsfahanın 8 ay davam edən mühasirəsindən sonra Şah Sultan Hüseyn Mahmudun xeyrinə taxt-tacdan əl çəkdi. Paytaxtdan əvvəlcə Qəzvinə, sonra isə Təbrizə qaçan şah oğlu Təhmasib 1722-ci ilin sonlarında özünü şah elan etdi [43, s. 15]. Çox keçmədən Mahmuq Qəzvini də ələ keçirdi. Nəticədə, ölkədə baş verən ikihakimiyyətlilik siyasi və hərbi vəziyyəti daha da gərginləşdirdi.

Bu zaman rus ordusunun Xəzəryanı ərazilərə hərbi yürüşünü Osmanlı hökuməti ciddi səhv hesab edərək bu məsələyə kəskin münasibətini bildirdi. Osmanlı imperiyası ilə müharibəni hərbi planlarına daxil etməyən I Pyotr diplomatik yolla osmanlıların hərbi əməliyyatlara başlamasını müvəqqəti olaraq ləngitdi. Osmanlı hökumətinin tələbinə cavab olaraq, Rusiya dövlətinin Xəzərsahili bölgələrdən əsas hərbi qüvvələrinin çıxarılması haqqında qərarı gərginliyi nisbətən zəiflətdi [133,s. 58-59; 34, s. 82].

Hacı Davudun müraciətinə cavab olaraq 1722-ci ilin oktyabrında Şirvan üzərində yüksək hakimiyyətini elan etdikdən sonra [103, s. 34] regionda möhkəmlənməyə çalışan Osmanlı imperiyasının fəth planlarının həyata keçirilməsi üçün əlverişli şərait yaranmış oldu. Osmanlı sarayının apardığı hərbi hazırlıqlar Xəzərsahili ərazilərin ələ keçirilməsində maraqları olan rus komandanlığını tələsməyə məcbur etdi [133, s. 73-74].

Hərbi planlarında Bakının işğalına mühüm əhəmiyyət verən rus hökuməti hər cəhdlə şəhəri tutmaq niyyətində idi və nəticə olaraq, 1723-cü ilin iyulunda "...rus gəmiləri Bakı limanına lövbər atdı və onlar Bakıya daxil oldular" [110, s. 217; 25,s. 132-133]. Dərbəndi, Salyanı və Rəşti də ələ keçirən Rusiya Xəzərsahili ərazilərdə rəsmi surətdə möhkəmlənmək məqsədilə hiyləyə əl atdı. Ölkədə baş verən iğtişaş və üsyanların öhdəsindən gələ bilməyən II Təhmasibin kömək məqsədilə Rusiyaya müraciət etməsi bu imperiyanın öz işğalçı planlarını həyata keçirməsi üçün imkanlarını genişləndirdi. Belə böhranlı vəziyyətdə I Pyotr Xəzərsahili ərazilərin – Dərbənd, Şamaxı, Bakı və Salyanın ələ keçirilməsini rəsmiləşdirmək müqabilində şaha hərbi kömək təklif etmək niyyətində idi. Səlahiyyətli nümayəndəsi İsmayıl bəyi Sankt-Peterburqa göndərdikdən sonra rus qoşununun Xəzərsahili əraziləri artıq ələ keçirdiyini eşidən Şah Təhmasib onu geri çağırmaq istəsə də buna müvəffəq ola bilmədi [34, s. 84; 25, s. 131-132]. Nəticədə, hadisələrdən xəbərsiz olan İsmayıl bəy 1723-cü ilin sentyabrında "Peterburq" müqaviləsini imzaladı. Müqaviləyə əsasən, Dərbənd, Bakı və ətrafı (həmçinin Gilan, Mazandaran, Astrabad) daxil olmaqla bu yerlərin daimi sahibi kimi Rusiya Səfəvi sarayına hərbi kömək vəd etdi [35, s. 60]. Lakin şah sarayında qızğın mübahisələrə səbəb olan həmin müqaviləni II Təhmasib qəbul etmədi və "...hətta Rusiya elçisini Ərdəbildən qovdu" [133, s. 51-52]. Beləliklə, Rusiya tərəfinin müqavilədə öhdəsinə götürdüyü vəzifələr yerinə yetirilməmiş qaldı.

Hadisələrin sonrakı inkişafı yeni bir razılaşmanın vacibliyini ortaya qoydu. Son məqsədləri Səfəvi imperiyasından ərazi qoparmaq olan Rusiya və Osmanlı hökumətləri arasında gedən uzun danışıqlardan sonra 1724-cü il iyunun 12-də İstanbulda 6 bənddən (maddədən) ibarət müqavilə imzalandı. "Rusiya imperiyası Peterburq müqaviləsinin (12 sentyabr 1723-cü il) şərtlərinin bir daha təsdiqlənməsinə nail oldu". Müqavilənin şərtlərinə görə Osmanlı hökuməti 1722–1723-cü illərdə Rusiyanın zəbt etdiyi Xəzərsahili vilayətlərin onun ixtiyarında qalmasına etiraz etmədiyini bildirir-

di. Rusiya da öz növbəsində Cənubi Qafqazın qalan hissəsinin və Cənubi Azərbaycanın Osmanlı dövləti tərəfindən işğal olunmasına mane olmayacağına söz verdi [23, s. 505-507]. Müqavilə Xəzər dənizinin bütün qərb və cənub sahillərini əhatə edən geniş sahənin Rusiyaya, Cənubi Qafqazın bütün şərq hissəsi və Cənubi Azərbaycanın Osmanlı imperiyasına verilməsini nəzərdə tuturdu. Həmçinin, Azərbaycan ərazisi olan Şirvanla bağlı xüsusi müddəa qəbul edildi. Belə ki, Şirvan vilayətinə daxili işlərinin həll edilməsində muxtariyyət verilirdi. Qanunsuzluq baş verdikdə Osmanlı dövləti Rusiya hökumətinin razılığı ilə bu əraziyə qoşun yeridə bilərdi [34, s. 82-83; 133, s. 85-86].

Müqaviləyə əsasən, II Təhmasib bu şərtləri qəbul etdiyi təqdirdə ona, əfqan işğalçılarının İrandan (Səfəvi dövlətinin ərazisindən –Y.N) qovulmasında Rusiya və Osmanlı imperiyaları tərəfindən kömək göstərilməsi nəzərdə tutulurdu. Lakin Səfəvi dövlətinin ərazisinin böyük bir hissəsinin Rusiya və Osmanlı imperiyaları arasında bölüşdürülməsi şərtləri Şah II Təhmasib tərəfindən qəbul edilmədi. Bu isə bağlanmış müqavilənin təməl maddələrindən birinin pozulması demək idi. Belə ki, həmin maddədə göstərilirdi ki, Şah II Təhmasib, müqaviləyə uyğun olaraq, Osmanlı və Rusiya imperiyalarına aid edilən ərazilərin verilməsinə qarşı çıxdıqda Rusiya və Osmanlı imperiyaları zor tətbiq edəcək və "yeni şahın gəlməsini təmin edəcəkdilər" [34, s. 80-81; 97, s. 158-159].

Qeyd edək ki, bu müqavilə Osmanlı sarayında da birmənalı qarşılanmadı. Belə ki, Rusiya ilə məsələləri sülh yolu ilə həll etmək niyyətində olan Divanın mövqeyi sultan III Əhməd (1703-1730) tərəfindən qəbul edilmədi və o, Rusiya ilə müharibəyə hazır olduğunu qəti şəkildə bildirdi [97, s. 147; 35, s. 11].

Buna əsasən, Osmanlı qüvvələri hərbi əməliyyatlara başladı. İstanbul müqaviləsindən sonra işğalçılıq planlarını genişləndirmək niyyətində olan Osmanlı imperiyasına qarşı zəifləmiş və parçalanmış Səfəvi dövləti lazımi müqaviməti təşkil etmək iqtidarında deyildi. Artıq 1723-cü ildən başlayaraq, Osmanlı qüvvələrinin 3 istiqamətdə hücumu başladı. Cənubi Azərbay-

can istiqamətində hərbi əməliyyatlara 60 minlik (bəzi mənbələrdə 75 minlik) [108, s. 8-9] ordu ilə Köprülüzadə Abdulla paşa başçılıq edirdi. 1724-cü ilin fevralından başlayaraq bu istiqamətdə hərbi yürüşlərə başlayan Osmanlı qoşunları ayrı-ayrı şəhər və qalaların müqavimətinə baxmayaraq, artıq 1724-cü ilin mayında Xoy qalasını, avqust ayında isə Həmədanı ələ keçirmişdilər [109, s. 18-22].

Digər istiqamətdə isə Arifi Əhməd paşa 30 minlik qüvvə ilə İrəvan üzərinə hücuma keçdi. 1724-cü ilin avqustunda İrəvan, Naxçıvan, Ordubad, Borçalı və Qazax ələ keçirildi [108, s. 6-7; 106, s. 74].

İraq istiqamətinə təyin edilmiş Əyyubi Həsən paşanın rəhbərliyi ilə Osmanlı qüvvələri 1723-cü ilin sonundan başlayaraq Kirmanşah üzərinə hücuma başladılar və oranı ələ keçirdilər [34, s. 111].

1725-ci ildən başlayaraq hərbi yürüşlərin istiqaməti Təbriz, Gəncə və İsfahana doğru yönəlmişdi. Strateji əhəmiyyətli Təbriz həm də böyük ticarət mərkəzi idi. Buna baxmayaraq şəhərin ətrafında müdafiə üçün gərəkli olan istehkamlar qurulmamışdı. C.Hanveyin məlumatına görə böyük hissəsi zəlzələdən dağılan şəhərin divarı, topu yox idi. "...Onun yeganə dayağı əhalinin sayı və çoxluğu idi" [43, s. 62].

Təbriz şəhəri üzərinə bir neçə dəfə həmlə etməsinə baxmayaraq Osmanlı qüvvələri ciddi müqavimətlə üzləşdilər. Nəhayət, 1725-ci ilin  avqustunda hər iki tərəfin çoxsaylı insan itkisindən sonra osmanlılar Təbrizi ələ keçirməyə müvəffəq oldular. Eyni vaxtda strateji əhəmiyyətli Gəncə şəhəri də tutuldu. Təbriz zəbt edildikdən sonra 1725-ci ilin payızında Urmiya, az sonra isə Ərdəbil və Qəzvin ələ keçirildi. Qeyd edək ki, digər bir əsərdə əvvəlcə Ərdəbilin, sonra isə Urmiyanın ələ keçirilməsi göstərilmişdir [43, s. 66; 34, s. 123]. Beləliklə, osmanlılar 1725-ci ilin sonuna kimi Səfəvi dövlətinin Azərbaycana aid torpaqlarını (Xəzərsahili ərazilər istisna olmaqla) ələ keçirdilər [133, s. 93-97].

Osmanlı qüvvələrinin hücum əməliyyatlarını genişləndirməsi regionda gərginliyin yenidən artmasına səbəb oldu. Rusiya höku-

məti osmanlıların Xəzərsahili bölgələrə keçməsinə hər vəchlə mane olmaq üçün tədbirlər görürdü. Rusiya siyasi manevr edərək 1726-cı ildə Avstriya– İspaniya ittifaqına daxil oldu. İttifaqa üzv olan dövlətlər arasında qəbul edilən öhdəliklərə əsasən, tərəflər Osmanlı qoşunlarının hücumları zamanı 30 minlik ordu ilə digər tərəfə dəstək verməli və ya Osmanlı imperiyasına müharibə elan etməli idilər. Siyasi hadisələrin bu istiqamətdə inkişafı 1724-cü il müqaviləsindən sonra nisbətən sakitləşmiş Rusiya – Osmanlı münasibətlərini yenidən kəskinləşdirdi [34, s. 124].

Bu dövrdə Səfəvi dövlətində siyasi gərginlik son həddə çatmışdı. Ölkənin bir hissəsində əfqanların hakimiyyəti ələ almasından, eləcə də Qazax, Borçalı, İrəvan, Gəncə, Naxçıvan, Ordubad və digər ərazilərlə birlikdə Cənubi Azərbaycan torpaqlarının Osmanlı hakimiyyəti altına keçməsindən sonra yerli əhalinin ağır istismara qarşı kütləvi itaətsizliyi genişlənmişdi.1726-1729-cu illərdə Gəncədə, Bərdə daxil olmaqla Qarabağ zonasında, Zəngəzur, Ərdəbil, Xalxal və Marağada genişlənən üsyan yerli hakimiyyət üçün əsl təhlükəyə çevrilmişdi [34, s. 128-134].

Əfqanların ələ keçirdikləri torpaqlarda da iğtişaşlar artmışdı. Əfqan əyanlarının özbaşınalığı, əhali üzərinə qoyulan böyük təzminatlar narazılığın artmasına səbəb olmuşdu. Artıq 1723-cü ildən başlayaraq əhalinin əfqan ağalığına qarşı silahlı çıxışları başlamışdı. Qəzvində, Hansarda üsyançılar bir neçə min əfqanı öldürmüşdülər. Mahmud üsyanın daha geniş ərazilərə yayılaraq səfəvi əyanlarının da onlarla birləşəcəyindən qorxaraq, üsyançılara qarşı kütləvi qırğınlar həyata keçirtdi. Məlumata görə, yüzlərlə səfəvi əyanı, həmçinin şah Sultan Hüseynin uşaqları və qohumları öldürüldü [124, s. 85].

Hadisələrin inkişafı əfqanlar arasında da ixtilafların olduğunu üzə çıxartdı. Mahmudun əmisi Mir Abdullanın oğlu Əşrəf bu qəddarlığın dayandırılmasını tələb edərək ona qarşı çıxdı. Nəticədə, ordunu idarə edə bilməyəcək hala gələn Mahmud 1725-ci ildə devrildi və hakimiyyət Əşrəfin əlinə keçdi. Özünü şah elan etdikdən sonra səfəvi əyanları ilə aralarında olan narazılığı yumşaltmaq məqsədilə Əşrəf xan Şah Hüseynin qızı ilə evləndi və

Mahmudun qəddar hərəkətlərini pislədi [34, s. 135]. Osmanlı tarixçisi F.Şəmdanizadə qeyd edirdi ki, "Əşrəf, Şah Hüseynin ayağına getdi və təsəlli verməklə İranın (Səfəvinin – Y.N.) xətrini xoş eylədi" [96, s. 58 ].

Beynəlxalq gərginliyin artması və Səfəvi dövlətində baş vermiş hadisələr Osmanlı dövlətində də narahatlıq yaratmışdı. Mənbələr göstərir ki, Əşrəf xan "mən təxt-i İsfahana malik oldum, İsfahana tabe olan yerlərdən Ali-i Osman aldığını geri versin, yoxsa cəng edərəm" deyərək, Osmanlı sarayını təhdid etdi [96, s. 58-59]. Lakin Əşrəf xanın Osmanlı qüvvələrinin Səfəvi torpaqlarından çıxarılması iddiası Osmanlı hökuməti tərəfindən rədd edildi [106, s. 53; 133, s. 37].

1726-cı ilin payızından başlayaraq tərəflərin bir neçə dəfə hərbi qarşıdurması nəticəsində əfqanların Kirmanşah və Həmədanı ələ keçirmələrinə baxmayaraq, Osmanlı – Əfqan münaqişəsi digər ərazilərə yayılmadı. Belə ki, bir sıra Avropa dövlətlərinin marağında olmayan bu münaqişə ümumi səylər nəticəsində Osmanlı – Əfqan sülh danışıqlarının başlanması ilə nəticələndi. 1727-ci il 3 oktyabr (22 sentyabr) tarixində Həmədanda bağlanmış müqavilənin şərtlərində Əşrəf xan Osmanlı Türkiyəsindən vassal asılılığında olan Səfəvi şahı kimi qəbul edildi və bütün Cənubi Qafqaz əraziləri (Xəzərsahili vilayətlər istisna olmaqla), eləcə də Təbriz, Həmədan, Kirmanşah, Tehran və Zəncan bölgələrində Osmanlı hakimiyyəti rəsmiləşdirildi [49, s. 36-37].

Beləliklə, əfqanlar Səfəvi dövlətinin bir hissəsində qurulmuş hakimiyyətlərini real Osmanlı təhlükəsindən qorumağa müvəffəq oldular. Qeyd etmək lazımdır ki, Əşrəf xanın hakimiyyəti dövründə əhalinin vəziyyəti çox acınacaqlı idi. Müharibələrdə, üsyanlarda həlak olmuş, aclıq və xəstəliklərdən ölmüş adamların qadın və uşaqları qul kimi satılır, əmlakları qarət olunurdu. Müharibələr nəticəsində ölkə ərazisi ayrı-ayrı bölgələrə parçalanmış, yollar oğru, quldur dəstələrinin nəzarəti altına düşmüş və nəticədə ticarət, iqtisadiyyat durğunluğa düçar olmuşdu [29,s. 185-190].

Beləliklə, Osmanlı və Rusiya imperiyaları Səfəvi torpaqlarının böyük bir hissəsini işğal edərək öz aralarında bölüşdürdülər. Ölkə daxilində əhalinin hakimlərdən narazılığı artdıqca vəziyyət daha da gərginləşirdi. Yerli türkmən (türkman) tayfalarının dəstəyilə Şah II Təhmasib bir neçə uğurlu hərbi əməliyyat nəticəsində Xorasanı ələ keçirdi. Hərbi əməliyyatlarda Şah II Təhmasibin eşikağası təyin etdiyi Nadir yaxından iştirak edirdi [96, s. 59]. Orduda xüsusi cəsarəti və əzmkarlığı ilə seçilən, hərbi bacarığı və səriştəsi ilə şah qoşunlarının baş komandanı vəzifəsinə yüksələn əfşar (türk) əsilli Nadirin üzərinə "Səfəvilər dövlətinin ərazi bütövlüyünü bərpa etmək kimi tarixi missiya düşürdü" [124, s. 93; 34, s. 142].

İsfahan yaxınlığında Əşrəf xanı məğlub edən, əfqan tayfalarını ölkədən qovaraq Səfəvi hakimiyyətini bərpa edən və bununla da Şah II Təhmasibə böyük dəstək verən Nadir (və ya Təhmasibqulu xan) osmanlıların zəbt etdikləri ərazilərdən çəkilməsini tələb etmək üçün əlverişli imkan əldə etdi.

Səfəvi dövlətinin bir çox ərazilərində, o cümlədən Azərbaycanda hərbi əməliyyatlar yenidən başlandı. Qısa müddət ərzində Nadir, Osmanlı qoşunlarını bir neçə dəfə ciddi məğlubiyyətə uğratdı və nəticədə, 1730-cu ilin iyul-sentyabr aylarında Həmədan, Kirmanşah və Təbriz ələ keçirildi [133, s. 178; 34, s. 147].

Bu zaman Osmanlı sarayında daxili vəziyyət gərginləşmişdi. Belə ki, müharibələr ilk növbədə ölkə iqtisadiyyatına böyük ziyan vururdu. Hərbi qarşıdurmalar zamanı iqtisadi vəziyyətin çətinləşməsi, vergilərin artırılması kəndlilərin və şəhər əhalisinin ciddi narazılığına səbəb olmuşdu. 1730-cu ilin sentyabrında İstanbulda həm yeniçərilərin, həm də küçə ticarəti ilə məşğul olan Patrona Xəlilin başçılığı ilə başlayan üsyanın nəticəsində III Əhməd (1703-1730) taxt-tacdan əl çəkdi və I Mahmud (1730-1754) sultan elan edildi [99, s. 214].

Osmanlı qüvvələrini Ərdəbildən çıxmağa məcbur edən Nadir bütün Cənubi Azərbaycanı və Səfəvi dövlətinin digər qərb torpaqlarını geri alaraq İrəvana hücum planı hazırlayırdı. Daxili vəziyyətin gərginliyi səbəbilə Xorasana getməyə məcbur olan

Nadirin hərbi əməliyyatlara ara verməsindən istifadə edən II Təhmasib öz nüfuzunu yüksəltmək məqsədilə, 1731-ci ildə İrəvan və Naxçıvanı ələ keçirmək üçün yürüşə başladı. Lakin məğlub olan səfəvi qoşunları Təbrizə doğru çəkilməyə məcbur oldular [103, s. 54-55]. Bu isə Osmanlı hücumlarının yenidən canlanmasına səbəb oldu. Kirmanşah, Urmiya, Təbriz və digər ərazilər yenidən osmanlılar tərəfindən geri alındı. Hakimiyyəti tamam itirmək təhlükəsi ilə qarşılaşan II Təhmasib qarşı tərəfə sülh təklifi etməyə məcbur oldu. 1732-ci il 16 yanvar tarixli Kirmanşah sülhünün şərtlərinə görə Təbriz, Həmədan, Kirmanşah və Xuzistan Səfəvilərə qaytarılmalı, Xəzərsahili vilayətlər istisna olmaqla, bütün Şimali Azərbaycan ərazisi, həmçinin Gəncə, Tiflis, İrəvan, Şirvan isə Osmanlı dövlətinə verilməli idi. Lakin müqavilənin şərtlərini tanımaq istəməyən Nadir xan Şah Təhmasibi taxtdan endirdiyini, onun kiçik yaşlı oğlu Abbası şah, özünü isə onun vəkili təyin etdiyini bəyan elədi [133, s. 179-182].

Təhmasibi devirdikdən və real hakimiyyəti ələ keçirdikdən sonra Nadir, Osmanlı imperiyasına qarşı hərbi əməliyyatları daha da genişləndirdi. 1732-ci ilin dekabrında Kirmanşah, Ərbil və Kərkük tutuldu, 1733-cü ilin əvvəlində Bağdad mühasirəyə alındı. 1733-cü ilin fevralında Osmanlı komandanlığı yaranmış vəziyyəti öz hökuməti ilə məsləhətləşmək məqsədilə barışıq təklifi etdi və tərəflər arasında hərbi əməliyyatların müvəqqəti olaraq dayandırılması haqqında müqavilə imzalandı [106, s. 106].

Osmanlı sarayında baş verən daxili gərginlik sülh danışıqlarına mane oldu. Belə ki, Osmanlı dairələrində məğlubiyyətlə barışmayan qüvvələr yenidən hərbi əməliyyatlara başlamaq niyyətində idilər. Bununla da, Osmanlı – Səfəvi münaqişəsinin hərbi yolla davam etməsi qaçılmaz oldu. İşğal edilmiş Azərbaycan torpaqlarını geri qaytarmaq məqsədilə Nadir yeni ordu toplayaraq şimala doğru – Ərdəbilə hərəkət etdi. Ona tabe olmaq istəməyən Şirvan hakimi Surxay xan Nadirin elçisini öldürdü. Buna cavab olaraq, səfəvi qoşunları Şirvana hücum edərək 1734-cü ilin avqust ayında Şamaxını tutdular. XVIII əsrə aid mənbədə göstərildiyinə görə “Nadir şəhərə elə daxil olmuşdu ki, heç kim

bundan xəbər tutmamışdı". O, Surxay xanın qüvvələrini məğlub etdi və Avarıstana qaçan Surxay xanı təqib etməyərək geri qayıtdı [25, s. 147; 54, s. 138-139].

Uğurlu hərbi əməliyyatlar nəticəsində öz mövqeyini xeyli möhkəmləndirmiş Nadir rus qoşunlarının Xəzərsahili vilayətlərdən çəkilməsini tələb etdi. Səfəvi dövləti ilə münasibətlərinin gərginləşməsini istəməyən, həmin ərəfədə osmanlılarla Qara dənizə çıxmaq üçün müharibəyə hazırlaşan Rusiya 1734-cü ilin oktyabrında öz qoşunlarının Bakı və Dərbənddən çıxarılması qərarına gəldi [34, s. 161]. Uzun və gərgin danışıqlardan sonra 1735-ci ildə Rusiya ilə Səfəvi dövləti arasında bağlanmış müqaviləyə görə, Rusiya Bakı və Dərbənddən geri çəkilərək işğal etdiyi Azərbaycan ərazilərini geri qaytarmağa məcbur oldu [133, s. 195].

Rusiya ilə problemləri tam həll etmiş Nadir bütün qüvvələrini artıq osmanlılara qarşı yönəltdi. 1735-ci ilin iyununda Arpaçay istiqamətində onun qoşunları ilə Osmanlı ordusu arasında qəti döyüş baş verdi və Osmanlı qüvvələri məğlub edildi. Davam edən hərbi əməliyyatlar nəticəsində Tiflis, İrəvan və Gəncə geri qaytarıldı [133, s. 196-198].

Rusiya ilə siyasi münasibətləri kəskinləşən Osmanlı hökuməti Nadirin yenidən sülh təklifini müsbət qarşıladı. Danışıqlar prosesi, Nadirin özünü şah olaraq təsdiq etdirmək məqsədilə Muğan düzündəki hərbi düşərgədə keçirdiyi qurultaydan sonra davam etdi. 1736-cı ilin yanvarında başlayan və 2 ay davam etmiş Muğan qurultayına ölkənin müsəlman və xristian ruhanilərinin nümayəndələri, bəylərbəyilər, xanlar, feodallar və kəndxudalar dəvətli idilər. Beləliklə, 1736-cı ilin martın 8-də qurultayda Nadir şah elan edildikdən sonra hakimiyyətdən devrilmiş kiçik yaşlı şah III Abbas Xorasana göndərildi və nəticədə Səfəvilər xanədanının hakimiyyətinə son qoyuldu [125, s. 319-320]. Tarixçilər təntənəli mərasimdə Nadir şah tərəfindən yüksək təbəqədən olan şəxslərə və hərbi rütbəlilərə qiymətli hədiyyələrlə bərabər 12 min xalatın paylanmasını qeyd edir və bu tədbirin "qoyu-

lan vergi və verilən cəzalar üzündən pərişan olan yüz minlərlə insana heç bir xeyri olmadığını" yazırdılar[136,s. 84-85].

1736-cı ilin martında Muğandakı düşərgədə Nadir şahın elçisi Mirzə Məhəmməd və Osmanlı sarayının nümayəndəsi Gənc Əli paşa arasında sərhədlərin IV Murad hakimiyyəti dövründə (1623-1640) olduğu vəziyyətə gətirilməsi haqqında razılıq əldə edildi. Lakin müqavilənin cəfəri məzhəbinin beşinci sünni təriqəti kimi tanınması və Kəbədə beşinci rükünün qoyulması şərtləri uzun müzakirələrə səbəb oldu [78, s. 116]. Osmanlı sarayı bu müddəaların din xadimlərinin müzakirəsinə verilməsini vacib hesab etdi [78, s. 89] və nəhayət, 1736-cı ilin sentyabrında İstanbulda müqavilə imzalandı, Nadir Osmanlı dövləti tərəfindən rəsmi şəkildə şah olaraq tanındı [34, s. 172; 25, s. 145-146]. Lakin 5 maddədən ikisinin Osmanlı dövləti tərəfindən qəbul edilməməsi səbəbindən müqavilə təsdiq olunmadı [78,s. 140]. Buna baxmayaraq, Osmanlı imperiyası ilə Nadir şah arasında müharibələrə müvəqqəti ara verildi [109, s. 140-141].

Bu dövrdə ölkədə təsərrüfat həyatı və iqtisadi gərginlik son həddə çatmışdı. İllərlə davam edən müharibələr nəticəsində hərbi xərclər artır, bu da öz növbəsində əhalinin üzərinə qoyulan vergilərin dəfələrlə (təxminən 3-4 dəfə) artmasına səbəb olurdu. Vergini ödəyə bilməyənlər ağlasığmaz işgəncələrə və məhrumiyyətlərə məruz qalırdılar [136, s. 84-86; 51, s. 404].

Bazarlarda daxili və xarici ticarətə şah bilavasitə özü nəzarət edirdi. Belə ki, xaricdən gəlmiş tacirlər bazarlarda əvvəlki illərdə olduğu kimi istədiyi şəkildə (istədiyi tacirlə) deyil, yalnız şahın münasib bildiyi adamlarla alver etməli idilər və sata bilmədikləri mallarını başqa yerə apara bilməzdilər [139, s. 7]. Nəticədə, XVIII əsrin 40-cı illərində Xoy, Salmas, Car, Şəki və Şirvanda yüksək vergilərə, aclıq və səfalətə, əyanların özbaşnalığına qarşı çevrilmiş geniş miqyaslı üsyanlar baş verdi. Lakin bütün hallarda üsyanlar amansızlıqla yatırıldı.

Nəticə etibarilə, bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, Azərbaycan Səfəvi dövləti XVIII əsrin başlanğıcında bir sıra xarici və daxili amillərin təsiri altında regiondakı keç-

miş siyasi-iqtisadi və hərbi qüdrətini itirmiş, nəinki xarici müdaxiləyə, hətta özünün itaətdən çıxıb müstəqillik əldə etmək istəyən vilayətlərinin təzyiqinə müqavimət göstərmək qabiliyyətindən belə məhrum olmuşdu. Ölkənin düşdüyü bu ağır vəziyyət, xeyli müddətdən bəri başı Şərqi Avropa ərazilərindəki problemlərinə qarışmış qonşusu Osmanlı imperiyasını Qafqaz bölgəsi və şərq sərhədləri ilə bağlı siyasətini yenidən nəzərdən keçirməyə – 1639-cu ildə bağlanmış Qəsri-Şirin müqaviləsinin şərtlərini təftiş etməyə sövq etmişdir. Bu zaman o, özünün yeni şərq siyasətini formalaşdırmağa başlayan və Səfəvi dövlətinin Xəzərsahili ərazilərini işğal etməklə "isti dənizlərə" can atan Rusiya imperiyası ilə maraqlarını qarşılıqlı şəkildə uzlaşdıraraq 1724-cü ildə İstanbul müqaviləsini imzalamışdır. Beləliklə, Ahıska, İrəvan, Tiflis, Gəncə, Qarabağ və Təbriz bölgələri Osmanlı imperiyasının, Xəzərsahili bölgələr isə Rusiya imperiyasının hakimiyyəti altına keçmiş və həmin ərazilərdə yeni üsul-idarə bərqərar olmuşdur. Təbii olaraq, bu hadisələr Azərbaycanda yeni siyasi-iqtisadi proseslərlə yanaşı, həm də xeyli sayda əhalinin müxtəlif səbəblərlə yerdəyişməsinə və bölgənin dini-etnik strukturunda dəyişikliklərə gətirib çıxartmışdır. Yalnız Nadir şah Əfşarın hərbi istedadı, idarəetmə bacarığı və rasional düşünmə qabiliyyəti sayəsində göstərilən ərazilər yenidən azad edilmiş – Osmanlı və Səfəvi dövlətləri arasındakı sərhədlər Qəsri-Şirin müqaviləsinə uyğunlaşdırılmışdır.

# II FƏSİL

# URMİYA, XALXAL LİVALARININ VƏ SALMAS QƏZASININ İNZİBATİ QURULUŞU, ETNODEMOQRAFİK VƏZİYYƏTİ VƏ VƏQF TƏSİSATLARI

## 2.1. Urmiya, Xalxal livalarında və Salmas qəzasında idarəçilik və inzibati bölgü

1724-cü il İstanbul müqaviləsi şərtlərinə görə bir sıra Azərbaycan əraziləri ilə yanaşı Urmiya, Xalxal və Salmas Osmanlı hakimiyyəti altına keçdi. Osmanlı dövlətinin ələ keçirdiyi yeni ərazilərdəki siyasətinin başlıca prinsipi bu torpaqlar üzərində idarəçiliyin və struktur baxımından ərazi bölgüsünün yenidən aparılması, vergi və maliyyə məsələlərinin həlli, eləcə də yerlərdə qayda-qanunun icrasına nəzarət üçün şəriət məhkəmələrinin fəaliyyətinin tənzimlənməsi idi [129, s. 9]. Belə yanaşma həmin ərazilərdə əhalinin və digər gəlir qaynaqlarının siyahıya alınmaqla müvafiq vergilərə cəlb olunmasını da ehtiva edirdi. Osmanlılar bu yolla dövlətin iqtisadi tələblərinə uyğun olaraq kəndli (rəiyyət) torpaq münasibətlərini tənzimləmək və ən başlıcası da həmişə aktual olan hərbi işlərin maliyyələşdirilməsi məsələsini həll etmək niyyətində idilər. Qeyd etmək lazımdır ki, osmanlılar istər XVI əsr, istərsə də, XVIII əsrin əvvəllərində ələ keçirdikləri Azərbaycan torpaqlarında Səfəvi idarəçilik prinsiplərini, əsasən, dəyişməmiş, "...Səfəvi əyalət mərkəzlərini Osmanlı əyalət mərkəzləri olaraq qəbul etmişdilər" [65, s. 66].

Qeyd edək ki, Osmanlı fəthindən əvvəl Səfəvi dövlətinin ərazilərində inzibati idarəçilik sistemi artıq formalaşmış şəkildə

idi. Həmin torpaqlarda yeni idarəçilik prinsiplərinin tətbiqi zamanı bu məsələ nəzərə alınırdı. Osmanlı dövlətində *"taşra"* (yerli idarəçilik) adlandırılan inzibati idarəçilik aşağıdan başlayaraq qəryə (kənd), nahiyə, qəza, *sancaq (liva)* və əyalət iyerarxiyası şəklində qurulmuşdu. Kəndlərin birləşməsi nahiyələri, nahiyələr isə öz növbəsində qəzaları əmələ gətirirdi. Bir neçə qəzanı özündə birləşdirən sancaqlar isə əyalətləri təşkil edirdi [75, s. 83]. Xatırladaq ki, geniş bir regionu əhatə edən Səfəvi dövlətinin ərazisi (təxminən 2 800 000 km$^2$ ) təbii sərhədləri vasitəsilə bir-birindən ayrılan vilayətlərə (əyalətlərə) bölünmüş və idarəçilikdə əyalət/bəylərbəyilik prinsipi mövcud olmuşdur. "Təzkirət əl-mülük"də bu torpaqlarda Ərəbistan, Luristan, Gürcüstan, Kürdistan valiliklərinin və 13 bəylərbəyiliyin yerləşdiyi qeyd edilmişdir [28, s. 101-103]. Ən böyük bəylərbəyilik sayılan və indiki Cənubi Azərbaycanın ərazisini əhatə etmiş Azərbaycan bəylərbəyiliyinə Astara, Marağa, Urmiya, Qaracadağ, Gərmrud, Salmas və digər ərazilər aid olmuşdur [142, s. 44; 27, s. 207].

İdarə etdikləri ərazi əsasən sərhəd bölgəsini əhatə etdiyinə görə "Təzkirət əl- mülük"də vali, bəylərbəyilər, xan və sultanlar "Sərhəd əmirləri" olaraq qruplaşdırılmışdır. Səfəvi idarəçiliyində vali rütbəsinə, mövqeyinə mənsəb və etibarına görə bəylərbəyidən, onlar isə öz növbəsində xan və sultanlardan daha üstün sayılırdı [100, s. 298]. Vəzifələrinə miras yoluyla sahib olan valilər sərhəd əmirləri arasında ən səlahiyyətli və hörmətli sayılırdılar. Əldə etdikləri gəlirlərindən heç bir vergi verməyən və fəaliyyətlərində müstəqil olan valilər rəsmi olaraq Səfəvi dövlətinə tabe idilər [142, s. 112].

Səfəvi hakimiyyəti dövründə vilayətləri bəylərbəyi səlahiyyəti verilmiş hakimlər idarə edirdi. V.Minorski bəylərbəyi istilahının hələ XVI əsrdə meydana gəldiyini, İ.P.Petruşevski isə bu vəzifənin I Şah Abbas dövründən daha əvvəl mövcud olduğunu vurğulamışdır [32, s. 242]. Hakimlər həm vilayətin bəylərbəyisi, həm də təmsil etdikləri tayfanın (türk tayfasının) əmiri, ağsaqqalı və başçısı sayılırdı. Z.H.Bayramlı 1578-ci ildə Azərbaycan vilayətinə Əmir xanın bəylərbəyi təyin edildiyini göstərərək qeyd

edirdi ki, “o (Əmir xan – Y.N.) həm də vilayətin ərazisində əhalinin çox hissəsini təşkil edən türkman elinin əmiri idi. Şahın digər bir fərmanı ilə Əmir xandan sonra Ədhəm xan türkman tayfasının ağsaqqalı təyin edilərək ona “xan” titulu verilmişdi [28, s. 135].Hər növ inzibati səlahiyyətlərə sahib olan, daxili işlərdə mərkəzi hakimiyyətdən asılı olmayan bəylərbəyilər hərbi məsələlər, asayiş, nəzarət, karvan yollarının qorunması, torpaq və maliyyə məsələlərinin həllinə məsul idilər. Başqa sözlə desək, bəylərbəyilər idarə etdikləri bölgədə idarə və hərbi hakimiyyəti əllərində birləşdirmişdilər [32, s. 242; 128, s. 63].

Osmanlı idarəçiliyi ilə oxşar cəhətlərdən biri Səfəvi dövlətində bəylərbəyiliyin öz hərbi xərclərini idarəsində olan ərazidən gələn gəlir hesabına ödəməsi idi. T.M.Musəvinin tədqiq etdiyi sənədlərdən birində göstərilir ki, XVII əsrin sonu XVIII əsrin əvvəllərində Qarabağ və Gəncədə toplanan çobanbəyi vergisinin bir hissəsi dövlət xəzinəsinə, digər hissəsi isə illik maaş şəklində əsgərlərə ödənilmişdir [47,s. 42]. Z.H.Bayramlı Bastani Pariziyə istinadən qeyd edir ki, bəylərbəyilər vilayət daxilindəki dövlət əmlakını öz qulluqçularının tiyuluna həvalə edir və bundan gələn gəliri toplayıb öz idarə xərclərini və vilayətdə olan qoşunun xərclərini ödəyirdilər. Onlar həm də maliyyə məsələləri ilə bilavasitə məşğul olan vəzirlə birlikdə bu işlərə nəzarət edirdilər [28, s. 154].

Səfəvi dövlətində müəyyən bir ərazini və ya şəhəri idarə edən xanlar o yerlərin hakimi hesab olunurdular. Sultanlar isə xanlara tabe olaraq ərazinin idarə olunmasında, asayişin qorunmasında və hərbi işlərdə onlara kömək etməli idilər [100, s. 309].

Qeyd etdiyimiz kimi, Osmanlı hakimiyyəti dövrü Azərbaycan ərazilərində fəthdən əvvəlki Səfəvi idarəçiliyi illərində mövcud olmuş əyalət/bəylərbəyilik prinsipi saxlanmışdı. Əyalət bəylərbəyi (və ya mirmiran) tərəfindən idarə edilirdi [75, s. 83-85]. Əyalətlər dövlət vilayətləri olduğuna və daha çox sərhəd bölgələrini əhatə etdiklərinə görə bu ərazilərdə idarəetmənin özünəməxsus xüsusiyyətləri vardı [100,s. 306]. Y.Halaçoğluya görə bəylərbəyilər öz ərazilərində hökmdarın nümayəndəsi olaraq,

hərbi məsələlərin həllində iştirak edir, ərazidə təhlükəsizliyi təmin etmək kimi vəzifələri yerinə yetirirdilər [75, s. 85]. Bəylərbəyilər əyalət-vilayət mərkəzində yaşayırdılar.

Osmanlı idarə üsulunda əyalətlər sancaqlara (və ya livalara) bölünürdü. Osmanlı idarəçiliyinə görə sancaqların başında duran və sancaqda (və ya livada) ən səlahiyyətli şəxs sancaqbəyi hesab olunurdu. Hərbi və inzibati idarə işlərini əllərində cəmləşdirmiş və bu məsələlərlə əlaqədar əmrlər vermək hüququna malik olan sancaqbəyilər tabe olduqları bəylərbəyilərin göstərişlərini yerinə yetirirdilər.

Qeyd edək ki, fəth edilmiş Səfəvi torpaqlarında sancaqların təşkili və yerli idarəçilikdə tətbiqi yeni bir üsul idi. Osmanlı idarə sistemində ərazi-inzibati quruluşunun bir həlqəsi olaraq sancaqların sərhədləri ərazidə yaşayan əhalinin, o cümlədən, işçi qüvvəsinin sayı, torpaqların məhsuldarlığı və əhalisini ərzaqla təmin edə bilməsi şərtləri nəzərə alınaraq müəyyən edilirdi [39, s. 20]. Müharibə zamanı sancaqbəyi, ərazisində yaşadığı və tabe olduğu bəylərbəyinin başçılığı ilə hərbi yürüşlərdə iştirak etməli, sancaq (liva) daxilində asayişin qorunması və günahkarların cəzalandırılmasını təmin etməli idi. Bunun müqabilində sancaqbəyilər sancaq (liva) daxilində baş vermiş cinayətlərə görə ödənilən verginin hamısını və ya bir hissəsini alırdılar. Osmanlı qanunlarına görə hətta yaşlı, vəzifədən getmiş keçmiş sancaqbəyilərə də yüksək (60 min ağça) məvacib təyin olunurdu [75, s. 84-86].

Göründüyü kimi, inzibati ərazi bölgüsü daxilində idarəçilik, tabeçilik və digər funksiyaları nəzərə alsaq, Səfəvi hakimiyyəti dövründəki bəylərbəyi, xan, sultanların və Osmanlı idarəçiliyindəki bəylərbəyi və sancaqbəyilərin daşıdıqları vəzifə və mükəlləfiyyətlər, demək olar ki, fərqlənmirdi.

Ələ keçirilmiş ərazilərdə yeni idarəçilik sisteminin tətbiqində bəylərbəyi və sancaqbəyi ilə yanaşı dəftərdar da mühüm rol oynayırdı. Bölgədə maliyyə məsələlərinin həlli, gəlir mənbələrinin aşkara çıxarılması və qeydə alınması, vergilərin düzgün toplanması dəftərdarın əsas vəzifəsi idi. Osmanlı dövlətində "padişahın malının mütləq vəkili və onun təmsilçisi" qismində qəbul

edilən dəftərdar vəzifəsi XIV əsrin sonlarından etibarən təsis edilmişdi. XVII əsrdən etibarən dövlətin maliyyə çətinlikləri ilə üzləşdiyi dövrdə isə dəftərdarlıq vəzifəsinin əhəmiyyəti daha da artmışdı (hətta onlara vəzir rütbəsi verilməklə maaşları yüksəldilmiş, həmçinin 1 200 000 ağçalıq *xasslar* – torpaq mülkləri bağışlanmışdı [75, s. 88-90].

Osmanlı dövlətində şəriəti və hüquqi qərarları tətbiq edən, həmçinin dövlət əmrlərini yerinə yetirmək funksiyası daşıyan şəriət məhkəmələrinə qazılar (məhkəmə, qəza işlərinə baxan məmurlara verilmiş addır) [93, s. 119] başçılıq edirdilər. Şəraitə uyğun olaraq 18 aydan 3 ilə qədər fəaliyyət müddətində qazılar XVIII əsrdən etibarən bəylərbəyilərə tabe idilər. Ərazidə mülki məsələlərin, torpaq məsələlərinin həlli, vergilərin yığılması və ödənilməsində qanunsuzluğun qarşısının alınması qazının səlahiyyətlərinə aid idi.

Osmanlı qanunlarına əsasən, idarəçilik və maliyyə işlərinə nəzarət etmək, eləcə də hərbi qüdrəti daim artırmaq məqsədilə yeni fəth edilmiş ərazilərdə təhrir (əhalinin və gəlir mənbələrinin siyahıya alınması) sisteminin tətbiqi gərəkli idi [57, s. 111]. Müəyyən bir inzibati əraziyə aid hər cür statistik məlumatları əhatə edən təhrir işləri Osmanlı dövlətinin təşkilatlanması və nizamla idarə edilməsində böyük rol oynayırdı və "geniş əraziyə yayılan Osmanlı dövlətinin mərkəziyyətçi idarə sisteminin zəruri bir gərəyi idi" [79, s. 217].

Ordu və məmurları dövlət xəzinəsindən tam təmin etmək çətinlik yaratdığına görə Osmanlı sarayı dövlət xidmətində çalışanların tələbatını yerlərdən gələn gəlir hesabına həyata keçirməyi daha məqsədəuyğun hesab edirdi. Beləliklə, dövlət xəzinəsindən vəsait xərclənmədən, yerlərdə (nahiyə və kəndlərdə) toplanan gəlir hesabına bir sıra xərclərin ödənilməsi həyata keçirilirdi. Osmanlı idarəçilik sistemində gəlir qaynağı ümumi şəkildə *"dirlik"* adlanırdı. Sultana və yüksək vəzifəli şəxslərə verilən dirliklərə xass, rütbəcə aşağı olanlara ayrılan ərazilərə *zeamət*, sipahilərə (süvarilər) verilənlərə isə *timar* deyilirdi [39, s. 18]. Qeyd etmək lazımdır ki, hərbi yürüşlərə və bu yürüşlərdə iştirak

edən hərbçilərə maliyyə dəstəyi məqsədilə müəyyən həcmdə torpaq sahələrinin ayrılması Osmanlı dövlətinin sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsi idi. Bu məqsədlə, Osmanlı imperiyasında hərbi, sosial və iqtisadi strukturu özündə əks etdirən timar sistemi, yəni hərbi və dövlət qulluğu müqabilində sipahilərə aylıq maaş deyil, onun əvəzində torpaqdan və ya digər gəlir gətirən obyektlərdən alınan gəlirin bir hissəsinin verilməsi sistemi tətbiq edilirdi. H.İnalcık timarı "imperiyanın öz ordusunu hərtərəfli təchiz edə bilməsi (ayakta tutması – H.İ.) üçün bir zərurət" adlandırmışdır [79, s. 218]. İdarəçilik, vergi-maliyyə məsələləri və təsərrüfat fəaliyyətlərinə nəzarəti həyata keçirən dövlət eyni zamanda icarəyə verilən torpaqların istifadə şərtləri ilə bağlı məsələləri də həll etməli idi. Sahiblərinin vəzifədə olduğu müddətə görə verilən xass və zeamətdən fərqli olaraq timarlar ömürlük verilirdi. Qanuna zidd hərəkətlər olmadıqca ona verilən ərazini idarə edən timar sahibi öldükdən sonra timar gəlirlərinin bir hissəsi onun oğluna verilirdi [39, s. 18]. Sistemin nizamlı fəaliyyəti üçün gəlir mənbələrinin düzgün müəyyən edilməsi və verginin dəqiq toplanması vacib idi.

Dövlət gəlirlərinin əsas hissəsini kənd təsərrüfatından toplanan vergilər təşkil edirdi. Ərazidə istehsal olunan, əldə edilən məhsulun miqdarının və dəyərinin müəyyən edilməsi timar sisteminin genişlənməsi yollarının təsbit edilməsi üçün çox əhəmiyyətli idi. Buna görə də yerlərdə (inzibati ərazilərdə) baş vermiş dəyişikliklərin qeydiyyata alınması vaxtaşırı təhrir işlərinin aparılmasını zəruri edirdi. Əhalinin, torpağın və digər gəlir mənbələrinin siyahıya alınması işlərinin, əsasən, hər 30 ildən bir aparılması nəzərdə tutulurdu. Lakin zərurət yarandıqda təhrir işləri hər hansı bir bölgənin ələ keçirilməsindən dərhal sonra bu ərazidə yerinə yetirilirdi. Təhrir zamanı ərazidə aparılmış inzibati dəyişikliklər, əkilib-becərilən torpaqların həcmində artım və ya azalma, ərazinin sosyal-iqtisadi strukturu və əhalinin etnik, demoqrafik xüsusiyyətlərinə aid göstəricilər statistik məlumatlar şəklində təqdim olunurdu [136, s. 52].

Təhrir məqsədindən asılı olaraq dəftərlərdə ərazidə olan timarların ölçüsü və gəliri əks olunur, nahiyə və kəndlərin adı, orada yaşayan və vergiyə cəlb olunan şəxslərin (ailə başçılarının) adı, atasının adı, kənd təsərrüfatı sahələrinə aid əkib-becərdikləri məhsul və digər gəlir gətirən sahələrə təyin olunan verginin həcmi göstərilirdi. Əgər təhrir dəftərinin tərtibindən sonra siyahıya alınmış timarlarda dəyişiklik baş verirdisə (torpaq sahibinin ölməsi, torpağın başqasının əlinə keçməsi və s.), bu zaman saraya məlumat verildikdən və qərar qəbul edildikdən sonra təhrir dəftərinin həmin səhifəsinin kənarında müvafiq qeydlər aparılırdı [104, s. 14].

Siyahıyaalma işlərini dövlətin mərkəzi dəftərxanasından birbaşa təyin edilən səlahiyyətli şəxslər həyata keçirirdilər. Buna görə təhrir ediləcək əraziyə "əmin" adlandırılan məmurlar göndərilirdi. Yerlərdə onlara heç bir vergi sahəsinin təhrirdən kənarda qalmaması üçün bələdçilik edən qazılar kömək və nəzarət etməli idilər [57, s. 111-112]. Əmin, katib və qazıdan ibarət təhrir heyəti kəndbəkənd gəzərək vəzifələrini yerinə yetirirdilər. Təhrir zamanı onlar timar sahibi, vəqf və mülk sahibləri ilə söhbət aparır, bərat, vəqfiyə, mülknamə və digər sənədləri təhrirə əlavə edirdilər. Bundan başqa, təhrir heyətinə ailə başçısının adı, hər ailə üzvünün payına düşən üçillik vergi göstəriciləri haqqında məlumatlar təqdim edilməli idi. Sənəd tərtib edilərkən əldə edilən göstəricilər əvvəlki təhrir məlumatları (əgər varsa) ilə tutuşdurulur, təftiş edilir, fərqlər olduğu halda qeydə alınırdı. Nəticədə, yekun məlumatlar toplanıb mərkəzə təqdim olunurdu. Xüsusi hazırlıqdan sonra biri müvafiq əyalətdə, digəri saray dəftərxanasında saxlanmaq şərtilə 2 nüsxədən ibarət təhrir dəftəri (maliyyə-vergi reyestri) hazırlanırdı. Hər hansı bir sancağın aid olduğu bəylərbəyilik dəyişdiyi zaman həmin təhrir dəftərinin müvafiq nüsxəsi aid olduğu yeni əyalətə/vilayətə göndərilirdi [57, s. 111-114]. Qeyd edək ki, Osmanlı dövründə Azərbaycan əraziləri üçün tərtib edilmiş təhrir dəftərlərinin ikinci nüsxələri barədə hələlik heç bir məlumat yoxdur. Onların yalnız İstanbul Başbakanlıq Osmanlı Arxivində saxlanılan variantları mövcuddur.

Azərbaycanın sosial-iqtisadi tarixi ilə bilavasitə bağlı olan “Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi”də (“Xalxal və Urmiya livalarının müfəssəl dəftəri”) Urmiya, Xalxal livaları və Salmas qəzasında yerli idarəçilik və inzibati bölgü haqqında qiymətli məlumatlar əks olunmuşdur. Bu məlumatların təhlilinə keçməzdən əvvəl həmin ərazilərin inzibati quruluşu, yerli idarəçilik məsələləri, coğrafi xüsusiyyətləri və s. məsələlərlə bağlı orta əsr mənbələrində və müasir müəlliflərin əsərlərində əks olunan bəzi məlumatları qeyd etmək istərdik.

Orta əsr müəllifi Yaqut əl-Həməvi (XIII əsr) Urmiyanı “Azərbaycanın böyük və qədim, sağlam iqlimli, gözəl və bütün nemətlərin bol olduğu şəhəri” kimi təsvir edir [126, s. 12]. Yaqut əl-Həməvi qeyd edir ki, Urmiya ilə Təbriz arasında 3 günlük məsafə var. Xalxalın Azərbaycan şəhəri və əyaləti olduğunu, ərazinin Gilanla sərhəddə yerləşdiyini qeyd edən müəllif buranın dağların əhatəsində olduğundan bəhs edir. Xalxalla Qəzvin arasında 7 günlük məsafə olduğunu göstərən Yaqut əl-Həməvi şəhərin Ərdəbilə 2 günlük məsafədə yerləşdiyini yazır. O, qeyd edir ki, ərazidə keçilməz qalalar çoxdur və hətta Xorasandan qaçarkən o özü bu qalalardan birində gizlənmişdir. Müəllif həmçinin, Salmasın Urmiya ilə Təbriz arasında yerləşdiyini və tanınmış bir şəhər olduğunu bildirir [126, s. 23-26].

Həmdullah Qəzviniyə görə Urmiya gölü sahilində yerləşən Urmiya şəhərinin sahəsi təxminən 10 min (Övliya Çələbiyə görə – 17min) addım olmuşdur. Əyalətdə 120 kəndin yerləşdiyini qeyd edən müəllif  burada torpağın çox münbit və bərəkətli olduğunu yazır [126, s. 48]. Onun məlumatına görə Urmiya şəhəri ilə yanaşı, Xoy və Salmas əraziləri Xoy tümənliyinə aid edilmiş yaşayış məntəqələri olmuşdur (Tümən – Elxanilər və Çağatay dövlətlərində əyalətdən kiçik olan inzibati ərazi (təxminən nahiyə - Y.N.) vahidi kimi qeyd edilir) [91, s. 461-462; 88, s. 149]. Həmdullah Qəzvini böyük bir şəhər olmuş Salmasın müharibələr və daxili çəkişmələr nəticəsində zəiflədiyini və dağıldığını yazırdı. Müəllif yerli sakinlərin döyüşkən olduğunu, daim keçid-

lərdə mübarizə apardığını və “bu çəkişmələrin sanki heç vaxt bitməyəcəyini” xüsusilə vurğulayırdı [126, s. 63; 30, s. 44].

Xalxalın əvvəllər “yaxşı bir şəhər olduğunu” qeyd edən Həmdullah Qəzvini onu artıq 100 balaca kəndlə əhatə olunan bir yaşayış məntəqəsi kimi təsvir edir və Hənidahbil, Sacacrud, Ancilabad və Miscin bölgələri ilə əhatə olunduğunu bildirir. Həmdullah Qəzviniyə görə Firuzabad (Ərdəbil) dağıldıqdan sonra hakimlər artıq Xalxalda yerləşmişdilər. O, maraqlı bir faktı qeyd edir ki, Xalxalın “Deh – Quyu kəndi yaxınlığındakı mağaranın gün çıxan tərəfində yerləşən bulaq yayda belə buzla örtülü olurmuş. Əks tərəfdə yerləşən digər bir bulağın suyunda isə hətta yumurta bişirmək mümkün imiş” [126, s. 44].

H.Ə.Dəlili mənbələrə istinad edərək, Mərkəvər, Tərkəvər, Üşni və Dol əraziləri haqqında məlumat vermişdir. O, Mərkəvərin dağlıq ərazi olduğunu, burada çoxlu su mənbələrinin mövcudluğunu qeyd etmişdir. Müəllif Tərkəvərdə də çeşmə və bulaqların bol olduğunu, Üşninin dağlıq ərazidə yerləşdiyini və gözəl iqlim şəraitinə malik olduğunu bildirmiş, Urmiya gölünün sahilində yerləşən Dolu isə kiçik olmasına baxmayaraq abad bir yer kimi təsvir etmişdir. Burada külli miqdarda duz əldə edildiyi də qeyd olunur [30, s. 69].

M.H.Heydərov XIV əsrin əvvəllərində Urmiya şəhər qala divarlarının uzunluğunun 10 000 addım və qala içi ərazinin isə 564 hektardan çox olduğunu qeyd etmiş və ətraf ərazilər də daxil olmaqla burada təxminən 80 000-100 000 nəfər əhali yaşadığını yazmışdır [116, s. 77-78].

Qeyd edək ki, müasir dövrdə Urmiya İran İslam Respublikasının Qərbi Azərbaycan ostanının (əyalətinin) mərkəzi şəhəri sayılır. Uzunluğu 70 km, eni 30 km olan düzənlikdə yerləşən bu bölgə şərqdən Urmiya gölü, qərbdən Türkiyə Respublikası, cənubdan Soyuqbulaq, Sulduz, Üşnü və şimaldan Salmas mahalları ilə həmsərhəddir. Hal-hazırda Urmiya 5 şəhristan, 20 dəhestan (böyük kənd) və 460 abadidən (kiçik kənddən) ibarətdir. Ümumi sahəsi 5251,185 $km^2$ olan şəhər dəniz səviyyəsindən 1332 metr

yüksəklidə yerləşir. 2006-cı il rəsmi siyahıyaalmasına görə Urmiyanın əhalisi 856 914 nəfərdir [146, s. 57-60].

Müasir dövrdə Xalxal, İran İslam Respublikasının Ərdəbil ostanının əsas bölgələrindən biri sayılır. Xalxal 37° 38′ şimal coğrafi enliyində və 48° 31′ şərq coğrafi uzunluğunda, dəniz səviyyəsindən 1 796 m yüksəklikdə yerləşir [147, s. 197]. Xalxal bölgəsinə 4 bəxş (rayon, əyalət) aiddir: Xanəndbil, Səncəbəd, Xuruş-Rüstəm və İmamrud (əvvəlki adı Şahrud olmuşdur – Y.N.). 1980-ci illərə qədər Xalxal əyalətinin bəxşlərindən biri olan Kağız Konan (müfəssəl dəftərdə Əzdəkin nahiyəsinə aid olduğu qeyd edilir – Y.N.) sonralar Miyanə şəhristanının tərkibinə daxil edilmişdir [147, s. 220]. Göründüyü kimi, Xalxala aid inzibati ərazilərin adları XVIII əsrin əvvəllərində Xalxal livasının nahiyə adları ilə əsasən uyğunluq təşkil edir.

Hal-hazırda şimal-şərqdən Urmiya gölü, cənub-qərbdən Xoy şəhəri, qərbdən Türkiyə Respublikası və cənubdan isə Urmiya şəhərinin yaxınlığında yerləşən Salmas şəhəri isə 44° 46′ şərq coğrafi uzunluqda, 38° 11′ şimal coğrafi enlikdə, dəniz səviyyəsindən 1 430 m yüksəklikdə yerləşir. Məlumatlara görə, Salmas bölgəsi 2 şəhristan, bir bəxş, 8 dəhestandan ibarətdir [148, s. 42].

Məlumdur ki, XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Azərbaycan ərazisində 4 bəylərbəyilik mövcud olmuşdur: Təbriz (Cənubi Azərbaycan), Çuxursəd, Qarabağ və Şirvan. Bu dövrdə Urmiya və Salmas bölgələri Təbriz bəylərbəyliyinin ərazisinə aid edilmişdir. Xalxal ərazisi isə tarixçilərin qeyd etdiyinə görə birbaşa şah sarayından təyin edilmiş hakimlər tərəfindən idarə olunmuşdur [138, s. 89].

Müəlliflər həmin dövrdə Urmiya torpaqlarında türkman əşirətlərinin çox sıx yaşadığını qeyd edirlər. Hələ XVII əsrin əvvəllərində Urmiyanı Əfşar Kəlbəli Sultan idarə etmişdir [65, s. 101-102]. XVII əsrin 50-ci illərində şəhəri Gəncəli xan idarə etmiş və o, "dövrünün elm və biliklərinin mahir bilicisi, alim və fəzilət sahibləri ilə maraqlanan bir şəxs olmuşdur" [144, s. 237].

Bir vaxtlar Əmir Teymurun əfşarlara timar olaraq verdiyi güman edilən Urmiyanı XVIII əsrin əvvəllərində də bu tayfanın

nümayəndələri idarə etmişdirlər. Mənbələrə görə bölgəyə təyin edilən əfşar bəyləri bəylərbəyi titulu alırdılar. XVIII əsrin əvvəllərində, osmalıların Urmiyanı fəthi dövründə burada Xudadat bəy Qasımlı (1707-1722), Osmanlı idarəçiliyindən sonra isə Fətəli xan Ərəşli (1744-1758) hakimlik etmişlər [65, s. 102].

Urmiyanın osmanlılar tərəfindən fəthi ərəfəsində şəhərin hakimi əfşar tayfasından Məhəmməd xan (1725-1731) olmuşdur. 1725-ci ilin sonlarında Osmanlı tabeçiliynə keçmiş Urmiya sancaq (liva) statusu ilə Məhəmməd xanın idarəçiliyində qalmışdır. İdarəçiliyin bir müddət digər tayfaların nümayəndələrinin əlinə keçməsinə baxmayaraq, XIX əsrin sonlarına qədər bu əraziləri əfşar bəyləri idarə etmişlər [65, s. 61-62].

Qeyd edək ki, Osmanlı mənbələrində Urmiya, Xalxal və Salmasın inzibati bölgüsü ilə bağlı fərqli məlumatlar vardır. Belə ki, XVI əsrə aid Osmanlı mənbələrində Urmiya, Salmas və Xoy sancaqlarının Təbrizə aid olduğu bildirilir və "xass-ı hümayun üçün yararlı yerlər" olduğuna görə təhrir edilməsinin vacibliyi qeyd edilir [65, s. 54;18]. Beləliklə, məlum olur ki, Urmiya və Salmas XVI əsrdə Təbriz əyalətinin tərkibində sancaq (liva) statusunda olmuşdur. Lakin Azərbaycan əraziləri üçün tərtib olunan Osmanlı sənədləri arasında XVI əsrə aid Urmiya və ya Salmas üçün tərtib edilmiş təhrir dəftərləri yoxdur. Ona görə də belə nəticəyə gəlmək olar ki, XVI əsr Osmanlı hakimiyyəti dönəmində Urmiya və Salmas ərazilərinə aid təhrir məlumatları Təbriz əyalətinin göstəricilərinə daxil edilmişdir.

XVI əsrə aid digər Osmanlı sənədində "fəthdən 10 il keçməsinə baxmayaraq, Urmiya və Salmas sancaqlarının hələ də təhrir olunmadığı" qeyd edilmişdir [65,s. 36; 15]. 1593-cü il tarixli hökmdə isə "Xoy və Salmas nahiyələrinin ayrı-ayrı sancaq olması uyğun görülmədiyi, bu səbəbdən hər ikisinin bir sancaq halında" təşkil olunması ilə bağlı məlumat verilmişdir [65, s. 51; 19]. XVIII əsrin əvvəllərinə aid sənəddə isə artıq Urmiya əyalət, Xalxal isə sancaq olaraq göstərilmişdir [65, s. 102; 21].

Beləliklə, XVI-XVIII əsrin əvvəllərinə aid Osmanlı mənbələrində Urmiya, Xalxal və Salmas bölgələrinin müxtəlif statuslu inzibati ərazilər kimi qeyd olunduğunu görürük.

Mənbələrdə və tarixi əsərlərdə təqdim olunan məlumatlar, şübhəsiz, nadir və qiymətlidir, lakin qeyd edilən bölgələrin idarəçilik sistemi və inzibati bölgüsü haqqında dəqiq və ətraflı məlumat vermir. Ona görə dəbu ərazilərin iqtisadi həyatı, idarəçilik sistemi ilə bağlı zəngin məlumatları əhatə etdiyi üçün əsas tədqiqat obyekti kimi "Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi" seçilmişdir.

XVIII əsrin 20-ci illərində Urmiya, Xalxal və Salmas əraziləri Osmanlı idarəçiliyinə keçdikdən sonra onlarla bağlı aparılan siyahıyaalmanın nəticələrinin eyni müfəssəl dəftərdə toplanması, əslində, mövcud təcrübəyə görə bu yaşayış məntəqələrinin bir inzibati ərazi vahidi kimi qəbul edilməsi demək idi. Coğrafi ərazi yerləşimi baxımından yaxın olan Urmiya və Salmas bölgələrindən fərqli olaraq, nisbətən uzaq məsafədə yerləşən Xalxal bölgəsinin təhrir göstəricilərinin eyni müfəssəl dəftərə daxil edilməsinin səbəbini izah etmək çətinlik yaradır.

Tədqiqata cəlb etdiyimiz "Xalxal və Urmiya livaların müfəssəl dəftəri"ndə əks olunmuş Urmiya, Xalxal və Salmas bölgələrinin inzibati məsələlərilə bağlı təhlilə keçməzdən əvvəl dəftərin bəzi tərtib xüsusiyyətlərini qeyd etmək istərdik.

Ümumiyyətlə, qeyd edilən vergi sənədinin tərtib və struktur xüsusiyyətləri o dövrün təhrir dəftərləri ilə oxşardır. Daha dəqiq desək, haqqında danışılan müfəssəl dəftərin ilk səhifəsində siyahıyaalmaya cəlb edilən bölgələrin – Urmiya, Xalxal livaları və Salmas qəzasına aid nahiyələrin *fihristi* (mündəricatı – Y.N) verilmişdir. Nahiyələrin fihristindən sonra sıralama ilə kəndlərin adları, həmin kəndlərdə yaşayan və vergiyə cəlb edilən ailə başçılarının adı, atasının adı, aid olduğu vergi qrupu xüsusi işarə ilə qeyd olunmuşdur. Dəftərin özəlliklərindən biri də budur ki, adı qeyd olunan kəndin digər bir adı olduqda, bu, sənəddə xüsusi qeyd edilmişdir. Məsələn: "Əhmədabad kəndi, digər adı Ağcaqaya, qeyd edilən nahiyəyə tabedir" [10, s. 3].

Əgər kənd, məhəllə, *məzrəə* (əkin və ya otlaq yeri kimi istifadə olunan boş torpaq sahəsi) [92, s. 608], qışlaq, yaylaq başqa bir kənddə və ya ona yaxın məsafədə yerləşmişsə, o zaman onun adından sonra "nəzd-i" sözü yazılmışdır. Sonda isə həmin kəndin hansı nahiyəyə tabe olması ilə bağlı xüsusi qeyd əlavə olunmuşdur. Məsələn: "Mamanlı kəndinin və Xəlifə bulağı kəndinin yanında yerləşən məhəllə. Qeyd edilən nahiyəyə tabedir" [10, s. 123].

Müfəssəl dəftərdə həmçinin kəndin ərazisində müəyyən bir şəxsin xüsusi torpaq sahəsinin (zəmin) olması və bu ərazinin həcmi haqqında da məlumat vardır. Məsələn: "Elxani Haqnəzər oğlunun (əlində olan) torpaq sahəsi (zəmin), 100 *dönüm"* [10, s. 18].

Qeyd etdiyimiz kimi, nahiyənin tərkibində olan kəndin adı göstərildikdən sonra ərazidə yaşayan və vergi mükəlləfiyyəti daşıyan hər bir ailə başçısı və subayların adları siyahıda göstərilmişdir. Təhrir qaydalarına uyğun olaraq, siyahıda əvvəlcə ailə başçısının, sonra onun oğullarının (əgər varsa) adları yazılırdı. O biri oğulun adı göstərildikdən sonra atasının adı əvəzinə "vələd-i o" yazılırdı. Bu həmin şəxsin adından əvvəl yazılmış atasının adına işarədir. Məsələn: "Sefer veled-i Melik, ç, Musa veled-i o. m". "Səfər Məlik oğlu, ç. Musa onun oğlu, m". Siyahıda şəxsin 2 və daha artıq oğlunun adı yazılmışsa, onların adından sonra "veled-i diger" qeydi edilmişdir: Məsələn: "Ali, veled-i diğer" – "Əli, onun digər oğlu". Ailə başçısının qardaşının adından sonra "berader-i o" və ya "beraderzade-i o" yazılırdı. Məsələn: "Mustafa berader-i o" – "Mustafa, onun qardaşı".

Bu maliyyə-vergi sənədində adları siyahıya alınmış şəxslərin adı, ata adından sonra aid edildikləri vergi qruplarına uyğun qeydlər edilmişdir. Əkib-becərdikləri torpağın olub-olmamasından, ölçüsündən, eləcə də dini mənsubiyyətindən asılı olaraq kəndli *"çift", "nim çift", "bennak", "mücərrəd", "caba", "ispəncə"* kimi vergi növləri ödəməli idi. Məlumat üçün qeyd edək ki, "çift" vergisini evli, torpağı müəyyən edilmiş ölçüyə malik olan, "nim çift" vergisini evli, lakin çiftin yarısı qədər torpağı olan şəxslər ödəməli idilər. Torpağı yarım çiftdən az olan evlilər "bennak",

evli, lakin torpaqsız şəxslər "caba", torpaqsız subaylar isə "mücərrəd" vergisi ödəməyə borclu idilər. Ərazidə yaşayan qeyri-müsəlmanlara "ispəncə" vergisi təyin edilirdi (vergilərlə bağlı geniş məlumat müvafiq bölmədə qeyd edilmişdir – Y.N.). Müfəssəl dəftərin tərtib prinsiplərinə uyğun olaraq, vergiyə cəlb edilən şəxslərin adları 1 sətirdə 5 sütun olmaqla yazılmışdır.

Müfəssəl dəftərdə hər kəndin vergi ödəyən şəxslərinin adlarından sonra *"Hasil"* bölümündə hər bir məhsul və digər mənbə üzrə ödəniləcək verginin adı və miqdarı (ağça ilə qarşılığı) göstərilmişdir. Ümumi vergilərin siyahısında istehsal sahəsinə aid olmayan, lakin kənd əhalisinin ödəməli olduğu vergilər də qeyd olunmuşdur. Kənddən ərə verilən qıza (və ya dul qadına) görə qaçmış və geri qaytarılmış qul və cariyələrə görə itmiş heyvanın tapılmasına görə müjdə və digər təyin edilmiş vergi növlərinin miqdarı (ağça ilə) *"Niyabət"* qrupunda göstərilmişdir.

Sihayıyaalma işlərinin aparıldığı bölgənin əhalisinə təsərrüfatlarında əkib-becərdikləri kənd təsərrüfatı məhsullarına görə təyin edilən vergilərdən başqa bazar fəaliyyəti və digər sahələrə görə ödəyəcəkləri vergilərin adları *"Müqatiə"* (dövlətə məxsus gəlir qaynaqlarının müəyyən məbləğ qarşılığında icarəyə verilməsi) və *"Beyt-ül mal"* (gözlənilməz hadisələrə görə ödənilən vergilər) bölməsində göstərilmişdir.

Kənddə yaşamış vergi mükəlləfiyyətli şəxslərin adlarına və "Hasil" bölümündə qeyd edilən məlumatlara əsasən, nahiyə və livalarda yaşayan əhalinin ümumi sayı, məşğuliyyəti, gəliri və nəhayət, bölgənin iqtisadi durumu haqqında məlumat əldə etmək mümkündür. Bundan başqa, müfəssəl dəftərdə adı qeyd edilən inzibati ərazilərdə əhalinin sosyal tərkibi, etnik və demoqrafik vəziyyətin araşdırılmasına aid qiymətli məlumatlar vardır. Bu isə orta əsr tarixi mənbələrində ətraflı işıqlandırılmayan bir mövzu olduğu üçün çox əhəmiyyətlidir.

Maliyyə-vergi sənədinin məlumatlarına görə, Urmiya livasının tərkibinə 7 nahiyə – Bənapərvazə, Bəldə, Səhrabad, Dol, Mərkəvər, Tərkəvər, Üşni nahiyələri və livanın mərkəzi sayılan *"nəfs-i Urumi"* (Urmiya şəhəri) aid olmuşdur. Müfəssəl dəftərin

171 – 357-ci səhifələri Urmiya livasının təhrir məlumatlarını əhatə edir. Xalxal livasına 5 nahiyə – Əzdəkin, Səncəbəd, Xanəndbil, Xuruş-Rüstəm və Şahrud daxil edilmişdir. Livanın təhrir göstəriciləri müfəssəl dəftərin 3 – 170-ci səhifələrində verilmişdir. Müfəssəl dəftərdə təhrir məlumatları verilmiş digər bölgə isə Salmas qəzasıdır. Osmanlı dövründə Salmas qəzası Salmas, Ənzəl, Qarabağ, Kürdqıran nahiyələrini və “nəfs-i Salmas”ı (Salmas şəhəri) əhatə etmişdir. Qəzanın təhrir məlumatları müfəssəl dəftərin 358 – 409-cu səhifələrində əks olunmuşdur. Ümumiyyətlə, müfəssəl dəftərdə livaların tərkibində “nəfs-i” sözü ilə yazılmış 2 liva mərkəzi və 1 qala olmaqla 3 inzibati vahid qeydə alınmışdır. Bu sözlə qeydə alınmış yaşayış məntəqəsinin şəhər və ya qəsəbə statusunda olması, eləcə də sözün anlamı haqqında Osmanlı mənbələrində dəqiq fikir bildirilməmişdir [35,s.79]. F.Dəvəllioğlunun tərtib etdiyi “Osmanlıca lüğət”də “nəfs” sözünün yaşayış məskəninin adı ilə birlikdə işlənmiş formasının tərcüməsi “içi” kimi verilmişdir: “nəfs-i Ankara” – Ankaranın içi [70, s. 979].

Urmiya livasının tərkibinə aid nahiyələrlə bağlı məlumatlar cədvəl 2.1.1.-də təqdim edilmişdir.

*Cədvəl 2.1.1.*

**Urmiya livasının inzibati quruluşu, kənd və digər ərazilərinin sayı**

| Nahiyələr | Kənd və digər ərazilər | | | | |
|---|---|---|---|---|---|
| | Məskun | Qeyri-məskun | Məzrəə | Yaylaq | Yekun |
| Urmiya şəhəri | 9 | - | - | - | 9 |
| Bənapərvazə | 79 | 12 | 2 | - | 93 |
| Bəldə | 54 | 4 | - | - | 58 |
| Səhrabad | 33 | 29 | 2 | - | 64 |
| Dol | 7 | 10 | 2 | - | 19 |
| Mərkəvər | 29 | 18 | 1 | 1 | 49 |
| Tərkəvər | 15 | - | - | - | 15 |
| Üşni | 28 | 2 | - | - | 30 |

Hesablamalardan məlum olur ki, Urmiya livasının nahiyələrinin tərkibində olan 329 kəndin 254-ü məskun, 75-i qeyri-məskun olmuşdur. Livanın ərazisində 7 məzrəə qeydə alınmışdır. Məlumdur ki, məzrəələr digər yaxın kəndlərin əhalisi tərəfindən əkin və ya otlaq yeri kimi istifadə edilmiş boş ərazilər olmuşdur. Liva üzrə qeydə alınmış kəndlərin 27,7%-i Bənapərvazə nahiyəsində, 17,6%-i Bəldə nahiyəsində, 18,8%-i Səhrabadda, 5,2%-i Dol nahiyəsində, 14,3%-i Mərkəvərdə, 4,6%-i Tərkəvərdə, 9,1%-i isə Üşnidə yerləşmişdir. Urmiya şəhərinə aid bu rəqəm 2,7% olmuşdur. Təhrir məlumatlarında Urmiya şəhərinin tərkibində 9 inzibati vahiddən başqa 6 məhəllənin də olduğu göstərilir. Bunlar Bazarbaşı, Xızıran, Kürdşəhir, Əli Kürki, Hindu və Çarşı məhəllələridir.

Cədvəldən göründüyü kimi, Urmiya livasının müfəssəl dəftərdə qeydə alınmış kəndlərinin ümumi sayının 77,2%-i məskun, 22,8%-i isə qeyri-məskun (və ya rəiyyəti olmayan, tərk edilmiş, boşalmış) kimi göstərilmişdir.

Təhrir göstəricilərinin araşdırılması nəticəsində Urmiya livasının tərkibində olan 8 kəndin (Bənapərvazə nahiyəsində 3 kənd, Bəldə nahiyəsində 4 kənd) gəlirlərinin Urmiya şəhərində yerləşən "Cameyi-Kəbir" vəqfinə aid olması müəyyən edilmişdir.

Mənbələrdə Urmiya şəhərində vaxtilə Ağqoyunlu hökmdarı Uzun Həsən (1453-1478) zamanında inşasına başlanılmış, sonradan oğlu Sultan Yaqub (1478-1490) tərəfindən tamamlanmış Uzun Həsən camesi ("Cameyi-Kəbir") haqqında məlumatlar vardır [65, s. 68-69]. Qeyd edilən vəqflə bağlı dəftərdə ətraflı məlumat verilməmişdir. Buradakı məlumatlar yalnız Urmiya livasına bağlı bir neçə kəndin "Cameyi-Kəbir" vəqfinə aid olmasından ibarətdir. Təhrir göstəricilərinə əsasən, vəqf kəndlərinin, əsasən, məskun ərazilər olduğu müəyyən edilmişdir. Həm Urmiya, həm də Xalxal livasında fəaliyyət göstərmiş dini təsisatlarla bağlı müvafiq paraqrafda daha ətraflı məlumat verilmişdir.

Müfəssəl dəftərin məlumatlarından bu nəticəyə gəlmək olur ki, Urmiya livasının təhriri aparılmış ərazilərinin çox hissəsi məskun yerlər olmuşdur. Bu isə fikrimizcə, Urmiya livasının yaşayış yerlərinin ənənəvi karvan ticarət yolunun üstündə yerləşməsi və Urmiya şəhərinin bu yoldakı əsas gömrük məntəqələrindən biri kimi fəaliyyət göstərməsi ilə bağlı olmuşdur. Qeyd etmək lazımdır ki, tranzit yolların üzərində yerləşən şəhərin əsas gəlir mənbələrindən biri də məhz gömrük vergisi idi [65, s. 234; 31, s. 60]. V.Minorski "Təzkirət əl-mülük"ə əsasən qeyd edirdi ki, sərhəd gömrük məntəqələrində vergi malın yük sayına görə alınırdı və mal sahibinin 4 yükündən yalnız biri vergidən azad olunurdu [100, s. 363].

Bu dövrdə Urmiya livasına aid olan nahiyələrin məskunluq dərəcəsinə görə fərqləndiyini qeyd edə bilərik. Belə ki, siyahıya alınmış kəndlərin sayına görə Urmiya livasının ən böyük nahiyəsi hesab olunan Bənapərvazə nahiyəsi kəndlərinin 84,9%-i, Bəldə nahiyəsi kəndlərinin 93%-i, Səhrabad nahiyəsinin kəndlərinin 54,6%-i, Dol nahiyəsi kəndlərinin 36,8%-i, Mərkəvər nahiyəsi kəndlərinin 59,1%-i, Üşni nahiyəsi kəndlərinin 93,3%-i məskun kəndlər olmuşdur. Livanın Tərkəvər (15 kənd) nahiyəsi, Urmiya şəhəri və ətrafında yerləşən ərazilər də daxil olmaqla məskun yerlər kimi təsbit edilmişdir.

Osmanlı hakimiyyəti dövrü Xalxal livasının Əzdəkin nahiyəsində 100, Səncəbəd nahiyəsində 75, Xanəndbil nahiyəsində 107, Xuruş-Rüstəm nahiyəsində 14, Şahrud nahiyəsində isə 32 yaşayış məntəqəsi (qərye/kənd) qeydə alınımışdır. Ümumilikdə Xalxal livasının 328 kəndinin 190-ı məskun, 138 kəndi isə qeyri-məskun olmuşdur. Livanın tərkibində 34 məzrəə, 6 qışlaq və 3 yaylaq qeydə alınmışdır. Müfəssəl dəftərin məlumatlarına görə Əzdəkin nahiyəsində Bədicqanlı camaatına məxsus ailələrin yaşadığı müəyyən edilmişdir. Cədvəl 2.1.2-ə diqqət edək:

*Cədvəl 2.1.2.*

**Xalxal livasında qeydə alınmış yaşayış məskəni və ərazilərin təsnifatı**

| Nahiyələr | Əzdəkin | Səncəbəd | Xanəndbil | Xuruş-Rüstəm | Şahrud | Yekun |
|---|---|---|---|---|---|---|
| Kəndlər | 100 | 75 | 107 | 14 | 32 | 328 |
| Qeyri-məskun | 18 | 63 | 38 | 3 | 16 | 138 |
| Məskun | 82 | 12 | 69 | 11 | 16 | 190 |
| Məzrəələr | 20 | 6 | 3 | 4 | 1 | 34 |
| Qışlaq | 3 | - | 3 | - | - | 6 |
| Yaylaq | 1 | - | 2 | - | - | 3 |

Xalxal livasının nahiyə və kəndlərinə aid göstəricilərin təhlili zamanı yaşayış məskənlərinin 42,1%-nin qeyri-məskun olduğu müəyyən edilmişdir. Siyahıyaalma sənədində belə kəndlərin adı yazıldıqdan sonra *"hal-i an er-reaya"* qeyd edilmişdir ki, bu da həmin ərazinin yaxın vaxtlarda tərk edildiyi və əhalisiz qaldığı anlamına gəlirdi. Şübhəsiz, livadakı bu vəziyyət dövrün ağır hərbi-siyasi hadisələri ilə bağlı idi. Bölgədə uzun müddət davam etmiş ağır hərbi əməliyyatlar yaşayış məskənlərində sosial-iqtisadi problemlərin dərinləşməsi ilə nəticələnmiş, yerli əhalinin qazanc və gəlir əldə etmək məqsədilə nisbətən əlverişli ərazilərə köç etməsinə səbəb olmuşdur. Livanın Əzdəkin və Xanəndbil nahiyələri kənd sayı daha çox olan və məskun nahiyələr kimi təqdim olunur (müvafiq olaraq 100 və 107 kənd). Ən çox məzrəə Əzdəkin nahiyəsində (20 məzrəə) qeydə alınmışdır. Səncəbəd nahiyəsinin kəndlərinin 84%-i (63 kənd) boş (rəiyyəti köçüb getmiş) olmuşdur.

Müfəssəl dəftərin məlumatlarında Xalxal livasının tərkibində zaviyələrə aid kəndlərin olması haqqında da qeydlər var. Məlumdur ki, zaviyə – hörmətli şəxslərə (xüsusən, dərvişlərə) vəqf edilən məkan (yaşayış məskəni) kimi səciyyələndirilir. Zaviyələrin digər bir funksiyası şəhər və qəsəbələrdə daha çox yol kənarlarından keçən insanların dincəlməsi və istirahət etməsini təmin etmək idi. Müfəssəl dəftərdə livanın Səncəbəd (3 kənd) və Xanəndbil (5 kənd) nahiyələrindəki 8 kəndin ad göstəricisindən sonra zaviyəyə məxsus kəndlər olması barədə məlumat verilmişdir. Xanəndbil nahiyəsindəki Mişəcin kəndinin məzrəəsi də zaviyəyə aid olmuş və bu məzrəənin gəlirləri qeyd edilən kəndin gəlirinə əlavə edilmişdir. Həmçinin, Xanəndbil nahiyəsinin Seyliyan kəndindən başqa digər 7 zaviyə kəndinin əhalisinin Osmanlı fəthindən sonra yaşadıqları yerləri tərk etdiyi müəyyən olunmuşdur. Bu barədə daha ətraflı məlumat "Urmiya və Xalxal livalarında vəqf təsisatları" başlıqlı bölmədə verilmişdir.

Müfəssəl dəftərdə təhrir göstəriciləri verilmiş digər bir ərazi isə Salmas qəzasıdır. Bu məlumatlara əsasən, Salmas qəzasının tərkibində 77 kənd, 1 məzrəə və 1 məhəllə qeydə alınmışdır. Qəzanın ən böyük nahiyəsi Salmas nahiyəsi olmuşdur. Nahiyənin tərkibində 1 şəhər, 59 kənd və 1 məzrəə olduğu göstərilmişdir. Bu kəndlərdən 50-i məskun, 9-u isə qeyri-məskun kənd kimi qeyd edilmişdir. Qəzanın Ənzəl nahiyəsində 7 kənd, Qarabağ nahiyəsində isə bütün kəndlər (3 kənd) məskun olmuşdur. Qeyd edək ki, tarixi mənbələrdə Ənzəlin hələ XVII əsrin əvvəllərində Yəhya bəy və onun sülaləsi tərəfindən idarə olunması haqqında məlumatlar vardır [30, s. 71]. Kürdqıran nahiyəsinin 8 kəndinin 4-ü məskun, 4-ü isə qeyri-məskun kənd kimi göstərilmişdir. Bu nahiyənin tərkibində həmçinin, adı qeyd edilməyən məhəllənin olduğu göstərilmişdir. Cədvəl 2.1.3-də Salmas qəzasının inzibati quruluşuna aid məlumatlar verilmişdir.

*Cədvəl 2.1.3*

**Salmas qəzasının inzibati quruluşu**

| Nahiyələr | Kəndlər və məzrəələr | | |
|---|---|---|---|
| | **Məskun** | **Qeyri-məskun** | **Məzrəə** |
| Salmas | 50 | 9 | 1 |
| Ənzəl | 7 | - | - |
| Kürdqıran | 4 | 4 | - |
| Qarabağ | 3 | - | - |
| Yekun | 64 | 13 | 1 |

Bölmənin sonunda mühüm bir məsələyə də diqqət çəkmək istərdik ki, bu da müfəssəl dəftərdə Urmiya, Xalxal livaları və Salmas qəzasının tərkibində olan yer adları ilə bağlıdır.

"Xalxal və Urmiya livalarının müfəssəl dəftəri" XVIII əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi tarixi ilə yanaşı, toponimik araşdırmalar üçün qiymətli məlumatlarla da zəngindir. Ümumiyyətlə, müfəssəl dəftərdə qeyd olunan yaşayış məskənlərinin adları Azərbaycan toponimikasının tədqiqi üçün geniş imkanlar yaradır. Məlumdur ki, toponimlər xalqların məskunlaşması, ərazilərin mənimsənilməsi və inkişafı məsələlərinin tədqiqi zamanı müraciət edilən mühüm mənbələrdəndir. Tədqiqatçı alim G.Ə.Hacıyeva, Z.İ.Yampolskiyə istinadən, e.ə. XIV əsrdə Urmiya gölü ətrafında türklərin yaşadığı faktını göstərmiş, tarixən Cənubi Azərbaycan zonasında yaranıb formalaşmış və dövrümüzə qədər qorunub saxlanmış türk (Azərbaycan) mənşəli yer adlarının üstünlük təşkil etdiyini təsbit etmişdir [38, s. 19].

Tədqiqatçılar qrammatik qanunauyğunluğa əsasən, əmələgəlmə və formalaşma xüsusiyyətlərinə görə yer adlarının müxtəlif şəkildə təsnifatını verərək, toponimlərin quruluşuna görə bir neçə qrupa (leksik-semantik, morfoloji, semantik) ayrıldığını göstərmişlər [38, s. 58-60]. Bu qanunauyğunluq əsasında müfəssəl dəftərdə qeyd olunan yaşayış məskənlərinin adları incələnər-

kən leksik-semantik qrupa aid sadə toponimlər kimi Xalxal livasının tərkibində olan Oraq, Diz, Ələv, Türk, Kərəc, Kəmər və s. kənd adları müəyyən edilmişdir.

Müfəssəl dəftərin məlumatları əsasında morfoloji yolla (şəkilçilərlə) düzələn yer adları nümunələrini aşağıdakı kimi qruplaşdırdıq:

-lı (-li, -lu, -lü) – Xalxalda: Burqanlı, Ozanlı; Urmiyada: Dədəli, Köçərli, Əkərli; Salmasda: Burşanlı, Kükrəli, Birkuşlu, və s.

-çı (-çi, -çu, -çü) – Xalxalda: Saqqızçı; Urmiyada: Altunçu, Sarçı, Topçu; Salmasda: Qulançı, və s.

-cıq (-cik, -cuq, -cük) – Xalxalda: Əndərcıq; Urmiyada: Saraycıq, Barucuq, Pəmbəcik; Salmasda: Tikəcıq, Muğancıq və s.

Bundan başqa Çinarlıq, Aralıq, Tuğluq, Pirlük, Qaracalar, Qayacaq və Kavducaq toponimləri də qeyd edilən qrupa aid yer adlarıdır.

Müfəssəl dəftərdə göstərilən toponimlərin bir hissəsi sintaktik yolla yaranmış coğrafi adlardır. Bunlar da bir neçə növdür:

- isim+isim: Gülağacı, Qırgül, Naxçıvantəpə, Qurdtəpə, və s.
- sifət+isim: Ağkənd, Ağcanur, Ağcadaşbulaq, Göytəpə, Soyuqbulaq, Əyri ağac, Başsızgələn və s.
- isim+sifət: Yarköhnə.
- isim+feli sifət: Güngörməz, Canalmaz və s.

Q.Hacıyeva türk xalqlarının toponimiyası üçün səciyyəvi xüsusiyyətlərdən biri kimi əlamət bildirən sözlərin terminlərlə birləşərək geniş şəkildə işlənməsini qeyd etmişdir [38, s. 63-64]. Bu hal Urmiya, Xalxal və Salmasın yer adlarının tədqiqində də müəyyən edilmişdir. Məsələn; Ağcanur, Soyuqbulaq, Əyri ağac, Ağkənd, Güngörməz, Canalmaz və s.

Araşdırma zamanı XVIII əsrin əvvəllərində Urmiya, Xalxal və Salmas ərazilərində yerləşən yaşayış məskənlərinin adlarının əmələgəlmə və formalaşma xüsusiyyətlərinə görə əksəriyyətinin

mənşəyinin, əsasən, türk (Azərbaycan) dili ilə bağlı olduğunun müəyyən edilməsi qeyd edilən ərazilərin qədim türk torpaqları olduğu ilə bağlı fikirlərin təsdiqi üçün qiymətli arqumentlərdir.

Nəzərə alsaq ki, təhrir sənədində adları siyahıya alınmış türk mənşəli adlar daşıyan bəzi kəndlərdə müsəlman (türk) əhali ilə yanaşı, qeyri-müsəlmanlar da yaşamışdır, o zaman bu fakt bir sıra mübahisəli məsələlərin həllində də həlledici rol oynaya bilər. Belə ki, qeyri-müsəlmanların yaşadığı ərazilərdə kənd adlarının, əsasən, türk mənşəli olması türklərin (müsəlmanların) həmin yerlərdə daha əvvəl məskunlaşmasını və müsəlman olmayanların buraya sonradan köçüb gəlməsini ehtimal etməyə əsas verir. Məsələn, Urmiya livasının Naxçıvantəpə, Emrudağac, Qaragöz, Salmas qəzasının Kəngərli və s. kəndlərində müsəlman (türk) əhali ilə yanaşı qeyri-müsəlmanların da yaşadığı müəyyən edilmişdir.

Göründüyü kimi, “Xalxal və Urmiya livalarının müfəssəl dəftəri” XVIII əsrin 20-ci illərində Urmiya, Xalxal livaları və Salmas qəzasında iqtisadi durumla yanaşı, idarəetmə və inzibati bölgü, eləcə də, bölgədə yerləşən inzibati ərazilərin adları ilə bağlı araşdırmaların aparılması və bir sıra digər məsələlərin müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir.

## 2.2. Urmiya, Xalxal livalarının və Salmas qəzasının etnodemoqrafik vəziyyəti

XVIII əsrin əvvəllərində imperiya daxilində siyasi-hərbi gərginlik davam etməkdə idi. Bu isə bölgənin etnik və demoqrafik vəziyyətinə öz təsirini göstərirdi. Birbaşa insan amili ilə bağlı olan əkinçilik və heyvandarlıqda böhranlı vəziyyət yaranmışdı. Belə ki, torpağı əkib-becərən kəndlilər bölgədə baş verən hərbi qarşıdurmalar nəticəsində ziyan dəymiş və dağıdılmış təsərrüfatları tərk etmək məcburiyyətində qalırdı. Hərbi qarşıdurmalar zamanı ənənəvi "yandırılmış torpaq" metodundan istifadə edilməsi geniş yayılmışdı [138, s. 78]. Qarşı tərəfin hərbi qüvvələrinin keçə biləcəyi yolların ətrafındakı şəhər və kəndlərin əhalisi köçürülür, təsərrüfatlar dağıdılır və yandırılırdı. Osmanlı tarixçisi Naima hərbi əməliyyatların birində bu səbəbdən, Səfəvi torpaqlarına hücuma hazırlaşan Osmanlı ordusunun qışlamaq üçün başqa ərazini seçməsinə məcbur olduğunu yazırdı [89, s. 556]. Digər tərəfdən, müharibələrdə tez-tez istifadə edilən "məcburi köçürmə"– sürgün siyasəti nəticəsində kəndlilər doğma yerlərini tərk etməyə məcbur edilirdi. Tarixi qaynaqlardan görünür ki, XVII əsrin əvvəllərində Azərbaycandan 70 minədək əhali məcburi olaraq İranın daxili bölgələrinə köçürülmüşdür. "Böyük sürgün" adlanan bu köçürülmədə insanların əksər hissəsi məhv olmuşdu [125, s. 277].

XVIII əsrin əvvəllərində Osmanlı–Səfəvi müharibələri, bunun nəticəsində əmələ gələn və insanların kütləvi şəkildə məhvinə səbəb olan epidemiya və xəstəliklər bölgədə əhali məskunluğunun seyrəkləşməsinə, kəndlərin dağılmasına və təsərrüfatların boş qalmasına gətirib çıxarmışdı [30, s. 70]. Başqa sözlə, əhalinin öz yerlərindən köçüb getməsi bölgəni tam mənası ilə məhsulsuz və "bəhrəsiz" qoymuşdu [125, s. 285]. Yerli əhalinin daha təhlükəsiz və nisbətən əlverişli ərazilərə getməsi, köçəri və

yarımköçəri ailələrin boş qalmış kəndlərdə və təsərrüfatlarda məskunlaşması bölgənin demoqrafik vəziyyətinin qeyri-sabitliyinə də səbəb olurdu.

İmperiyanın müxtəlif ərazilərində demoqrafik dəyişikliklərin əsasını daha çox kənd təsərrüfatında çalışan əhalinin "köçlər" və "köçürmələr" nəticəsində sayının mexaniki artımı və ya azalması təşkil edirdi. Məhz təhrir dəftərlərinin araşdırılması və onlarda təsbit olunmuş məlumatların təhlili bölgədə cərəyan edən proseslərin daha dəqiq izlənməsinə və demoqrafik dəyişikliklərin xüsusiyyətlərinin müəyyən edilməsinə şərait yaratmışdır.

"Xalxal və Urmiya livalarının müfəssəl dəftəri"nin məlumatları XVIII əsrin əvvəllərində Urmiya, Xalxal və Salmasda əhalinin sosial strukturunun, onun yerləşmə xüsusiyyətlərinin öyrənilməsində, eləcə də demoqrafik proseslərin fonunda iqtisadi münasibətlərin müəyyən edilməsində xüsusi əhəmiyyət daşıyır.

Osmanlı idarəçiliyi dövründə Urmiya livasının əhalisi livanın 329 kəndində və 1 liva mərkəzində (Urmiya şəhəri), Xalxal livasının əhalisi livanın 328 kəndində, Salmas qəzasının əhalisi isə qəzanın 77 kəndində və qəza mərkəzində (Salmas şəhəri) yaşamışdır. Xalxal livasında yaşayan əhalinin tərkibi yalnız müsəlmanlardan ibarət olmuşdur. Daha dəqiq desək, livanın vergi mükəlləfiyyəti daşımış şəxslərinin ödəmiş olduqları vergilərə, həmçinin ad və ata adlarına görə dini cəhətdən müsəlman olmalarını təyin etmək mümkündür. Urmiya livasında və Salmas qəzasında isə müsəlmanlarla yanaşı qeyri-müsəlman əhalinin yaşadığına aid qeydlər də öz əksini tapmışdır.

Osmanlı hakimiyyəti dövründə Urmiya livasının kəndlərində 4 374 vergi ödəyicisi qeydə alınmışdır. Müfəssəl dəftərin məlumatlarında onlardan 1971 nəfər evli ("çift" + "nim çift"+"bennak"), 1 013 nəfər isə subay ("mücərrəd") olaraq göstərilmişdir. Müfəssəl dəftərin özəlliklərindən biri də budur ki, verilən statistik təhrir məlumatlarına əsasən, bölgədə yaşayan əhalinin ümu-

mi sayını müəyyən etmək mümkündür. Belə ki, 1 ailənin 5 nəfərdən ibarət olması meyarını qəbul edərək [61, s. 22-23] bölgədə yaşayan insanların təqribi sayını müəyyən edə bilərik. Bu hesablamalara livada yaşayan qeyri-müsəlmanların (520 nəfər), adları siyahıya alınmış, lakin bu və ya digər səbəbdən vergi mükəlləfiyyətinə cəlb edilməyən (əsasən, Urmiya şəhərinin məhəllələrində yaşayan – 500 nəfərdən çox əhali) insanların da sayını əlavə etməklə Osmanlı hakimiyyəti dövründə Urmiya livasında təxminən 12 minə yaxın əhalinin yaşadığını söyləyə bilərik (bax: cədvəl 2.2.1).

*Cədvəl 2.2.1*

**Urmiya livasında yaşayan vergi ödəyicilərinin ümumi sayı**

| **Nahiyələr** | **Bənapərvazə** | **Bəldə** | **Səhrabad** | **Dol** | **Mərkəvər** | **Tərkəvər** | **Üşni** | **Urmiya şəhəri** | **Yekun** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Vergi ödəyicilərinin sayı | 1328 | 643 | 250 | 60 | 141 | 97 | 267 | 1587 | 4374 |
| Faizlə | 30,4% | 14,7% | 5,7% | 1,4% | 3,2% | 2,2% | 6,1% | 36,3% | |

Cədvələ əsasən, vergi ödəyicilərinin sayına görə əhalinin daha çox Bənapərvazə nahiyəsi və Urmiya şəhərində yaşadığını müəyyən etmiş oluruq. Hesablamalardan görünür ki, liva əhalisinin 30,4%-i Bənapərvazə nahiyəsində, 36,3%-i isə Urmiya şəhərində yaşamışdır. Əhalinin bu ərazilərdə nəzərə çarpan sıxlığı, şübhəsiz, təsərrüfat şərtlərinin digər nahiyələrə nisbətən daha əlverişli olması və xüsusilə, Urmiya şəhərinin o dövrdə quru tica-

rət yolları üzərində yerləşən mühüm gömrük məntəqələrindən biri olması ilə izah oluna bilər.

Siyahıyaalma zamanı Urmiya livasının tərkibində olan 329 kəndin yalnız 75-i Osmanlı fəthindən sonra əhalisi tərəfindən tərk edilmiş kənd (hali an er-reaya) kimi qeydə alınmışdır. Livada 7 məzrəə, yəni ərazisi əkin və ya otlaq yeri olaraq istifadə edilən ərazi göstərilmişdir. Bu göstəricilərə əsasən, livanın nahiyə və kəndlərinin nə dərəcədə məskun bir ərazi olduğunu müəyyən edə bilərik. Dəftərin statistik məlumatlarına görə, Osmanlı fəthindən əvvəl Səfəvi idarəçiliyi dövründə bu yerlərdə yaşayanların sayının daha çox olduğunu ehtimal etmək olar.

"Xalxal və Urmiya livalarının müfəssəl dəftəri" XVIII əsrin əvvəllərində Osmanlı idarəçiliyində olmuş Urmiya ərazisində yaşayan əhali, onun dini tərkibi və məşğuliyyəti haqqında da geniş məlumatları əks etdirir. Dəftərin təhrir göstəricilərinə əsasən, Urmiya livasında yaşamış əhalinin dini-etnik tərkibinin müxtəlif olduğunu söyləmək olar.

Hərbi qarşıdurmalar və daxili ziddiyyətlər, köçlər və s. amillər ərazidə yaşayan əhalinin dini-etnik tərkibinə təsirsiz ötüşməmişdir. XVIII əsrin əvvəllərində Osmanlı idarəçiliyində olmuş Urmiya livasının müsəlman əhalisinin tərkibi müxtəlifliyinə görə fərqlənir. Belə ki, Urmiya livasında yaşayan müsəlman əhalisinin müəyyən hissəsini əşirət (tayfa) və *camaatlara* (yaylaq-qışlaq həyatı keçirən topluluqlara) mənsub ailələr təşkil etmişdilər. Məlumdur ki, əşirətlər qohumluq münasibətləri əsasında yaranmış, şərikli gəlir və xərclərini təmin edən insan toplulupları kimi xarakterizə olunur. Yarımköçəri həyat tərzi yaşayan bu insan topluluqları bəzi hallarda müxtəlif səbəblərdən bölgədə rəiyyəti tərəfindən tərk edilmiş torpaqlarda yaşamış və əsasən, heyvandarlıqla məşğul olmuşlar. Lakin onlar qida ehtiyaclarını ödəmək üçün həm də torpaq əkib-becərir və digər təsərrüfat işləri ilə də məşğul olurdular [94, s. 110-154]. Bu ailələr livanın,

deмək olar ki, bütün nahiyələrində yaşamışlar. Cədvəl 2.2.2-də Urmiya livasında yaşamış əsas əşirət və camaatların adları və ailələrin sayı verilmişdir.

*Cədvəl 2.2.2*

**Urmiya livasında yaşamış əşirət və camaatlar**

| Camaat və əşirətlər | Ailələrin sayı | Camaat və əşirətlər | Ailələrin sayı |
|---|---|---|---|
| Abdullalı | 10 | İmanlı | 57 |
| Babalı | 8 | Gürzəlili | 49 |
| Başlamışlı | 16 | Qara Həsənli | 198 |
| Bəkirli | 11 | Qaralı | 56 |
| Boranlı | 22 | Qara Pirli | 18 |
| Əbdülməlik | 24 | Qasımlı | 207 |
| Əlibəyli | 14 | Qırxlı | 68 |
| Ərəbli | 114 | Mircanlı | 3 |
| Ərəşli | 109 | Sarıbəyli | 79 |
| Fərmanlı | 17 | Sarı Nəzərli | 9 |
| Gəncəli | 21 | Seyidli | 5 |
| Görçəkli | 28 | Üzərli | 11 |
| Gündüzlü | 12 | Dərzili | 10 |
| Hacılı | 7 | Kəbirli | 34 |
| Heydərli | 35 | | |

Urmiya livasında yaşamış yarımköçəri ailələrin bu ərazilərə haradan və nə zaman gəlməsi barədə müfəssəl dəftərdə heç bir qeyd göstərilməmişdir. R.Albayrağın fikrinə görə X əsrdən əvvəl Seyhan çayı sahilində və Dəşti-Qıpçaqda yaşamış əfşarlar XI-XII əsrlərdə böyük köçlərlə İran (burada: Azərbaycan) və Anadolu ərazilərinə keçmişlər [22, s. 10]. V.V.Bartold hələ XIV əsrdə türk tayfalarının Azərbaycan əhalisinin (həm köçəri, həm də oturaq) çox hissəsini təşkil etdiyini qeyd edirdi [112, s. 211].

Adları müfəssəl dəftərdə qeyd edilən və Osmanlı fəthindən əvvəl bölgəyə köçdükləri güman edilən bu ailələrin əksəriyyəti

əfşar tayfasına mənsub olmuşdur [65, s. 153]. Mahmud Kaşğarinin Oğuz boyları sırasında 6-cı yerdə göstərdiyi əfşar tayfası [82, s. 54] və ona aid əşirət və camaatlar haqqında tarixi mənbələrdə xeyli məlumat vardır. Əfşarlara aid imanlı, heydərli, sarı həsənli, qaramanlı, əli bəyli, sarı bəyli və s. köçəri ailələrin hələ XVI əsrin əvvəllərində Anadoluda yaşaması barədə də məlumatlar mövcuddur. Belə ki, F.Sumer Azərbaycana köç etmiş bu əşirətlərin Anadoludan gəldiklərini qeyd edərək göstərir ki, "İrandakı imanlı əfşarları Dülqədirli (Zülqədirli) elinə mənsub imanlı əfşarının bir qoludur və onların məhz Səfəvi dövründə bu yerlərə gəlməsini ehtimal etmək mümkündür" [95, s. 286-289]. Bu mənada Urmiyada məskun olan əfşar türkman əşirətlərinə mənsub ailələrin köklərinin yüzillər əvvəl Anadoluda da yaşadığını söyləmək mümkündür [94, s. 120-128].

Cədvəldən göründüyü kimi, livanın nahiyələrində yaşayan imanlı, ərəşli, qasımlı, ərəbli, qara həsənli əşirət və camaatlarına mənsub ailələr çoxluq təşkil etmişlər. Bu ailələr bəzən eyni bir kənddə oturaq əhali ilə yanaşı yaşayaraq əkinçilik, heyvandarlıq və təsərrüfatın digər sahələri ilə məşğul olmuşlar.

Müfəssəl dəftərin məlumatlarına görə Urmiya livasında müsəlmanlarla (həmçinin, türkman tayfasına mənsub ailələrlə) yanaşı, qeyri-müsəlmanlar da yaşamışlar. V.V.Bartold Urmiyada vaxtilə nestorianların (nasturi, assur) yaşadığı haqqında məlumat vermişdir [112, s. 211]. Müqayisə üçün qeyd edək ki, 2000-ci il hesablamalarına görə Urmiya əhalisinin 85,7%-ni türk, 10,5%-ni kürd, qalan hissəsini isə assur, erməni, yəhudi və digər etnik qruplar təşkil etmişdir [146, s. 58-60].

Cədvəl 2.2.3-də Urmiya livasının nahiyələrində yaşamış, adları müfəssəl dəftərdə qeyd olunmuş əhalinin oturaq müsəlman, qeyri-müsəlman və əşirət olaraq paylaşmasını izləmək mümkündür:

*Cədvəl 2.2.3*

**Urmiya livasının əhalisi**

| Nahiyələr | Oturaq müsəlmanlar | Əşirət və camaatlar | Qeyri-müsəlmanlar |
|---|---|---|---|
| Bənapərvazə | 328 | 815 | 185 |
| Bəldə | 183 | 319 | 141 |
| Səhrabad | 49 | 164 | 37 |
| Dol | 61 | - | - |
| Mərkəvər | 128 | 13 | - |
| Tərkəvər | 21 | 4 | 72 |
| Üşni | 234 | - | 33 |
| Urmiya şəhəri | 1 279 | 256 | 52 (xristian və yəhudilər) |
| Yekun | 2283 | 1571 | 520 |

Cədvəldən göründüyü kimi, Urmiya livasının Dol və Mərkəvər nahiyələrində yalnız müsəlman, o cümlədən, yarımköçəri ailələr yaşamışdır. Digər nahiyələrin kəndlərində müsəlman əhali bəzən qeyri-müsəlman və *"gəbran"* (bu barədə irəlidə daha ətraflı yazılmışdır) əhali ilə eyni kənddə yaşamış və çalışmışdır [85, s. 135]. Bənapərvazə nahiyəsində adı siyahıyaalma sənədində qeyd olunmuş vergi ödəyicilərinin 61,3%-i, Bəldə nahiyəsində 49,6%-i, Səhrabad nahiyəsində 65,6%-i əşirət və camaat ailələrindən ibarət olmuşdur. Urmiya şəhərində, Üşni və Mərkəvər nahiyələrində isə oturaq əhali üstünlük təşkil etmişdir. Qeyri-müsəlman əhali Tərkəvər nahiyəsində müsəlman əhaliyə nisbətən daha çox yaşamışdır (74,2%). Livanın Üşni nahiyəsində isə həm oturaq müsəlmanlar, həm də qeyri-müsəlman əhali yaşamışdır.

Hesablamalara görə, Urmiya livasında vergiyə cəlb olunan əhalinin 52,2%-nin oturaq, 35,9%-nin əşirət və camaatlara mənsub ailələr, 11,9%-nin qeyri-müsəlman (o cümlədən, gəbran və yəhudilər) olduğu müəyyən edilmişdir.

Müfəssəl dəftərin Urmiya livasına və Salmas qəzasına aid məlumatlarında, ərazidə "gəbran" əhalinin yaşadığı qeyd olun-

muşdur. Bu əhalinin hansı etnik qrupa aid olduğunu dəqiq söyləmək çətindir. Adları siyahıya alınmış şəxslərin daşıdıqları vergi mükəlləfiyətinə görə dini cəhətdən müsəlman və qeyri-müsəlman olduqlarını təyin etmək isə mümkündür. Dəftərdə qeyri-müsəlmanlar bəzi hallarda "gəbran" kimi qeyd edilmişdir. "İspəncə" vergisi ödəyən şəxslərin, yəni qeyri-müsəlmanların bəzi hallarda heç bir xüsusi söz ilə qeyd edilmədiyini, bəzi hallarda isə "gəbran" kimi qeyd olunduğunu və ödəyəcəkləri verginin "rəsm-i ispənce-i gəbran" (gəbranların ispəncə vergisi) adlandığını nəzərə alsaq, sonuncuların əslində kimlər olduğunu dəftərin məlumatlarına görə, təyin etmək çətinlik yaratmışdır.

Bu məqsədlə tarixə müracət etdikdə "gəbran" sözünün mənası və hansı insan qruplarına aid edilməsi ilə bağlı müxtəlif məlumatların olduğunu görürük. Bəzi məlumatlarda oda, atəşə sitayiş edən və Zərdüştün davamçıları olan şəxslərə "gəbran/gəbr" deyilməsi fikri qəbul edilmişdir [119, s. 110]. Bu fikrə bədii əsərlərdə də təsadüf edilmişdir. Məsələn; Nizami Gəncəvi "Xosrov və Şirin" poemasında oda sitayiş edənləri "gəbran" adlandırmışdır [45].

Araşdırmalardan məlum olur ki, Osmanlı sənədlərində "gəbr" sözü ilə müsəlman olmayan (xristian, yəhudi və s.) şəxslər adlandırılmışdır. Belə ki, bəzi Osmanlı mənbələrində gəbranlar "qayrimüslim ünsürlər", "Cemaat-i Zımmiyan", "Cemaat-i Gebran" kimi qeyd olunmuşlar [68, s. 17-18; 76, s. 16; 60, s. 4; 84, s. 8]. Bu məlumatlarda qeyri-müsəlmanlar "gəbr" [80, s. 132], digər siyahıyaalmada isə "kafir/kəfərə" [73, s. 9] adlandırılmış və onların xristian olduqları göstərilmişdir. M.Akisin qeyd etdiyinə görə, "nəfs-i Antep"də yaşayan ermənilər illik 2 040 ağça "cizyə-yi gəbran" vergisi ödəyirdilər [59, s. 233].

Maraqlı bir faktı da qeyd edək ki, Urmiya livasına aid məlumatlarda "karye-yi təkyə-yi gəbran" (gəbran təkyəsinə aid kənd) kimi göstərilən kənddə yaşayan və vergi ödəyən şəxslərin

adlarının daha çox müsəlman mənşəli adlar olduğu müəyyən edilmişdir.

Belə nəticəyə gəlmək olar ki, bir zamanlar müəyyən insan qrupları oda sitayiş (atəşpərəst) etdiklərinə görə, gəbr/gəbran adlandırılırdısa, Osmanlı sənədlərində, o cümlədən, "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri"ndə ümumiyyətlə müsəlman olmayan şəxslər (əsasən, xristian və yəhudilər) bu adla qeyd olunmuşlar. Qeyri-müsəlman şəxslərin ad siyahısında onlar üçün bir çox hallarda "gəbran" yazılması, bəzən isə yazılmamasının səbəbini izah etmək çətin olsa da, hər iki halda bu şəxslərin qeyri-müsəlman olduqları ehtimal edilir.

Xalxal livasının demoqrafik vəziyyəti ilə əlaqədar qeyd etmək olar ki, bu bölgədə rəiyyəti köçüb getmiş kəndlərin sayı (138 kənd) Urmiya bölgəsinə nisbətən daha çox olmuşdur. Bu hal, livanın Səncəbəd nahiyəsində daha çox özünü göstərir. Nahiyənin 75 kəndindən 63-ü qeyri-məskun kənd olaraq təsbit edilmişdir. Digər nahiyələrdə də bənzər vəziyyət müşahidə olunur. Xanəndbil nahiyəsində 38 kənd, Şahrudda 16 qeyri-məskun kənd qeydə alınmışdır. Liva ərazisində qeydə alınmış 34 məzrəənin isə digər kəndlərin əhalisi tərəfindən əkin, otlaq və digər məqsədlər üçün istifadə edildiyi müəyyən edilmişdir. Dənli bitkilərin əkilib becərilməsi üçün yararlı olan "məzrəələr" Osmanlı mənbələrində həm də xeyli müddət boş qalmış ərazilər kimi xarakterizə olunur [107, s. 76]. Lakin uzun müddət boş qalmış bu yerlər əkin və ya başqa məqsədlər üçün istifadə edildiyinə görə məzrəənin adı yazıldıqdan sonra hansı kəndin əhalisi tərəfindən əkilib-becərilməsi və ya başqa məqsədlər üçün istifadə olunması, əldə edilən verginin kimə verilməsi haqqında müfəssəl dəftərdə müvafiq qeydlər aparılmışdır.

Xalxal livasının nahiyələri üzrə qeydə alınmış vergi ödəyicilərinin paylaşımını cədvəl 2.2.4-də nəzərdən keçirək:

*Cədvəl 2.2.4*

**Xalxal livasında vergi ödəyicilərinin paylaşımı**

| **Nahiyələr** | **Əzdəkin** | **Səncəbəd** | **Xanəndbil** | **Xuruş-Rüstəm** | **Şahrud** | **Ümumi** |
|---|---|---|---|---|---|---|
| Vergi ödəyici-lərinin sayı | 2 117 | 244 | 965 | 183 | 355 | 3 864 |
| Faizlə | 54,8% | 6,3% | 25% | 4,7% | 9,2% | |

Cədvəldən göründüyü kimi, Xalxal livasında adları siyahıya alınmış şəxslərin əksəriyyəti Əzdəkin (54,8%) və Xanəndbil (25%) nahiyələrində yaşamışdır. Müfəssəl dəftərin məlumatlarına görə, məskun kəndlərin də çox hissəsi qeyd edilən nahiyələrdə yerləşmişdir.

Təhrir məlumatlarında Xalxal livasının tərkibində "nəfs-i" sözü ilə qeyd olunan inzibati ərazi qeydə alınmamışdır. Liva əhalisinin dini tərkibinə aid bunu demək olar ki, bu dövrdə Xalxal livasının əhalisi yalnız müsəlmanlardan ibarət olmuşdur. Hətta uzun müddət Səfəvi şeyxlərinin iqamətgahı sayılmış və xüsusi imtiyazlı bölgə statusunda olmuş Ərdəbildə qeyri-müsəlman əhalinin yaşaması barədə məlumatları [35, s. 73] və Xalxalın da bu ərazilərə yaxın bölgədə yerləşdiyini nəzərə alsaq, livada əhalinin dini tərkibinin yalnız müsəlmanlardan ibarət olması faktı diqqəti çəkən xüsusiyyətdir.

Livanın boşalmış kəndlərinin sayının çox olmasına baxmayaraq, müfəssəl dəftərdə bu yerlərə köçüb gəlmiş və yerləşmiş əşirət, camaat və s. əhali qrupları haqqında məlumat verilmir. Dəftərin məlumatlarına görə ehtiyac üzündən kəndlilərin tərk et-

diyi təsərrüfatları çox zaman qonşu kəndlərin rəiyyətləri əkib-becərmiş və ya otlaq yeri kimi istifadə etmişlər.

Xalxal livasına aid təhrir göstəricilərində adı siyahıya alınmış vergi ödəyən əhali vergi qrupuna görə subay və evli olaraq müəyyən edilmişdir. Bu məlumatlara görə, Osmanlı hakimiyyəti dövründə livada yaşayan əhalinin sayını müəyyən etmək mümkündür.

Hesablamalara görə Xalxal livasında 3 864 nəfər vergi ödəyicisi siyahıya alınmışdır. Bunlardan 2 862 nəfəri evli, qalanları subay olmuşdur. Evlilərin ailə üzvlərinin sayını 5 nəfər qəbul edib, subay şəxslərin sayını da əlavə etsək, livada təxminən 15 300 nəfərin yaşadığını müəyyən etmiş oluruq. Bütün inzibati ərazilərdə olduğu kimi, Xalxal livasında da bu və ya digər səbəbdən vergiyə cəlb olunmayan şəxslərin təxmini sayını aldığımız nəticəyə əlavə etsək, Osmanlı dövründə Xalxal livasının əhalisinin 15 600 nəfərə yaxın olduğunu söyləyə bilərik.

Dörd nahiyəni əhatə etmiş Salmas qəzasının əhalisinin çox hissəsi 59 kənd və 1 məzrə’əsi olan Salmas nahiyəsində yaşamışdır. Nahiyənin kəndlərindən 50-i məskun, 9-u isə boşalmış kənd olmuşdur. Nahiyənin tərkibində yalnız 1 məzrəə qeydə alınmışdır ki, buna əsasən də burada yaşayan əhalinin oturaq həyat tərzi keçirdiyini söyləmək olar. Qəzanın Ənzəl nahiyəsinin 7 kəndi, Qarabağ nahiyəsinin 3 kəndi, Kürdqıran nahiyəsinin 8 kəndindən 4-ü məskun olmuşdur. Göründüyü kimi, Salmas qəzasının kəndləri demək olar ki, məskun məntəqələr olmuşlar.

Ümumiyyətlə, müfəssəl dəftərin məlumatları təsdiq edir ki, Osmanlı hakimiyyəti dövrü Salmas qəzasında demoqrafik vəziyyət nisbətən sabit olmuşdur. Belə ki, qəzanın tərkibində boşalmış və ya təhrirdən əvvəl tərk edilmiş kəndlər olduqca azdır. Bu da qəza əhalisinin əksəriyyətinin Osmanlı fəthindən sonra da daimi yaşadıqları yerləri tərk etmədiklərini göstərir.

Tarixi mənbələrdə Səfəvi dövründə Salmasda yaşamış əhali, onların məşğuliyyəti, yaşam tərzi, etnik-dini tərkibi və demoqrafik xüsusiyyətləri haqqında dolğun məlumat verilmir. Bu səbəbdən də Osmanlı hakimiyyətinə keçdikdən sonra bölgədə baş vermiş demoqrafik dəyişikliklərin, əhalinin sosial tərkibi və digər məsələlərin müqayisəli şəkildə təhlil edilməsində çətinliklər yaranır.

Cədvəl 2.2.5-də Salmas qəzası əhalisinin vergi qrupları üzrə paylaşımı göstərilmişdir.

*Cədvəl 2.2.5*

**Salmas qəzası üzrə əhalinin vergi qruplarına görə təsbiti**

| Nahiyələr | Vergi qrupları | | | | | |
|---|---|---|---|---|---|---|
| | Çift | Nim çift | Bennak | Mücərrəd | Caba | İspəncə |
| Salmas | 228 | 107 | 235 | 124 | 58 | 501 |
| Ənzəl | 44 | 18 | 41 | 26 | 6 | 44 |
| Qarabağ | 27 | 12 | 53 | 19 | - | 40 |
| Kürdqıran | 16 | 6 | 20 | 15 | 2 | - |
| Yekun | 315 | 143 | 349 | 184 | 66 | 585 |

Dəftərin göstəricilərinə görə qəzanın nahiyə və kəndlərində 1 642 nəfər rəiyyət (Salmasda – 1 253, Ənzəldə– 179, Qarabağda – 151, Kürdqıranda – 59 nəfər) vergiyə cəlb olunmuşdur. Müsəlman rəiyyətlərdən 807 nəfər vergi ödəyicisi evli, 250 nəfər subay olmuşdur. Qəzada 585 nəfərin "ispəncə" vergisi ödədiyi müəyyən edilmişdir. Həmçinin, Salmas qəzasına aid Kürdqıran nahiyəsinin yanında əhalisi köçüb getmiş eyni adlı məhəllə mövcud olmuşdur.

Ümumiyyətlə, 77 kəndi olan Salmas qəzasında təxminən 5 minə yaxın əhali yaşadığını söyləyə bilərik. Bu isə o deməkdir ki, Salmas qəzası əhalisinin sayı baxımından nisbətən böyük bir inzibati ərazi olmuşdur. Cədvəl 2.2.6-da Salmas qəzasının nahi-

yələrində yaşayan əhali və onun dini tərkibi ilə bağlı məlumatlar təqdim olunmuşdur:

*Cədvəl 2.2.6*

**Salmas qəzasının əhalisi və onun dini tərkibi**

| Nahiyələr | Vergi ödəyicilərinin ümumi sayı | Müsəlmanlar | Qeyri-müsəl-manlar | Əhalinin ümumi sayı |
|---|---|---|---|---|
| Salmas | 1 253 | 752 | 501 | 3 533 |
| Ənzəl | 179 | 135 | 44 | 591 |
| Qarabağ | 151 | 111 | 40 | 519 |
| Kürdqıran | 59 | 59 | - | 227 |
| Yekun | 1 642 | 1 057 | 585 | 4 870 |

Müfəssəl dəftərin göstəricilərinə əsasən apardığımız hesablamalara görə belə nəticəyə gəlmək olar ki, Salmas qəzasında dini cəhətdən həm müsəlman, həm də qeyri-müsəlman (xristian) əhali yaşamışdır. Qeyri-müsəlman əhalinin əsasən, Salmas nahiyəsində (501 nəfər) məskunlaşdığı müəyyən edilmişdir. Ümumiyyətlə, qəza əhalisinin 64,3%-nin müsəlman olduğu təsbit edilmişdir. Salmas nahiyəsində və qəzanın Qarabağ nahiyəsində yaşayan qeyri-müsəlmanlar bəzi hallarda ayrıca bir kəndin əhalisi kimi, bəzi hallarda isə yerli müsəlman əhali ilə eyni kənddə yaşamışlar. Nümunə üçün qeyd edək ki, qeyri-müsəlmanlar Salmas nahiyəsinin 18 kəndində ayrıca, 5 kəndində qarışıq halda (həm müsəlman, həm də qeyri-müsəlman) yaşamışdır. Dəftərin Salmas qəzasına aid təhrir məlumatlarında bu yerlərdə əşirət və ya camaatlara mənsub ailələrin yaşaması haqqında qeydlər göstərilməmişdir. Verilən məlumatları və hasablamaları yekunlaşdıraraq hər üç bölgədə yaşayan əhalinin dini tərkibini və ümumi sayını əks etdirən cədvəl 2.2.7-ni nəzərdən keçirək:

*Cədvəl 2.2.7*

**Xalxal, Urmiya livalarının və Salmas qəzasının əhalisinin dini tərkibi**

| İnzibati ərazi | Əhali | | Vergi ödəyicilərinin ümumi sayı | Əhalinin ümumi sayı |
|---|---|---|---|---|
| | Müsəlman | Qeyri-müsəlman | | |
| Xalxal livası | 3 864 | - | 3 864 | 15 600 |
| Urmiya livası | 3 854 | 520 | 4 374 | 12 000 |
| Salmas qəzası | 1 057 | 585 | 1 642 | 5 000 |

Dəftərin statistik məlumatlarına əsasən, Urmiya, Xalxal və Salmas ərazilərində yaşayan, vergi ödəyən 10 minə yaxın şəxsin təxminən 80%-nin müsəlman olduğu müəyyən edilmişdir. "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri"nin təhrir göstəricilərində vergi ödəyicilərinin adlarının təhlili zamanı bölgədə yaşayan əhalinin dini tərkibi ilə yanaşı, etnik tərkibi haqqında da müəyyən məlumatlar əldə etmək mümkündür.

Araşdırmalarımız nəticəsində şəxs adlarının çox hissəsinin dini mənşəli adlar olduğu müəyyən edilmişdir. Məlum olmuşdur ki, əhali arasında Məhəmməd, Əli, Həsən, Hüseyn və Əhməd adlarına daha çox üstünlük verilmişdir. Müfəssəl dəftərdə bu adlarla yanaşı, Gündoğmuş, Gündüz, Adıgözəl, Qorqud, Uğurlu, Başlamış, Bayram, Qaya, Ərdoğdu və digər bu kimi türk mənşəli adlar da qeydə alınmışdır.

Bölgədə türk etnosunun və dini təsirin güclü olduğunu göstərən digər bir nümunə qeyri-müsəlman əhali arasında türk mənşəli və müsəlman adların geniş yayılması faktıdır. Müfəssəl dəftərin məlumatlarında Urmiyanın, Salmasın qeyri-müsəlman (xristian və yəhudi) əhalisi arasında Vartan, Kurkir, Sarkiz, İshak, Merkos adları ilə yanaşı Rüstəm, Bayram, Mirzə, Teymur, Yunus, Azər, Mənsur və b. müsəlman mənşəli adlardan istifadə

olunmasına da təsadüf edilir. Oxşar vəziyyətə Urmiya şəhərində də rast gəlinmişdir. Şəhərdə yaşayan 45 yəhudi vergi ödəyicisinin daşıdığı Salamon, Samson, Daniyal, İsaq, Yehuda, Abram, Benyamin adları ilə bərabər, dini (müsəlman) mənşəli İbrahim, Əbülhəsən, Babaxan, Mirzə, İlyas, Zəkəriya, Səlman kimi şəxs adları qeyd olunmuşdur.

Müfəssəl dəftərdə qeyd olunan şəxs adlarının etimoloji təhlili zamanı məlum oldu ki, bir çox müsəlman şəxs adları -verdi, -verən, -qulu, -yar, -əli, -xan, -şah kimi müsəlman (həmçinin, türk) mənşəli əlavələrin artırılması yolu ilə əmələ gəlmişdir. Buna nümunə olaraq, Məhəmmədxan, Allahverdi, İmamyar, Ocaqqulu, Həsənəli, Nəzərşah və s. kimi adları göstərmək olar. Bununla yanaşı, siyahıda qeyd edilən bəzi şəxs adları “şah”, “pir”, “mir” sözlərinə digər şəxs isminin əlavəsilə yaranmışdır. Məsələn; Şahnəzər, Şahgəldi, Şahmirzə, Şahqulu, Şahmərdan, Pir Məhəmməd, Pirmurad, Mirəhməd, Mirsəid, Mirağa, Mirəli və s. Dəftərin məlumatlarında şəxs adlarının “hacı”, “seyid”, “şeyx”, “monla”, “mevla” kimi titul və ya dini mövqe bildirən sözlərlə işlənməsi hallarının çoxluq təşkil etdiyi müəyyən edilmişdir.

Aparılmış təhlil və hesablamalara əsasən, belə nəticəyə gəlmək olar ki, XVIII əsrin əvvəllərində baş verən Osmanlı – Səfəvi qarşıdurmaları zamanı yaranmış gərgin hərbi-siyasi vəziyyət Urmiya və Xalxal livalarının, eləcə də Salmas qəzasının əhalisinin həyat şəraitinə və demoqrafik vəziyyətinə ciddi təsir göstərmişdir. Məcburiyyət qarşısında qalan kəndlilər daimi yaşayış yerlərini tərk etmiş və beləliklə də boşalmış və uzun müddətdən bəri tərk edilmiş kəndlər yaranmışdır. Bu da bölgədə demoqrafik vəziyyətin qeyri-sabitliyinə səbəb olmuş və əhalinin sosial tərkibinə təsirsiz ötüşməmişdir.

Müfəssəl dəftərdə qeyd olunan şəxs adlarının təhlilinə əsasən, bölgədə etnik cəhətdən türk mənşəli əhalinin üstünlüyü təsbit edilmiş və burada yaşamış qeyri-müsəlman (xristian və yəhudi) əhalinin adlarında türk təsirinin üstünlük təşkil etdiyi müəyyən edilmişdir.

## 2.3. Urmiya və Salmas şəhərlərinin həyatı və əhalisi

“Xalxal və Urmiya livalarının müfəssəl dəftəri”nin məlumatlarında Urmiya livasının tərkibində Urmiya şəhərinin, Salmas qəzasında isə Salmas şəhərinin olduğu qeyd edilmişdir.

Tarixi sənədlərə və ərazisindəki arxeoloji tapıntılara görə Urmiyanı Azərbaycanın və Orta Şərqin ən qədim şəhərlərindən biri hesab etmək olar. Urmiya şəhərinin nə zaman və kimlər tərəfindən salınması haqqında dəqiq məlumat yoxdur. Şəhər və onun tarixi haqqında bir çox orta əsr tarixçiləri və səyyahlarının fikirləri diqqəti cəlb edir. İlk dəfə Urmiya şəhərinin adına Assuriya mənbələrində təsadüf olunur. Belə ki, İ.M.Dyakonov III Salmanasarın (m.ə. 859-824-cü illər) Zamua (Urmiya) gölünün kənarında gedən müharibələrdən bəhs etdiyini qeyd etmişdir [144, s. 26; 122]. Müxtəlif vaxtlarda Urumiyə, Urmiya, Urumi kimi adlanan şəhər, mənbələrə görə Zərdüştün vətəni olmuşdur [111, s. 99-10; 65, s. 28]. Qeyd edək ki, İran tarixçisi H.Zəndədel hal-hazırda Urmiya şəhərinin şimal-şərqində yerləşən “Buzov dağı” mağarasının Zərdüştün məskəni kimi qəbul edildiyini yazır [148,s. 41-42].

Yaqut əl-Həməvi (XIII əsr) “qədim və böyük şəhər” adlandırdığı Urmiyanı 617-ci ildə (1220-ci ildə) gördüyünü və “Azərbaycanın tanınmış şəhərlərindən biri olduğunu, sonralar dağılmış vəziyyətə düşdüyünü” xəbər vermişdir [126, s. 12]. Həmdullah Qəzvini Urmiyanın 75° 45′uzunluq və 37° 45′en dairələrində, Urmiya (Çiçast) gölünün sahilində yerləşdiyini, “quru və isti iqlimli” şəhər olduğunu, burada yüksək keyfiyyətli üzüm, armud və gavalı yetişdirildiyini qeyd etmişdir [126, s. 48].

V.V.Bartold qeyd edirdi ki, monqol xanları Azərbaycanın Urumi hövzəsini təşkil edən hissəsini xüsusi bəyənmişdilər. Onun yazdığına görə “...bu gölün ortasındakı adada hələ islamı qəbul etməzdən əvvəl monqol xanlarının məqbərəsi var idi” [26, s. 80]. H.Ə.Dəlili də rus səyyahı N.Zeydlitsin fikrinə əsaslanaraq, Urmiyanı Azərbaycanın gözəl şəhəri kimi möhkəm qala divarları, geniş, düz küçələri və çoxlu meydanları ilə Təbriz-

dən fərqləndiyini qeyd etmişdir [30, s.69]. Akademik Z.M.Bünyadov sultan Cəlaləddinin Məlakəyə toy hədiyyəsi olaraq Urmiya və Salması bağışlaması haqqında məlumat vermişdir [113, s. 103].

İran tarixçisi Əli Məhəmmədi Urmiya yaxınlığında, Göytəpə adlanan yerdə XIX əsrdə tapılan və üstündə Babil "tanrı"larının rəsmi olan möhürün e.ə. 2000-ci ilə aid olduğunu qeyd etmişdir. Müəllif həmçinin, şəhər və onun ətrafında aparılmış arxeoloji qazıntılar zamanı e.ə. VII-VI əsrə aid tuncdan hazırlanmış silah növləri, bəzək və zinət əşyalarının tapıldığı haqqında məlumat vermişdir [146, s. 57].

Övliya Çələbi şəhəri əhatə edən möhtəşəm divarların XIII əsrdə Mahmud Qazan xan tərəfindən inşa edildiyini, onun dairəvi uzunluğunun 17 min addım olduğunu və "şəhərin əhalisi sünni olduğuna görə Osmanlıların buranı dağıtmadığını" yazmışdır [53, s. 177-178]. Orta əsr müəllifləri şəhərin qala divarlarında Torpaqqala, Hazaran, Bazarbaş və s. adlı darvazaların olduğunu qeyd edirlər. Darvaza adlarının Urmiya şəhərinin bəzi məhəllələrinin adlarına uyğunluğu (Bazarbaş – Bazarbaşı, Hazaran – Xızıran, Hindi – Hindu) da diqqəti çəkən faktdır [30, s. 68-69]. Tarixçilər ümumiyyətlə, orta əsr Azərbaycan şəhərlərinin güclü müdafiə qurğuları sisteminə malik olduğunu, şəhərin ətrafında 6-15 m hündürlüyə qədər çatan qala divarlarının ucaldıldığını və bu divarların bir neçə qapısı olduğunu yazırdılar [23, s. 459].

Türk, xristian, yəhudi və b. müxtəlif dini, etnik və sosial qrupların yaşadığı Urmiya şəhərinin bəzi yaşayış evləri iki mərtəbəli olmuşdur. Şəhərin mərkəzi Çarşı məhəlləsi sayılırdı. Məhəllələr arasında həm bazar, həm də ticarət mallarının qorunub satıldığı və tacirlərin istirahət etdiyi bədəstan (qapalı bazar) fəaliyyət göstərirdi [65, s. 101-103]. H.Ə.Dəlili qeyd edir ki, Çarşı bazarında 2 xanəgah var idi. Bazarda müxtəlif peşələrlə məşğul olan sənətkarlar və tacirlər fəaliyyət göstərirdilər [30,s. 68]. Ticarət müəssisələrinin çox olması (70-ə yaxın), bir neçə hamamın, qəhvəxana və digər sosial müəssisələrin fəaliyyəti şəhər həyatının olmasından xəbər verirdi. Övliya Çələbi bazarlarda buğ-

da, yumurta, bişmiş toyuq, ağ çörək və digər ərzaqların tərəzi ilə çəkilib satıldığını və çəkidə "Əli vəzni"ndən istifadə edildiyini yazırdı [53, s. 177].

Şəhərin ən böyük ibadətgahlarından biri "Cameyi-Kəbir" ("Ulu came") olmuşdur. Qeyd edək ki, Urmiya şəhərinə aid təhrir göstəricilərində vergisi "Came-yi Kəbir"ə aid olan 8 vəqf kəndi haqqında məlumat verilmişdir. Şəhərdə, həmçinin, Əli xan, Cəfər paşa, Kələntər, Şeyx cameləri kimi ibadət yerləri, 6 mədrəsə, 40 uşaq məktəbi də fəaliyyət göstərmişdir. Tarixi əsərlərdə Urmiyada xristianlara və aysorlara mənsub bir neçə kilsənin fəaliyyət göstərməsi haqqında məlumat da verilmişdir [65, s. 69].

Müfəssəl dəftərdə qəza və nahiyə mərkəzi kimi qeyd edilən Salmasın tarixi çox qədimdir. Mənbələrdə bərəkətli torpağı, gözəl meyvə bağları olduğu göstərilən Salmasın adı orta əsrlər şəhərləri sırasında daim çəkilmişdir. Şəhərin 73° 10′uzunluq və 33° 30′ en dairələrində Təbrizlə Urmiya arasında yerləşdiyini qeyd edən Yaqut əl-Həməvi XIII əsrdə Salmasın Azərbaycanın tanınmış şəhərlərindən biri olduğunu, lakin sonradan dağıdıldığını yazır [126, s. 26]. Həmdullah Qəzvini XIVəsrdə Salması böyük bir şəhər kimi təsvir edir, 70° 14′uzunluq və 37° 40′en dairələrində yerləşdiyini göstrərir və burada çoxlu meyvə bağlarının olduğunu bildirir [126, s. 47]. O həmçinin, Salmasda buğda, arpa və başqa dənli bitkilərin əkildiyi haqqında məlumat verir. Salması Azərbaycanın iri şəhərləri sırasında göstərən Həmdullah Qəzvini qeyd edir ki, hələ XIV əsrdə şəhərin əhatəsi 8 000 addım təşkil etmiş ərazisində, təxminən, 9 000 ev olmuş və burada 50 000 əhali yaşamışdır [65, s. 78].

Tarixi əsərlərdə Salmas haqqında məlumatlar müxtəlifdir. İran tarixçisi Mehrdad Rəhmani Əhrvanlı "Salmasın əski mədəniyyət izləri" kitabında tədqiqatçı T.Məlikzadəyə istinadən bu barədə belə yazır: "Deyləman və ya Dilmuğan Azərbaycanın ən qədim şəhərlərindən biri olaraq Salmas şəhəri dağıldıqdan sonra vilayətin mərkəzi kimi inşa edilmişdir. Səfəvilər dövründə Osmanlı və İran (Səfəvi – Y.N) dövlətləri arasında ardıcıl müharibələr nəticəsində Salmas şəhərinin əhalisinin əksəriyyəti canını

və malını qorumaq üçün öz yurdu olan Salması tərk etməyə məcbur olmuşdur. Bu hadisə də şəhərin tam dağılmasına səbəb olmuş və Salmasdan yalnız bir ad qalmışdır. Deyləman (Dilmuğan, Dilman) qəsəbəsi Salmasın şərqində yerləşirdi və Səfəvilər dövründə az əhəmiyyət kəsb edirdi. Lakin tədricən genişlənərək bir şəhərə çevrildi və Salmas şəhərinin yerini tutdu...” [143, s. 69-72]. Qeyd etmək lazımdır ki, Salmas şəhərinin həm də Dilman kimi adlandırıldığı haqqında H.Ə.Dəlili də məlumat vermişdir [30, s. 37]. Ümumiyyətlə, şəhər əsrlər boyu müharibə və savaş meydanına çevrilmiş, dağıdılmış və viran edilmişdir. İskəndər bəy Münşi bildirir ki, “hərbi əməliyyatlar o mülkdə (Azərbaycanda – Y.N.) çoxlu xarabalıqların törəməsinə bais oldu. Xoy, Salmas və Uruminin əksər rəiyyətləri oradan köçmək qərarına gəldilər” [40, s. 568].

Orta ərslərdə baş vermiş daxili çəkişmələr, siyasi münaqişələr, müharibələr nəticəsində Təbriz, Gəncə, Mərənd, Şabran, Culfa, Xoy, Ərəş, Şamaxı, Qəbələ və digər böyük və nisbətən kiçik şəhərlərlə yanaşı Salmasa da xeyli ziyan dəydi [83, s. 420-450]. Bu da şəhər iqtisadiyyatının və şəhər həyatının tənəzzülünə gətirib çıxartdı.

Bir sıra müəlliflərin orta əsrlər şəhər həyatı ilə bağlı tədqiqatlarında Təbriz, Ərdəbil, Gəncə və Şamaxı kimi nisbətən böyük şəhərlərə aid məlumatlar təqdim edilmiş, ölkənin daxili və xarici ticarətində mühüm rol oynamış Urmiya, Salmas, Üşni və s. şəhərlərə isə az əhəmiyyət verilmişdir. Belə ki, M.H.Heydərov Azərbaycanın iqtisadiyyatında mühüm rol oynayan iri şəhərlərlə yanaşı Urmiya, Üşnü, Salmas, Sərab, Xalxal və digərlərinin adını qeyd edərək, onları ikinci (Urmiya, Üşnü) və üçüncü dərəcəli (Salmas, Xalxal) şəhərlər sırasına aid etmişdir. Müəllif belə şəhərlərdə, birincilərdən fərqli olaraq, sənətkar və tacirlərin sayının çox olmadığını və şəhər əhalisi içərisində azlıq təşkil etdiyini bildirir [116, s. 46-47].

Osmanlı fəthinədək olan dövrdə bu şəhərlərdə ticarət və sənətkarlıq sahələri, xarici və daxili ticarət, istehsal və istehlak olunan məhsullar haqqında verilmiş məlumatlar bəsit və cüzi ol-

duğundan Osmanlı hakimiyyəti dövründə Urmiya və Salmasda şəhər həyatını, onun xüsusiyyətlərini müqayisəli şəkildə araşdırmaq çətinlik yaratmışdır.

"Xalxal və Urmiya livalarının müfəssəl dəftəri"ndə isə Urmiya və Salmas şəhərlərinin əhalisi, onun sosial tərkibi, məşğul olduqları təsərrüfat, sənətkarlıq sahələri və təyin olunan vergilər haqqında məlumatlar daha dolğun və ətraflıdır.

XVII əsrin sonu XVIII əsrin əvvəllərində aldığı dağıdıcı zərbələrə baxmayaraq öz əzəmətini hələ də saxlayan Urmiya orta əsr müsəlman şəhərlərinin, demək olar, bütün səciyyəvi xüsusiyyətlərini özündə əks etdirmişdir. Bu xüsusiyyətlərdən biri, dövlət ərazilərində oturaq, yarımköçəri və köçəri əhalinin bir yerdə yaşaması, eləcə də kənd-şəhər-köçəri münasibətləri şəraitində ticarət və sənətkarlığın inkişaf etməsi idi [131, s. 31].

Digər yaşayış məntəqələrində olduğu kimi, şəhərlərdə də əhalinin sayı, sosial tərkibi bütünlükdə dövlətin daxilində gedən siyasi çəkişmələrdən, həmçinin ölkənin iqtisadi vəziyyətindən əhəmiyyətli dərəcədə asılı idi. Cərəyan edən siyasi hadisələr istehsala, xüsusilə də şəhər iqtisadiyyatına çox böyük təsir göstərirdi. Müharibələrin daha geniş əraziləri əhatə etdiyi bir dövrdə kənddən şəhərə miqrasiyaların həcmi də artırdı. Kənd şəraitində iqtisadi vəziyyət daha ağır olduğuna görə şəhərdə ticarət və sənətkarlıqla məşğul olmaq nisbətən asan və sərfəli hesab edilirdi. Şəhərlər ucuz işçi qüvvəsini məşğul edən iş yeri və başqa sözlə desək, "şəhərətrafı nahiyə və yaşayış məntəqələri üçün iqtisadi mərkəz rolunu oynayırdı" [132, s. 122-125]. İcarəyə götürdüyü torpağa (sahəsinə, münbitliyinə, məhsuldarlığına və s. görə) və əkib becərdiyi məhsula görə müxtəlif adda vergilər ödəyən kənd əhalisindən fərqli olaraq, şəhər və qəsəbələrdə yaşayan əhaliyə, kənd təsərrüfatı ilə müntəzəm, intensiv şəkildə məşğul olmadıqlarına və "şəhərlərin böyük bir iqtisadi və sosial birliyin mərkəzi olduğuna görə", dövlət tərəfindən fərqli şəkildə vergi təyin olunmuşdu [132, s. 103].

Ümumiyyətlə, Osmanlı dövlətinin şəhərlərə olan münasibətində əsas xüsusiyyət ondan ibarət idi ki, dövlət onlara həm sosi-

al-iqtisadi əlaqələrin inkişaf etdiyi bir mərkəz, həm də Sultan hakimiyyətinin gücləndirilməsini, ölkədə daxili vəziyyətin sabitləşməsini, mərkəzlə əyalətlər (sancaq/liva, qəryə) arasında əlaqənin möhkəmləndirilməsini təmin edən bir həlqə və müəyyən siyasi güc mərkəzi kimi baxırdı [132, s. 125].

Şəhərətrafı kəndlərin oturaq və köçəri əhalisinin istehsal etdiyi kənd təsərrüfatı məhsulları və bazar üçün nəzərdə tutulmuş digər malların satışı və mübadiləsi şəhər bazarlarında reallaşırdı. Kəndlilər vergiləri ödəmək və özlərinə lazım olan malları almaq üçün istehsal etdikləri məhsulun istehlakdan artıq qalan hissəsini satmağa məcbur idilər. Beləcə, orta əsrlər şəhərində həyat ətraf kəndlər və digər yaşayış məntəqələrindəki həyatla iqtisadi-sosial baxımdan çulğaşmış şəkildə davam və inkişaf edirdi.

Ölkədə iqtisadi münasibətlərin təbii olaraq kənd təsərrüfatından yüksək səviyyədə asılı olması əkinçilik və heyvandarlığın nəzərə çarpacaq dərəcədə inkişaf etməsinə və daha geniş ərazilərə yayılmasına şərait yaradırdı. Kənd təsərrüfatı məhsullarının istehsalı kəndlərdə, bir çoxunun emalı, hazır əmtəə halına gətirilməsi prosesi və tədarükü isə şəhərlərdə reallaşırdı. Kəndli nağd pul şəklində ödəməli olduğu vergini vermək üçün yığdığı taxılı, topladığı bağ-bostan məhsullarını şəhərlərdə fəaliyyət göstərən daimi və ya həftəlik bazarlarda satışa çıxarırdı.

Kənd təsərrüfatı və sənətkarlıq məhsullarının satışı bəzən ölkədaxili bazar çərçivəsini aşaraq Orta Asiya, Yaxın və Orta Şərq, eləcə də Avropa ölkələrinə keçirdi. Bu, ticarət və karvan yolları vasitəsilə gerçəkləşirdi. Müfəssəl dəftərdə adları çəkilən Urmiya, Xalxal, Salmas, Üşni kimi istər şəhər, istərsə də digər yaşayış məntəqələrinin belə ticarət yollarının üzərində yerləşməsi təbii olaraq həmin bölgədə yaşayan əhalinin həyat tərzinə pozitiv təsir göstərirdi. Təbriz – Salmas – Cəzirə– Hələb – Lazikiyə; Həmədan – Zəncan – Miyanə – Xalxal; Ərdəbil – Marağa – Üşni – Barkri ticarət və karvan yolları bir sıra məhsulların bu marşrutlar vasitəsi ilə daxili vəxarici bazarlara çıxarılmasına şərait yaradırdı [65, s. 181]. Xarici bazarlarda həmin mallara yara-

nan və tədricən artan tələbat da öz növbəsində satış üçün məhsul istehsalının artırılmasına təkan vermiş olurdu.

Urmiya şəhəri də ticarət yolları üzərində yerləşən əsas ticarət mərkəzi və gömrük məntəqələrindən biri olmuşdur. Təsadüfi deyil ki, müəlliflər gömrükdən gələn vergini şəhərin əsas gəlir mənbəyi kimi qeyd edirdilər [65, s. 234-235]. M.H.Heydərov da bu xüsusiyyəti nəzərə alaraq, Urmiyanı orta əsrlərdə əsas ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi qiymətləndirmişdir [116, s.109].

Xatırladaq ki, şah rejimi dövründə şəhərin adı dəyişdiriləərək Rzaiyyə adlandırılmış, lakin sonralar – 1979-cu ildən onun qədim adı özünə qaytarılmışdır [146, s. 60].

Urmiya livasının əsas şəhəri və mərkəzi sayılan Urmiya özünün məhəllələri, əhalisinin məşğuliyyəti və etnik-dini tərkibinə görə digər yaşayış məntəqələrindən fərqlənirdi.

Dəftərin məlumatlarına görə Urmiya şəhərinin tərkibində 6 məhəllə – Bazarbaşı, Xızıran, Kürdşəhir, Əli Kürki, Hindu, Çarşı məhəllələri və 9 dizəc (burada: təpə, təpəcik [123, s. 172]) olmuşdur.

Orta əsrlər Şərq, o cümlədən, Osmanlı şəhərlərində məhəllələrin əsas xüsusiyyətlərindən biri onların idarə, iqtisadi və sosial-mədəni münasibətlərin qurulması baxımından şəhərin kiçik bir modeli olması idi. Həmçinin məhəllələr bir-birini tanıyan, qarşılıqlı məsuliyyət daşıyan, sosial-ictimai həmrəylik içində fəaliyyət göstərən insanların yaşadığı yer olmuşdur [69, s. 140; 85, s. 135-136].

Osmanlı hakimiyyəti dövründə Urmiya şəhərində 1 587 vergi mükəlləfiyyətli şəxs qeydə alınmışdır. Əhali həm mərkəzdə, həm də şəhərətrafı ərazilərdə ("dizəc") yaşamışdır. Müfəssəl dəftərin təhrir göstəricilərinə əsasən, Urmiya şəhərində yaşayan əhalinin dini tərkibini müəyyən etmək mümkündür. Şəhərdə dini cəhətdən müsəlman və qeyri-müsəlmanların yaşadığı təsbit edilmişdir. Şəhərdə həmçinin, əfşar tayfasına aid olan onlarla yarımköçəri həyat sürən (əşirət və camaat) ailələr yaşamışdır. Tarixçilər əfşarların imanlı qoluna aid olan qasımlı-imanlı (92 ev), qa-

ralar-imanlı (16 ev), imanlı (36 ev), qaraman-imanlı (35 ev) və digər əşirətlərin bu bölgədə Osmanlı fəthindən daha əvvəl yaşadığını qeyd etmişlər [65, s. 90-92].

Müfəssəl dəftərin qeydlərində Bazarbaşı, Xızıran, Kürdşəhir, Əli Kürki, Hindu məhəllələrində müsəlman əhalinin, Çarşı məhəlləsində isə müsəlman əhali ilə(o cümlədən, "əşirət" və "camaat"lara mənsub ailələrlə) yanaşı yəhudi ailələrinin də yaşaması haqqında məlumat verilir. Təhrir göstəricilərinə əsasən apardığımız hesablamalara görə, Çarşı məhəlləsində 422 vergi ödəyicisi qeydə alınmışdır ki, onlardan 256 nəfəri əşirət və camaat, 52 nəfəri isə qeyri-müsəlman (o cümlədən, 45 nəfər yəhudi) ailələrə mənsub olmuşdur. Maraqlıdır ki, Urmiya şəhərində yaşamış və adları siyahıya alınmış bu ailələrin heç biri müfəssəl dəftərdə vergi ödəyicisi kimi qeyd olunmamışlar. Aşağıdakı cədvəl – 2.3.1-də Urmiya şəhəri məhəllələrində yaşamış vergi ödəyicilərinin sayı və yerləşməsi ilə bağlı nəticələr qeyd olunmuşdur.

*Cədvəl 2.3.1*

**Urmiya şəhərinin məhəllələrində yaşamış vergi ödəyiciləri**

| **Məhəllə** | **Bazarbaşı** | **Xızıran** | **Kürdşəhir** | **Əli Kürki** | **Hindu** | **Çarşı** | **Yekun** |
|---|---|---|---|---|---|---|---|
| Vergi ödəyənlər | 200 | 205 | 148 | 198 | 258 | 422 | 1431 |
| Faizlə | 14% | 14,3% | 10,3% | 13,8% | 18,1% | 29,5% | |

Ümumiyyətlə, Urmiya şəhərində yaşayan adları siyahıya salınmış 1 587 (şəhərətrafı kəndlərdə yaşayan vergi ödəyiciləri və qeyri-müsəlman əhali göstərilən ümumi nəticəyə əlavə edilmişdir – Y.N.) nəfərin 1 535 nəfəri müsəlman, 52 nəfəri qeyri-müsəlman (o cümlədən, 45 yəhudi) olmuşdur. Qeyd edək ki, müfəssəl dəftərin göstəricilərinə görə, livanın qeyri-müsəlman (həmçinin "gəbran") əhalisi 25 ağça, yəhudilər isə 120 ağça "ispəncə" vergisi ödəməli idilər. Məlumatların dəqiq göstərilməsi-

nə baxmayaraq, A.S.Bilgili tədqiqat əsərində Urmiya şəhərində yaşayan yəhudilərdən alınan verginin miqdarının yanlış olaraq 100 ağça olduğunu qeyd etmişdir [65, s. 234]. Vergi ödəyicilərinin dini tərkibi haqqında aydın təsəvvür əldə etmək üçün aşağıdakı cədvəl 2.3.2-ə nəzər salaq:

*Cədvəl 2.3.2*

**Urmiya şəhəri əhalisinin dini-etnik tərkibi (əşirət və camaat ailələri daxil olmaqla)**

| Əhali | Vergi ödəyicisi | Əhalinin təxmini sayı |
|---|---|---|
| Müsəlman | 1 535 | 6 mindən çox |
| Qeyri-müsəlman (xristian, yəhudi ) | 52 | 170 |

Hesablamalara əsasən, təhrir dövründə şəhərdə və ətraf ərazilərdə yaşayan vergi mükəlləfiyyətli şəxslərin 117 nəfərinin evli, 25 nəfərinin isə subay olduğu müəyyən edilmişdir. Nəzərə almaq lazımdır ki, bu göstəricilər yalnız şəhərətrafı ərazilərə və Urmiya şəhərinə aid "Hasil" bölməsində qeyd olunmuş məlumatlara əsasən müəyyən edilmişdir. Lakin bu məlumatlar şəhər əhalisinin sosial statusunu, məşğuliyyətini təyin etmək üçün qənaətbəxş hesab oluna bilməz. Belə ki, "Hasil" bölməsində çiftlərin sayı (30 çift) və bu torpaqlara görə ödəniləcək verginin miqdarı qeyd olunsa da, məhəllələrdə yaşayan və vergiyə cəlb olunan şəxslərin sosial statusu, əkib-becərdikləri bitkilər və əldə etdikləri gəlir haqqında heç bir məlumat verilməmişdir. Nəticədə, həmin şəxslərin evli və ya subay olduqlarını təyin etmək mümkün olmamışdır. Həmçinin, siyahıyaalma sənədində qeyri-müsəlmanların ailə vəziyyəti göstərilmədiyindən cədvəl 2.3.2-də Urmiya şəhərində yaşayan qeyri-müsəlman əhalinin ümumi sayı təxmini olaraq göstərilmişdir. Təhrir məlumatlarında yalnız Urmiya şəhərini əhatə edən ərazilərdə yaşamış əhaliyə təyin olunan vergi növləri qeyd edilmişdir. Yekun hesablamalara görə şəhər əhalisinin 96,7%-i müsəlman, 3,3%-i isə qeyri-müsəlman (o cümlədən, yəhudi) olmuşdur. Ur-

miya şəhərində yaşayan müsəlman əhalinin təxminən 16%-ni əşirət və camaat ailələri təşkil etmişdir.

Bu göstəricilər əsasında aparılan hesablamalar göstərir ki, Osmanlı hakimiyyəti dövründə Urmiya şəhəri əhalisi ümumi liva əhalisinin təxminən 36%-ni təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, Osmanlı hakimiyyəti dövründə Ərdəbil livasında şəhər əhalisi liva üzrə qeydə alınmış əhalinin 22,6%-ni, Naxçıvan sancağında isə 10,2%-ni təşkil etmişdir [35, s. 82; 51, s. 12]. Təhrir göstəricilərinin nəticələrinə görə, əhalisinin sayı 6 min nəfərdən çox olduğu hesablanan Urmiya şəhərini orta böyüklükdə (6-9 min nəfər) şəhərlər sırasına aid etmək olar [65, s. 101-103].

Məlumdur ki, tədqiq olunan dövrdə şəhərlər həmçinin, ticarət və sənətkarlıq mərkəzi funksiyası daşıyırdılar. Qeyd edək ki, şəhərlərdə ticarət və sənətkarlıq inkişaf etdikcə, daxili bazarlar yarandıqca ticarət əlaqələrinin əhəmiyyəti daha da artırdı. Bu isə öz növbəsində şəhərlərin iqtisadi mərkəzlərə çevrilməsi üçün şərait yaradırdı.

Müfəssəl dəftərdə Urmiya şəhərində ticarət və sənətkarlıq fəaliyyəti ilə bağlı bir sıra vergilər haqqında məlumatlar əks olunmuşdur. Bunlardan biri "müqatiə" qrupu vergiləridir. Məlumdur ki, müqatiələr dövlətə aid olan gəlir mənbəyinin müəyyən bir ödəniş müqabilində müvəqqəti və ya icarəyə verilməsini nəzərdə tutan gəlir mənbələrindən biridir. Şəhərin ticarət və sənətkarlıq sahələri üzrə vergilərin "müqatiə" qrupuna daxil edilməsi bu sahələrin *mültəzimə* (icarəyə götürən şəxsə) verilməsini deməyə əsas verir.

Dəftərdə şəhər üzrə ticarət və sənətkarlıq fəaliyyəti ilə bağlı xəzinəyə ödənilən "müqatiə" qrupu vergiləri haqqında dəqiq məlumat verilir. Təhrirlərdə şəhər üzrə bazar fəaliyyətinə, sənətkarlıq sahələrinə və gömrük fəaliyyətinə aid iki növ "müqatiə" vergisinin olduğu göstərilmişdir. Urmiya şəhəri üzrə bu vergilər qrupuna "*ihtisab*", "*ihzariyə*", "*bac-i bazar*", bazarda istifadə edilən çəki və ölçü vasitələrinə görə yağ və piy əridilməsinə görə at və iribuynuzlu heyvanların satıldığı bazarın bu satışdan əldə etdiyi gəlirə görə alınan vergilər daxil idi.

Ticarətlə bağlı “ihtisab”(mənası “hesab çəkmək, hesab soruşmaq, məsuliyyət”) vergisi bazarda malların qiymətinə və ticarət qaydalarına nəzarət fəaliyyətinə görə təyin olunurdu. Bu işi möhtəsib (mənası “nəzarətçi”) həyata keçirirdi. Belə ki, şəhərə satılmaq üçün daxil olan mallara qazı tərəfindən qiymət qoyulurdu. Möhtəsibin əsas vəzifəsi bazarlardakı qiymətlərə və ticarət qaydalarına nəzarəti həyata keçirmək, gətirilmiş mallara qiymət qoyulduqdan sonra həmin mallara görə müvafiq miqdarda məbləğ toplamaq idi [100, s. 338]. V.Minorskiyə görə möhtəsib həm də “bazar müfəttişliyi edərək bazarda tədavüldə olan pulun ticarət prosesində dəyərinə nəzarət edirdi” [142, s. 149]. Bununla birlikdə ona ticarət qaydalarını pozanları cəzalandırmaq hüququ da verilmişdi. Mənbələr həmçinin, şəhərə daxil olan malların gömrük məmurları tərəfindən ciddi şəkildə yoxlanıldığını və bu işə görə heç bir ödəniş tələb olunmadığını qeyd edirdilər. Bu məqsədlə onlar üçün xüsusi otaqlar ayrılırdı [127, s. 486].

Ticarət fəaliyyəti ilə bağlı vergilərdən olan “ihzariyə” qanunu pozan şəxsin məhkəməyə çağrılmasına və gərəkirsə, güc tətbiq etməklə məhkəməyə gətirilməsi zamanı meydana çıxan xərclərlə bağlı rüsumdur.

“Müqatiə” vergilərinə heyvanların satışının həyata keçirildiyi xüsusi bazarlarda satılan heyvana görə “bac-i bazar” (bazar haqqı) vergisi də aid edilmişdir. Digər bazar vergisi “bazar-i əsb və gav”(at və inək/öküz rüsumu) vergisidir ki, bu da atın və iribuynuzlu heyvanın satıldığı xüsusi bazarlardan əldə olunan gəlirə görə şəhər tacirlərindən alınırdı.

Tacirlərə təyin olunan vergilərdən biri də bazarlarda ölçülüb, çəkilən mal və məhsula görə ödənilən *“rəsm-i keyl və kantar”* (kile və kantar rüsumu) vergisidir. Kantar ilə pambıq və çəltik, kile (keyl) ilə dənli bitkilər ölçülürdü.

Məlumdur ki, orta əsrlərdə şəhərlər həmçinin sənətkarlıq mərkəzləri olmuşdur [132, s. 124]. Müfəssəl dəftərdə Urmiya şəhərində fəaliyyət göstərmiş sənətkarlıq sahələrinə təyin olunan vergilərlə bağlı məlumatlar da öz əksini tapmışdır.

“Müqatiə” vergilər qrupuna “mum-xanə”, “roğən-xanə” və “şəm-xanə” və s. kimi qeyd olunan kiçik həcmli sənətkarlıq sahələrinə təyin olunan vergilər də daxil edilmişdir. Mumxana və şamxana kimi istehsal emalatxanalarında şam hazırlanırdı. Şamlar, məlum olduğu kimi, orta əsrlərdə başlıca işıqlandırma vasitəsi kimi, məscidlərdə, camelərdə, evlərdə və s. yerlərdə istifadə edilirdi. Şam hazırlanmasında əsas xammal kimi mumdan istifadə olunurdu. Sənətkarlıq emalatxanalarında mum keçi piyinin əridilməsi yolu ilə alınırdı. Piyin əridilib, sonra dondurularaq şama çevrilməsi prosesi isə “şəm-i roğən” (yağ, piy) adlanırdı ki, bununla məşğul olan sənətkarlıq sahəsi də vergiyə cəlb edilmişdi [35, s. 86]. Müfəssəl dəftərdə ticarət və sənətkarlıq fəaliyyətinə təyin olunan “müqatiə” vergisi hər sahə üçün ayrı-ayrı qeyd edilmədiyinə görə bu sahələrin Urmiya şəhərinin ticarət həyatındakı əhəmiyyətini dəqiq təyin etmək çətindir. Müqayisə üçün qeyd edək ki, “Ərdəbil dəftəri”ndə bu sahələr üzrə təyin olunan verginin miqdarı müvafiq sahələrə uyğun olaraq ayrı-ayrı təqdim edilmişdir [35, s. 196].

Müfəssəl dəftərin məlumatlarına əsasən, Urmiya şəhəri üzrə sənətkarlıq və ticarət sahələrindən əldə olunan gəlirə görə xəzinəyə ildə 60 000 ağça “müqatiə” vergisi ödənməli idi.

Digər növ “müqatiə” vergisi“Urmiya şəhəri və ətrafında yerləşən nahiyələrin” tranzit ticarətindən əldə etdiyi gömrük vergisidir və bu vergi ildə 420 min ağça təşkil etmişdir. Hesablamalara görə şəhərin ümumi illik gəlirində “gömrük müqatiəsi”nin xüsusi payı 68% təşkil etmişdir. Bu isə onu deməyə əsas verir ki, XVIII əsrin əvvəllərində Urmiya şəhəri quru ticarət yolları üzərində yerləşən mühüm gömrük məntəqələrindən biri kimi əhəmiyyətini itirməmiş və geniş fəaliyyət göstərmişdir.

Urmiya şəhəri üzrə təyin edilən vergilərdən biri də “Beyt-ül mal” qrupu vergisidir. Bu vergi növü gözlənilməyən hadisələrlə bağlı yaşayış (burada: şəhər) məntəqəsi üçün ümumi olaraq təyin edilən vergilər qrupudur. Torpağı əkib-becərən ailə başçısının öldüyü zaman dövlətə keçən ərazinin digərinə satılmasından xəzinəyə gələn gəlir [16; 17], ölən şəxsin varisi kənar yerdə ol-

duğu zaman onun mal və mülkünün saxlanması üçün alınan rüsum, müxtəlif hadisələr səbəbindən əmlakı itmiş rəiyyətdən onun tapılmasına görə alınan vergiləri [56, s. 245] əhatə edən "Beyt-ül mal" qrupu vergilərinin şəhər üzrə miqdarı ümumi 24 000 ağça olaraq göstərilmişdir.

Müfəssəl dəftərin təhrir məlumatlarında Urmiya şəhərinə aid olan və "dizəc" sözü ilə qeyd edilən 9 ərazi vahidi göstərilmişdir [10, s. 197-202]. Qeyd edək ki, F.Dəvəllioğlunun "Lüğət"ində "diz" sözünün mənası "qala, qala divarı" [70, s. 224] kimi verilmiş, akademik N.Vəlixanlı isə bu sözü "təpə, təpəcik" mənasında izah etmişdir [123, s. 172]. Aşağıda bu ərazilərin müfəssəl dəftərdə göstərildiyi kimi adlarını qeyd edirik:

1. Dizəc-i Dusti, şəhərin yaxınlığında, Urmiyaya tabedir.
2. Dizəc-i Əhməd, şəhərin nəzdində, qeyd edilən yerə tabedir.
3. Dizəc-i Şərq, şəhərin nəzdində, qeyd edilən yerə tabedir.
4. Dizəc-i Tah-tah, şəhərin nəzdində, qeyd edilən yerə tabedir.
5. Dizəc-i Ağa Aala, şəhərin nəzdində, qeyd edilən yerə tabedir.
6. Dizəc-i Cəlbayi, şəhərin nəzdindədir.
7. Dizəc-i Usta Xızır.
8. Dizəc-i Halac, şəhərin nəzdindədir.
9. Dizəc-i Sərdar Əli, rəiyyəti yoxdur, şəhərin yaxınlığındadır, qeyd edilən şəhərə tabedir.

Bundan başqa, Urmiya şəhərinə aid təhrir göstəricilərində şəhərətrafı ərazidə Cahangir bəy Uğurlu oğluna məxsus (150 dönüm) və Elxani bəy Haqnəzər oğluna məxsus (100 dönüm) torpaq sahələrinin olduğu haqqında məlumat verilmişdir. Həmçinin, məlumatlarda Urmiya livasının Bəldə (60 dönüm), Səhrabad (100 dönüm) nahiyələrində Cahangir bəy Uğurlu oğluna məxsus torpaq sahələrinin olduğu göstərilmişdir [10, s. 289].

Müfəssəl dəftərdə Urmiya şəhərində və şəhərətrafı ərazilərdə əhalinin məşğul olduğu əkinçilik, heyvandarlıq, arıçılıq və digər kənd təsərrüfatı sahələrinə görə ödədikləri vergilərlə bağlı məlumatlar da öz əksini tapmışdır. Belə ki, məlumatlara görə, şəhər əhalisi yalnız sənətkarlıq və ticarətlə deyil, şəhərin tərkibi-

nə aid olan 9 yaşayış məntəqəsinin torpaqları da daxil olmaqla 59 çiftlik ərazidə əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Urmiya şəhərində 59 çiftin əhatə etdiyi sahədə buğda, arpa və başqa dənli bitkilərin əkilməsi, becərilməsi və yığılması ilə məşğul olan şəhər əhalisi burada həm də kətan toxumu, yulaf, çəltik, pambıq əkmiş, bağ və bostan məhsulları becərmişdir. Orta əsr müəllifləri burada (Urmiyada – Y.N.) “7 növ buğda və iri dənli paxla yetişdirildiyini” qeyd edirlər [65, s. 295; 53, s. 177]. Maraqlıdır ki, Ə.Məhəmmədi müasir dövrdə Urmiyada 32 növ buğda əkildiyini və ölkənin ümumi taxıl tələbatının mühüm hissəsinin burada əkilib-becərilən məhsul hesabına ödəndiyini yazmışdır [146, s. 60].

Dəftərin məlumatlarına əsasən, Urmiya şəhəri və ətrafında əklilib-becərilən torpaqların sahəsini də hesablamaq mümkündür. Belə ki, 59 çiftin əhatə etdiyi sahəni hesablayarkən nəzərə almaq lazımdır ki, Osmanlı qanunnamələrinə əsasən, bir çift, əkin sahəsi münbitliyindən asılı olaraq 60-150 dönüm arasında müəyyənləşmişdir. Orta bir rəqəm kimi hər çifti 70 dönüm qəbul edib 1 dönümün 919,3 $m^2$-ə (təxminən 1000 $m^2$) bərabər olduğunu nəzərə alsaq [104, s. 30, 199], Urmiya ətrafındakı “çift”lərin ümumi sahəsinin təxminən 413 hektar olduğunu görərik. Bu rəqəmə 58 “bennak”ın əkin sahəsini və şəhər ətrafında yerləşmiş 2 boş kəndin torpaq sahəsini əlavə etsək, Urmiya şəhəri və ətrafında təxminən 500 hektar torpaq sahəsinin əkilib-becərildiyini söyləmək olar. Bu isə o deməkdir ki, adambaşına düşən əkinə yararlı torpaq sahəsi 0,3 hektar təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, Ərdəbil şəhəri üzrə əkinə yararlı torpaq sahələri 140 hektar, Sərab şəhəri üzrə isə 175 hektar olmuşdur [35, s. 88].

Livada olduğu kimi, Urmiya şəhəri əhalisinin əkib-becərdiyi kənd təsərrüfatı məhsullarına görə müəyyən edilən vergilər də natural şəkildə ödənilən *“xüms-i ğallat”* və *“üşr”* vergiləri qrupuna aid edilmişdir. Buğda, arpa və darı bitkisinə görə yığılan vergilər “xüms-i ğəllat” kateqoriyasına aid idi. Şəhər əhalisi dənli bitkilərdən yığdığı məhsulun beşdə birini vergi olaraq ödəməli idi. Bu qaydaya əsasən, verginin miqdarını 5 dəfə artırıb

şəhər üzrə toplanmış məhsulun ümumi miqdarını hesablamaq mümkündür. Şəhər üzrə buğda bitkisinə görə natural şəkildə ödənilən vergi 610 kile müəyyən edilmişdirsə, bu o deməkdir ki, "xüms-i ğallat" kateqoriyasına müvafiq olaraq, 3 050 kile buğda yığılmışdır. "Kile" ölçü vahidinin təxminən 25 kq [104,s. 203] olduğunu qəbul edərək, Urmiya şəhəri üzrə 76 250 kq buğda, 31 875 kq arpa, 15 250 kq darı məhsulu yığıldığını müəyyən etmiş oluruq. Qeyd edək ki, A.S.Bilgilinin Urmiya şəhəri üzrə təqdim etdiyi məlumatlarda dənli bitkilər, bağ-bostan və digər sahələr üzrə toplanan məhsul və ona uyğun təyin edilən vergi göstəriciləri dəqiq göstərilməmişdir. Məsələn, müəllif şəhər üzrə buğda yığımından alınan verginin miqdarının 300 kile olduğu qənaətinə gəlmişdir [65, s. 235].

Aşağıda təqdim olunan cədvəl 2.3.3-də Urmiya şəhəri üzrə toplanmış "xüms" vergisinə aid göstəricilər haqqında məlumat verilmişdir.

*Cədvəl 2.3.3*

**Urmiya şəhəri üzrə dənli və paxlalı bitkilərə təyin olunan vergilər**

| Vergi növü | Ödənilən verginin həcmi (kile ilə) | Ödənilən verginin həcmi (kq-la) |
|---|---|---|
| Buğda | 610 | 15250 |
| Arpa | 255 | 1275 |
| Darı | 122 | 610 |
| Kətan toxumu və yulaf | 61 | 305 |

Urmiya şəhərinin əhalisi dənli bitkilərlə yanaşı pambıq və çəltik əkini ilə də məşğul olmuşdur. Bu bitkilərin əkilib-becərilməsinə görə yığılan vergilər "üşr" (onda bir) kateqoriyası ilə tənzimlənirdi. Dəftərin məlumatlarında göstərilir ki, şəhər və tərkibindəki kəndlərin əhalisi ildə 50 man *"üşr-i pəmbə"* (pambıq ver-

gisi) vergisi ödəmişdir. Bu isə o deməkdir ki, şəhər üzrə 500 man pambıq yığılmışdır. 1 "man" ın təxminən 13 kq olduğunu nəzərə alsaq [50, s. 3-9], hesablamalara görə şəhər üzrə yığılmış pambığın çəkisinin 6 500 kq olduğunu müəyyən etmiş olarıq. Bu rəqəm Urmiya livası üzrə toplanan ümumi pambıq məhsulunun (95 290 kq) 6,8%-ni təşkil edir. Dəftərin qeydlərinə əsasən, Urmiya şəhərində əkilən çəltik üçün 450 man vergi ödənmişdir, bu isə o deməkdir ki, təhrir zamanı şəhər üzrə 4500 man və ya 58 500 kq çəltik toplanmışdır. Qeyd olunan bitkilərə görə ödənən vergilər "üşr" kateqoriyasına aid olduğuna, yığılan məhsul "man"lə ölçüldüyünə görə pambıq və çəltik bitkilərinin təhrir göstəricilərini əks etdirən cədvəl 2.3.4-dəki kimi müəyyən etdik:

*Cədvəl 2.3.4*

**Urmiya şəhəri üzrə texniki bitkilərə təyin olunan vergilər**

| Vergi növü | Ödənilən verginin miqdarı(manla) | Ödənilən verginin kq-la qarşılığı |
|---|---|---|
| Pambıq vergisi | 50 | 6 500 kq |
| Çəltik vergisi | 450 | 58 500 kq |

Orta əsr səyyahı Övliya Çələbi Urmiya və ətrafında 20 min bağın olduğunu yazır və buranın "bağ-bağçalı, güllü-gülüstanlı abad bir şəhər" olduğunu qeyd edirlər [141, s. 176]. Maraqlıdır ki, bağçılığın genişlənməsi və inkişafı ənənələri müasir Urmiyada da davam edir. Belə ki, müəlliflər burada yetişdirilən üzüm çeşidlərinin, giləmeyvələrin, eləcə də digər meyvələrin çox məşhur olduğunu və xarici ölkələrə ixrac olunduğunu yazırlar [146, s. 57].

Dəftərdə mülayim iqlimli Urmiya şəhərində bağ, bostan məhsullarından əldə olunan gəlirə təyin olunan vergilərlə bağlı məlumatlar da vardır. Qeyd edək ki, bu vergilər nağd ödənilirdi. Müfəssəl dəftərin məlumatlarına görə şəhər əhalisinə məhsuldan alınan gəlirin 1/10-i həcmində və nağd ödənilən *"üşr-i bağat"* (bağ vergisi) vergisinə görə 20 400 ağça, *"üşr-i meyvə"* (meyvə vergisi) vergisinə görə 6 200 ağça, *"üşr-i bostan"* (bostan vergisi) vergisinə görə isə 6 750 ağça vergi təyin edilmişdir.

Bu dövrdə şəhər əhalisinin heyvandarlıqla da məşğul olduğu müəyyən edilmişdir. Məlumat üçün qeyd edək ki, hal-hazırda da heyvandarlıq Urmiya əhalisinin əsas məşğuliyyəti və gəlir mənbələrindən biridir [146, s. 38]. Dəftərdə yalnız qoyunçuluq sahəsi üzrə toplanan vergi haqqında məlumat verilir. İki xırdabuynuzlu (qoyun və ya keçi) heyvana görə 1 ağça olmaqla, şəhər əhalisi 2 750 ağça qoyun vergisi ödəmişdir ki, bu da ərazidə 5 500 baş heyvan saxlandığını deməyə əsas verir. Əhali mal-qaranın yay və qış mövsümündə saxlandığı yerə görə 660 ağça *"ağıl və qışlaq"* vergisi ödəmişdir. Heyvanların əsas qidasını təşkil edən ot və yonca üçün də əhali vergi ödəməli idi. *"Rəsm-i giyah maa yonca"* (təzə ot və yonca vergisi) adlanan bu vergi şəhər üzrə 1 700 ağça təyin edilmişdir.

Dəftərdə qeyd olunmasa da, təsərrüfat, xüsusilə, əkinçilik, eləcə də heyvandarlıq üçün çox gərəkli olan dəyirmanların çay suları ilə işləməsi məlumdur. Təhrir göstəricilərində şəhər ərazisindən hansı çayların axdığı və əhalinin istifadə etmiş olduğu su mənbələri haqqında məlumat verilməsə də, tarixi əsərlərdə Göyərçin dağlarından axıb Urmiya şəhərindən keçərək Urmiya gölünə tökülən Şahdur (Urmiya çayı), Baranduz və Qadan çaylarından müxtəlif məqsədlər üçün geniş istifadə olunduğu qeyd edilmişdir [145, s. 38-40].

Şəhərdə və ətraf kəndlərdə həyat üçün vacib olan dəyirmanların sayı 27 olmuş, işləmə müddəti və dəyirman daşlarının (bab) sayı nəzərə alınaraq, bu sahəyə 1 350 ağça vergi təyin edilmişdir. Müfəssəl dəftərdə dəyirmanların bəziləri "xarab" (dağılmış, işləməyən) kimi qeyd olunmuş, bəzilərinin isə üç aydan bir ilə kimi işləməsi haqqında məlumat verilmişdir.

Digər yaşayış məntəqələrində olduğu kimi, Urmiya şəhəri və ətrafındakı ərazilərdə yaşayan əhaliyə də *"rəsm-i arusanə"* (gəlinlik rüsumu) vergisi təyin edilmişdir. Bu vergi dəyişməz olaraq subay (bakirə) qızlar üçün 120 ağça, səyyibələr (dul qadınlar) üçün isə 60 ağça məbləğində idi. Müqayisə üçün qeyd edək ki, "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə həm dul, həm də subay (bakirə) qızlar üçün vahid məbləğ – 90 ağça [50,

s. 174], “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri”ndə isə bu sahə üçün 100-3 000 ağça həcmində vergi müəyyən edilmişdi [37, s. 30-35].

Şəhər əhalisi icarəyə götürdüyü torpağa görə *“tapu-yi zəmin”*, gözlənilməyən hadisələrə görə isə *“cürm-ü cinayət”* vergisi ödəyirdi. Qeyd olunan vergilərin əks olunduğu cədvəl 2.3.5-ə diqqət yetirək:

*Cədvəl 2.3.5*

**Urmiya şəhəri üzrə təyin olunan “üşr” və digər vergilər**

| **“Üşr” vergiləri (natural şəkildə ödənilən)** | **Verginin miqdarı (ağça ilə)** | **Digər vergilər (nağd ödənilən)** | **Verginin miqdarı (ağça ilə)** |
|---|---|---|---|
| Arı/pətək vergisi | 1 860 | Qoyun vergisi | 3 750 |
| | | Ağıl-qışlaq vergisi | 660 |
| Bostan vergisi | 6 750 | Təzə ot və yonca vergisi | 1 700 |
| Bağ vergisi | 20 400 | Saman vergisi | 1 150 |
| Meyvə vergisi | 6 200 | Dəyirman vergisi | 690 |
| | | Gəlinlik vergisi | 1 620 |
| | | Dəştibani və tapu vergisi | 5 000 |
| | | “Niyabət..”qrupu vergiləri | 8 850 |

Urmiya şəhərində yaşayan əhalinin təsərrüfat sahələri üzrə ödəyəcəyi verginin yekun göstəricisi 77 920 ağça müəyyən edilmişdir.

Dəftərin göstəricilərindən bəlli olur ki, şəhər əhalisinin əkinçilik və heyvandarlıqdan əldə etdiyi gəlir (77 920 ağça) sənətkarlıq və ticarətdən əldə olunan gəlirə (60 000 ağça) nisbətən bir qədər yüksək olmuşdur. Bu isə onu göstərir ki, şəhər əhalisi ticarət və sənətkarlıqla yanaşı, ərzaq və digər ehtiyaclarını ödəmək məqsədilə əkinçilik, heyvandarlıq və s. kənd təsərrüfatı sahələrilə geniş şəkildə məşğul olmuşdur.

Bütün bu məlumatlara əsasən, Urmiya şəhərinin ümumi illik gəlirini hesablamaq mümkündür. Qeyd edək ki, Urmiya şəhərinin ümumi gəliri heyvandarlıq və əkinçilik sahələrindən, gömrük vergisindən, qeyri-istehsal sahəsi olan "beyt-ül mal" və "müqatiə" qruplarına daxil olan vergilərdən əldə edilən gəlirlərin cəminə əsasən təyin olunmuş və 617 763 ağça təşkil etmişdir. Osmanlı hakimiyyəti dövründə şəhər əhalisinin sayının təxminən 6 min nəfər olduğunu nəzərə alsaq, adambaşına düşən gəlir payının 100 ağça civarında olduğunu söyləyə bilərik. Müqayisə üçün qeyd edək ki, Osmanlı hakimiyyəti dövrü Ərdəbil şəhərinin ümumi gəliri 68 325 ağça olmuşdur [35, s. 84].Bütün bu göstərilənlər Urmiyanın Azərbaycan şəhərləri arasında özünəməxsus yer tutan mərkəzlərdən biri olduğunu deməyə əsas verir.

Müfəssəl dəftərdə "nəfs" sözü ilə qeyd olunan Urmiya livasına aid ikinci yaşayış məntəqəsi "nəfs-i qala-yi Ərzin"dir. Tərkəvər nahiyəsinə aid olan bu ərazinin müfəssəl dəftərin məlumatlarında qala olması qeyd edilir. Bu məlumat H.Ə.Dəlilinin əsərində də təsdiqini tapmışdır. Müəllifin qeyd etdiyinə görə "Maşqan çayının sahilində salınan Ərzin qalası Tərkəvər hakimlərinin sakin olduqları yer idi." [30, s. 70]. Ərazinin "nəfs" sözü ilə qeyd edildiyinə görə, xüsusi status daşıdığı ehtimal edilir. Buna baxmayaraq, "nəfs-i Urumi"dən fərqli olaraq, bu yaşayış məntəqəsində ticarət və sənətkarlıq sahələrinin fəaliyyəti ilə bağlı heç bir məlumat verilmir. Təqdim olunan məlumat, yalnız Ərzin qalasında 33 nəfər vergi mükəlləfiyətli şəxsin yaşaması və dənli bitkilərdən toplanan məhsula təyin olunan 1 000 ağça miqdarında vergidən ibarət olması ilə bağlı qeyddir. Təəssüf ki, bu məlumat qalada yaşayanların kənd təsərrüfatı və ya məşğul olduqları digər sahələr haqqında geniş fikir söyləməyə imkan vermir.

Dəftərdə "nəfs" sözü ilə göstərilən digər yaşayış məntəqəsi Salmas qəzasının eyniadlı nahiyəsinə tabe olan Salmas şəhəridir. H.Ə.Dəlili Salmas şəhərinin Təbrizin qərbində və 125 kilometrliyində yerləşdiyini qeyd etmiş, 25 km uzunluqda və 16 km enlilikdə olan və dəniz səviyyəsindən 1 350 m (hal-hazırda 1 430 m

– [148, s. 45]) hündürlükdə olan ərazidə yerləşdiyini yazmışdır. Müəllif şəhərin qalın qala divarları ilə əhatə olunduğunu göstərmişdir [30, s. 37]. Salmasın qala divarları haqqında Mehrdad Rəhmani Əhrvanlı belə yazmışdır: "Divarın eni 3-5 metr, hündürlüyü isə 10 metrdir. Qala divarlarında 5 darvaza var idi (H.Ə.Dəlili isə 3 darvaza olduğunu qeyd etmişdir – Y.N.): Əhrivan, Sədəqiyan, Baş qala, Əskişəhər və Həftxan (və ya Yeddi göz). Qapılar möhkəm taxta ağac məmulatından düzəldilmişdir" [143, s. 70-71].

Mərkəz Salmasa aid təhrir məlumatlarında digər şəhərlərə xas olan şəhər ticarəti və sənətkarlıqla bağlı qeydlərin olmaması şəhərdə bu sahələrin geniş şəkildə fəaliyyət göstərmədiyini və yüksək gəlir gətirmədiyini söyləməyə əsas verir.

Dəftərin məlumatlarına görə şəhər əhalisindən 130 nəfərin adı vergi siyahısına salınmışdır. Onlardan 50 nəfəri evli, 39 nəfəri subay olmuşdur. Həmçinin şəhərdə 41 qeyri-müsəlman şəxsin "ispəncə" vergisi ödədiyi də qeyd olunmuşdur. Apardığımız hesablamalara görə qeyri-müsəlmanların ailə vəziyyətinin dəqiq müəyyən edilməsinin mümkün olmadığını nəzərə alaraq, şəhərdə təxminən 500 nəfərin yaşadığını söyləmək olar.

Hesablamalara görə şəhər əhalisi 140 hektarlıq bir ərazidə arpa, buğda, darı, kətan və yulaf, pambıq əkib-becərmiş, bağbostan məhsulları yetişdirmiş, biyan, soğan və sarımsaq məhsullarının satışından əldə etdikləri gəlirə görə vergi ödəmişlər. Müqayisə üçün qeyd edək ki, statistik məlumatlara görə, müasir dövrdə Salmas şəhərinin sahəsi 2 892 km$^2$-dir [148, s. 43].

Şəhər əhalisi təsərrüfatlarında əkib-becərdikləri dənli bitkilərə görə 400 kile (10 000 kq) buğda vergisi, 200 kile (5 000 kq) arpa vergisi, 80 kile (2 000 kq) darı vergisi ödəmişdir. Təhrir göstəricilərində arıçılıqla məşğul olduğuna görə əhaliyə 2 000 ağça vergi təyin edildiyi qeyd olunmuşdur. Əhaliyə təyin olunan vergilər arasında *"üşr-i biyan"* (biyan vergisi) diqqəti cəlb edir. Yalnız Salmas qəzasına aid məlumatlarda bu məhsulun əkilib-becərilməsinə vergi təyin olunduğunu xüsusi qeyd etmək istərdik. Fikrimizcə, becərilən biyan bitkisinin məhsuldarlığının çox

olması və bundan müxtəlif məqsədlər (məişətdə və təsərrüfatda) üçün geniş şəkildə istifadə edilməsi səbəbindən yüksək gəlir gətirdiyinə görə bu sahə vergiyə cəlb olunmuşdur. Salmas şəhəri üzrə biyan üşrü 1 200 ağça təşkil etmişdir.

Bununla yanaşı, qəsəbə əhalisi heyvandarlıqla məşğul olaraq, saxladıqları xırdabuynuzlu heyvanlara görə qoyun vergisi *(adət-i ağnam)*, heyvanların əsas qidasını təşkil edən saman *(bahâ-i kâh)*, təzə ot və yoncanın *(rəsm-i giyah, maa yonca)* əkib-becərilməsinə görə isə müvafiq vergiləri ödəməli idi. Dəftərin məlumatlarına görə əhaliyə 2 000 ağça qoyun vergisi təyin olunmuşdu ki, bu da təhrir ili ərzində təxminən, 4 000 baş xırdabuynuzlu heyvanın saxlanması deməkdir. Bu göstərici şəhər ərazisində heyvandarlıq üçün əlverişli şəraitin olduğunu və qoyunçuluğun geniş yayıldığını deməyə əsas verir. Dəftərin məlumatlarında Salmas əhalisinin qışlaq vergisi ödədiyi göstərilmişdir. Fikrimizcə, heyvandarlıq sahəsinə aid olan bu vergi növü və mal-qaranın qışda xüsusi sığınacaqlarda (tikililərdə) saxlanılmasına görə ödənilmişdir. Qeyd edək ki, heyvandarlıq fəaliyyəti ilə birbaşa əlaqəli olan bu vergiyə həmin sahənin geniş yayıldığı Xalxal livası üzrə təyin olunmuş vergilər arasında təsadüf olunmamışdır.

Müfəssəl dəftərin məlumatlarında "nəfs-i Salmas"da 8 dəyirmanıın fəaliyyət göstərdiyi göstərilmişdir. Bu faktın özü həmin ərazidə əkinçiliyin yayıldığını və suvarmada dəyirmanlardan geniş istifadə edildiyini təsdiq edir. Məlumatda dəyirmanların bir daşlı (1 bab) olduğu, yarım illik müddətdə işlədiyi və 8 dəyirman üçün 480 ağça dəyirman vergisi təyin edildiyi göstərilmişdir.

Qəzanın hər bir kəndində olduğu kimi, Salmas şəhərində də əhali xəzinəyə təsərrüfatla bağlı vergilərdən başqa, gündəlik məişətinə aid 180 ağça gəlinlik vergisi, 5 000 ağça "niyabət" qrupu vergiləri, 2 000 ağça torpaq vergisi *(dəştibani və tapu-yi zəmin)* ödəmişdir. Vergi məlumatlarının sonunda şəhər əhalisi üçün ümumi olaraq, 51 399 ağça vergi təyin edildiyi göstərilmişdir ki, bu da hər nəfər üçün təxminən 102 ağça təşkil etmişdir.

Yuxarıda göstərilənlər əsasında Salmas şəhərində əhalinin müxtəlif təsərrüfat sahələri ilə məşğul olduğunu, dənli, paxlalı və texniki bitkilərdən yüksək məhsul əldə edərək təyin olunan vergiləri ödədiklərini müəyyən etmiş olduq. Bununla yanaşı, heyvandarlıq sahəsində müəyyən edilən vergilərin həcminə görə bu sahədə də inkişafın olduğunu söyləyə bilərik.

Beləliklə, Osmanlı hakimiyyəti dövrü Urmiya və Salmas şəhərlərində şəhər həyatı, ticarət və sənətkarlıq fəaliyyətləri ilə bağlı təhrir nəticələrinin fərqli olduğu müəyyən edildi. Belə ki, bu dövrdə Urmiya şəhəri daha geniş ərazini (500 hektar) əhatə etmiş və burada yaşamış əhali (6 min nəfər) əkinçilik və heyvandarlıqla yanaşı, ticarət və sənətkarlıq sahələrində də çalışmışdır. Şübhəsiz ki, Osmanlı hakimiyyəti dövründə şəhərin əsas gömrük məntəqələrindən biri kimi fəaliyyət göstərməsi demoqrafik göstəricilərə də təsir göstərmişdir.

Bu dövrdə 140 hektar ərazidə yerləşən və 500 nəfər əhalisi olan Salmas şəhərində isə vəziyyət Urmiya şəhərindən fərqli olmuşdur. Əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıq olmuşdur. Müfəssəl dəftərdə Salmas şəhərində ticarət və sənətkarlıq fəaliyyəti haqqında məlumat göstərilmədiyinə görə bununla bağlı fikir söyləmək çətinlik yaratmışdır.

### 2.4. Xalxal və Urmiya livalarında vəqf təsisatları

Hər hansı bir əmlakı (mülkü) xeyriyyə məqsədilə daimi olaraq ictimaiyyətin istifadəsinə vermək (bağışlamaq) mənasında dəyərləndirilən vəqflər özünəməxsus imkanların qarşılıqsız paylaşmasını nəzərdə tutan hüquqi və sosial qurumlardır [62, s. 157; 93, s. 577]. B.Yediyıldızın qeyd etdiyi kimi, "vəqflər islam tarixi və mədəniyyətində mühüm bir xeyriyyə təsisi olaraq, VIII əsrin ortalarından XIX əsrin sonlarına qədər bütün islam ölkələrinin sosial, iqtisadi və mədəni həyatında son dərəcə təsirli rol oynamışdır" [101, s. 479].

Vəqflərin yaranma tarixi qədimdir. Tarixi ədəbiyyatda ilk vəqfin VIII əsrdə Şamda Üməyya Camesi üçün təsis edildiyi qeyd olunur [62, s. 158; 101, s. 479-480]. Böyük Səlcuq sultanı Toğrul (1038-1063) zamanında Təbrizdə 1048-ci ildə yaradılmış Şərif Xəlil Divanı Zaviyəsi və Elxani hökmdarı Qazan xanın (1295-1304) Təbrizdə yaratdığı Şənb-i Qazan Külliyəsi isə Azərbaycan ərazisində ən qədim vəqf müəssisələrindən sayılır [64, s. 1]. İskəndər Münşi qeyd edirdi ki, I Şah Abbasın Bəlx şəhəri üzərinə hücumu zamanı (1062) əsgərlər "vəqfə aid olan və monqol qırmızı tamqa (əl-Tamqa) ilə bəzədilmiş və Əmir Teymurun şəxsi möhürü ilə təsdiqlənmiş" bir sənəd tapmışdılar [137, s. 130]. Bu isə dövrün məşhur şəxslərinin vəqfə və onun mülkiyyətinə böyük hörmətlə yanaşdığını göstərir.

Dini görüşlərə görə, vəqf mülkiyyəti şəxsə və ya dövlətə deyil, Allaha aid hesab edildiyindən vəqflərə mülk və pul verməklə müsəlmanlar müqəddəs iş görmüş və savab qazanmış olurdular [48, s. 98].

Vəqfin əsas fəaliyyət sahələri dini və təhsillə bağlı müəssisələrin (came, məscid, mədrəsə və s.), sufi təriqətlərinə aid məkanların (zaviyə, xanəgah, təkkə) yaradılması, yoxsul və ehtiyacı olan insanlara yardım, tibbi təsisatların (xəstəxanaların) açılması və fəaliyyəti, eləcə də yolların, körpülərin, karvansarayların və suvarma şəbəkələrinin tikintisi idi.

Qeyd edildiyi kimi, orta əsrlərdə Azərbaycan ərazisində də vəqf təsisatları mövcud olmuşdur. Ş.F.Fərzəlibəyli XV əsrdə bir çox vəqflərin yüksək vəzifə sahibləri tərəfindən idarə olunduğunu qeyd edir [36, s. 32]. Səfəvi dövlətində vəqflər çox gəlirli torpaq mülkiyyəti formalarından biri hesab olunurdu və bu torpaqlarda yaşayan kəndli (rəiyyət) vəqfi idarə edən dini şəxslərdən (ruhanilərdən) asılı idi. Məscid, mədrəsə və b. dini işlərə sərf edildikdən sonra vəqf gəlirinin böyük bir hissəsi ruhanilər tərəfindən mənimsənilirdi [55, s. 98; 36, s. 51].

Vəqfə aid mülkiyyət vəqf verən şəxsin arzu etdiyi kimi (və ya onun vəsiyyətinə uyğun olaraq) idarə olunmalı idi. Vəqf əmlakından heç bir vergi tutulmurdu və o toxunulmaz sayılırdı. Bu səbəbdən bəzi vəzifə sahibləri öz əmlaklarını dini müəssisələrə

vəqf edərək bu yolla xəzinəyə vergi ödəməkdən yayınır və var-dövlətlərinin varisləri üçün qorunub saxlanmasını təmin etmiş olurdular [36, s. 51-52; 48, s. 99].

Allaha aid müqəddəs, toxunulmaz hesab edilən vəqflər uzun müddət, bəzən əsrlər boyu qorunub saxlanmış və fəaliyyət göstərmişdir. Yerli, təbii, iqtisadi və sosial şəraiti nəzərə alan Osmanlı fəth və vergi siyasəti vəqflərə münasibətdə də öz prinsiplərinə sadiq qalmışdır. Bir çox Osmanlı sənədlərində, xüsusilə, təhrir dəftərlərində müxtəlif Ağqoyunlu hökmdarlarının və tanınmış şəxslərinin XV əsrdə təsis etdikləri vəqflər haqqında məlumatlar mövcuddur. Bu dövrün sənədlərində Uzun Həsən, Qasım bəy Cahangir, Həmzə bəy, Cahangir bəy, Sara xatun vəqfləri [48, s. 100] ilə yanaşı, Gəncədə [3; 87, s. 637], İrəvanda [6; 7], Ərdəbildə [9], Naxçıvanda [13], Urmiyada [10] təsis edilmiş vəqflər, onlara bağlı kəndlər və əldə edilən vergilər haqqında məlumatlar da əks olunmuşdur.

Müfəssəl dəftərin məlumatlarında Urmiya livasının nahiyələrində Urmiya şəhərinə bağlı olan "Came-yi Kəbir" (Uzun Həsən camesi) vəqfinə verilmiş bir neçə kəndin olduğunu qeyd etmişdik. Bu məlumatlara əsasən, Urmiya livasının Bənapərvazə (3 kənd) və Bəldə (5 kənd) nahiyələrində yerləşən 8 kəndin bütün gəlirlərinin Urmiya şəhərində yerləşən "Came-yi Kəbir" vəqfinə verilməsi müəyyən edilmişdir. Lakin müfəssəl dəftərdə Xalxal və Urmiya livaları ərazisində fəaliyyət göstərmiş digər vəqflər haqqında məlumatlar qeyd edilməmişdir. Elmi işin Xalxal və Urmiya livalarında mövcud olmuş vəqf və zaviyələrlə bağlı məlumatlarını daha da genişləndirmək məqsədilə digər məlumatlara müraciət edilmişdir. Belə ki, türk tarixçisi A.S.Bilgili Başbakanlık Osmanlı Arxivində saxlanılan 896 saylı "Ərdəbil Şeyx Səfiəddin-i Ərdəbili Vəqfi dəftəri"nə ("Vəqf" dəftəri) [15] əsasən apardığı araşdırmalar nəticəsində yazmış olduğu əsərində Urmiya şəhərində Şeyx Şibli məscidinin vəqfi, Xalxal livası ərazisində isəzaviyələr və onlara vəqf edilən kəndlər haqqında geniş məlumat vermişdir [64, s. 87-89].

Həm müfəssəl dəftərin, həm də "Vəqf" dəftərinin məlumatları ümumiləşdirilərək Osmanlı hakimiyyəti dövründə Xalxal və

Urmiya livalarında fəaliyyət göstərmiş zaviyə və vəqflər müəyyən edilmişdir və onlara aid məlumatlar aşağıdakı cədvəldə əks olunmuşdur:

*Cədvəl 2.4.1*

**Xalxal və Urmiya livalarında fəaliyyət göstərən zaviyə və vəqflər**

| **Zaviyə və vəqflər, onlara bağlı kəndlər** | **Şəhər və nahiyələr** | **Müqatiələr** | **Vəqfə aid kəndlərin sayı** | **Gəlir** |
|---|---|---|---|---|
| **Xalxal livası** | | | | |
| Mişəcin zaviyəsinin məzrə'əsi | Xanəndbil | | 1 | - |
| Bağracerd xanəgahının kəndi | Xanəndbil | | 1 | 6 900 |
| Köy-i Sufla zaviyəsinin kəndi | Xanəndbil | | 1 | 600 |
| Piratir zaviyəsinin kəndi | Xanəndbil | | 1 | 4 000 |
| Mirabad zaviyəsinin kəndi | Xanəndbil | | 1 | 900 |
| Seyliyan zaviyəsinin kəndi | Xanəndbil | | 1 | 900 |
| Pir Veys zaviyəsinin kəndi | Xanəndbil | | 1 | 900 |
| Şeyx Nurəddin və şeyx Bədrəddin zaviyəsi vəqfi | Xanəndbil | | 1kənd | 1 500 |
| Şeyx Bayəzid zaviyəsi vəqfi | Xanəndbil | | 1kənd | 2 000 |
| Hz. Əbu Bəkr əs-Siddiq əhfadı vəqfi | Səncəbəd | | 2 kənd və 4 məzrəə | 6 500 |
| **Urmiya livası** | | | | |
| Came-yi Kəbir vəqfi | Urmiya şəhəri<br>Bənapərvazə<br>Bəldə | 6 | -<br>3<br>5 | 14 400<br>29 477<br>30 831 |
| Şeyx Şibli məscidi vəqfi | Urmiya şəhəri | | | |

1. “Came-yi Kəbir” vəqfi. Vəqf Urmiya şəhərində yerləşir və Ağqoyunlu hökmdarı Uzun Həsənin (1453-1478) adı ilə bağlı olan cameyə aiddir. Müfəssəl dəftərin məlumatlarında Urmiya şəhərində bu camenin vəqfi olduğu göstərilsə də, vəqfin fəaliyyəti və gəlir mənbələri haqqında heç bir qeyd verilməmişdir. Yuxarıda qeyd edildiyi kimi, hər iki sənəddə Urmiya livasının Bənapərvazə və Bəldə nahiyələrinin 8 kəndindən əldə olunan gəlirin “Came-yi Kəbir” vəqfinə aid olması ilə bağlı məlumatlar əks olunmuşdur. Müfəssəl dəftərdə bu kəndlərə təyin edilmiş, vergi mükəlləfiyyətli şəxsə aid (çift, nim çift, bennak və s.), məhsuldan toplanan (buğda, arpa, darı, pambıq, və s.), bağ-bostan (bağ, meyvə) və heyvandarlıqla əlaqəli (qoyun, ot, saman), eləcə də digər vergilərdən gələn gəlirin “Came-yi Kəbir”ə vəqf edilməsi göstərilmişdir. “Vəqf” dəftərində isə Bəldə nahiyəsinin Direh-bahalı kəndindən gələn gəlirin də həmin vəqfə aid olması qeyd edilmişdir.

“Vəqf” dəftərində Urmiya livası ərazisində “Came-yi Kəbir” vəqfinə aid livanın kəndlərilə yanaşı, Urmiya şəhəri ərazisində yerləşən 6 müqatiənin gəlirlərinin də həmin vəqfə aid olduğu göstərilmişdir. Bunlar aşağıdakılardır:

1. Urmiyada yerləşən hamamın yarısının müqatiəsi – ildə 7200 ağça

2. Şəhərdəki dükanların icarəsi müqatiəsi – 60 dükan, işləyən: 35, xarab: 25 – ildə 7200 ağça

3. Şəhərin Bazarbaşı məhəlləsində müqatiə – ildə 1200 ağça

4. Şəhərin Xızıran məhəlləsində müqatiə – ildə 600 ağça,

5. Şəhərin Bozuçkuri (müfəssəl dəftərdə bu adda məhəllə qeyd olunmamışdır –Y.N.) məhəlləsində müqatiə – ildə 480 ağça

6. Erməni kilsəsinə aid ərazinin müqatiəsi – ildə 720 ağça

Əlavə olaraq, “Vəqf” dəftərində onun fəaliyyətində iştirak edən şəxslərə xərclənən məsrəflər (ödənən maaş) haqqında məlumat verilmişdir. Burada mütəvəllinin (vəqfi idarə edən şəxs) 40 ağça, nazirin (mütəvəllinin işinə nəzarət edən şəxs, xüsusi nəzarətçi) [63, s. 39] 20 ağça, katibin 10 ağça, xatibin (camedə xütbə oxuyan şəxs) [70, s. 406] və imamın 25 ağça, birinci mü-

əzzinin [70, s. 849] (müəzzin-i əvvəl) və ikinci müəzzinin (müəzzin-i sani) 12 ağça, qəyyum (camedə təmizlik işlərini görən şəxs) [93, s. 223], fərraş və cabinin (vəqf kiralarını toplayan şəxs) [92, s. 253] isə hərəyə 10 ağça gündəlik maaş aldığı göstərilmişdir.

Elmi işin Urmiya şəhəri ilə bağlı bölməsində burada bir neçə dükanın yerləşdiyini, üstü örtülü ticarət yeri olan bədəstan [92, s. 190], karvansaray, mal tədarükü və ticarət işlərinin həyata keçirildiyi məkan (xan) [58, s. 299-302], hamam, mədrəsə və digər sosial təsisatların fəaliyyət göstərdiyini qeyd etmişdik. Fikrimizcə, bu sahələrin yaradılmasında və fəaliyyətində şəhərdəki "Came-yi Kəbir" vəqfinin böyük rolu olmuşdur.

2. Şeyx Şibli məscidi vəqfi. Osmanlı idarəçiliyi dövründə Urmiya şəhərində Şeyx Şibli məscidi vəqfinin fəaliyyət göstərməsi ilə bağlı məlumat yalnız "Vəqf" dəftərində qeyd olunmuşdur. Mənbədə Şeyx Şibli adlı şəxsin vaxtilə Urmiya şəhərində dəfn olunduğu və onun adı ilə bağlı məscidə vəqf təsis edildiyi göstərilmişdir. Məlumatlara görə, Şeyx Şiblinin əsl adı Əbu Bəkir Düləf b. Cahdər (Cəfər b. Yunus) əş-Şibli olmuş və o, h. 247-ci (m. 861-ci) ildə Samirədə anadan olmuşdur. Şeyx Cüneyd Bağdadinin yetişdirdiyi ilk sufilərdən olan Şeyx Şibli h. 334-cü (m. 946-cı) ildə Bağdadda vəfat etmişdir [74, s. 125-126]. "Vəqf" dəftərində isə Şeyx Şiblinin məzarının Urmiya şəhərində olduğu göstərilmişdir. Qeyd edək ki, tarixi əsərlərdə bir çox tanınmış insanların müxtəlif şəhər və ölkələrdə belə "simvolik" türbələri (makamlar) və məzarlarının mövcud olması haqqında məlumat verilmişdir [98, s. 410]. Şeyx Şiblinin məzarının Bağdadda olmasına baxmayaraq, Urmiyada da onun türbəsi ziyarətgaha çevrilmiş və burada məscid inşa edilmişdir. Sənəddə həmçinin bu vəqfin "Came-yi Kəbir" vəqfinin mütəvəllisi tərəfindən idarə olunduğu və xərclərinin qeyd edilən vəqf tərəfindən ödəndiyi haqqında məlumat var [64, s. 306-308; 15, s. 61-62].

Müfəssəl dəftərin məlumatlarında Xalxal livasında yerləşən bir neçə zaviyə və onlara vəqf edilən kəndlərin olduğu göstərilmişdir. Lakin bu məlumatlar yalnız zaviyə kəndinin adı və bu

kəndə təyin edilən vergi haqqındakı qeydlə məhdudlaşmışdır. Belə ki, müfəssəl dəftərin Xalxal livasının Xanəndbil nahiyəsində zaviyələrə verilmiş (vəqf edilmiş) kəndlər haqqında məlumatlarda Mişəcin kəndi zaviyəsinin məzrə'əsi, Köy-i Sufla, Mirabad, Seyliyan, Pir Veys zaviyələrinin kəndlərinin əhalisiz olduğu qeyd edilir. Dəftərdəki xüsusi qeydə (xali an-reaya) əsasən, kənd sakinlərinin Osmanlı fəthindən sonra bu yerləri tərk etdikləri ehtimal olunur. Bağracerd xanəgahına və Piratir zaviyəsinə vəqf edilən kəndlərdə isə əhali fərqli təsərrüfat işləri ilə məşğul olmuşdur.

Xalxal livası vəqf və zaviyələri ilə bağlı daha ətraflı məlumatların 1728-ci il tarixli "Vəqf" dəftərində əks olunduğunu bildirməklə yanaşı, həmin mənbəyə əsasən, bu təsisatların Osmanlı fəthindən xeyli əvvəl əsasən, XV-XVI əsrlərdə yaradıldığını da qeyd etmək istərdik [64, s. 87-89; 15, s. 62-65]. .

1. Şeyx Nurəddin və Şeyx Bədrəddin zaviyəsi vəqfi. Bu vəqfin fəaliyyəti ilə bağlı müfəssəl dəftərdə heç bir məlumat verilməmişdir. "Vəqf" dəftərində isə Xalxal livasında yerləşən Şeyx Nurəddin və Şeyx Bədrəddin zaviyəsi vəqfinin fəaliyyəti ilə bağlı geniş məlumatlar əks olunmuşdur. Sənəddə göstərilir ki, qeyd edilən zaviyə şeyx övladı Şeyx Məhəmməd Ənsarinin əcdadlarının vəqfi olmuşdur və zaviyənin şeyxi də adı qeyd edilən şəxsdir [64, s. 87]. "Vəqf" dəftərindəki qeydə əsasən, zaviyə və onun vəqfi Əmir Teymur (1370-1405) zamanında h. 805-ci (1402-1403) ildə təsis edilmişdir. Zaviyənin h. 907-ci (1502) ildə Şah I İsmayıl (1501-1524), h. 930-cu (1524) ildə Şah I Təhmasib (1524-1576) tərəfindən verilmiş iki vəqfiyyəsi olmuşdur. Osmanlı idarəçiliyi dövründə zaviyənin əvvəlki vəqfiyyələri qəbul edilmiş vəh.1138-ci (1726) ildə sultan III Əhməd zamanında (1703-1730) Təbriz sərəsgəri Abdulla paşa tərəfindən "buyuruldu" ilə qanuniləşdirilmiş yeni vəqfiyyəyə əsasən, vəqf və Zahidan kəndinin "üşr" və digər vergilərindən əldə olunan gəlir (cəmi 1500 ağça) Şeyx Məhəmməd Ənsarinin idarəsinə verilmişdir [64, s. 87-88]. Vəqfin illik gəlirini Zahidan kəndinin vergi ödəyən əhalisindən çift, nim çift, bennak, dənli bitkilərdən

alınan “xüms” vergisi və kənddə yerləşən Məhəmməd Ənsarinin, eləcə də Əhmədxanın əlindəki dəyirmanlardan əldə olunan gəlir təşkil edirdi. Vəqfin xərclərinə zaviyəyə sərf olunan məsrəflər aid idi.

2. Şeyx Bayəzid zaviyəsi vəqfi. “Vəqf” dəftərinin məlumatlarında Xalxal livasının Xanəndbil nahiyəsinin Bənaharm kəndində Şeyx Bayəzid zaviyəsi vəqfinin yerləşdiyi göstərilmiş, Şeyx Bayəzidin Əbu Bəkr əs-Siddiqin nəslindən olduğu qeyd edilmişdir [64, s. 88]. “Vəqf” dəftərində bu vəqfin Səfəvi dövründən öncə yaradıldığı və h. 955-ci il (1548-1549) tarixində Şah I Təhmasib tərəfindən tanındığı haqqında məlumat da verilmişdir. Osmanlı fəthindən sonra Təbriz sərəsgəri Abdulla paşanın h. 1138-ci il (1726) tarixli göstərişi ilə övladlıq olaraq “idarəçiliyinə müdaxilə olunmamaq şərtilə” yenidən qanuniləşdirilməsinə qərar verilmişdir [64, s. 325-326]. Vəqfə bağlı Bənaharm kəndində yaşayan vergi mükəlləfiyyətli şəxslərin (9 nəfər) adlarının qarşısında “şeyx” yazılmış olması burada irsən şeyx nəslinin yaşadığını ehtimal etməyə əsas verir. Sənəddə qeyd edildiyi kimi, bu kənd şeyx övladlarının torpaqları olmuş və onlar uzun illər bu yerlərdə yaşamışlar. Belə ki, təhririn aparıldığı dövrdə vəqf kəndi olan Bənaharmda Şeyx Bayəzidin nəslindən olan şeyx ailələri yaşamışlar. “Gəlir” bölümündə kənddə 5 “çift-i qədim” olduğu göstərilmişdir [64, s. 325-326; 15, s. 65].

3. Həzrət-i Əbu Bəkr əs-Siddiq Əhfadı (oğulları) vəqfi. Xalxal livasında fəaliyyət göstərən bu vəqf haqqında yalnız “Vəqf” dəftərində məlumat verilmişdir. Məlum olmuşdur ki, bu vəqfin h. 841-ci (1438) il tarixində Qaraqoyunlu Cahan şah (1438-1467) və h. 879-cu (1474) il tarixində Ağqoyunlu Uzun Həsən (1453-1478) tərəfindən vəqfiyyəsi təsdiq edilmişdir. Sənəddə Osmanlı idarəçiliyində Təbriz sərəsgəri Abdulla paşa və baş vəzir Əli paşa tərəfindən vəqfin Həzrət-i Əbu Bəkr əs-Siddiq övladından Şeyx Əmirə, “idarəçiliyinə müdaxilə olunmamaq” şərti ilə verildiyi (1726) göstərilmişdir. Bu vəqfə Səncəbəd nahiyəsinin İtakabad, İmaabad kəndləri, Gökçə, Yayku, Gəlincəkan, Uçindərə məzrəələri aid olmuşdur [64, s. 89-90; s. 327-329; 15,

s. 65-66]. Səncəbəd nahiyəsinin İtakabad kəndində şeyx nəslindən olan şəxslər yaşamış və onların vergidən azad olunduqları haqqında dəftərdə xüsusi qeyd edilmişdir [64, s. 90]. Bununla yanaşı, kəndlərin əhalisinin çift, nim çift, bennak, caba vergiləri ilə yanaşı, kəndlərin və adları qeyd edilən məzrəələrin dənli bitkilərdən əldə olunan gəlirlərinin vəqf üzərinə qeydiyyatı təsbit edilmişdir. Vəqfin xərcləri sırasına həmçinin, zaviyənin məsrəfləri də qeyd olunmuşdur.

"Vəqf" dəftərinin və müfəssəl dəftərin məlumatları qarşılaşdırıldıqda mübahisə doğuran bəzi məsələlərin olduğu müəyyən edilmişdir. Belə ki, "Vəqf" dəftərində "Came-yi Kəbir" vəqfinin yerləşdiyi Urmiya şəhərinin Təbriz əyalətinə aid edilməsi göstərilir. Qeyddə yazılmışdır: "Təbriz əyalətindəki nəfs-i Urumidə yerləşən Came-yi Kəbir vəqfi" [64, s. 305]. Müfəssəl dəftərdə isə məlumat belədir: "Nəfs-i Urumidə yerləşən Came-yi Kəbir vəqfi" [10, s. 203]. "Vəqf" dəftərində hesablamalar zamanı katibin bəzi səhvlərə yol verdiyi də müəyyən edilmişdir. Urmiya livası kəndlərindən gələn toplam gəlir 60 308 ağça hesablandığı halda 62 516 ağça, "Came-yi Kəbir" vəqfinin ümumi gəliri 74 708 ağça deyil, 76 916 ağça göstərilmişdir [64, s. 305-306].

Həmçinin, "Vəqf" dəftərində zaviyənin Xalxal livasına aid olan Xanəndbil nahiyəsində yerləşdiyi göstərilmişdir. Lakin sənədin tədqiqatçısı qeyri-dəqiqlik göstərərək əsərində Xanəndbil nahiyəsinin Urmiya sancağına (livasına) bağlı Xalxal qəzasının tərkibində olduğunu yazmışdır [64, s. 88, 323-324].

Göründüyü kimi, müfəssəl və "Vəqf" dəftərindəki məlumatlar, Osmanlı idarəçiliyi dövründə Xalxal və Urmiya livaları ərazisində XV-XVI əsrlərdə qurulmuş dini təsislərin qorunduğunu, onlara böyük əhəmiyyət verildiyini və bu təsislərin fəaliyyəti üçün müvafiq şərait yaradıldığını deməyə əsas verir.

Beləliklə, araşdırmalardan bu nəticəyə gəlmək olar ki, XVIII əsrin əvvəllərində tarixi Azərbaycan torpaqları olan Urmiya, Xalxal və Salmas bölgələrində Osmanlı fəthindən sonra Səfəvi hakimiyyəti dövründə mövcud olmuş inzibati idarəçilik mərkəzləri dəyişməmiş, kənd (karye), nahiyə, qəza, sancaq (liva) və

əyalət ierarxiyası sistemi əsasən saxlansa da, burada bir sıra amillərin, xüsusən də baş verən qanlı müharibələr və məzhəb (sünni – şiə) barışmazlığının təsiri ilə ciddi demoqrafik dəyişikliklər baş vermişdir. "Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi"nin zəngin statistik məlumatları göstərir ki, işğalla barışmayan və sahib olduqları dəyərləri mühafizə etmək üçün yerli əhalinin bir hissəsi, xüsusilə də kəndlilər əkib-becərdikləri torpaqları və yurdlarını tərk edib daha təhlükəsiz və münasib bildikləri yerlərə köçüb getmişlər. Amma bütün bu dəyişikliklərə baxmayaraq, həmin bölgələrdə müsəlman (həmçinin türk və türkman) əhalinin sayçoxluğu və idarəçilik sistemində tam üstünlüyü qorunub saxlanmışdır.

Dəftərin məlumatlarından bəlli olur ki, XVIII əsrin əvvəllərində 1 şəhər və 7 nahiyədən ibarət olan Urmiya livasında 4 374 nəfər, Xalxal livasının 5 nahiyəsində 3 864 nəfər, Salmas qəzasının 4 nahiyə və bir qəza mərkəzində isə 1 646 nəfər vergi ödəyicisi qeydə alınmışdır. "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri"ndə XVIII əsrin 20-ci illərində Osmanlı hakimiyyəti dövrünün əhatə etdiyi müddətdə Urmiya şəhərində və Salmasda yaşayan əhali, onun dini tərkibi, demoqrafik vəziyyəti, əsas məşğuliyyət sahələri, istehsal olunan məhsul, ödənən vergilər və s. haqqında dolğun, həm də qiymətli məlumatlar əks olunmuşdur. Dəftərdən əldə olunan məlumatlar Osmanlı hakimiyyəti dövründə bu bölgələrdə yeni idarəçilik sisteminin bərqərar olması ilə yanaşı, qızğın iqtisadi həyatın və nisbətən qeyri-sabit demoqrafik vəziyyətin mövcudluğunu sübut edir. Sənəddə verilən məlumatlara əsasən, Xalxal və Urmiya livaları ərazisində yerləşən vəqflərin XV əsrdə ("Came-yi Kəbir", "Şeyx Nurəddin və Şeyx Bədrəddin" zaviyəsi, "Hz. Əbu Bəkr əs-Siddiq Əhfadı" zaviyəsi), XVI əsrdə ("Şeyx Bayəzid" zaviyəsi) və XVIII əsrdə ("Şeyx Şibli" məscidi) qurulduğu təsbit edilmişdir. Bu isə həmin ərazilərdə sosial və dini xeyriyyəçilik ənənələrinin dərin köklərə malik olduğunu göstərir.

# III FƏSİL

# XALXAL, URMİYA LİVALARINDA VƏ SALMAS QƏZASINDA KƏND TƏSƏRRÜFATI VƏ ONDAN ALINAN VERGİLƏR

## 3.1.Urmiya livasında kənd təsərrüfatı və vergilər

Yuxarıda qeyd edildiyi kimi, fəth edilmiş ərazilərin idarəetmə strukturları baxımından imperiyanın digər əyalətlərinə uyğunlaşdırılması və bu yerlərdə maliyyə və vergi məsələlərinin tənzimlənməsi Osmanlı idarəçilik sisteminin əsas prinsiplərindən biri idi. Əhalinin başlıca məşğuliyyət sahələrində əldə etdikləri gəlirin bir hissəsinin məqsədli şəkildə dövlətin maliyyə işlərinin tənzimlənməsinə yönəldilməsi üçün həmin ərazlərin təhriri, yəni ərazidə yaşayan bütün vergi ödəyiciləri olan şəxslərin (rəiyyətlərin) və gəlir gətirən bütün mənbələrin siyahıya alınması tədbirləri həyata keçirilirdi. Gəlir mənbələri üzə çıxarıldıqdan, onların siyahıya alınması başa çatdıqdan və dövlət tərəfindən müvafiq rəsmi işlər həyata keçirildikdən sonra bu bölgə üçün maliyyə-vergi reyestrləri və ya müfəssəl dəftər hazırlanırdı.

Bu baxımdan "Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi" orta əsrlərdə Osmanlı idarəçiliyinə keçirilmiş Azərbaycan əraziləri üçün tərtib olunmuş maliyyə-vergi dəftərlərinə xas olan bütün səciyyəvi xüsusiyyətləri özündə əks etdirir. Əvvəldə qeyd edildiyi kimi, müfəssəl dəftər ərazisində təhrir aparılmış livalar (sancaqlar) və onlara tabe olan nahiyələrin adı, ona müvafiq vərəqin (əvraq) nömrəsi göstərilmiş fihristlə başlayır. Dəftərdə nahiyənin, tərkibinə aid olan kəndlərin (qəryələrin) adları, məzrəə (əhali yaşamayan, lakin əkin və otlaq üçün istifadə edi-

lən ərazi) torpaqlarının adları qeyd olunmuş fihristi verildikdən sonra orada yaşayan vergi mükəlləfiyyətli insanların adları, ata adları, aid olduqları vergi qrupu, toplanmış məhsula uyğun ödənəcək verginin həcmi və miqdarı (ağça ilə və ya natural şəkildə), əkilən torpaqların sahəsi və son olaraq, həmin ərazidən toplanan verginin yekun göstəricisi qeyd olunurdu.

Tədqiq olunan dövrdə ölkə iqtisadiyyatının başlıca dayaq nöqtəsi kənd təsərrüfatı hesab edilirdi və vergi ödəyən şəxslərin əksəriyyəti kənd təsərrüfatında çalışdığına görə rəiyyətin istifadəsində olan əkin yerlərinin qeydiyyata alınması xüsusi əhəmiyyət daşıyırdı. Kəndlinin əkin üçün istifadə etdiyi torpaq sahəsi Osmanlı qanunnamələrində dönümlə ölçülən "çiftlik" olaraq qeyd edilmiş, münbit və ya qeyri-münbit olmasından asılı olaraq 60-150 dönüm müəyyən edilmişdir [67, s. 279]. "Adi addımla eni və uzunu qırx addım yer" [35, s. 57] kimi təsbit edilən bir dönümün ortalama 70 mislinə bərabər olan sahə "çift", bunun yarısına bərabər olan əkin sahəsi "nim çift", yaxud "nim" adlanırdı. Osmanlı qanunlarına görə "çift" vergisi həm torpağı əkib-becərən rəiyyətin ödədiyi torpaq vergisi, həm də "şəxsə bağlı" bir vergi idi. Şərtə görə, təhrir zamanı rəiyyətin əlində torpağı olmadığı üçün siyahıya qeyd olunmamışsa, sonradan 1 çift ərazi icarə etdiyi halda əvvəlki qeydlərə baxmayaraq "çift" vergisi ödəməli idi. Bununla yanaşı, şəxsə aid bir rüsum olan "çift" vergisi yalnız evli müsəlman əhaliyə təyin edilirdi [67, s. 282-283]. Çift sahibi öldüyü təqdirdə torpaq onun varisləri arasında bölünür və vergi tam olaraq ödənilirdi [72, s. 309-310].

Torpaq əkən şəxs evli olmaqla bərabər, icarəyə götürdüyü torpağı mütləq şəkildə əkib-becərməli idi. Kəndli vergini müəyyən edilmiş həcmdə ödəməli və ona verilən torpaq sahəsini səbəbsiz tərk etməməli idi. Çiftçi bu əkin sahəsini nə sata, nə də icarəyə verə bilərdi. Bu şərtləri pozan rəiyyət ciddi şəkildə cəzalandırılır, torpağı əlindən alınıb, becərilmək üçün yeni icazə (tapu) sənədi ilə başqa rəiyyətə verilirdi. Əslində o, əkib-becərdiyi torpağa təhkim olunurdu. Hətta onun oğlu da, rəiyyət olmasa belə, rəiyyət hesab edilirdi. Belə ki, qanunnamələrdə "Rəiyyətin

oğlu və qardaşı rəiyyətdir" hökmü təsbit olunmaqla rəiyyətliyin atadan oğula keçən irsi bir "status" olduğu göstərilmişdir [67, s. 293]. Bununla bərabər, torpaq sahibinin də kəndli qarşısında bir sıra öhdəçilikləri müəyyən edilmişdi. O, sahibi olduğu və idarə etdiyi ərazidə asayişi qorumalı, kəndlinin malının, canının toxunulmazlığını təmin etməli, təsərrüfatı lazım olan istehsal alətləri, toxum və s. ilə təmin etməli idi [39, s. 19-20].

Müfəssəl dəftərdə rəiyyətin əkib-becərdiyi torpaq sahəsinin ölçüsü siyahıda onun adına əlavə olunaraq ailə vəziyyəti ilə bağlı göstəricilərlə birlikdə verilmişdir. Osmanlı qanunlarına görə, 1 çift torpağı əkib-becərən rəiyyət 50 ağça "rəsm-i çift" (çift vergisi), əlində 1 çiftin yarısı qədər torpağı olan rəiyyət isə 25 ağça "nim çift" vergisi ödəyirdi. Rəiyyət əgər evlidirsə və əkin üçün torpağı yarım çiftdən azdırsa, 18 ağça "bennak", evli olub əkin üçün torpağı heç yoxdursa 12 ağça "caba", subay və torpaqsız olduğu halda isə 6 ağça "mücərrəd" vergisi ödəməli idi. Evli və ya subay olmasından asılı olmayaraq, qeyri-müsəlmanlar, bir qayda olaraq, adam başına hesablanan 25 ağça "ispəncə" vergisi ödəməli idilər. Göstərilən vergi qruplarına uyğun rüsumlar müfəssəl dəftərdə təhriri verilmiş Urmiya, Xalxal livaları və Salmas qəzası üçün dəyişməz qalmışdır. Yalnız Urmiya şəhərində yaşayan yəhudilər üçün "ispəncə" vergisi 120 ağça miqdarında müəyyən edilmişdi.

Osmanlı qanunları ilə təyin edilmiş torpaq vergisinin miqdarı müxtəlif ərazilərdə bir-birindən fərqlənirdi. Yəni bir çift torpaq sahəsi üçün Urmiya, Xalxal və Ərdəbildə 50 ağça [35, s. 61] ödənilirdisə, Tiflis əyalətində 120 ağça [56, s. 15] ödənməsi tələb olunurdu. Bennak icarəyə götürdüyü torpaq sahəsinə görə Ərdəbil, Xalxal və Naxçıvan sancağında 18 ağça [50, s. 30], Gəncə-Qarabağda – 40 ağça [37, s. 65], Tiflis əyalətində isə 60 ağça [56, s. 44] ödəməli idi.

Qeyd olunduğu kimi, "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri" Urmiya, Xalxal livalarının və Salmas qəzasının 1726-1728-ci illəri əhatə edən statistik təhrir məlumatları əsasında tərtib edilmişdir. Məlum olmuşdur ki, Urmiya livasında 663

çift və 271 nim çift qeydə alınmışdır. Çift, nim çift və digər vergi qruplarının nahiyələr üzrə paylaşımını aşağıdakı cədvəldə nəzərdən keçirək:

*Cədvəl 3.1.1*

**Urmiya livasının nahiyələri üzrə vergi qrupları**

| **Vergi qrupları** / **Nahiyələr** | **Çift** | **Nim çift** | **Bennak** | **Mücərrəd** | **Caba** | **İspəncə** |
|---|---|---|---|---|---|---|
| Bənapərvazə | 265 | 116 | 491 | 235 | 36 | 185 |
| Bəldə | 142 | 79 | 184 | 97 | - | 141 |
| Səhrabad | 63 | 29 | 93 | 28 | - | 37 |
| Dol | 19 | 10 | 23 | 9 | - | |
| Mərkəvər | 46 | 10 | 75 | 10 | - | |
| Tərkəvər | 10 | -- | 11 | 4 | - | 72 |
| Üşni | 61 | 28 | 99 | 42 | 4 | 33 |
| Urmiya şəhəri | 59 | -- | 58 | 25 | 3 | 52 |
| Yekun | 665 | 272 | 1034 | 450 | 43 | 520 |

Cədvəldən göründüyü kimi, livanın ən böyük nahiyəsi olan Bənapərvazə nahiyəsində çiftlərin sayı liva üzrə çiftlərin ümumi sayının 39,8%-ni, nim çiftlərin sayı üzrə isə 42,6%-ni təşkil edir. Dəftərin göstəricilərinə əsaslanaraq, Urmiya livasında əkilən və istifadə olunan torpağın ümumi sahəsini hesablamaq mümkündür. Bu məlumatlara görə, livada 665 çift və 272 nim çift əkilib-becərilmişdir ki, bu da təxminən 801 çift deməkdir. Beləliklə, hesablamalara əsasən, əkilən torpaq sahəsinin təxminən 5 600 hektar olduğunu müəyyən etmiş oluruq. Bu göstəriciyə 1034 “bennak”ın torpaqlarını, nahiyələrdəki əkinə yararlı 113 boş (əhali yaşamayan) kənd və məzrəələrin torpaq sahələrini də əlavə etsək, Urmiya livasında əkilən torpaq sahələrinin təxminən 6 min hektar olduğunu söyləyə bilərik.

Müfəssəl dəftərin qeydlərindən məlum olur ki, torpağı əkib-becərən və müəyyən vergi mükəlləfiyyəti daşıyan (hesablamalarda "ispəncə" vergisi ödəyicilərinin sayını ümumi nəticəyə əlavə etdik) rəiyyətin (2 984 nəfər) 31,4%-nin müəyyənləşmiş ölçüdə torpaq sahəsi olmuş, 34,6%-nin torpaq sahəsi ya az olmuş, ya da heç olmamış, 16,5%-nin isə ümumiyyətlə, torpaq sahəsi olmamışdır. Beləliklə, Urmiya livasında adı müfəssəl dəftərdə qeyd edilmiş rəiyyətin təxminən üçdə birinin əkin üçün torpaq sahəsinin olduğunu söyləyə bilərik.

Torpaqdan istifadə üçün vergi ödəyən kəndli, həmin torpaqda əkib-becərdiyi və topladığı məhsula və ümumiyyətlə, təsərrüfatla məşğul olduğuna görə dövlət xəzinəsinə müvafiq vergi ödəməli idi. Kəndli həmçinin, gündəlik həyat tərzi, məişəti ilə bağlı bir çox rüsumlar ödəməyə borclu idi. Adı siyahıya salınmış kəndlidən alınan vergiləri şərti olaraq istehsal və qeyri-istehsal sahələrini əhatə etmək etibarilə aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Torpaq və əkilib-becərilən məhsula görə ödənilən vergilər;
2. Heyvandarlıqla əlaqəli vergilər;
3. Məişət (qeyri-istehsal) sahələri ilə bağlı vergilər.

Osmanlı qanunlarına görə, yığılan vergilər əvvəlcə dövlət xəzinəsinə daxil olurdu, sonra isə dövlətin uyğun bildiyi şəkildə bölüşdürülürdü. Bununla da Osmanlı hakimiyyətində dövlət vergilərin alınması və bölüşdürülməsi prosesini mərkəzləşdirərək ciddi nəzarətdə saxlayırdı [132, s. 94-95].

Kəndlinin torpaqdan istifadəyə görə ödədiyi rüsumlar haqqında daha irəlidə ətraflı məlumat verilmişdir. Urmiya livası əhalisinin əkib-becərdiyi məhsul və ödəməli olduğu digər vergi mükəlləfiyyətləri ilə bağlı təhlilə keçməmişdən əvvəl bu vergilərin sistemləşdirildiyi cədvəl 3.1.2-ə nəzər salaq:

*Cədvəl 3.1.2*

**Əhalinin daşıdığı vergi mükəlləfiyyətləri**

| Vergilər | | | |
|---|---|---|---|
| **Əkinçiliklə bağlı vergilər** | | **Heyvandarlıqla bağlı vergilər** | **Digər vergilər** |
| Buğda vergisi | Pambıq vergisi | Qoyun vergisi | Gəlinlik vergisi |
| Arpa vergisi | Çəltik vergisi | Təzə ot və yonca vergisi | "Dəştibani" və tapu vergisi |
| Darı vergisi | Bağ vergisi | Saman vergisi | "Niyabət" qrupu vergiləri |
| Kətan toxumu və yulaf vergisi | Meyvə vergisi | Çayır vergisi | "Beyt-ül mal" qrupu vergiləri |
| | Bostan vergisi | Otlaq və qışlaq vergisi | Dəyirman vergisi |
| | | Ağıl və qışlaq vergisi | |
| | | Pətək vergisi | |

Müfəssəl dəftərin məlumatlarına əsasən söyləmək olar ki, Urmiya livasında əhali hər növ dənli bitkilər, pambıq, çəltik əkmiş, müxtəlif bağ-bostan məhsulları becərmiş, heyvandarlıqla, o cümlədən, arıçılıqla məşğul olmuşdur.

Dəftərdə dənli və paxlalı bitkilər üçün rəiyyətin ödədiyi vergilər ümumi şəkildə "xüms-i ğallat" kimi qeyd edilmişdir. Bu qrupa dənli bitkilərdən – buğda, arpa, darı və paxlalı bitkilərdən olan kətan toxumu və yulafdan alınan vergilər aiddir. "Xüms-i ğallat" vergisinə görə rəiyyət dövlətə əkib-becərdiyi məhsulun 1/5 hissəsi həcmində natural vergi ödəməli idi. Dəftərin məlumatlarında hər dənli bitkinin adından sonra verginin ölçü vahidi "kile" ilə ifadə olunan həcmi yazılmış və qarşılığı nağd pulla (dövlət qiyməti – ağça ilə) göstərilmişdir [104, s. 193]. Lakin bu həmin məhsulun pulla alınması demək deyildi, sadəcə olaraq dövlət xəzinəsinə daxil olan gəlirin hesablanmasına görə tətbiq olunurdu [50, s. 17]. Urmiya livasında əkilən dənli bitkilərdən 1 kile buğda və 1 kile arpa üçün 40 ağça, 1 kile darı üçün 20 ağça,

kətan toxumu və yulaf üçün 20 ağça, çəltik üçün isə 100 ağça vergi təyin olunmuşdu.

Dəftərin məlumatlarında, Urmiya livasına aid olan nahiyələrdə çəltik bitkisinin əkildiyi də göstərilmişdir ki, bu da həmin bitkiyə böyük tələbatın olmasını sübut edir. Qeyd edək ki, orta əsr mənbələrində Urmiya bölgəsi də daxil olmaqla Azərbaycanda çəltik bitkisinin geniş sahələrdə əkilməsi barədə məlumatlar vardır. Belə ki, mənbələr Azərbaycanda yetişdirilən düyünün "hind düyüsündən daha keyfiyyətli olduğu və hətta İspaniyaya qədər aparıldığı"nı qeyd edirlər [130, s. 39]. Müfəssəl dəftərin məlumatlarına görə, rəiyyət "xüms-i ğallat" vergisi ilə bərabər əkib-becərdiyi pambıq və çəltik bitkilərinə, eləcə də bağ-bostan məhsullarına görə 1/10 həcmində "üşr" vergisi ödəməli idi.

Urmiya livasında toplanan dənli bitkilərin illik həcmi barədə məlumat əldə etmək məqsədi ilə "xüms" olaraq ödənən vergilərin həcm göstəricisini 5 dəfə, "üşr" kimi ödənən vergiləri isə 10 dəfə artıraq və liva üzrə toplanmış məhsulların miqdarını əks etdirən aşağıdakı cədvələ nəzər salaq:

*Cədvəl 3.1.3*

**Urmiya livası üzrə toplanan dənli bitkilərin illik həcmi (kile ilə)**

| Məhsulun adı | Buğda | Arpa | Darı | Çəltik | Yulaf və kətan toxumu |
|---|---|---|---|---|---|
| Nahiyələr | | | | | |
| Urmiya şəhəri | 610 | 305 | 122 | 450 | 61 |
| Bənapərvazə | 4279 | 2130 | 852 | 1010 | 408 |
| Bəldə | 2300 | 1260 | 436 | 5 | 224 |
| Səhrabad | 820 | 420 | 164 | 50 | 83 |
| Dol | 240 | 120 | 48 | - | 24 |
| Mərkəvər | 350 | 175 | 70 | - | 29 |
| Tərkəvər | 380 | 190 | 76 | - | - |
| Üşni | 840 | 430 | 164 | - | 49 |
| Yekun | 9819 | 5030 | 1932 | 1065 | 878 |

Beləliklə, məlum olur ki, Urmiya livası üzrə təqribən 49 095 kile (1 227 375 kq) buğda, 5 030 kile (628 750 kq) arpa, 1 932 kile (241 500 kq) darı və digər məhsullar yığılmışdır. Hesablamalar nəticəsində Urmiya livası əhalisinin hər nəfərinə düşən buğdanın miqdarının 78,6 kq, arpanın miqdarının 40,3 kq, darının miqdarının isə 15 kq təşkil etdiyini söyləyə bilərik. Həmçinin, Urmiya livasının Bənapərvazə və Bəldə nahiyələri üzrə yığılmış buğda, liva üzrə toplanmış məhsulun 71,4%-ni təşkil edirdi. Qeyd olunan nahiyələrdə arpa məhsulu üzrə yığım da digər nahiyələrə nisbətən yüksək (71,7%) olmuşdur. Aldığımız nəticələr araşdırılan dövrdə Urmiya livasında buğda, arpa, darı və başqa dənli bitkilərin məhsuldarlığının yüksək olmasını deməyə əsas verir.

Tədqiq olunan dövrdə Azərbaycanda və ətraf bölgələrdə texniki bitkilərdən pambığın əkilib-becərilməsi üstünlük təşkil edirdi. Övliya Çələbi Təbriz, Ərdəbil, Xoy, Urmiya və s. bölgələrdə əkilən pambıqdan toxunan parçaların bütün Şərqdə məşhur olduğunu yazırdı [141, s. 109-147]. Toxuculuqda əsas xammal olan pambığa iqtisadiyyatın digər sahələrində də hər zaman tələbat olmuşdur. H.Ə.Dəlili qeyd edirki, "XVII əsrin axırlarından başlayaraq pambıq alveri ilə məşğul olan xarici tacirlərin Azərbaycana gəlməsi, həmçinin bazarlarda pambığa olan tələbatın artması onun əkilməsi və istehsalının genişlənməsinə səbəb oldu. Urmiyaya yeni çeşid pambıq toxumunun gətirilməsi burada istehsalı daha da artırdı və bu, bütün ərazilərə yayıldı" [30, s. 89].

Təbiəti və iqlimi əlverişli olduğundan Urmiya livasının hər bir nahiyəsində pambıq bitkisi əkilib-becərilmiş və əkinçilər bu məhsula görə "üşr-i pəmbə" vergisi (pambıq vergisi) ödəməli olmuşlar. Müfəssəl dəftərdə pambığın ölçülməsi üçün "man" ölçü vahidindən istifadə edilmişdir. Araşdırdığımız dəftərin müvafiq qanunnaməsi olmadığına görə hesablamalarımızda 13 kq-a bəra-

bər qəbul edilmiş Naxçıvan "man"ı əsas meyar götürülmüşdür[50, s. 17]. Cədvəl 3.4-ə nəzər salaq:

*Cədvəl 3.1.4*

**Urmiya livasında təhrir ili ərzində yığılan pambıq vergisi (man ilə)**

| Nahiyələr | Bənapərvazə | Bəldə | Səhrabad | Dol | Mərkəvər | Tərkəvər | Üşni | Urmiya şəhəri | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 323 | 236 | 77 | 17 | 9 | 61 | 10 | 50 | 783 |
| Faizlə | 41,3% | 30,1% | 9,8% | 2,2% | 1,1% | 7,8% | 1,3% | 6,4% | 100% |

Cədvəldən göründüyü kimi, təhrir ili ərzində Urmiya livası üzrə 783 man pambıq vergisi yığılmışdır. Buna əsasən, livada təhrir ili ərzində pambıq vergisinin 10 179 kq təşkil etdiyini söyləmək olar. Məhsulun onda biri həcmində vergi tutulduğunu nəzərə alsaq, Urmiya livasında il ərzində təxminən 101 790 kq pambıq yığıldığı məlum olur. Hesablamalara görə, Bənapərvazə və Bəldə nahiyələrində məhsulun həcmi xüsusilə yüksək olmuşdur (müvafiq olaraq 41,3% və 30,1%). Təhrir qiymətlərinə əsasən, 1 man üçün 100 ağça müəyyən edildiyini nəzərə alsaq, bu bitkinin əkilməsindən gələn gəlirin Urmiya livası üzrə 78 300 ağça təşkil etdiyini söyləyə bilərik.

Həm şəhər, həm də kənd sakinlərinin əsas məşğuliyyət sahələrindən biri də kənd təsərrüfatında mühüm yer tutan bağçılıq və bostançılıq idi. Yaqut əl-Həməvi Azərbaycanın bütün bölgələrində çox sayda meyvə bağlarının olduğunu xəbər verir və qeyd edirdi ki, "Urmiya və Təbrizdə armud növü olan "peyğəmbəri" və sarı gavalı xüsusi dadı ilə çox məşhurdur. Burada (Azərbaycanda – Y.N.) meyvələr öz keyfiyyətinə və dadına görə

dünyanın hər hansı başqa hissəsinin meyvələrindən üstündür” [126, s. 49].

Müfəssəl dəftərin Urmiya livasına aid qeydlərinə əsasən, bu ərazidə bağ, bostan, eləcə də tərəvəz məhsullarının əkilməsi üçün əlverişli şəraitin olduğunu söyləmək olar. Kəndlilər bağ və meyvəçilik məhsullarına görə “üşr-i bağat”, “üşr-i meyvə” vergiləri, bostan və tərəvəzçilik məhsullarına görə isə “üşr-i bostan” vergisi ödəməli idilər. Bu vergilər haqqında aydın təsəvvür əldə etmək üçün aşağıdakı cədvələ nəzər salaq:

*Cədvəl 3.1.5*

**Urmiya livasında bağ, bostan və meyvə məhsulu üzrə vergilər**

| **Nahiyələr** | **Bənapərvazə** | **Bəldə** | **Səhrabad** | **Dol** | **Mərkəvər** | **Tərkəvər** | **Üşni** | **Urmiya şəhəri** |
|---|---|---|---|---|---|---|---|---|
| Vergilər | | | | | | | | |
| Üşr-i bostan | 8365 | 6008 | 2130 | - | - | 1100 | 3720 | 6750 |
| Faizlə | 29,8% | 21,4% | 7,6% | - | - | 3,9% | 13,3% | 24,0% |
| Üşr-i bağat | 53750 | 18865 | 5850 | 960 | - | - | 1200 | 20400 |
| Faizlə | 53,2% | 18,7% | 5,8% | 0,9% | | | 1,2% | 20,2% |
| Üşr-i meyvə | - | 120 | - | - | - | - | - | 6200 |
| Faizlə | - | 1,9% | - | - | - | - | - | 98,1% |

Cədvəl üzrə əldə etdiyimiz nəticələrdən göründüyü kimi, bağ və bostan məhsullarından toplanan verginin daha çox hissəsi Bənapərvazə, Bəldə nahiyələrinin və Urmiya şəhərinin payına düşür. Qeyd edək ki, meyvəçilik sahəsinə aid olan “üşr-i meyvə”

vergisini yalnız Bəldə nahiyəsinin və Urmiya şəhərinin əhalisi ödəmişdir.

Yerləşdiyi bölgənin iqliminin bol yağışlı olması, yayının isti, qışının isə o qədər sərt olmaması Urmiyada əhalinin heyvandarlıqla məşğul olmasına da şərait yaratmışdır. S.A.Məmmədov təsdiq edir ki, heyvandarlıq Marağa, Urmiya, Xoy və Ərdəbil əhalisinin çox hissəsinin, həmçinin yarımköçəri və köçərilərin əsas məşğuliyyət sahəsi olmuşdur [130, s. 39]. Urmiya livası üçün göstərilən təhrir məlumatlarında yalnız qoyunçuluqla (xırdabuynuzlu heyvanlarla) bağlı vergi göstəriciləri təqdim olunmuşdur. Yaylaq-qışlaq üsulu ilə saxlanılan çoxsaylı iri heyvan sürüləri kəndlilərə daxili ticarət üçün önəmli olan və daha çox gəlir gətirən yun, süd, yağ və pendir istehsalını genişləndirməyə imkan yaradırdı. Təsadüfi deyil ki, XVII əsrdə ölkənin (Səfəvi dövlətinin) ixracatında yun ikinci yeri (ipəkdən sonra) tuturdu [29, s. 64].

Ümumiyyətlə, Azərbaycanın relyefi və iqlimi heyvanların cənub ərazilərdə qışlaması üçün əlverişli imkan yaradırdı. "Hətta bu qışlaqlar o qədər çox və geniş idi ki, burada qonşu ölkələrdən heyvandarlar sürüləri ilə gələrək qışlayırdılar" [115, s. 39].

Osmanlı qanunlarına görə, qoyunçuluqda əsas vergi növü kimi 2 qoyun və ya keçi üçün bir ağça "adət-i ağnam" (qoyun vergisi) müəyyən edilmişdi [50, s. 12; 67, s. 306]. Urmiya livası üzrə bu verginin həcmi aşağıdakı cədvəldə göstərilmişdir (ağça ilə):

*Cədvəl 3.1.6*

**Urmiya livası üzrə toplanmış "adət-i ağnam" vergisi**

| **Nahiyələr** | **Bənapərvazə** | **Bəldə** | **Səhrabad** | **Dol** | **Mərkəvər** | **Tərkəvər** | **Üşni** | **Urmiya şəhəri** | **Yekun** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Verginin miqdarı (ağça ilə) | 15653 | 8 444 | 8 080 | 500 | 13 500 | 2 150 | 16350 | 3800 | 68429 |
| Faizlə | 22,8% | 12,4% | 11,8% | 0,7 % | 19,7 % | 3,1 % | 23,9% | 5,6% | |

Cədvələ əsasən, yığılmış verginin həcmini nəzərə alaraq, Urmiya livasında təxminən 34 215 baş qoyun saxlandığını söyləmək olar. Ödənən vergilərə görə Bənapərvazə (22,8%), Üşni (23,9%) və Mərkəvər (19,7%) nahiyələrində qoyunçuluğun daha çox inkişaf etdiyini görürük. Heyvanların saxlanması üçün müəyyən bir tikilinin və mövsümlük yerlərin olması, təbii ki, zəruri idi. Müfəssəl dəftərin "rəsm-i ağıl" (ağıl vergisi) vergisi məhz bu məqsədlə ayrılmış yer və tikililərə görə alınırdı. Qeyd etmək lazımdır ki, Urmiya livasında bu vergi növü həm "rəsm-i ağıl", həm də "rəsm-i ağıl ma'a qışlaq" (ağıl və qışlaq vergisi) kimi toplanmışdır. Belə görünür ki, heyvanların yayda ağılda, qışda isə qışlamaq üçün qışlaqda saxlanması zərurəti yarandığından bu vergi növü həm yaylaq, həm də qışlaq yerlərinə görə toplanmışdır. Urmiya livası üzrə bu verginin illik həcmi 29 045 ağça olmuşdur. Verginin əksər hissəsinin Bənapərvazə (7 022 ağça), Bəldə (6 560 ağça) və Üşni (18 150 ağça) nahiyələrində toplanması bu ərazilərdə heyvandarlığın daha çox inkişaf etməsi haq-

qında fikir söyləməyə imkan verir. Orta əsr müəllifləri Mərkəvərdə də heyvandarlığın geniş inkişaf etdiyini yazırdılar. Buralarda yem ehtiyatı tükənməz olduğundan yerli maldar əhalidən başqa bir sıra köçəri qəbilələrin sürülərinin də həmin otlaqlarda otarıldığı qeyd edilir [30, s. 69].

Heyvandarlığın inkişafı yeni, geniş otlaqların əldə edilməsini tələb edirdi. Otlaq sahələrinə görə toplanan vergi dəftərdə *"rəsm-i otlaq maa qışlaq"* (otlaq və qışlaq vergisi) adı ilə qeyd edilmişdir. Həm ayrıca olaraq ödənən otlaq vergisi, həm də otlaq və qışlaq vergisi Urmiya livasında 27 082 ağça təşkil etmişdir. Qoyun vergisinin, ağıl və qışlaq vergisinin əsas hissəsinin Bənapərvazə və Bəldə nahiyələrində toplanmasına baxmayaraq, bu ərazilərdə otlaq və qışlaq vergisinin yığılması haqqında qeydlərə təsadüf edilməmişdir. Fikrimizcə, qeyd edilən nahiyələrdə heyvan sürülərinin otarılması üçün yararlı çəmənlik və otlaqlar olmadığından əhali sürülərini başqa bir kəndin otlaqlarına aparmış və vergi qaydalarına görə müvafiq rüsumu həmin kəndin sahibinə ("sahib-i arz") ödəmişdir [50, s. 20]. Müfəssəl dəftərin Mərkəvər nahiyəsinə aid məlumatlarında Zeyvə kəndindəki yaylağın ərazisinə "Bəlbas əşirəti və ekrad (kürdlər – Y.N.) gəlib qoyunların və davarların rəy edib (otarıb – Y.N.)" illik qazancdan olan vergini "sahib-i arz"a (kəndin və ya ərazinin sahibinə – Y.N.) verdikləri göstərilmişdir [10, s. 324].

Müfəsssəl dəftərdə heyvandarlığa aid "rəsm-i giyah, ma`a yonca" (təzə ot və yonca vergisi) adlı daha bir vergi növü də qeyd edilmişdir. Bu, ərazidə heyvanları təzə ot və yonca ilə təmin etmək üçün əkilən sahələrə görə alınan vergi növüdür. Bu vergi Urmiya livasının bütün nahiyələrində yığılmışdır. Liva üzrə verginin həcmi 17 755 ağça təşkil etmişdir. Verginin əsas hissəsi Bənapərvazə (7 835 ağça) və Bəldə (4 220 ağça) nahiyələrinin payına düşür. "Bahâ-i kâh" (saman vergisi) da heyvandarlığa aid olan digər bir vergi növü olub, heyvan yemlərindən olan sa-

mana görə yığılırdı. Bu vergi növü nağd olaraq ödənilirdi. Liva üzrə 20 610 ağça vergi təyin edilmişdi. Heyvandarlıqla daha fəal məşğul olan Bənapərvazə (9 200 ağça) və Bəldə (4 620 ağça) nahiyələrinin əhalisi saman vergisinin çox hissəsini ödəmişlər. Aşağıdakı cədvəldə Urmiya livasının nahiyələrində heyvandarlıqla bağlı toplanan müxtəlif vergi növləri və onların miqdarı haqqında məlumat verilmişdir:

*Cədvəl 3.1.7*

**Urmiya livasında heyvandarlığa aid vergi növləri (ağça ilə)**

| Vergi növü | Təzə ot və yonca vergisi | Saman vergisi | Çayır vergisi | Otlaq və qışlaq vergisi | Ağıl və qışlaq vergisi |
|---|---|---|---|---|---|
| Nahiyələr | | | | | |
| Bənapərvazə | 7 835 | 9 200 | 1 560 | 7 022 | - |
| Bəldə | 4 220 | 4 620 | 2 070 | - | 6 560 |
| Sahrabad | 1 870 | 1 660 | 440 | 160 | 1 780 |
| Dol | 550 | 540 | 380 | 120 | 140 |
| Mərkəvər | 440 | 870 | 160 | 320 | 1 075 |
| Tərkəvər | 80 | 960 | 140 | 1 280 | 1 060 |
| Üşni | 2 040 | 2 110 | 560 | 18 180 | 18 150 |
| Urmiya şəhəri | 720 | 650 | 100 | - | 280 |
| Yekun | 17 755 | 20 610 | 5 410 | 27 082 | 29045 |

Mülayim iqlimli, bağ-bağçanın bol olduğu Urmiyada arıçılığın inkişafı üçün əlverişli şərait vardı. Bu sahəyə təyin edilən *"üşr-i küvarə"* vergisinin (pətək vergisi) ödənişi istehsal edilən bal məhsuluna görə deyil, pətək başına görə müəyyən edilmişdi. Urmiya livasında bu verginin illik həcmi 24 808 ağça olmuşdur. Liva üzrə Bənapərvazə (9 820 ağça) və Bəldə (5 400 ağça) nahiyələri fərqlənirdilər. Aşağıdakı cədvəldə Urmiya livasının nahiyələri üçün təyin olunan pətək vergisinin həcmi (ağça ilə) göstərilmişdir:

*Cədvəl 3.1.8*

**Urmiya livası üzrə nahiyələrə təyin olunmuş pətək vergisi**

| Nahiyələr | Bənapərvazə | Bəldə | Səhrabad | Dol | Mərkəvər | Tərkəvər | Üşni | Urmiya şəhəri | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 9 820 | 5 400 | 2 008 | 540 | 1 040 | 1 380 | 2 760 | 1 860 | 24808 |
| Faizlə | 39,6% | 21,8% | 8,1% | 2,2% | 4,2% | 5,5% | 11,1% | 7,5% | |

Müfəssəl dəftərdə digər bir vergi növü yalnız dən üyüdülməsi deyil, həm də əkin sahələrinin suvarılması və digər məqsədlər üçün istifadə edilən dəyirmanlarla bağlıdır. Əkinçiliyin kənd təsərrüfatının əsas sahələrindən biri olduğu Azərbaycanda suvarma işlərinin təşkili böyük əhəmiyyət kəsb edirdi. Ümumiyyətlə, "süni suvarma Azərbaycanda, İranda kənd təsərrüfatının idarə olunmasının əsas şərtlərindən biri idi" [32, s. 202]. Belə ki, digər Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da yağıntının miqdarının az olması əkinçilikdə torpağın süni suvarılmasına böyük zərurət yaradırdı. Bu sahədə su ilə işləyən dəyirmanlardan geniş istifadə edilirdi. Müfəssəl dəftərdə hər bir nahiyədə, kənddə dəyirmanların olması və işləmə müddətinə görə onlara təyin olunan vergilər haqqında qeydlər vardır. Bu vergi növü *"rəsm-i asiyab"* (dəyirman vergisi) kimi qeyd olunaraq dəyirmanların işlədiyi müddətə və "bab"ların (burada dəyirman daşı nəzərdə tutulur – Y.N.) sayına müvafiq şəkildə 30-120 ağça arasında dəyişkən olaraq müəyyən edilmişdir. Kəndlərdə olan dəyirmanlar, onların sahibi və ya şərik sahibləri, işləmə müddəti, işlək, yaxud istifadəyə yararsız olması, hətta dəyirmanların böyük və ya kiçik olması haqqındakı məlumatlar vergi mükəlləfiyyətli insanların adlarının siyahısından sonra qeyd edilirdi. Nahi-

yələr üzrə müəyyən edilən dəyirman vergisi ilə bağlı aşağıdakı cədvəl 3.1.9-a nəzər salaq:

*Cədvəl 3.1.9*

**Urmiya livası üzrə toplanmış dəyirman vergisi**

| **Nahiyələr** | **Bənapərvazə** | **Bəldə** | **Səhrabad** | **Dol** | **Mərkəvər** | **Tərkəvər** | **Üşni** | **Urmiyaşəhəri** | **Yekun** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dəyirmanların sayı | 102 | 21 | 20 | 14 | 4 | 11 | 19 | 27 | 218 |
| Faizlə | 46,8% | 9,7% | 9,2% | 6,4% | 1,8% | 5,0% | 8,7% | 12,4% | |
| İllik vergi (ağça ilə) | 5230 | 1110 | 1200 | 390 | 240 | 570 | 905 | 1350 | 10995 |
| Faizlə | 47,6% | 10,1% | 10,9% | 3,5% | 2,2% | 5,2% | 8,2% | 12,3% | |

Cədvəldən göründüyü kimi, Bənapərvazə nahiyəsində dəyirmanların sayı başqa nahiyələrdəkinə nisbətən daha çox olmuş və Urmiya livasında olan dəyirmanların 46,8%-ni təşkil etmişdir. Müvafiq olaraq, təyin olunmuş vergi bu nahiyə üzrə daha yüksək olmaqla 47,6% təşkil etmişdir.

Müfəssəl dəftərdə təsərrüfata aid olan digər vergi növü "dəştbani və tapu-yi zəmin" (dəştibani və tapu vergisi) adlanır. Kənd yerlərində əkilən torpaqları, bağ-bağçaları əraziyə girən heyvanlardan qorumaq məqsədilə təyin olunan qoruqçuya "dəştban" deyilirdi. Əgər heyvan əkilən sahəyə girmişsə, onun sahibindən müxtəlif həcmdə cərimə alınırdı ki, bu da "dəştbani" vergisi adlanırdı. Bu vergi gözətçilik üçün nağd pulla alınan haqq kimi vergilər siyahısına salınmış və təxmini bir rəqəm kimi təyin edilmişdir.

Əkinçi becərmək üçün icarəyə götürdüyü torpağın müqabilində "tapu-yi zəmin" vergisi (torpaq vergisi) ödəməli idi. Qeyd

edək ki, tapu vergisini rəiyyət əvvəldən, yəni torpağı icarəyə götürdüyü vaxt ödəməli idi. Osmanlı sənədlərinə görə bu vergi növünün həcmi dəyişkən olmuşdur. Müfəssəl dəftərdə isə "Hasil" bölməsində "dəştibani" vergisi ilə bir qrupda verilmiş və miqdarı ortaq bir rəqəmlə göstərilmişdir. Urmiya livasının kəndlərinə təyin olunan "dəştbani və tapu" vergisi ərazinin böyüklüyü, əhalinin sayı və məşğuliyyətindən asılı olaraq 100-1000 ağça arasında dəyişmişdir. Liva üzrə bu vergiyə görə 51 000 ağça toplanmışdır.

Müfəssəl dəftərdə əhaliyə təyin edilən vergilərin siyahısında kənd təsərrüfatına aid olmayan lakin əhalinin bilavasitə məişəti və yaşam tərzi ilə bağlı olan digər vergi növlərindən də bəhs edilmişdir.

"Rəsm-i arusanə" vergisi (gəlinlik vergisi) təhriri aparılmış digər liva və nahiyələr üçün də xarakterik olmuşdur. Bu, fərqli bir vergi növü olaraq yalnız ailə quran qızlar və qadınların vəziyyəti ilə bağlı idi. Osmanlı qanunlarına görə rəiyyətdən olan qadınla evlənmək istəyən şəxs, evlənəcəyi qadının yaşadığı kəndin sahibinə vergi(bakirə və ya dul olmasından asılı olaraq) ödəməli idi. Yəni şəxsin evləndiyi qız (bakirə) ilk dəfə ailə qururdusa, 120 ağça, qadın dul (səyyibə) idisə, 60 ağça gəlinlik vergisi təyin edilmişdi. Verginin həcmi dəyişməz qalırdı, yəni bir kənd üçün 180 ağça təyin olunmuşdu. İl ərzində ailə quranların sayının çox, yaxud da az olması təyin edilən verginin həcmini dəyişmirdi. Nahiyələr üzrə hesablandıqda, ödəniləcək verginin əsas hissəsi Bənapərvazə (13 320 ağça) və Bəldə (8 100 ağça) nahiyələrinin payına düşürdü. Hər kənd üçün 1 nəfər hesabı ilə təyin olunmuş bu vergi Urmiya livası üzrə 35 820 ağça təşkil etmişdir.

Əhalinin məişəti ilə bilavasitə bağlı olaraq toplanan digər bir vergi qrupu isə"niyabət" adı altında qeyd edilmişdir. Bu vergi növü təsadüfi olaraq meydana çıxan hadisələrə qarşılıq olaraq alınan pul cəzasıydı, lakin onun miqdarı dəqiq deyildi. Verginin

miqdarı kənddən kəndə (100-3 000 ağça) dəyişirdi. "Niyabət" qrupuna daxil olan rüsumlardan *"cürm-ü cinayət"* – cinayət etmiş adamdan, etdiyi cinayətin ağırlığından və cinayət törətmiş şəxsin maddi vəziyyətindən asılı olaraq təyin edilirdi. Məhkəmə vasitəsilə cinayət etmiş şəxsə ya cərimə təyin olunur, ya da o etdiyi cinayətə görə cəza çəkməli olurdu.

"Niyabət" qrupuna daxil olan digər bir rüsum isə *"müjdə"* adlanırdı. Sahibinin yanından qaçmış qul və cariyənin axtarılıb tapılmasına görə onların sahibindən alınan muştuluq (müjdə) pulu mənasını verən vergi növü belə adlanırdı. İtmiş heyvanın tapılmasına görə heyvan sahibindən alınan rüsum isə *"yava"* adlanırdı. Bu növ təsadüfi hadisələrlə bağlı təyin edilən vergi növü üzrə Urmiya livasında 96 450 ağça rüsum yığılması nəzərdə tutulurdu. Ödənəcək verginin çox hissəsi (37 800 ağça) Bənapərvazə nahiyəsinin payına düşürdü.

Bütün qeyd olunanları yekunlaşdırıb müfəssəl dəftərin məlumatlarına əsasən Urmiya livası üzrə ödənən vergilərin həcmini müəyyənləşdirib aşağıdakı cədvəli tərtib etdik:

*Cədvəl 3.1.10*

**Urmiya livası üzrə təyin edilmiş vergilər (ağça ilə)**

| **Nahiyələr**<br><br>**Ödənilən vergilər** | **Bənapərvazə** | **Bəldə** | **Səhrabad** | **Dol** | **Mərkəvər** | **Tərkəvər** | **Üşni** | **Urmiya şəhəri** | **Yekun** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Çift | 13250 | 7100 | 3150 | 950 | 2300 | 500 | 3050 | 2950 | 33250 |
| Nim çift | 2900 | 1975 | 725 | 250 | 250 | -- | 700 | -- | 6800 |
| Bennak | 8838 | 3312 | 1674 | 414 | 1350 | 198 | 1782 | 1044 | 18612 |
| Mücərrəd | 1410 | 582 | 168 | 54 | 60 | 24 | 150 | -- | 2700 |
| İspəncə | 4625 | 3525 | 925 | - | - | 1825 | 825 | 5575 | 17300 |
| Buğda vergisi | 171160 | 9200 | 32800 | 9600 | 14000 | 15200 | 33600 | 24400 | 309960 |
| Arpa vergisi | 63900 | 37800 | 12600 | 3600 | 5250 | 5700 | 12900 | 9150 | 150900 |
| Darı vergisi | 17040 | 8720 | 3280 | 960 | 1400 | 1520 | 3280 | 2440 | 38640 |
| Yulaf və kətan toxumu vergisi | 8160 | 4480 | 1660 | 480 | 580 | -- | 980 | 1220 | 17560 |
| Arı pətəyi vergisi | 9820 | 5400 | 2008 | 540 | 1040 | 1380 | 2760 | 1860 | 24808 |
| Pambıq vergisi | 32300 | 23600 | 7700 | 1700 | 900 | 6100 | 1000 | 5000 | 77900 |
| Bağ vergisi | 53750 | 18865 | 5850 | 960 | -- | -- | 1200 | 20400 | 101025 |
| Bostan vergisi | 8365 | 6008 | 2130 | -- | -- | 1100 | 3720 | 6750 | 28073 |
| Meyvə vergisi | -- | 120 | -- | -- | -- | 100 | 1000 | 6200 | 7420 |
| Təzə ot və yonca vergisi | 7835 | 4220 | 1870 | 550 | 440 | 80 | 2040 | 1700 | 18735 |
| Saman vergisi | 9200 | 4620 | 1660 | 540 | 870 | 960 | 2110 | 1150 | 21110 |
| Ağıl və qışlaq vergisi | 7022 | 6560 | 1780 | 140 | 320 | 1060 | 18150 | 660 | 35692 |

*Cədvəl 3.1.10-un davamı*

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Otlaq və qışlaq vergisi | -- | -- | 160 | 120 | 1075 | 1280 | 18180 | -- | 20815 |
| Çayır vergisi | 1560 | 2070 | 440 | 380 | 160 | 140 | 560 | 100 | 5410 |
| Qoyun vergisi | 15605 | 8444 | 8080 | 500 | 13500 | 2150 | 16350 | 3750 | 68379 |
| Çəltik vergisi | 1010 | 5 | 50 | -- | -- | -- | -- | 450 | 1515 |
| Gəlinlik vergisi | 13320 | 8100 | 3780 | 1260 | 1980 | 1980 | 3780 | 1620 | 35820 |
| "Dəştibani və tapu" vergisi | 21300 | 11850 | 3800 | 1200 | 1750 | 1900 | 4200 | 5000 | 51000 |
| Dəyirman vergisi | 5230 | 1110 | 1200 | 390 | 240 | 570 | 905 | 1350 | 10995 |
| Niyabət vergisi | 37800 | 23300 | 8400 | 2400 | 3500 | 3800 | 8400 | 8850 | 96450 |
| "Müqatiə" və "Beytül mal" vergisi | -- | -- | -- | -- | -- | -- | -- | 504000 | 504000 |

Müfəssəl dəftərin məlumatları təsdiq edir ki, tarixçilərin "XVII əsrin axırlarında başlamış iqtisadi tənəzzülün XVIII əsrin əvvəllərində daha da kəskinləşməsi" fikri [43, s. 1] Azərbaycanın bir çox ərazilərində, o cümlədən, Urmiya livasında öz təsdiqini tapmamışdır.

Şübhəsiz, hərbi-siyasi hadisələr, təbii fəlakətlər kəndlinin icarəyə götürdüyü torpaqdan lazım olduğu qədər məhsul ala bilməməsinə səbəb olurdu. Bu isə onun vergini ödəyə bilməməsinə və nəticədə, ailəsi ilə bərabər yurdundan qaçmağa məcbur qalmasına gətirib çıxarırdı. Boşalan kəndlərin torpaqları isə köçərilərin heyvanları üçün otlaq yerinə çevrilirdi. Bəzən isə yaxın kəndlərin rəiyyəti o torpaqları əkib-becərərək təyin olunan vergini ərazinin sahibinə ödəyirdi. Məsələn, müfəssəl dəftərdə qeyd edilir ki, "Hattəlü kəndi, əhalisi köçüb getmişdir, Urmiya əhalisi ziraat edüb, üşr və rüsumunu ərazinin sahibinə verirlər" [10, s. 257]. Urmiya livası üzrə rəiyyəti tərəfindən tərk edilmiş və ərazisi əkin və otlaq yerlərinə çevrilmiş 88 məzrəə qeydə alınmış-

dır. Daha dəqiq desək, Bənapərvazədə 15, Bəldə nahiyəsində 4, Səhrabad nahiyəsində 30, Dol nahiyəsində 12, Mərkəvərdə 24, Üşnidə 3 məzrəə mövcud idi. Liva üzrə müfəssəl dəftərdə qeydə alınmış torpaq sahələrinin 26,7%-i məzrəələrin payına düşür. Dəftərin məlumatlarına görə, təkcə Tərkəvər nahiyəsinin kəndləri tam məskun olmuşdur. Qeyri-məskun kəndlərə təyin olunan verginin miqdarı nahiyələr və kəndlər üzrə 300-2000 ağça arasında dəyişmişdir.

Cədvəl 3.1.11-də liva üzrə gəlirin nahiyələr arasında paylaşımını nəzərdən keçirək:

*Cədvəl 3.1.11*

**Urmiya livasının nahiyələrinin illik gəlirinin paylaşımı**

| Nahiyələr | Bənapərvazə | Bəldə | Səhrabad | Dol | Mərkəvər | Tərkə | Üşni | Urmiya şəhəri | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|
| İllik gəlir (ağça ilə) | 515400 | 200961 | 105890 | 26988 | 50965 | 47567 | 141742 | 615769 | 1705282 |
| Faizlə | 30,2% | 11,8% | 6,2% | 1,6% | 3% | 2,8% | 8,3% | 36,1% | |

Cədvəldən göründüyü kimi, Bənapərvazə nahiyəsi üzrə göstərici Urmiya livasının ümumi gəlirinin 30,2%-nə bərabərdir. Urmiya şəhərində əkin yerlərinin nahiyələrə nisbətən məhdud, heyvandarlıq və başqa sahələrlə məşğul olmaq üçün imkanların nisbətən az olmasına baxmayaraq, digər nahiyələrlə müqayisədə şəhər üzrə bu göstərici (36,1%), fikrimizcə, yüksək sayılmalıdır və onu göstərir ki, Urmiya şəhəri livanın iqtisadi həyatında önəmli rol oynamışdır.

Yekun olaraq qeyd etmək olar ki, Urmiya livası Osmanlı idarəçiliyində olduğu müddətdə geniş bir ərazini (6 min hektar)

əhatə edən inzibati bölgə olmuşdur. Livanın vergi mükəlləfiyyətli əhalisinin təxminən 88,1%-i müsəlman (Urmiya şəhərində yaşayan əşirət və camaat ailələri də bu nisbətə aid edilmişdir), 11,9%-i (520 nəfər) qeyri-müsəlman olmuşdur. Vergi ödəyicisi olan (4 374 nəfər) əhalinin 21,4%-nin tam ölçüdə (çift və nim çift) torpaq sahəsi olmuş, 23,6%-nin (bennak) torpaq sahəsi yarım çiftdən az olmuş, 11,2%-nin isə (mücərrəd və caba) əkin sahəsi olmamışdır. Bu göstəricilərə əsasən, liva əhalisinin hər nəfərinə düşən torpaq payının həcminin ortalama 0,5 hektar olduğunu söyləyə bilərik. "İspəncə" vergisi ödəyicilərinin əkib-becərdikləri torpaq sahələrinin ölçüləri qeyd edilmədiyinə görə onların əlində olan torpaq sahəsi haqqında dəqiq fikir söyləmək mümkün deyil.

Urmiya livasının əhalisi buğda, arpa, darı, çəltik, yulaf, kətan toxumu və pambıq əkmiş, bağ-bostan məhsulları becərmişlər. "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri"nin statistik göstəricilərinə əsasən müəyyən edilmişdir ki, Urmiya livasında 88 məzrəənin torpaqları digər kəndin əhalisi tərəfindən əkin yeri, yaxud yaylaq-qışlaq kimi istifadə edilmiş ərazilər olmuşdur.

Bütün bunları nəzərə alaraq, "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri"nin məlumatlarına əsasən aparılan hesablamalar nəticəsində müəyyən edildi ki, Osmanlı hakimiyyəti dövründə Urmiya livasında 4 mindən çox vergi ödəyicisi təxminən 6 000 hektar (Urmiya şəhəri də daxil olmaqla) təsərrüfata yararlı torpaq sahəsini əkib-becərmiş, qoyunçuluq, arıçılıq, bağçılıq və bostançılıqla məşğul olmuş, ümumi olaraq dövlət xəzinəsinə 1 705 282 ağça vergi ödəmişdir. Bu rəqəmə livanın qeyri-məskun kəndlərinə və məzrə'ələrə təyin olunan verginin miqdarını (137 600 ağça) da əlavə etsək, livanın bir illik gəlirinin 1 842 882 ağça olduğunu təyin etmiş olarıq. Müqayisə üçün qeyd edək ki, həmin dövrdə Ərdəbil livasının illik gəliri təxminən 3 600 000 ağça olmuşdur [35, s. 72].

Göstəricilərə əsasən belə nəticəyə gəlmək olar ki, Osmanlı idarəçiliyində olan Urmiya livasının kəndlərinin təxminən ¼-nin əhalisi hərbi-siyasi hadisələrin, həmçinin təbii fəlakətlərin dağı-

dıcı təsiri nəticəsində, icarəyə götürdüyü torpaq üçün vergini ödəyə bilməməsinə və yaxud digər səbəblərə görə yurdlarını tərk etməyə məcbur olmuşlar. Bu bölmədə müfəssəl dəftərin əsasən, Urmiya livasına aid olan nahiyələri üzrə qeyd edilmiş məlumatlar əsasında təhlil aparılmışdır. Livanın tərkibində olan Urmiya şəhərinə aid təhrir göstəriciləri digər bir bölmədə araşdırıldığı üçün bu hissədə təqdim edilməmişdir.

## 3.2. Xalxal livasında kənd təsərrüfatı və vergilər

Günümüzdə 2 şəhər, 4 bəxş (rayon) və 12 dəhestan (böyük kənd) və 256 abadidən (kiçik kənddən) ibarət olan Xalxal Azərbaycanın cənub-şərqində yerləşərək, şimaldan Ərdəbil, şərqdən Talış dağları, cənubdan Zəncan və qərbdən Miyana ilə həmsərhəddir [147, s. 197].

Orta əsrlərdə Xalxal bölgəsi Avrasiyanın əsas ticarət yollarından birinin, daha dəqiq desək, Həmədan – Zəncan – Miyanə – Xalxal yolunun üstündə yerləşirdi [65, s. 5-8]. Bu amil sözsüz ki, həmin ərazinin sosial-iqtisadi vəziyyətinə də böyük təsir göstərirdi. “Xalxal və Urmiya livalarının müfəssəl dəftəri”ndə Xalxal bölgəsinin kənd təsərrüfatı, etnodemoqrafik vəziyyəti və s. məsələlərlə bağlı geniş məlumatlar verilmişdir.

XVIII əsrin əvvəllərində Osmanlı idarəçiliyində Əzdəkin, Səncəbəd, Xanəndbil, Xuruş-Rüstəm və Şahrud nahiyələrindən formalaşmış Xalxal livasında 328 kənd, 34 məzrə’ə, 6 qışlaq və 3 yaylaq adı qeydə alınmışdır (Cədvəl 2.1.2). Xalxal livasının adları müfəssəl dəftərdə qeyd edilən kəndlərindən 190-ı (57,9%-i) məskun olmuşdur. Xalxal livası üzrə qeydə alınmış əhalisiz ərazilərin 10,3%-i Osmanlı hakimiyyətindən daha əvvəl tərk edilmiş vəziyyətdə olmuşdur.

Xalxal livasında vergi ödəyənlərin statusu və vergi qrupları ilə bağlı cədvəl 3.2.1-ə nəzər salaq:

*Cədvəl 3.2.1*

**Xalxal livasında vergi qrupları və vergi ödəyicilərinin sayı**

| **Nahiyə** | **Əzdəkin** | **Səncəbəd** | **Xanəndbil** | **Xuruş-Rüstəm** | **Şahrud** | **Yekun** |
|---|---|---|---|---|---|---|
| Vergi qrupları | | | | | | |
| Çift | 490 | 84 | 416 | 80 | 97 | 1167 |
| Nim çift | - | 22 | 73 | 6 | 19 | 120 |
| Mücərrəd | 590 | 83 | 155 | 61 | 108 | 997 |
| Bennak | 1037 | 55 | 316 | 36 | 131 | 1575 |
| İspəncə | - | - | - | - | - | - |
| Caba | - | - | - | - | - | - |
| Vergi ödəyicilərinin ümumi sayı | 2117 | 244 | 965 | 183 | 355 | 3864 |

Yuxarıdakı cədvələ əsasən, Xalxal livasında 1167 "çift" və 120 "nim çift"lə yanaşı, 1575 "bennak", 997 "mücərrəd" olduğunu müəyyən etdik. Qeyd edək ki, dəftərin təhrir göstəricilərində liva üzrə "ispəncə" vergisi ödəyən şəxs qeydə alınmamışdır. Bu da livada qeyri-müsəlman əhalinin yaşamadığını və ya burada yaşayanların dini cəhətdən yalnız müsəlman əhalidən ibarət olduğunu göstərir. Məlum olur ki, Xalxal livasında rəiyyətin 33,3%-nin əkib-becərmək üçün normal ölçüdə torpaq sahəsi olmuş, 40,7%-nin əlində olan torpağı yarım çiftdən az olmuş, 25,8%-nin isə ümumiyyətlə torpağı olmamışdır. Başqa sözlə desək, Xalxal livasında vergi mükəlləfiyyətli rəiyyətin üçdə bir hissəsinin əlində əkin üçün müəyyən edilmiş ölçüdə (1 çift) torpaq sahəsi olmuşdur.

Nahiyələr üzrə əkilib becərilən torpaqların (əsasən "çift" və "nim çift") paylaşımını cədvəl 3.2.1-də görə bilərik.

*Cədvəl 3.2.2*

**Xalxal livasında əkilən torpaqlar**

| **Əkin sahələri** | **Əzdəkin** | **Səncəbəd** | **Xanəndbil** | **Xuruş-Rüstəm** | **Şahrud** | **Yekun** |
|---|---|---|---|---|---|---|
| Çift | 490 | 84 | 416 | 80 | 97 | 1167 |
| Nim çift | - | 22 | 73 | 6 | 19 | 120 |
| Faizlə | 38,1% | 8,2% | 38% | 6,7% | 9% | |

Cədvələ əsasən söyləmək olar ki, livada olan və dəftərdə qeydə alınmış çiftlərin (əkilən torpaqların) əksəriyyəti Əzdəkin (38,1%) və Xanəndbil (38%) nahiyələrində yerləşmişdir. Xalxal livasında qeydə alınmış "çift" və "nim çift"lərin sayına əsasən, bölgədə əkin üçün yararlı torpaqların ümumi sahəsini hesablaya bilərik. 120 nim çifti 60 çift kimi qəbul etsək, o zaman məlum olur ki, Xalxal livasında əkilib-becərilən torpaqlar təxminən 8 600 hektar olmuşdur. Müfəssəl dəftərdə "bennak" kimi qeyd edilən 1 575 vergi ödəyicisinin torpaqlarını, eləcə də livanın, kimsə yaşamayan məntəqələrinin əkilən torpaqlarını (liva üzrə 172 qeyri-məskun kənd və məzrə'ənin torpaqlarını) aldığımız nəticəyə əlavə etsək, Xalxal livası üzrə əkin üçün yararlı torpaq sahəsinin 10 min hektara yaxın olduğunu müəyyən etmək mümkündür. Nəticədə, Xalxal livasında yaşayan əhalinin hər bir nəfərinin təxminən yarım hektar torpaq sahəsini əkib-becərdiyini ehtimal edə bilərik.

Şübhəsiz ki, torpağın əkilib becərilməsi və qoyulan vergilərin ödənilməsində əsas amil insan idi. Xalxal livasının Əzdəkin və Xanəndbil nahiyələrində əhalinin nisbətən sıx yaşaması həmin bölgələrdən əldə olunan gəlirə də təsir göstərmişdir. Bunu aşağıdakı cədvəl 3.2.3-də (yekun göstəricilərə "beyt-ül mal" və "müqatiə" vergilərinin nəticələri daxil edilməmişdir) aydın görə bilərik:

*Cədvəl 3.2.3*

**Xalxal livasının nahiyələrinin illik gəliri və əhalisinin sayı**

| Nahiyələr | Əzdəkin | Səncəbəd | Xanəndbil | Xuruş-Rüstəm | Şahrud | Yekun |
|---|---|---|---|---|---|---|
| Əhalinin təxmini ümumi sayı | 8 225 | 888 | 4 180 | 671 | 1 343 | 15307 |
| Faizlə | (53,7%) | (5,8%) | (27,3%) | (4,4%) | (8,8%) | |
| İllik gəlir | 511 035 | 99 499 | 447 682 | 71 866 | 87 890 | 1217922 |
| Faizlə | (42%) | (8,1%) | (36,7%) | (6%) | (7,2%) | |

Cədvəldən aydın olur ki, vergi mükəlləfiyyətli əhalinin çox hissəsi, yəni 54,8%-i Əzdəkin nahiyəsində yaşamışdır. Vergi ödəyicilərinin sayına əsasən, hər nahiyədə yaşayan əhalinin təxmini sayını da hesablaya bilərik. Belə ki, "çift", "nim çift" və "bennak" olan evli şəxslərin ailə üzvlərinin sayını təxminən 5 nəfər qəbul etməklə əhalinin ümumi sayını tapmaq olar. Məsələn, Əzdəkin nahiyəsində yaşayan evli 1 527 vergi ödəyicisinin sayının 5 mislini hesablayıb subay rəiyyətin sayını da buna əlavə etdikdə, həmin nahiyədə 8 225 nəfər əhali yaşadığı məlum olur. Hesablamalardan görünür ki, liva əhalisinin çox qismi Əzdəkin və Xanəndbil nahiyəsində yaşamışdır. Müvafiq olaraq, nahiyələr üzrə ümumi gəlirin (1 217 922 ağça) 42%-i Əzdəkin nahiyəsinin, 36,7%-i isə Xanəndbil nahiyəsinin payına düşür.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Xalxalın da təbiəti bu bölgədə dənli, paxlalı bitkilər və pambıq əkilməsinə, əhalinin heyvandarlıqla, həmçinin arıçılıqla məşğul olmasına

imkan yaradırdı. Müqayisə üçün xatırladaq ki, dağların əhatəsində (şərqdə Talış, qərbdə Boz quş, cənubda isə Qaravul dağları) yerləşməsinə baxmayaraq hal-hazırda da Xalxal ərazisi əkinçilik üçün çox əlverişli bölgə hesab olunur [148, s. 40-42].

Orta əsrlər tarixçisi Əhməd Əmin Qazi də Ərdəbil və Xalxal mahallarında buğdanın bol olduğunu yazırdı [139, s. 113-115]. Müfəssəl dəftərin məlumatlarına görə arpa, buğda və darı Xalxal livasının demək olar ki, bütün kəndlərində əkilmişdir. Qeyd etdiyimiz kimi, dənli bitkilərə görə təyin edilən "xüms-i ğallat" vergisi üçün əkinçi topladığı məhsulun beşdə bir hissəsini ödəməli idi. Bu vergi natural şəkildə ödənilirdi. Dəftərdə dənli bitkinin adı, sonra ölçü vahidi kimi təyin olunmuş "kile" ilə ödənəcək həcmi və nağd pulla (ağça) qarşılığı yazılmışdır. Məsələn; vergi: buğda , kile: 50, rüsum: 2000 (ağça).

Dəftərin məlumatlarına əsasən, ödənmiş vergilərin həcmini ümumiləşmiş olaraq belə göstərə bilərik. Xalxal livasında "xüms-i ğallat" vergisinə uyğun olaraq il ərzində natural şəkildə 11 900 kile (297 500 kq) buğda, 6104 kile (152 600 kq) arpa, 639 kile (15 975 kq) darı ödənmişdir.

Müfəssəl dəftərin "hasil-i xüms-i ğallat" bölümündə livada əkilən paxlalı bitkilərdən noxud və mərcimək üçün müəyyən edilən verginin miqdarı və ödənilən həcmi də göstərilmişdir. Bu növ bitkilər, həmçinin yulaf və kətan toxumu üçün natural şəkildə "üşr" (onda bir) vergisi ödənilirdi. "Xüms-i ğallat" olaraq ödənən vergi həcmini beş dəfə, "üşr" kimi ödənən verginin həcmini on dəfə artıraraq Xalxal livasında əkilib-becərilən dənli bitkilərin illik miqdarını müəyyən edə bilərik. Bununla bağlı olaraq cədvəl 3.2.4-ü nəzərdən keçirək:

*Cədvəl 3.2.4*

**Xalxal livasında yığılan dənli bitkilərin illik miqdarı (kile ilə)**

| Əkilən məhsul | Buğda | Arpa | Darı | Mərcimək və noxud | Yulaf | Kətan toxumu |
|---|---|---|---|---|---|---|
| Nahiyələr | | | | | | |
| Əzdəkin | 23575 | 12460 | 70 | 5280 | 480 | - |
| Səncəbəd | 4900 | 2450 | 320 | 860 | 98 | 11 |
| Xanəndbil | 22900 | 11525 | 2255 | 3360 | 412 | 207 |
| Xuruş-Rüstəm | 3700 | 1850 | 290 | 100 | 55 | 48 |
| Şahrud | 4425 | 2235 | 260 | 630 | 89 | 12 |
| Yekun | 59500 | 30525 | 3195 | 10230 | 1134 | 278 |
| Yekun(kq) | 1487500 | 763000 | 79 875 | 255 750 | 28 350 | 6950 |

Cədvəldən məlum olur ki, Xalxal livasının bütün nahiyələrində dənli bitkilər əkilib becərilmişdir. Ümumiyyətlə, liva üzrə istehsal edilən buğdanın əhalinin hər nəfərinə düşən miqdarı 95,3 kq təşkil etmişdir. Arpa və buğda bitkisi daha çox Xanəndbil nahiyəsində əkilmişdir. Belə ki, bu nahiyədə yığılan buğda Xalxal livası üzrə toplanmış ümumi məhsulun 78%-ni təşkil edirdi. Arpa yığımında bu rəqəm 78,6%-ə, darı yığımında 70,6%-ə bərabər idi. Mərcimək və noxud bitkisi üzrə ümumi məhsulun 84,5%-ni Əzdəkin və Xanəndbil nahiyələri vermişdir.

Müfəssəl dəftərin məlumatlarından Xalxal livasında dənli bitkilərlə yanaşı pambıq bitkisinin də əkildiyi məlum olur. Livanın yalnız 3 nahiyəsində – Əzdəkin, Xanəndbil və Xuruş-Rüstəm nahiyələrində bu bitki əkilib becərilmiş, lakin məhsuldarlıq o qədər də yüksək olmamışdır. Dəftərin məlumatlarına görə Xalxal livası üzrə vergi olaraq 61 man (793 kq) pambıq ödənmişdir. 1 man pambığın ağça ilə qarşılığı dəftərdə 100 ağça olaraq müəyyən edilmişdir. Müqayisə üçün deyək ki, Urmiya livasında illik məhsul 1154 man olmuşdur. Hesablamalara görə Xalxal livasında 610 man, başqa sözlə, 7 930 kq pambıq yığılmışdır.

Orta əsr müəllifləri Ərdəbil, Xalxal, Ordubad və Marağa bölgələrində gözəl meyvə bağlarının olduğu barədə də məlumat verirlər. Xalxalda isə zeytunun yetişdirilməsi xüsusi qeyd edilmişdir [138, s. 114-115]. Xalxal livasının demək olar ki, bütün nahiyələrində əhali bağçılıq və meyvəçiliklə də məşğul olmuşdur. Onlar bu sahədə topladıqları məhsula görə vergi verməli idilər. Belə ki, toplanan məhsul satış üçün bazara çıxarılırdısa, o halda həmin məhsuldan vergi tutulmalı idi. "Üşri-i bostan" (bostan vergisi), "üşr-i meyvə" (meyvə vergisi) və "üşr-i bağat" (bağ vergisi) qeyd edilən sahələrə təyin edilən vergi növləri idi. Bu vergi növünə görə kəndli satışa çıxardığı məhsuldan əldə etdiyi gəlirin onda birini vergi olaraq ödəməli idi.

*Cədvəl 3.2.5*

**Xalxal livasında bağçılıq və bostançılıqdan əldə olunan gəlir (ağça ilə)**

| Nahiyələr | Əzdəkin | Səncəbəd | Xanəndbil | Xuruş-Rüstəm | Şahrud | Yekun |
|---|---|---|---|---|---|---|
| Vergilər | | | | | | |
| Üşr-i meyvə | - | 1830 | 3010 | - | 410 | 5250 |
| Faizlə | | 34,9% | 57,3% | | 7,8% | |
| Üşr-ibağat | 17400 | 4600 | 7 350 | 200 | 260 | 29810 |
| Faizlə | 58,4% | 15,4% | 24,7% | 0,7% | 0,8% | |

Qeyd edək ki, bu sahələr müasir dövrdə də Xalxal əhalisinin əsas məşğuliyyət sahələrindən biridir [148, s. 42].

Müfəssəl dəftərin məlumatlarına görə bağçılıqda Əzdəkin nahiyəsi (88,4%) digərlərindən seçilirdi. Meyvəçilik isə Səncəbəd, Xanəndbil, Şahrud və Xuruş-Rüstəm nahiyələrində daha geniş yayılmışdı. Bu sahədə daha çox Xanəndbil nahiyəsi (57,4%) seçilirdi. Bunu cədvəl 3.2.5-də aydın görmək olar.

Liva əhalisinin çox hissəsi heyvandarlıqla məşğul olmuş və yarımköçəri həyat sürmüşdür. Müəlliflərin yazdığına görə Xal-

xalda qoyunçuluq əsas məşğuliyyət sahələrindən biri olmuşdur. Saxladığı heyvan kəndlini həm lazım olan ərzaqla təmin edir, həm də şəhər sənayesinə gərəkli olan dəri, yun və süd verirdi. Məlumata görə Urmiya, Xoy, Tiflis, Ərdəbil, Qarabağ, Muğan və Şirvan bölgələri onlar (kəndli heyvandarlar – Y.N) üçün qışlaq, Savalan, Rəvan, Kiçik Qafqaz, Qaradağ və Talış dağları isə yaylaq olmuşdur [65, s. 16].

Osmanlı qanunlarına əsasən, qoyunçuluqda əsas vergi növü olan "adəd-i ağnam"a (qoyun vergisinə) görə hər 2 qoyun və ya keçi üçün bir ağça təyin edilmişdir [50, s. 18] və bu vergi daha çox Əzdəkin və Xanəndbil nahiyələrində toplanmışdır. Qoyun vergisinin illik həcminin 38,6%-i Əzdəkin nahiyəsinin, 40,7%-i isə Xanəndbil nahiyəsinin payına düşürdü. Daha ətraflı məlumat üçün cədvəl 3.2.6-ya nəzər salaq:

*Cədvəl 3.2.6*

**Xalxal livasında qoyunçuluqdan əldə olunan illik gəlir (ağça ilə)**

| **Nahiyələr** | **Əzdəkin** | **Səncəbəd** | **Xanəndbil** | **Xuruş-Rüstəm** | **Şahrud** | **Yekun** |
|---|---|---|---|---|---|---|
| Verginin həcmi | 5 495 | 1 011 | 5 799 | 922 | 1 012 | 14239 |
| faizlə | 38,6% | 7,1% | 40,7% | 6,5% | 7,1% | |

Heç şübhəsiz, heyvandarlığın geniş yayıldığı bir ərazidə heyvanların saxlanması üçün zəruri yerlərin tikilməsi, onlar üçün qida tədarükünün görülməsi vacib şərtlərdən idi. Dəftərin qeydlərində göstərilir ki, Xalxal livasının nahiyələrində yay və qış mövsümünə uyğun olaraq "rəsm-i ağıl ma'a qışlaq" (ağıl və qışlaq vergisi), həmçinin *"rəsm-i otlaq ma'a yaylaq"* (otlaq və yaylaq vergisi) kimi vergi növləri təyin edilmişdir. Nahiyə üzrə

ağıl və qışlaq vergisi 18 720 ağça, "otlaq və yaylaq" vergisi isə təxminən 5 550 ağça miqdarında təyin olunmuşdur. Bu vergi ildə bir dəfə sürüsünü başqa kənddən otlatmağa gətirənlərdən alınırdı. Təkcə Səncəbəd nahiyəsi üzrə yaylaq və otlaq vergisi barədə heç bir qeyd verilməmişdir. Bu da, fikrimizcə, qeyd edilən nahiyədə otlaq yerlərinin olmaması ilə izah olunur.

Heyvandarlıqla əlaqəli digər vergi növləri təzə ot və yonca üçün alınan "rəsm-i giyah ma'a yonca" (təzə ot və yonca vergisi), toplanan samana görə təyin edilən "bahâ -i kâh" (saman vergisi) vergiləri idi.

Təzə ot və yonca vergisi Xalxal livasının bütün nahiyələrindən toplanmışdır. Qoyunçuluq və ümumiyyətlə heyvandarlığın daha çox yayıldığı Xanəndbil və Əzdəkin nahiyələrində bu vergi digər ərazilərə nisbətən daha çox toplanmışdır.

Heyvandarlıqda qida məhsulu olan saman həm də evlərin və s. binaların tikilməsində bir vasitə olaraq istifadə edilmişdir. Xalxal livası üzrə 15 616 ağça saman vergisi təyin olunmuşdur. Bu verginin əsas qismi Xanəndbil (7 746 ağça) və Əzdəkin (4 490 ağça) nahiyələrinin payına düşürdü.

Qeyd etdiyimiz kimi, Xalxal livasında bağçılığın inkişafına müsbət təsir göstərmiş əlverişli iqlim arıçılıq üçün də münasib idi. Livanın bütün nahiyələrində əhali bu sahə ilə məşğul olmuş və "üşr-i küvvarə" vergisi (pətək vergisi) ödəmişdir. Onda bir olaraq təyin olunan vergi nağd olaraq toplanırdı. Liva üzrə verginin illik həcmi 16 300 ağça olmuşdur. Xanəndbil, Səncəbəd və Şahrud nahiyələri bu sahədə daha çox seçilmişlər.

Bağçılıq, əkinçilik sahələri ilə daha çox bağlı olan digər bir vergi növü isə "rəsm-i asiyab" (dəyirman vergisi) idi. İqlimi və təbii şəraiti suni suvarma işini zəruri etdiyinə görə ümumilikdə, Azərbaycan şəraitində əkin yerlərinin suvarılması üçün kəhrizlərdən, dəyirmanlardan və digər qurğulardan daha çox istifadə edilmişdir. Qeyd edək ki, hal-hazırda da Xalxal ərazisindən ke-

çən Qızılüzən, Givi, Şahrud və Səngabad çayları təsərrüfat sahələrinin inkişafında mühüm rol oynayır [148, s. 40-42].

Dəftərin məlumatlarında göstərilir ki, su ilə işləyən dəyirmanlara təyin olunan vergi onların işlədiyi müddətə və dəyirmanları hərəkətə gətirən daşların (bab) sayına uyğunlaşdırılmışdır. Dəftərdə dəyirmanların sahibinin (həmçinin şəriklərinin) adı, onların çalışdığı müddət, iş prosesində istifadə olunan dəyirman daşlarının sayı vergiyə cəlb edilən əhalinin adlarının siyahısından sonra qeyd olunmuşdur. "Hasil" bölməsində isə onların işlədiyi müddətə uyğun təyin olunmuş verginin həcmi göstərilmişdir. Verginin miqdarı 3 ay işləyən dəyirman üçün 30 ağça, 6 ay işləyən dəyirman üçün 60 ağça təsbit edilməsinə baxmayaraq, bu rəqəm sabit olmamış və nahiyələr üzrə 30-120 ağça arasında dəyişmişdir. Fikrimizcə, torpaq və iqlim şəraitinin müxtəlifliyi təyin edilən vergilərə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Cədvəl 3.2.7-ə nəzər salaq:

*Cədvəl 3.2.7*

**Xalxal livasında dəyirmanların sayı və ödənilən vergi**

| **Nahiyələr** | **Əzdəkin** | **Səncəbəd** | **Xanəndbil** | **Xuruş-Rüstəm** | **Şahrud** | **Yekun** |
|---|---|---|---|---|---|---|
| Dəyirmanlar | 42 | 4 | 27 | 6 | 7 | 86 |
| Faizlə | 48,8% | 4,7% | 31,4% | 6,9% | 8,2% | |
| İllik vergi (ağça ilə) | 1 395 | 210 | 1 210 | 720 | 330 | 3 865 |
| Faizlə | 36,1% | 5,4% | 31,4% | 18,6% | 8,5% | |

Müfəssəl dəftərdə Xalxal livasında kənd təsərrüfatına aid olmayan, lakin əhalinin məişəti ilə əlaqəli olan digər rüsumların ödənilməsi haqqında məlumat verilmişdir. Bunlardan biri "rəsm-i arusanə" – gəlinlik vergisidir. Bu verginin ödənməsi digərləri-

nə nisbətən bir qədər fərqlidir. Belə ki, müfəssəl dəftərin göstəricilərinə əsasən, evlənən tərəf ailə qurduğu qızın (və ya qadının) yaşadığı kəndin sahibinə dul qadın üçün 60 ağça, heç ailə qurmamış qızlar (bakirələr) üçünsə 120 ağça ödəməli idi. Bu gəlir sabit olaraq, 180 ağça miqdarında olaraq müəyyən olunmuşdur. Digər göstəricilərdən fərqli olaraq, bu verginin illik həcmi kəndin əhalisinə görə deyil, sadəcə 1 kənd üçün 1 nəfər olaraq təyin edilmişdir. Xalxal livası ildə şərti olaraq, 34 020 ağça gəlinlik vergisi ödəməli idi.

"Dəştibani və tapu-yi zəmin" və "niyabət" qrupu vergiləri hər bir kənd üçün ayrı-ayrılıqda təyin olunmuşdur. Kənd yerlərində əkilmiş əraziləri heyvanlardan qorumaq üçün qoruqçu (dəştiban) təyin olunurdu. Əkin sahəsinə, bağ-bağçaya girən, əkinə zərər vuran heyvanın sahibindən iri və ya xırda heyvan olmasına əsasən müəyyən edilən bu cərimənin miqdarının nə qədər olacağını əvvəldən təyin etmək mümkün olmadığına görə "dəştibani" vergisi də təxmini təyin edilirdi. "Tapu-yi zəmin" (tapu vergisi) isə əkilən torpaq üçün ödənən icarə haqqı kimi qeyd olunmuşdur. Hər iki vergi növü bir bölmədə verilmişdir. Müfəssəl dəftərdə Əzdəkin nahiyəsi üçün 27 755 ağça, Səncəbəd nahiyəsi üçün 5 000 ağça, Xanəndbil nahiyəsi üçün 22 750 ağça, Xuruş-Rüstəm nahiyəsi üçün 3 700 ağça və Şahrud nahiyəsi üçün 4 450 ağça "dəştibani və tapu" vergisi müəyyən edilmişdir.

Baş vermiş gözlənilməyən hadisələrə görə təyin edilən "niyabət" qrupu vergiləri də hər kəndə uyğun müəyyən edilirdi.

"Niyabət" qrupu vergiləri üzrə Xalxal livası xəzinəyə ildə 140 198 ağça ödəməli idi. Bu liva üzrə illik gəlirin (1 240922 ağça) 11%-ni təşkil edirdi. Müfəssəl dəftərdə liva üzrə 138 boşalmış kənd və 34 məzrə'ənin torpaqlarının ətraf kəndlərin sakinləri tərəfindən bu və ya digər  məqsədlər üçün istifadə olunduğu qeyd edilmişdir. Təbii ki, illik gəlir göstəricisinə qeyri-məskun kəndlərin və məzrəələrin illik gəlir payı da (191 440 ağça) əlavə edilmişdir.

Liva üzrə təyin olunan vergilər arasında "müqatiə" və "beyt-ül mal" vergiləri xüsusi yer tutur. Bu qrup vergilərin mahiyyəti və istiqaməti haqqında əvvəldə danışıldığına görə burada yalnız Xalxal livası ilə bağlı xüsusiyyətləri qeyd etməyi lazım bildik. Urmiya livasından fərqli olaraq, "Beyt-ül mal" qrupu vergiləri ilə bağlı qeydlər Xalxal livasının hər bir nahiyəsinə aid məlumatların sonunda göstərilmişdir. Bu məlumatlarda "xass-ı humayun, mirliva və vəqf torpaqları"ndan başqa "beyt-ül mal" qrupu üzrə xəzinəyə ödəniləcək digər vergilərin miqdarı qeyd olunmuşdur. Xalxal livasının hər bir nahiyəsində dövlət torpaqları, liva başçısına və vəqfə aid mülklərin (torpaq, ev və ya kənd) olduğu qeyd edilmiş və bölgə üzrə müvafiq göstərici 13 000 ağça müəyyən edilmişdir. Müfəssəl dəftərdə belə yanaşma yalnız Xalxal livası üçün xarakterikdir. Urmiya livası və Salmas qəzasının təhrir göstəricilərində "beyt-ül mal" qrupuna aid qeydlər fərqli şəkildə göstərilmişdir. Bu barədə müvafiq bölmələrdə daha ətraflı məlumat verilmişdir. Müfəssəl dəftərin məlumatlarında Xalxal livasının Əzdəkin nahiyəsində tənbəki "üşrü"nün "müqatiə"yə verildiyi və müvafiq verginin ildə 10 000 ağça təşkil etdiyi göstərilmişdir. Bu məlumata əlavə qeyd yazılaraq göstərilmişdir ki, "tənbəki vergisinin hasilindən (toplanmasından – Y.N.) alınan məbləğin yarısı ərazi sahibinə, yarısı da xəzinəyə ödənilir" [10, s. 69]. Xalxal livasına aid məlumatlarda tütün məhsulunun becərilmədiyini və bu sahəyə aid müvafiq verginin təyin olunmadığını nəzərə alsaq bu məhsulun digər ərazilərdən gətirilərək Xalxal livasının Əzdəkin nahiyəsində satıldığını və məhz bu satışdan müəyyən miqdarda gəlir əldə edildiyini ehtimal etmək olar.

Beləliklə, Osmanlı dövründə müfəssəl dəftərdə qeyd olunan və Xalxal livası üzrə ödənilən vergiləri cədvəl 3.2.8-də ümumiləşdirib təqdim edirik:

*Cədvəl 3.2.8*

**Osmanlı dövründə Xalxal livası üzrə təyin edilmiş vergilər**

| **Nahiyələr** | **Əzdəkin** | **Səncəbəd** | **Xanəndbil** | **Kuruş-Rüstəm** | **Şahrud** | **Yekun** |
|---|---|---|---|---|---|---|
| Vergilər | | | | | | |
| Çift | 24500 | 4200 | 20800 | 4000 | 4850 | 58350 |
| Nim çift | - | 550 | 1825 | 150 | 475 | 3000 |
| Bennak | 18666 | 990 | 5688 | 648 | 2358 | 28350 |
| Mücərrəd | 3540 | 498 | 930 | 366 | 648 | 5982 |
| Buğda vergisi | 188600 | 39200 | 183200 | 29600 | 35400 | 476000 |
| Arpa vergisi | 74 760 | 14700 | 69 150 | 11100 | 13410 | 183120 |
| Darı vergisi | 280 | 1280 | 9020 | 1160 | 1040 | 12 780 |
| Yulaf vergisi | 9600 | 1960 | 8240 | 1100 | 1780 | 22 680 |
| Kətan toxumu vergisi | - | 220 | 4140 | 960 | 240 | 5 560 |
| Pambıqvergisi | 2400 | - | - | 1900 | - | 4300 |
| Mərcimək və noxud vergisi | 31 680 | 5160 | 20 160 | 600 | 3780 | 61 380 |
| Arı pətəyi vergisi | 1 100 | 1 960 | 9 760 | 1 600 | 52 | 14 472 |
| Gənəgərçək vergisi | 2 360 | 760 | -- | -- | 660 | 3 780 |
| Bağ vergisi | 17 400 | 4 600 | 7 350 | 200 | 260 | 29 810 |
| Ot və yonca vergisi | 100<br>-- | 980 | 4 360 | 750<br>-- | 905<br>410 | 7 095<br>5 250 |
| Meyvə vergisi | | 1 830 | 3 010 | | | |
| Otlaq/ yaylaq vergisi | 500 | -- | 2 610 | 1 090 | 1 350 | 5 550 |
| Çayır vergisi | 150 | -- | -- | -- | -- | 150 |
| Ağıl/qışlaq vergisi | 7 800 | 1 400 | 6 700 | 1 100 | 1 720 | 18 720 |
| Qoyun vergisi | 5 495 | 1 011 | 5 799 | 922 | 1 012 | 14 239 |
| Saman vergisi | 7 746 | 980 | 4 990 | 920 | 980 | 15 616 |

*Cədvəl 3.2.8-in davamı*

| 1 | 2 | 3 | 4 | 5 | 5 | 7 |
|---|---|---|---|---|---|---|
| Gəlinlik vergisi | 14 760 | 2 160 | 12 240 | 1 980 | 2 880 | 34 020 |
| "Dəştibani və tapu"vergisi | 27 755 | 5 000 | 22 750 | 3 700 | 4 450 | 63 655 |
| Dəyirman vergisi | 1 395 | 210 | 1 210 | 720 | 330 | 3 865 |
| "Niyabət..." qrupu vergiləri | 70 448 | 9 800 | 43 750 | 7 300 | 8 900 | 140 198 |
| Müqatiə vergisi | 10 000 | - | - | - | - | 10 000 |
| Beyt-ül mal vergisi | 13 000 | - | - | - | - | 13 000 |

Səfəvi dövründə müstəqil inzibati vahid olan və sarayın təyin etdiyi hakimlər tərəfindən idarə edilən Xalxal XVIII əsrin əvvəllərində Osmanlı idarəçiliyinə keçdikdən sonra liva statusunda olmuş və 328 kənd ilə birlikdə 5 nahiyədən təşkil edilmişdir.

Siyasi-hərbi şərait, fasiləsiz Osmanlı – Səfəvi müharibələrinin fəsadları, təsərrüfatların dağılması ilk növbədə iqtisadiyyata təsirini göstərdi. Torpaqları və təsərrüfatları yararsız hala düşmüş kəndli daha yaxşı güzəran məqsədilə nisbətən əlverişli yerlərə köç edirdi. Təsadüfi deyil ki, boşalmış kəndlərin yarıdan çoxu Osmanlı hakimiyyəti dövründə, təhrirdən əvvəl köçüb getmiş, 9,1%-i isə uzun müddət tərk edilmiş kəndlər olmuşdur. Maraqlıdır ki, müasir dövrdə Azərbaycan Respublikasının Oğuz rayonunun tərkibindəki Xalxal kəndi, Naxçıvan Muxtar Respublikası ərazisində Xalxal meşəsi və digər coğrafi məntəqələrin oxşar şəkildə adlandırılması məhz əsrlər boyu bu regionda müxtəlif istiqamətlərdə baş vermiş köçlərin təsiri nəticəsində olduğunu ehtimal etməyə əsas verir.

İqlimi və təbii şəraiti əlverişli olan Xalxalda yaşayan 3 864 vergi ödəyicisi təxminən 10 000 hektara yaxın ərazidə bütün növ dənli və paxlalı bitkilər əkib becərmişdir. Livanın əhalisi heyvandarlıqla məşğul olmuş, geniş biçənəklərdən, ot, yonca, taxıl

sahələrindən saman ehtiyatı toplamışdır. Şübhəsiz, kəndli əkib-becərdiyi torpağa, topladığı məhsula, saxladığı mal-qaraya görə vergi ödəməli idi. Livanın vergi mükəlləfiyyətli əhalisi təhrir ili ərzində dövlət xəzinəsinə təxminən 1 240 922 ağça vergi ödəməli olmuşdur.

Livada yaşayan vergi verənlər arasında "ispəncə" vergisi ödəyən şəxs qeydə alınmamışdır. Bu isə o deməkdir ki, Xalxal livasının əhalisi dini cəhətdən tamamilə müsəlman olmuşdur. Livanın tərkibində "nəfs" sözü ilə qeyd olunan inzibati ərazi vahidi göstərilməmişdir. Bu da Xalxal livasının şəhəri (və ya qəsəbəsi) olmadığını göstərir. Bu səbəbdən livada sənətkarlıq və ticarət sahələrinin mövcudluğu və fəaliyyəti barədə fikir söyləmək mümkün deyil.

Nəticə etibarilə söyləyə bilərik ki, bölgədə baş vermiş siyasi-hərbi proseslər Xalxal livasının iqtisadi vəziyyətinə öz təsirini göstərmişdir. Bununla yanaşı, müfəssəl dəftərin Xalxal livasının kənd təsərrüfatı ilə bağlı göstəriciləri bu bölgədə əkilən torpaqların məhsuldar olduğunu və livanın gəlir qaynaqlarının əsasını təşkil etdiyini söyləməyə imkan verir. Müfəssəl dəftərin məlumatlarına görə illik gəliri təxminən 1 240 922 ağça hesablanan Xalxal livasının əhalisi 10 000 hektara yaxın ərazidə kənd təsərrüfatı ilə məşğul olmuş, bağ-bostan məhsulları əkib-becərmiş, qeyri-sabit siyasi və iqtisadi şəraitdə təyin edilmiş vergiləri ödəməyə çalışmışdır.

### 3.3. Salmas qəzasında kənd təsərrüfatı və vergilər

Qeyd etdiyimiz kimi "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri" Urmiya və Xalxal livaları ilə yanaşı, Salmas qəzasının təhrir göstəricilərini də əhatə edən və bu bölgənin kənd təsərrüfatı sahələrində çalışan kənd və şəhər əhalisinə təyin olunan vergi və mükəlləfiyyətlər fonunda toplumun yaşayış tərzini, böl-

gənin iqtisadi vəziyyətini, torpağın məhsuldarlığını, eləcə də digər məşğulluq sahələrini daha dəqiq və konkret məlumatlarla təqdim edən dəyərli mənbədir.

Müfəssəl dəftərin məlumatlarına əsasən, Osmanlı hakimiyyəti dövründə Salmas qəzasına 4 nahiyə – Salmas, Ənzəl, Qarabağ, Kürdqıran nahiyələri və qəza mərkəzi – Salmas şəhəri aid idi. Salmas şəhərinə aid təhrir göstəricilərinin təhlili "Urmiya və Salmas şəhərlərinin həyatı və əhalisi" bölümündə verildiyinə görə bu bölmədə Salmas qəzasına aid nahiyələr və kəndlərlə bağlı təhrir göstəriciləri araşdırılmışdır.

Məlumdur ki, digər ərazilərdə olduğu kimi, qeyd edilən dövrdə Salmas qəzasında da əhali təsərrüfatla, xüsusilə, əkinçiliklə məşğul olmuşdur. Təsərrüfat həyatının və bu sahədə məşğul olan insanların sosial vəziyyətinin daha ətraflı araşdırılması məqsədilə qəza üzrə əkilib-becərilən torpaqların nahiyələrdə yerləşməsi və əhalinin vergi qrupları üzrə təsnifatının müəyyən edilməsinin vacibliyini qeyd etmək istərdik. Bununla bağlı olaraq, müfəssəl dəftərin məlumatlarına əsasən tərtib edilən cədvəl 3.3.1-də Salmas qəzasının nahiyələrində təhrir zamanı qeydə alınmış əkin yerləri və vergi qruplarına aid statistik göstəricilər ümumiləşdirilərək əks olunmuşdur.

*Cədvəl 3.3.1*

**Salmas qəzasının nahiyələrində əkin yerləri və vergi qrupları**

| **Vergi qrupları** | **N a h i y ə l ə r** | | | | |
|---|---|---|---|---|---|
| | **Salmas** | **Ənzəl** | **Qarabağ** | **Kürdqıran** | **Yekun** |
| Çift | 228 | 44 | 27 | 16 | 315 |
| Nim çift | 107 | 18 | 12 | 2 | 143 |
| Bennak | 235 | 41 | 53 | 20 | 349 |
| Mücərrəd | 124 | 26 | 19 | 15 | 184 |
| İspəncə | 501 | 44 | 40 | - | 585 |
| Caba | 58 | 6 | - | 6 | 66 |

Cədvəldən göründüyü kimi, Salmas qəzası nahiyələri arasında Salmas nahiyəsi ərazisinin nisbətən genişliyi və kəndlərdə yaşayan vergi ödəyicilərinin sayına görə digər nahiyələrdən seçilmişdir. Buna görə qeyd etdiyimiz nahiyəyə aid təhrir göstəricilərini daha ətraflı təhlil etməyi məqsədəuyğun hesab etdik.

Əvvəlcə qeyd edək ki, Salmas bölgəsi mühüm ticarət yollarından birinin, Təbriz – Salmas – Cəzirə – Hələb – Suriya karvan yolunun üstündə yerləşdiyinə görə burada kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrinin inkişafı üçün geniş imkanlar olmuşdur [52, s. 145].

Müfəssəl dəftərin məlumatlarında Salmas nahiyəsinin tərkibində, ümumiyyətlə, 59 kənd və bu kəndlərdə 1 253 vergi ödəyicisinin yaşadığı qeydə alınmışdır. Nahiyədə müsəlmanlarla yanaşı, 501 nəfər qeyri-müsəlman vergi mükəlləfiyyətli şəxsin adı siyahıya alınmışdır. Nahiyənin kəndlərinin əhalisi əsasən, əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Əkilib-becərilən torpaq sahələrinin sahəsi ilə bağlı daha geniş təsəvvür əldə etmək məqsədilə dəftərin təhrir göstəricilərinə diqqət yetirək. Salmas nahiyəsinin adları siyahıya alınmış 1 253 nəfər vergi ödəyən şəxsdən 228 nəfərinin müəyyən edilmiş ölçüdə (çift), 107 nəfərin bunun yarısı həcmində (nim çift) əkib becərdiyi torpaq sahəsi olmuşdur (cədvəl 3.3.1). Salmas nahiyəsində əkilib-becərilən torpaqların əhatə etdiyi ərazinin ümumi sahəsini müəyyən etmək məqsədilə müfəssəl dəftərin statistik göstəricilərinə müraciət etdik. Məlumatlarda göstərilən 228 çift və 107 nim çift sahəni ümumilikdə 282 çift kimi qəbul etsək, məlum olur ki, ərazidə əkin sahələri təxminən 1 980 hektar ərazini əhatə etmişdir. Bu göstəriciyə Salmas nahiyəsində "bennak" və "ispəncə" torpaqlarını əlavə edərək, nahiyədə, təxminən, 2 200 hektara yaxın ərazinin əkilib-becərildiyini müəyyən etmiş oluruq. Bu isə qəzanın

nahiyələri arasında Salmas nahiyəsinin daha geniş əraziyə malik olduğunu deməyə əsas verir.

Nahiyənin əhalisi, Xalxal və Urmiya livalarında olduğu kimi, təsərrüfatla məşğul olduqlarına və torpaqlarında yetişdirdikləri məhsula görə dövlət xəzinəsinə "xüms-i ğallat" və "üşr" vergilərini ödəməli idilər. Qəzanın digər nahiyələrindən fərqli olaraq, Salmas nahiyəsinə aid təhrir məlumatları bu ərazilərdə hər növ dənli, paxlalı və texniki bitkilərin əkildiyini göstərir. Hesablamalara görə, nahiyənin əhalisi vergi olaraq 5 415 kile buğda, 2 914 kile arpa, 1 128 kile darı, 662 kile yulaf və kətan toxumu ödəmişdir. Bu isə Salmas nahiyəsinin kəndlərində 27 075 kile (676 875 kq) buğda, 14 570 kile (364 250 kq) arpa, 5 640 kile (141 000 kq) darı, 3 310 kile (82 750 kq) yulaf və kətan toxumu məhsulu əkilib-becərildiyini deməyə əsas verir. Qeyd edək ki, Ərdəbil livasının Ərdəbil (639 çift: 37 500 kile buğda), Sərab (661 çift: 44 995 kile buğda), Həştrud (505 çift: 38 100 kile buğda) [35, s. 63] kimi geniş torpaq sahələrinə malik olan nahiyələri ilə müqayisədə bu nəticələr Salmas nahiyəsi üçün (282 çift) yüksək göstərici hesab oluna bilər.

Dəftərdə Salmas nahiyəsinin kəndlərində texniki bitkilərdən pambığın əkilməsi ilə bağlı qeydlər vardır. Göstəricilər Salmas nahiyəsinin əksər kəndlərində pambıq bitkisinin əkildiyini deməyə əsas verir. Əhali bu məhsula görə təhrir ili ərzində 563 man (7 345 kq) "üşr-i pəmbə" vergisi (pambıq vergisi) ödəməli idi. Salmas nahiyəsi kəndlərinə təyin olunan vergilərdən biri də "üşr-i biyan" (biyan üşrü) vergisidir. Maraqlıdır ki, texniki bitkilərdən sayılan biyanın əkilib-becərilməsinə görə ödənilən bu vergi yalnız Salmas qəzası nahiyələrində toplanmışdır.

Əhaliyə təyin olunmuş Xalxal və Urmiya livalarına aid təhrir məlumatlarında rast gəlinməyən digər vergi növü *"üşr-i sir-ü piyaz"* (sarımsaq və soğan) vergisidir. Bu vergi növünün yalnız Salmas qəzası nahiyələrinə aid təhrir göstəricilərində əks olun-

masına görə soğan və sarımsaq məhsulunun bu ərazilərdə yüksək gəlir gətirdiyini söyləmək mümkündür. Qeyd edildiyi kimi, əkinçi əldə etdiyi məhsulun dəyərinin 1/10 hissəsini vergi rüsumu olaraq ödəməli idi və Salmas nahiyəsi üzrə bu vergi 4 410 ağça müəyyən edilmişdir.

İqlimin mülayim, təbii şəraitin əkin üçün münasib olması bu ərazidə bağ-bostan məhsullarının becərilməsi üçün də əlverişli şərait yaratmışdır. Salmasda geniş meyvə bağlarının olması, müxtəlif çeşidli bostan məhsullarının əkilməsi haqqında mənbələrdə ətraflı məlumatlar verilir [30, s. 37]. “Üşr-i meyvə” (3 285 ağça), “üşr-i bağat” (13 420 ağça), “üşr-i bostan” (7 790 ağça) və “üşr-i biyan” (7 120 ağça) vergilərinə əsasən əhali xəzinəyə müəyyən edilmiş miqdarda vəsait ödəmişdir. Təsərrüfatla və bilavasitə əkinçiliklə əlaqəli olan digər bir vergi növü isə “rəsm-i asiyab” (dəyirman vergisi) olmuşdur. Nahiyə kəndlərinin əhalisi torpaqların suvarılması və məhsulun becərilməsində istifadə etdikləri 29 dəyirmana görə xəzinəyə 1 530 ağça rüsum ödəməli idi.

Dəftərin məlumatlarında Salmas nahiyəsi əhalisinin arıçılıqla məşğul olduqlarına görə dövlət xəzinəsinə “rəsm-i küvvarə” vergisi (pətək vergisi) ödədiyi haqqında məlumatlar öz əksini tapmışdır. Bu isə bölgədə arıçılığın yayılması və əhalinin bu sahə ilə müntəzəm şəkildə məşğul olmasını deməyə imkan verir. Balın çəkisinə görə deyil, pətək sayına uyğun təyin olunan vergi nahiyə üzrə 27 980 ağça təşkil etmişdir.

Salmasın əlverişli təbii şəraiti əhalinin heyvandarlıqla da məşğul olmasına imkan yaratmışdır. Mənbələr təsdiq edir ki, şəhəri əhatə edən geniş çəmənliklər və otlaqlar heyvanların əsas qidasını təşkil edən ot, saman və digər yem ehtiyatları ilə zəngin olmuşdur [30, s. 37]. Dəftərin məlumatlarında əhaliyə heyvandarlıqla məşğul olduqlarına görə “adət-i ağnam” – qoyun vergisi təyin olunduğu göstərilmişdir. Bu göstəricilərə əsasən, əhali xəzinəyə 12 150 ağça qoyun vergisi ödəməli idi. Bu isə nahiyənin

kəndlərində 24 300 baş heyvan saxlanıldığını ehtimal etməyə əsas verir. Dəftərin məlumatlarında heyvanların əsas qidasını təşkil edən ot, saman, yonca və s. toplanmasına görə "rəsm-i giyah ma'a yonca" (təzə ot və yonca vergisi), "bahâ-i kâh" (saman vergisi), *"rəsm-i çayır"* (çayır vergisi) kimi vergilərin təyin olunması haqqında qeydlər vardır. Çayır bitkisinin heyvandarlıq üçün qida məhsullarından biri olduğunu və Salmasın ətraf kəndlərində heyvandarlığın geniş yayıldığını nəzərə alsaq, bu bitkinin vergiyə cəlb olunması təbii görünür. Dəftərin məlumatlarında göstərilir ki, əhali heyvandarlığa aid olan 8 720 ağça saman vergisi, 9 020 ağça təzə ot və yonca, 2 820 ağça ağıl və qışlaq, 1 580 ağça çayır vergisi ödəmişdir.

Müfəssəl dəftərin məlumatlarında Salmas nahiyəsinin əhalisinin həyat və məişəti ilə əlaqəli olan "rəsm-i arusanə" – gəlinlik vergisinin ödənilməsi haqqında qeydlər əks olunmuşdur. Hər bir kənd üçün dəyişməz olaraq müəyyən edilən, ailə quran subay və dul qadınlara görə evlənən tərəfindən ödənilən bu vergiyə əsasən, əhali dövlət xəzinəsinə 7 740 ağça vergi verməli idi.

Beləliklə, Salmas nahiyəsinə aid təhririn yekun göstəricilərini əks etdirən cədvəl 3.3.2-yə nəzər salaq.

Salmas nahiyəsi üzrə təhrir göstəricilərinin sonunda "beyt-ül mal" qrupuna aid olan vergilərlə bağlı məlumat verilmişdir. Bu qrupa aid olan vergi növləri haqqında daha əvvəldə geniş məlumat verdiyimizə görə "beyt-ül mal" vergisinin Salmas qəzası nahiyələrinə aid xüsusiyyətlərini qeyd etmək istərdik. Məlumatda təyin edilmiş verginin "xass-ı hümayun, mirliva ve vəqf torpaqlarından başqa" Salmas qəzasının bütün nahiyələrinə aid edildiyi göstərilmişdir. Bu qrup vergilər üzrə yekun rəqəm (6 000 ağça) müəyyən edilmişdir.

Qeyd etdiyimiz kimi, Salmas qəzasının tərkibinə Salmas nahiyəsindən başqa Ənzəl, Qarabağ və Kürdqıran nahiyələri də aid olmuşdur. Bu nahiyələr həm ərazisinin həcmi, həm də əhali-

sinin sayı baxımından Salmas nahiyəsindən fərqli olmuşlar. Belə ki, müfəssəl dəftərin məlumatlarında Ənzəl nahiyəsində 44 çift və 18 nim çift, Qarabağda 27 çift və 12 nim çift, Kürdqıranda 16 çift və 16 nim çift olduğu qeyd edilmişdir.

*Cədvəl 3.3.2*

**Salmas nahiyəsi üzrə təyin olunmuş vergilər və onların miqdarı**

| **"Xüms-i ğallat" vergiləri** | **Miqdarı (kile ilə)** | **"Üşr" vergiləri** | **Miqdarı (ağça ilə)** | **Nağd ödənilən vergilər** | **Miqdarı (ağça ilə)** |
|---|---|---|---|---|---|
| Buğda vergisi | 5 415 | Pambıq vergisi | 563 man | Qoyun vergisi | 12 150 |
| Arpa vergisi | 92 914 | Bağ vergisi | 13 420 | Təzə ot və yonca | 9 040 |
| Darı vergisi | 1 128 | Meyvə vergisi | 3 285 | Saman vergisi | 8 660 |
| Kətan toxumu və yulaf vergisi | 662 | Bostan vergisi | 7 790 | Çayır vergisi | 1 580 |
| | | Soğan və sarımsaq vergisi | 4 410 | Ağıl vergisi | 2 760 |
| | | Biyan vergisi | 7 120 | | |
| | | Pətək vergisi | 27 980 | Qışlaq vergisi | 1 200 |
| | | | | Dəyirman vergisi | 1 530 |
| | | | | Gəlinlik vergisi | 7 740 |
| | | | | Dəştibani və tapu vergisi | 29 445 |
| | | | | "Niyabət" vergiləri | 57 750 |

Ümumiyyətlə, müfəssəl dəftərdə Salmas qəzasının nahiyələrində yaşayan 1 646 vergi ödəyicisinin adı qeyd olunmuşdur. Bunlardan 803 nəfəri evli, 255 nəfəri subay rəiyyət olmuşdur. Məlumatlara əsasən aparılan hesablamaların nəticəsinə (4 270 nəfər) qəzada yaşayan 585 qeyri-müsəlman vergi ödəyicisinin və vergi mükəlləfiyyəti daşımayanların (xəstələr və qocalar, qəza idarəçiliyində çalışanlar) sayını da əlavə etsək, ümumi olaraq, Salmas qəzasında təxminən 5 200 nəfər əhalinin yaşadığını söyləyə bilərik. Aşağıdakı cədvəldə qəzanın vergi ödəyən əhalisinin nahiyələr üzrə paylaşımı və illik gəlirin göstəriciləri əks olunmuşdur:

*Cədvəl 3.3.3*

**Salmas qəzasının əhalisi və illik gəliri**

| | **N a h i y ə l ə r** | | | | |
|---|---|---|---|---|---|
| | **Salmas** | **Ənzəl** | **Qarabağ** | **Kürdqıran** | **Yekun** |
| Vergi mükəlləfiyyətli əhali | 1 253 | 179 | 151 | 63 | 1646 |
| Faizlə | 76,1% | 10,9% | 9,2% | 3,8% | |
| Əhalinin təxmini ümumi sayı | 3 700 | 600 | 550 | 240 | 5 090 |
| Faizlə | 79,0% | 9,8% | 4,9% | 6,3% | |
| İllik gəlir (ağça ilə) | 631029 | 78 152 | 39 269 | 50 038 | 798 488 |
| Faizlə | 79,0% | 9,8% | 4,9% | 6,3% | |

Cədvəldən bir daha aydın olur ki, Salmas qəzasının eyni adlı nahiyəsində əhali qəzanın digər ərazilərinə nisbətən daha sıx yaşamış və daha çox gəlir əldə etmişdir. Bu isə Salmas nahiyəsinin bölgənin iqtisadi və ticari həyatında əhəmiyyətli yer tutduğunu deməyə imkan verir.

Səlmas qəzasının nahiyələrində ümumilikdə 315 çift və 153 nim çift vergi ödəyicisinin yaşadığı müəyyən edilmişdir. Bu

göstəriciləri ümumi olaraq 391 çift kimi qəbul edərək, nahiyələrdə qeydə alınmış 349 bennakın torpaq sahələrini də bu nəticəyə əlavə etsək, bölgədə təxminən 3 000 hektar torpaq sahəsinin əkilib becərildiyini söyləyə bilərik.

Müfəssəl dəftərin məlumatlarının təhlili Salmas qəzasının qeyd edilən nahiyələrində əhalinin bütün növ dənli bitkilər, pambıq, bağ-bostan məhsulları əkib-becərdiyini və heyvandarlıqla məşğul olduğunu deməyə əsas verir. Nahiyələrin əhalisi icarəyə götürdükləri torpaqlarda məşğul olduqları təsərrüfat sahələrindən əldə etdikləri gəlirə görə dövlət xəzinəsinə "xüms" və "üşr" vergiləri ödəmişlər. Qeyd edək ki, hələ XIV əsrdə Həmdullah Qəzvini Salmasda becərilən buğda və digər dənli bitkilərin geniş şəkildə əkilib-becərilməsi və yüksək məhsuldarlığı haqqında məlumat vermişdir [126, s. 47].

Ənzəl nahiyəsində əkilib becərilən torpaqların sahəsinin nisbətən kiçik olmasına baxmayaraq, dənli bitkilərin məhsuldarlığı, fikrimizcə, yüksək olmuşdur. Belə ki, nahiyə əhalisi yetişdirdikləri məhsula görə 790 kile (98 750 kq) buğda, 397 kile (49 625 kq) arpa və 120 kile (15 000 kq) darı vergisi ödəmişdir. Müqayisə üçün qeyd edək ki, Ərdəbil livasının Kəndivan nahiyəsinin 73 çift və 40 nim çiftlik ərazisində buğdanın illik məhsuldarlığı 4 950 kile olmuşdur [35, s. 58-63]. Bu isə 44 çift və 18 nim çift torpağı olan Ənzəl nahiyəsinin müvafiq göstəricindən (3 950 kile) cuzi dərəcədə çox sayıla bilər.

Cədvəl 3.3.4-də nahiyələr üzrə ödənən vergilər və onların miqdarı haqqında məlumat təqdim olunmuşdur (Məlumatın tam və hərtərəfli olması üçün Salmas şəhərinə aid vergi göstəriciləri eyni adlı nahiyəyə əlavə edilmişdir):

*Cədvəl 3.3.4*

**Salmas qəzası üzrə ödənilən vergilər və onların miqdarı**

| Vergilər | Nahiyələr | | | |
|---|---|---|---|---|
| | **Salmas** | **Ənzəl** | **Qarabağ** | **Kürdqıran** |
| Çift vergisi | 11 400 | 2 200 | 1 350 | 800 |
| Nim çift vergisi | 2 675 | 450 | 300 | 150 |
| Bennak vergisi | 3 055 | 533 | 689 | 260 |
| Mücərrəd vergisi | 744 | 156 | 114 | 90 |
| Caba vergisi | 644 | 96 | - | 24 |
| İspəncə vergisi | 12 525 | 1 100 | 1000 | - |
| Buğda vergisi | 214 600 | 31 600 | 20 400 | 9 200 |
| Arpa vergisi | 88 170 | 11 860 | 7 650 | 3 450 |
| Darı vergisi | 22 560 | 2 400 | 1 920 | 920 |
| Yulaf vergisi | 12 160 | 1 240 | 960 | 420 |
| Kətan toxumu vergisi | - | 25 200 | 19 200 | 7 600 |
| Pambıq vergisi | 56 300 | 7 800 | 6 000 | 2 000 |
| Arı pətəyi vergisi | 27 180 | 3 920 | 2 420 | 1 480 |
| Bostan vergisi | 80 | - | - | - |
| Bağ vergisi | 13 420 | 1 600 | 2 150 | - |
| Meyvə vergisi | 4 800 | 2 120 | 1 560 | - |
| Soğan və sarımsaq vergisi | 7 925 | 650 | 440 | 180 |
| Ağıl və qışlaq vergisi | 2 820/1200 | 360/240 | 180/120 | 120/80 |
| Qoyun vergisi | 12 150 | 820 | 1 380 | 240 |
| Saman vergisi | 8 720 | 940 | 1 160 | 240 |
| Təzə ot və yonca vergisi | 9 020 | 1 400 | 780 | 300 |
| Çayır vergisi | 1 660 | 450 | 450 | 30 |
| Biyan vergisi | 7 120 | 1 210 | 380 | 270 |
| Otlaq və qışlaq vergisi | 400 | - | - | - |
| Dəyirman vergisi | 1 530 | 330 | 240 | 180 |
| Gəlinlik vergisi | 7 740 | 900 | 360 | 720 |
| “Dəştibani və tapu” vergisi | 29 445 | 3 900 | 2 000 | 1 150 |
| “Niyabət” vergisi | 57 750 | 8 100 | 4 500 | 2 300 |
| “Beyt-ül mal” vergisi | 6 000 | | | 6 000 |

Osmanlı hakimiyyəti dövründə qəza əhalisinin dini tərkibi müxtəlif olmuşdur. Belə ki, Salmas şəhəri də daxil olmaqla qəzanın Kürdqıran nahiyəsindən başqa digər nahiyələrdə müsəlman əhali ilə yanaşı, qeyri-müsəlman əhalinin yaşadığı müəyyən olunmuşdur. Xüsusilə, Salmas nahiyəsinin 17 kəndində 501 nəfər "ispəncə" vergisi ödəməli olan qeyri-müsəlman (həmçinin "gəbran") yaşamışdır. Ənzəl nahiyəsinin 2 kəndində 44 nəfər qeyri-müsəlman, Qarabağ nahiyəsində isə 40 nəfər "gəbran" "ispəncə" vergisi ödəmişdir. Müfəssəl dəftərdə Salmas qəzasında əşirət və camaatlara mənsub ailələrin yaşaması haqqında məlumat verilməmişdir.

Salmas qəzasının demoqrafik vəziyyətinə gəldikdə bunu söyləmək olar ki, Urmiya bölgəsində olduğu kimi, bu ərazilərdə də boşalmış kəndlərin əhalisinin əksəriyyəti Osmanlı fəthindən sonra yaşayış yerlərini tərk etmişdir. Belə ki, qəzanın 4 nahiyəsini əhatə edən 75 kəndin 12-i əhalisi olmayan kənd kimi qeyd edilmişdir. Bu isə həmin ərazilərin Osmanlı idarəçiliyindən əvvəl də məskun yerlər olduğunu göstərir. Cədvəl 3.3.5-ə nəzər salaq:

*Cədvəl 3.3.5*

**Salmas qəzasının nahiyələrində yaşayış yerlərinin təsnifatı**

| Nahiyələr | Salmas | Ənzəl | Qarabağ | Kürdqıran | Yekun |
|---|---|---|---|---|---|
| Kəndlərin ümumi sayı | 58 | 7 | 3 | 7 | 75 |
| Məskun | 50 | 7 | 3 | 3 | 63 |
| Qeyri-məskun | 8 | - | - | 4 | 12 |
| Məzrə'ə | 1 | - | - | - | 1 |
| Məhəllə | | - | - | 1 | 1 |

Müfəssəl dəftərdə Salmas nahiyəsində 8 kəndin, Kürdqıranda isə 4 kəndin boş olması və torpaqlarının qonşu kəndin əhalisi (və ya köçərilər) tərəfindən otlaq və ya əkin yeri kimi istifadə edilməsi haqqında məlumat verilir. Rəiyyətin məcburi köçüb getməsi və kəndlərin boşalması, heç şübhəsiz ki, buradakı qeyri-

sabit vəziyyət nəticəsində təsərrüfatların və ümumilikdə sosial strukturun dağılması ilə bağlı idi. Belə ki, Səfəvi – Osmanlı müharibələri nəticəsində Azərbaycanın bir çox bölgələri dağıntıya məruz qalmışdı [133, s. 13]. Müharibələr əkin yerlərinin dağılmasına, məhsulun məhv olmasına, heyvanların qırılmasına və nəticədə rəiyyətin iqtisadi, sosial və mənəvi vəziyyətinin pisləşməsinə səbəb olurdu.

Beləliklə, yuxarıda qeyd olunduğu kimi, Osmanlı imperiyası özünün dövlət işlərini tənzimləmək, məmur və hərbi personalı tutduqları inzibati, hərbi və sosial vəzifələrə görə təyin olunmuş maaşla nizamlı şəkildə təmin etmək üçün bir qayda olaraq, ölkə təsərrüfatının bütün sahələrinin, xüsusən də iqtisadiyyatın bel sütununu təşkil edən kənd təsərrüfatı işlərinin düzgün təşkilinə böyük önəm vermişdir. Bununla bağlı olaraq, təyin olunan vergilərin vaxtında və kəsintisiz şəkildə toplanması və xəzinəyə təhvil verilməsi üçün dünyanın heç bir orta əsr dövlətində rast gəlinməyən, dövrünə görə çox mükəmməl hesab olunan mütəhərrik vergi yığımı sistemindən də istifadə etmişdir. Xalxal və Urmiya livaları, eləcə də Salmas bölgəsi fəth edildikdən sonra burada da həmin sistem tətbiq olunmuşdur.

“Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi”nin araşdırılması ilə bağlı dissertasiya işinin III fəslində tədqiqata cəlb olunmuş zəngin statistik məlumatları XVIII əsrin əvvəllərində Azərbaycanın bu bölgələrində bərqərar olmuş kənd təsərrüfatı sisteminin səmərəliliyini, torpaqların məhsuldarlığını və məskun əhalinin sosial-iqtisadi həyat səviyyəsini qiymətləndirmək baxımından böyük əhəmiyyət kəsb edir. Araşdırmalarımız göstərmişdir ki, haqqında bəhs edilən dövrdə demoqrafik vəziyyətdə baş verən ciddi dəyişikliklərə baxmayaraq, bu bölgələrdə səmərəli kənd təsərrüfatı sahələri – taxılçılıq, pambıqçılıq, bağçılıq, bostançılıq, heyvandarlıq, arıçılıq və s. mövcud olmuşdur. Əhali istehsal etdiyi izafi məhsulu daxili və xarici bazarlara rahatlıqla çıxarmış, regionun iqtisadi əlaqələrində aktiv rol oynamışdır. Onu da qeyd edək ki, Azərbaycan Səfəvi dövlətinin həmin dövrdə fəth edilmiş digər bölgələri – Naxçıvan, Borçalı-Qazax, Gən-

cə-Qarabağ zonalarının əlverişli iqlim və verimli torpaq şərtləri ilə müqayisədə burada kənd təsərrüfatının daha az məhsuldar olmasına baxmayaraq, təsərrüfat fəaliyyətindən əldə olunan gəlirlərin həcmi kəndlilərin həyat səviyyəsini müəyyən səviyyədə saxlamağa və dövlət vergilərini nizamlı şəkildə ödəməyə imkan vermişdir.

# NƏTİCƏ

Tədqiqat işinin nəticələri Azərbaycan tarixinə aid Osmanlı arxiv sənədlərinin kompleks şəkildə tədqiq edilməsinin türkologiya və tarix elmimizin qarşısında duran aktual problemlərdən biri olduğunu bir daha təsdiq etmişdir. Bu mənbələr arasında maliyyə-vergi reyestrləri və ya "müfəssəl" və "icmal" dəftərləri adlanan, ayrı-ayrı bölgələrimizin sosial-iqtisadi və demoqrafik vəziyyətinə aid mühüm məlumatları ehtiva edən sənədlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın müxtəlif bölgələrinə dair Osmanlı təhrir dəftərlərinin tədqiqi, tərcüməsi və nəşri ənənəsinin əsası milli tarixşünaslığımızda XX əsrin 80-ci illərində akademik Z.M.Bünyadov tərəfindən qoyulmuşdur. Bu dövrdə H.M.Məmmədov (Qaramanlı), Ş.M.Mustafayev, E.Arıklı tərəfindən "İrəvan", "Naxçıvan", "Gəncə-Qarabağ", "Tiflis (Borçalı-Qazax)", "Lori", "Ərdəbil" dəftərləri tədqiq və nəşr edilmişdir.

Azərbaycan türkologiyası və tarixşünaslığında bu mühüm elmi istiqamətin davamı kimi, eləcə də tədqiqatımızın məqsəd və vəzifələrinə uyğun olaraq, Azərbaycanın tarixi torpaqlarının bir hissəsi olan Urmiya, Xalxal və Salmas bölgələrinə aid 1728-ci il Osmanlı müfəssəl dəftəri bu ərazilərin sosial və iqtisadi vəziyyətinə dair mühüm mənbə kimi tədqiqata cəlb edilmişdir. Monoqrafiyada tariximiz üçün əhəmiyyət kəsb edən bir sıra mühüm məsələlərə aydınlıq gətirilmişdir. Müəyyən edilmişdir ki, 1725-ci ildə Osmanlı imperiyası tərəfindən fəth edildikdən sonra Urmiya, Xalxal və Salmasda Səfəvi dövründəki inzibati bölgü prinsiplərinin əsasları dəyişdirilməmiş, sadəcə mövcud inzibati vahidlər Osmanlı idarəçilik prinsiplərinə qismən uyğunlaşdırılmışdır. Müvafiq olaraq, yeni Osmanlı terminologiyası istifadə olunaraq, inzibati bölgüdə nahiyə - qəza - sancaq (liva) - əyalət prinsipi əsasən saxlanmışdır.

Urmiya,Xalxal və Salmas bölgələrinin XVIII əsrin əvvəllərindəki Osmanlı fəthindən öncəki inzibati quruluşu ilə bağlı mövcud mənbələrdə dəqiq məlumatlara rast gəlinmir. Belə ki, XVI əsr Osmanlı sənədlərində Urmiya sancaq (liva), Salmas ərazisi nahiyə, bəzi mənbələrdə isə sancaq kimi göstərilmişdir. Artıq XVIII əsrin əvvəllərinə aid Osmanlı mənbələrində Urmiyanın əyalət, Xalxalın isə sancaq statusunda olduğu qeyd edilirdi. XVI əsr Osmanlı mənbələrində Urmiya, Xalxal və Salmasa aid təhrir sənədinin olmaması səbəbindən sonrakı dövrdə bu ərazilərdə hər hansı inzibati, demoqrafik və etnik-dini dəyişikliklərin olub-olmaması haqqında dəqiq fikir söyləmək çətindir.

Bununla belə, tədqiqat nəticəsində XVIII əsrin əvvəllərində Osmanlı hakimiyyəti dövründə qeyd edilən bölgələrin inzibati quruluşu müəyyənləşdirilmişdir. Belə ki, Urmiya livasının (sancağının) tərkibinə Bənapərvazə, Bəldə, Səhrabad, Dol, Mərkəvər, Tərkəvər və Üşni nahiyələri, həmçinin Urmiya şəhərinin daxil olduğu müəyyən edilmişdir. Bu dövrdə Xalxal livası Əzdəkin, Səncəbəd, Xanəndbil, Xuruş – Rüstəm və Şahrud nahiyələrindən təşkil olunmuşdur. Və nəhayət, Osmanlı hakimiyyəti dövründə Salmas qəzası inzibati quruluş baxımından Salmas şəhəri, Salmas, Ənzəl, Qarabağ və Kürdqıran nahiyələrindən ibarət idi.

Araşdırma prosesində Urmiya və Salmas bölgələrində şəhər həyatının, sənətkarlıq və ticarətin inkişaf səviyyəsinin öyrənilməsi baxımından maraqlı nəticələr əldə edilmişdir. Belə ki, Osmanlı dövründə Urmiya livasının mərkəz şəhəri kimi qeyd olunan Urmiya şəhərinin sosial-iqtisadi həyatı, demoqrafiyası ilə bağlı bir çox məlumatlar əldə olunmuşdur. Məsələn, təqribi sayı 6 min nəfər olan şəhər əhalisinin əksər hissəsini müsəlmanların təşkil etdiyi müəyyənləşdirilmişdir. Müsəlmanlarla, o cümlədən "əşirət" və "camaat" kateqoriyasına aid edilən insanlarla yanaşı xristianların da kompakt yaşadığı Çarşı məhəlləsində şəhər əhalisinin təxminən ⅓ hissəsi məskunlaşmışdır. Dəftərin məlumatları əsasında şəhərdə həmçinin müəyyən sayda yəhudilərin yaşadığı da təsbit edilmişdir.

Urmiya şəhərinin tərkibinə 6 məhəllə ilə yanaşı, 9 inzibati vahid aid olmuşdur. Maraqlıdır ki, şəhər ətrafında yerləşən bu ərazilərin adları "təpə, təpəcik" mənasını verən "dizəc" sözü ilə işlənmiş və burada yaşayan əhali əsasən, əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Tədqiqat zamanı Urmiya şəhərində bəzi ticarət və sənətkarlıq sahələrinin fəaliyyəti haqqında maraqlı məlumatlar əldə edilmişdir. Müəyyən olunmuşdur ki, şəhərdə əsasən, heyvan ticarəti və digər bazar fəaliyyətləri daha geniş yayılmışdır. Mənbədə Urmiya şəhərində sənətkarlıq növləri arasında şam istehsalı ilə məşğul olan bir neçə emalatxananın mövcud olması barədə məlumat verilir.

Bununla yanaşı, Osmanlı hakimiyyəti dövründə Urmiya şəhərinin mühüm gömrük məntəqəsi kimi fəaliyyət göstərdiyi müəyyən edilmişdir. Məlum olmuşdur ki, şəhərin gömrükdən əldə etdiyi gəlir, onun kənd təsərrüfatı, ticarət və sənətkarlıq sahələri üzrə müəyyən edilən gəlirlərindən dəfələrlə artıqdır və şəhərin ümumi gəlirinin 68%-ni təşkil etmişdir. Müfəssəl dəftərin məlumatlarının araşdırılması zamanı əldə etdiyimiz nəticələr, həmçinin, şəhər əhalisinin liva üzrə qeydə alınmış əhalinin, demək olar ki, yarısını təşkil etməsi faktı XVIII əsrin əvvəllərində Urmiya şəhərinin bölgənin mühüm tranzit ticarət mərkəzi və orta böyüklükdə şəhərlərindən biri olduğunu söyləməyə imkan verir.

XVIII əsrin əvvəllərində Salmas qəzasının mərkəzi Salmas şəhəri olmuş və Urmiya şəhərinə nisbətən daha kiçik ərazini əhatə etmişdir. Qəza əhalisinin 10%-nin yerləşdiyi şəhərdə əhali əkinçilik, heyvandarlıq, arıçılıq və digər təsərrüfat sahələri ilə məşğul olmuşdur. Araşdırılan müfəssəl dəftərdə Salmas şəhərində sənətkarlıq və ticarət fəaliyyəti ilə bağlı məlumatlar verilmədiyinə görə, bu barədə birmənalı fikir söyləmək çətindir.

Tədqiqata cəlb edilən müfəssəl dəftərdə Urmiya, Xalxal livası və Salmas qəzasının kəndli əhalisinin, əsasən, əkinçilik, heyvandarlıq, arıçılıq və digər təsərrüfat növləri ilə məşğul olduqları haqda geniş məlumatlar mövcuddur. Müəyyən edilmişdir ki, bu bölgələrdə əhalinin əsas gəlir mənbəyi əkinçilik olmuş və bu sahədə dənli bitkilərin əkilib-becərilməsi üstünlük təşkil

etmişdir. Urmiya, Xalxal livalarında və Salmas qəzasında kənd təsərrüfatı ilə məşğul olan əhali icarəyə götürdüyü torpaqlarda müxtəlif növ dənli, paxlalı və texniki bitkilər əkib-becərmiş, qoyunçuluqla, arıçılıqla məşğul olmuş və bu sahələrdən əldə etdiyi gəlirə müvafiq olaraq dövlət xəzinəsinə müəyyən edilmiş şəkildə vergi ödəmişdir. Belə ki, adı vergi reyestrində qeyd edilmiş kəndli dövlət xəzinəsinə istehsal və qeyri-istehsal sahələrini əhatə edən bir sıra vergilər ödəməli idi. Dənli bitkilərin əkilib-becərilməsi müqabilində ödənilən "xüms-i ğallat" vergisi dövlət xəzinəsinə ödənilən digər vergilərə nisbətən daha çox gəlir təmin etmişdir.

Beləliklə, Osmanlı imperiyasının yürütdüyü maliyyə-vergi siyasətinə uyğun olaraq, Urmiya, Xalxal və Salmas bölgələrini imperiyanın digər ərazilərinə uyğunlaşdırmaq, dövlət işlərini, orduda təchizat və maaş məsələlərinin nizamlı şəkildə təmin edilməsini həyata keçirmək məqsədilə burada ənənəvi Osmanlı timar sistemindən istifadə edilmişdir.

Eyni zamanda, qeyd olunan bölgələr üzrə ayrı-ayrı təsərrüfat sahələrindən əldə edilən gəlirin miqdarı və müxtəlif inzibati vahidlər üzrə paylanması müəyyən edilmişdir. Müfəssəl dəftərin məlumatlarına əsasən, təhrirə cəlb edilən ərazilərdə əkilib-becərilən torpaqlar, məskun əhalinin sosial tərkibi, demoqrafik vəziyyət, nahiyələr üzrə illik gəlir, ayrı-ayrı təsərrüfat sahələri (əkinçilik, heyvandarlıq, arıçılıq, bağ-bostan məhsulları və s.) üzrə məhsuldarlıq göstəricilərini əks etdirən cədvəllər tərtib olunmuşdur.

Araşdırma nəticəsində Osmanlı dövründə bu bölgələrdə nəzərə çarpacaq dərəcədə demoqrafik dəyişikliklərin baş verdiyini söyləmək olar. Eynilə burada yaşayan əhalinin sosial tərkibində mühüm dəyişmələr olmuşdur. Belə ki, bölgədə yaranmış qeyri-sabit siyasi, hərbi və sosial-iqtisadi vəziyyət əhalinin müəyyən hissəsinin daimi yaşayış yerlərini tərk edərək, daha təhlükəsiz ərazilərə getməsinə və bölgədə əhalinin etnik-dini tərkibində müəyyən dəyişikliklərin yaranmasına səbəb olmuşdur.

Tədqiq edilən mənbənin məlumatına görə Osmanlı hakimiyyəti dövründə Xalxal livasının nahiyə və kəndlərində 15 600 nəfər əhali yaşamışdır. Bu əhalinin yalnız müsəlmanlardan ibarət olduğu, əsasən, oturaq həyat tərzi keçirdiyi və etnik-dini tərkibinin nisbətən sabit olduğunu söyləmək mümkündür. Urmiya və Salmas bölgələrinə gəldikdə isə burada vəziyyət nisbətən fərqli olmuşdur. Belə ki, XVIII əsrin əvvəllərində 12 min əhali yaşamış Urmiya livasında müsəlmanlarla yanaşı qeyri-müsəlman əhali də sakin idi. Mənbənin statistik məlumatlarının təhlili prosesində Urmiyada türk-müsəlman (azərbaycanlı), xristian və yəhudi əhalisinin yaşadığı müəyyən edilmişdir. Araşdırma nəticəsində Osmanlı hakimiyyəti dövründə Urmiya livasının nahiyələrində və Urmiya şəhərində əfşar türkman (azərbaycanlı) tayfasına aid olan "əşirət" və "camaat"ların məskun olduğu və bölgədə türk (türkman) təsirinin güclü olduğu təsbit edilmişdir. Salmas qəzasında da 5 min nəfərlik əhalinin dini tərkibi müxtəlif olmuş, burada adları siyahıya alınmış qeyri-müsəlmanların - "gəbran" olaraq qeyd edilən şəxslərin xristian olduqları müəyyən edilmişdir.

Beləliklə, Osmanlı hakimiyyəti dövründə Urmiya, Xalxal və Salmas bölgələrinin demoqrafik vəziyyəti müəyyənləşdirilmiş və uzun müddət davam edən hərbi əməliyyatların bölgədə bir sıra məcburi köçlərin və yerdəyişmələrin baş verməsinə şərait yaratdığı qeyd edilmişdir. Torpağını əkib-becərmək iqtidarında olmayan, vergiləri ödəyə bilməyən, eləcə də dini-məzhəb fərqləri səbəbi ilə bir sıra kəndlərin əhalisi daimi yaşadıqları yerləri tərk edərək, şəhərlərə və ya daha münasib bildikləri yerlərə getməyə məcbur olurdular. Bununla yanaşı, göstərilən demoqrafik dəyişikliklərin fonunda ərazidə yaşayan türk-müsəlman əhalisinin çoxluq təşkil etməsi diqqəti çəkən başlıca faktlardandır.

XVIII əsrin əvvəllərində hərbi-siyasi vəziyyətlə əlaqədar olaraq Urmiya, Xalxal livalarının və Salmas qəzasının kəndləri məskunluq dərəcəsinə görə fərqli olmuşdur. Belə ki, Xalxal livasında yaşayış yerlərinin, demək olar ki, yarısı əhali tərəfindən tərk edilmiş kəndlərdən ibarət idi. Müəyyən edilmişdir ki, boş

qalmış kəndlərin çox hissəsinin əhalisi öz doğma yerlərini Osmanlı fəthindən sonra tərk etmişlər. Urmiya livasında isə boşalmış kəndlərin sayı daha az olmuşdur. Fikrimizcə, Osmanlı – Səfəvi müharibələri zamanı əhalinin yaşayış məskənlərindən köçüb getmə səbəbini həm də dini amillərlə izah emək mümkündür. Belə ki, XVII yüzilliyin ortalarında Osmanlı səyyahı Övliya Çələbi Urmiyanın Osmanlı qüvvələri tərəfindən dağıdılmadığını və buna səbəb kimi "orada yaşayan əhalinin sünni olduğunu" qeyd etməsi, digər mənbələrlə təsdiqlənməsə də diqqəti cəlb edən maraqlı faktdır [53, s. 178]. Osmanlı dövründə Salmas nahiyəsində isə kəndlərin əksəriyyəti məskun olmuşdur. Qeyriməskun kəndlər, əsasən, qəzanın ərazicə nisbətən kiçik nahiyələrində yerləşmişdir.

Osmanlı hakimiyyəti dövründə Urmiya, Xalxal və Salmas bölgələrində yaşayan əhalinin etnik tərkibini araşdırdığımız mənbədə mövcud olan bir sıra digər göstəricilərə görə xüsusilə toponimik və onomastik məlumata əsasən qismən müəyyən etmək mümkün olur. Dəftərin statistik məlumatları araşdırılarkən siyahıya alınmış vergi ödəyicilərinin şəxs adlarının təhlili prosesində bu bölgələrdə, xüsusilə, Xalxal livasında yaşayan əhalinin, əsasən, türk (azərbaycanlı) mənşəli olduğu müəyyən edilmişdir. Bununla yanaşı, qeyd olunduğu kimi, Urmiya şəhərində xristianların və yəhudilərin, Salmas şəhərində isə xristianların da yaşadığı məlumdur. Əhalisinin təxminən ⅓ hissəsinin qeyri-müsəlman (xristian) olması bölgədə baş verən hərbi münaqişələrin Salmas qəzası əhalisinin etnik-dini tərkibinə güclü təsir göstərdiyini əks etdirir. Lakin xristian əhalisinin xeyli hissəsinin türk mənşəli şəxs adları daşıması qeyd edilən bölgələrdə türk mədəni təsirinin güclü olduğunu söyləməyə əsas verir.

Müfəssəl dəftərdə qeyd edilən inzibati vahidlərin və yaşayış yerlərinin adlarının təhlili nəticəsində Xalxal və Urmiya livalarında türk mənşəli toponimlərin üstünlük təşkil etdiyi müəyyən olunmuşdur. Bu fakt XX yüzillikdə İran ərazisində dəyişdirilimiş və farslaşdırılmış bir çox tarixi türk toponimlərinin bərpasına imkan yaradır.

Tədqiqat nəticəsində qeyd edilən bölgələrdə bir sıra dini qurumların fəaliyyəti, xüsusilə mövcud olan vəqf institutu barədə önəmli məlumatlar əldə edilmişdir. Osmanlı hakimiyyəti dövründə Urmiya və Xalxal livalarında fəaliyyət göstərmiş vəqf təsisatları haqqında məlumatlar sistemləşdirilmiş və təhlil edilmişdir. Müəyyən edilmişdir ki, bu dövrdə Urmiya və Xalxal ərazilərində XV-XVI əsrlərdə qurulmuş dini təsisatlar qorunmuş, onlara xüsusi əhəmiyyət verilmiş və bu dini qurumların fəaliyyəti üçün müvafiq şərait yaradılmışdır. Məlum olmuşdur ki, Urmiya livasında bəzi dini müəssisələrin – məscidlərin, zaviyələrin və s. – iqtisadi-hüquqi bazasını onların vəqf mülkiyyəti təşkil etmişdir. Məsələn, Urmiya şəhərində yerləşən "Cameyi-Kəbir" ("Ulu came") vəqfinə aid olduğu göstərilən kəndlərin livanın ayrı-ayrı nahiyələrində yerləşdiyi təsbit edilmişdir. Mənbələrdə Xalxal livasında zaviyələrin olması haqqında da məlumat verilmişdir. Tədqiqat nəticədə məlum olmuşdur ki, Urmiya ərazisində "Cameyi-Kəbir" vəqfindən başqa "Şeyx Şibli məscidi" vəqfi, Xalxalda "Şeyx Nurəddin və Şeyx Bədrəddin zaviyəsi" vəqfi, "Şeyx Bayəzid zaviyəsi" vəqfi, "Həzrət-i Əbu Bəkr əs-Siddiq Əhfadı" vəqfi fəaliyyət göstərmişdir. Bu məlumatların bölgədə önəmli dini qurum statusuna malik vəqf qurumunun güclü təsirə malik olduğunu, sosial və dini xeyriyyəçilik ənənələrinin mövcud olduğunu söyləməyə əsas verir.

Beləliklə, tədqiqata cəlb edilən çoxsaylı narrativ və sənədli mənbələr, xüsusilə "Xalxal və Urmiya livalarının müfəssəl dəftəri", Azərbaycanın tarixi torpaqları olan bu bölgələrdə XVIII əsrin 20-ci illərində mövcud olan sosial, iqtisadi, demoqrafik vəziyyət və bu ərazilərin Osmanlı imperiyasının tərkibinə keçməsindən sonra burada baş verən dəyişikliklərin dinamikası haqqında əsaslı tarixi biliklər əldə etməyə imkan vermişdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## *Arxiv qaynaqları*


1. "Dəftər-i icmal əyalət-i Gəncə-Qarabağ"- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 699, 289 s.
2. "Dəftər-i icmal əyalət-i Rəvan"- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 681, 341 s.
3. "Dəftər-i müfəssəl-i əyalət-i Gəncə- Qarabağ"- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 903, 632 s.
4. "Dəftər-i müfəssəl-i əyalət-i Həmədan "- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, [1] 906.
5. "Dəftər-i müfəssəl-i əyalət-i Həmədan"- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 907.
6. "Dəftər-i müfəssəl-i əyalət-i Rəvan"- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 901, 583 s.
7. "Dəftər-i müfəssəl-i əyalət-i Rəvan"- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 633, 393 s.
8. "Dəftər-i müfəssəl-i əyalət-i Tiflis"- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 897, 533 s., № 900, 1000 s.
9. "Dəftər-i müfəssəl-i liva-i Ərdəbil" - İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 902, 404 s.
10. "Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi"- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 910, 409 s.
11. "Dəftər-i müfəssəl-i liva-i Xoy"- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-tahrir dəftərləri, № 911, 427 s.
12. "Dəftər-i müfəssəl-i liva-i Marağa" - İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 909, 527 s.

13. “Dəftər-i müfəssəl-i sancak-i Naxçıvan”- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 905,302 s.
14. “Dəftər-i sicili-liva-yi-Rəvan”.Sofiya,HBKM, OAK 155/29.
15. “Ərdəbil Şeyx Səfiəddin-i Ərdəbili Vəqfi dəftəri”- İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftərləri, № 896.
16. İstanbul Başbakanlık Osmanlı Arşivi, İE.ML № 126 11929.
17. İstanbul Başbakanlık Osmanlı Arşivi, İE.ML № 60 5672.
18. İstanbul Başbakanlık Osmanlı Arşivi, Mühimmə dəftəri, № 62, hökm 27, 28.
19. İstanbul Başbakanlık Osmanlı Arşivi, Mühimmə dəftəri, № 70, hökm 382.
20. İstanbul Başbakanlık Osmanlı Arşivi,Mühimmə dəftəri, № 133, hökm1, s.76.
21. İstanbul Başbakanlık Osmanlı Arşivi, Mühimmə dəftəri, № 134, hökm 1.

### *Azərbaycan dilində*

22. Albayraq R. Türklərin İranı. 2. Tərcümə edən: R.Əsgər. Bakı: Mütərcim, 2016, 628 s.
23. Azərbaycan tarixi: 7 cilddə. II c., Bakı: Elm, 2007, 608 s.
24. Azərbaycan tarixi: 7 cilddə. III c., Bakı: Elm, 2007, 592 s.
25. Bakıxanov A.A. Gülüstani-İrəm (tərcümə edəni M.Əsgərli). Bakı: Minarə, 2000, 224 s.
26. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. (Azərbaycan dilinə çevirənlər akademik Z.M.Bünyadov və tarix elmləri namizədi E.R.Ağayeva). Bakı: Elm, 1999, 160 s.
27. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında Türk qızılbaş əyanlarının rolu. Bakı: Avropa, 2015, 348 s.
28. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Monoqrafiya. Bakı: ADPU, 2006, 258 s.

29. Dadaşova R.İ. Səfəvilərin son dövrü (İngilisdilli tarixşünaslıqda). Bakı: Nurlan, 2003, 393 s.
30. Dəlili H.Ə. Azərbaycan cənub xanlıqları. Bakı: Elm, 1979, 144 s.
31. Dəlili H.Ə. XVIII-XIX əsrin əvvəllərində Azərbaycanda ticarət məhsulları üzərinə qoyulan müntəzəm vergilər haqqında // Azərbaycan SSR EA-nın Məruzələri, 1975, XXXI c., № 5, s. 58-61
32. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
33. Əliyev F.M. XVIII əsrin I yarısında Azərbaycanda ticarət. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1964, 123 s.
34. Əlizadə O.T. XVIII əsrin birinci yarısında Osmanlı-Səfəvi münasibətləri. Bakı: Elm, 2009, 208 s.
35. Ərdəbil livasının müfəssəl dəftəri. Araşdırmanın, transliterasiyanın müəllifi E.Arıklı. Bakı: Nurlan, 2004, 857 s.
36. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı: Azərnəşr, 1995, 200 s.
37. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Şuşa, 2000, 576 s.
38. Hacıyeva G.Ə. Cənubi Azərbaycan toponimləri. Bakı: Elm, 2008, 200 s.
39. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 184 s.
40. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarix-e aləm-arayi-Abbasi). (Fars dilindən çev. Ş.Fərzəliyev). Bakı: Şərq-Qərb, 2010, 1141 s.
41. Kruşinski Y.T. Xristian səyyahın tarixi (farscadan tərcümə edəni və hazırlayanı Şahin Fazil). Bakı: Azərnəşr, 1993, 105 s.
42. Qarayev E.T. "Xəzər dənizinin və orada keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri" adlı səyahətnaməsi Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: ADPU nəşriyyatı, 2006. 141 s.

43. Qarayev E.T. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində. Bakı: ADPU nəşriyyatı, 2005, 160 s.
44. Qasımov C.Ə. XVI-XVII əsr Osmanlı islahat layihələri // AMEA Şərqşünaslıq İnstitutunun Elmi Araşdırmaları, 2006, № 22, s. 230-233
45. Quliyev İ.N. "Xəmsə"də işlənən bəzi zərdüştilik istilahlarının poetik funksiyası // Dil və ədəbiyyat (beynəlxalq elmi-nəzəri jurnal), 2014, № 2 (90), s. 213-220. http://www: vhp.az/index.
46. Lori icmal dəftəri. Ön söz, mətnin tərtibi, tərcümə və qeydlərin müəllifi, tarix elmləri namizədi Şahin Mustafayev. Bakı: Nurlan, 2004, 87 s.
47. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər). Bakı: Elm, 1977, 238 s.
48. Mustafayev Ş.M. Mardində Ağqoyunlu Qasım b.Cahangir vəqfi // Orta əsrlər Şərq tarixi: Qaynaqlar və araşdırmalar. Akad. Z.M.Bünyadovun 80 illiyinə həsr olunmuş məqalələr toplusu. Bakı: Nurlan, 2003, s.98-113
49. Mustafazadə T.T. XVIII yüzillik - XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.
50. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı).Tərcümə edənlər Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.
51. Nəsirova Y.B. XVIII əsrə aid anonim bir əlyazma haqqında qeydlər // AMEA Şərqşünaslıq İnstitutunun Elmi Araşdırmaları, 2006, № 1-4, s. 404-407
52. Onullahi S.M. Təbriz şəhəri XIII-XVII əsrlərdə. Bakı: Elm, 1982, 280 s.
53. Rıhtım M. Evliya Çələbi Səyahətnaməsində Azərbaycan. Bakı: Nurlar, 2012, 296 s.
54. Süleymanova S.S. XVIII əsrdə Osmanlı – Səfəvi qarşıdurması şəraitində Azərbaycan tarixinə dair məsələlərin ərəbdilli yerli mənbələrdə işıqlandırılması // Orta əsrlər Şərqi. Bakı: 2000, s. 139-157

55. Tağıyeva Ş.Ə. XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda torpaq mülkiyyət formaları və torpaqdan istifadə qaydaları. Bakı: Azərb. SSR EA-nın nəşriyyatı, 1964, 248 s.
56. Tiflis əyalətinin müfəssəl dəftəri (Qazax və Borçalı). Giriş, tərcümə və qeydlərin müəllifi Şahin Mustafayev. Bakı: Pedaqogika, 2001, 256 s.

### *Türk dilində*

57. Afyoncu E. Osmanlı devletinde tahrir sistemi. "Osmanlı Ansiklopedisi", 12 ciltte, XV c. A.: TTK yayınları, 1999, s.111-114
58. Akalın Ş. Han (kervansaray). "İslam Ansiklopedisi", 44 ciltte, XXV c. A.: Türkiye Diyanet Vakfı, 2002, s. 299-302
59. Akis M. XVI.Yüzyıl Kilis ve Antep Sancaklarında Ermeniler ile türkler arasında sosyal ve kültürel ilişkiler / Hoşgörü Toplumunda Ermeniler Sempozyumu. Erciyes Üniversitesi yayınları, 2007, s.229-233
60. Ayntab livası mufassal tahrir defteri (950/1543). (Dizin, transkrip ve tıpkıbasım:Ahmet Özkılınç ve diğerleri). A.: T.C.Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü,2000, 91 s.
61. Barkan Ö.L. Tarihi demoqrafi araştırmaları ve Osmanlı tarihi. "Türkiyat mecmuası" . cilt X. İ.:1953, s.1-26
62. Bayartan M. Osmanlı Şehirlerinde Vakıflar ve Vakıf Sisteminin Şehre Kattığı Değerler // Osmanlı Bilimi Araştırmaları. X-1. s.157-175 // www. Journals.istanbul.edu.tr
63. Berki A.H. Vakıflar. İ.: Rıza Koşkun, 1940, 56 s.
64. Bilgili A.S. İran, Azerbaycan, Ermenistan ve Gürcistan'da Osmanlı Vakıfları. A.: Vakıflar Genel Müdürlüğü Yayınları, 2011, 422 s.
65. Bilgili A.S. Osmanlı, İran ve Azerbaycan – I. (16. Ve 18. Yüzyıllar Sosyal ve Ekonomik Tarih). E.: Zafer, 2004, 300 s.

66. Bolat K. Naima’ya göre Devlet Adamları Arasında Muhalefet // Tarih Okulu, 2012, № 13, s.89-114
67. Cin H., Akyılmaz S.G. Tarihte toplum ve yönetim tarzı olarak feodalite ve Osmanlı düzeni. K.: Selcuk Üniversitesi Basımevi, 1995, 429 s.
68. Defter-i mufassal-ı liva-i Sivas. (Projeyön.:DavutGüney).A.:T.C. Çevre ve Şehircilik Bakanlığı, 2014, 312 s.
69. Demirel Ö. Kuruluşundan Günümüze Çeşitli Yönleriyle Bir Osmanlı Mahallesi: Sivas Küçük Minare Mahallesi // Türk Yurdu Dergisi, 1999- 2000, № 148-149, s.140-150
70. Devellioğlu F. Osmanlıca – Türkçe Ansiklopedik Lüğat. A.: Doğuş, 1962, 1440 s.
71. Doğan C. 16. Ve 17.Yüzyıl Osmanlı Siyasetname ve Ahlaknamelerinde ibn Haldunizm: Kınalızade Ali Efendi, Katib Çelebi ve Naima Örnekleri // Uluslararası Sosyal Araştırmalar Dergisi, 2013, № 27, s.197-214
72. Emecen F. Çiftlik resmi. “İslam Ansiklopedisi”, 44 ciltte, VIII c., İ.: Türkiye Diyanet Vakfı, 1993, s.310
73. Fatih Mehmed devri Aydın ili mufassal defteri (haz. M. Akif Erdoğru, Ömer Bıyık). İz.: Ege Üniversitesi Yayınları, No: 11, 2015, 470 s.
74. Gürer D. Ebû Bekir Şiblî̂. “İslam Ansiklopedisi”, 44 ciltte, XXXIX c., İ.: Türkiye Diyanet Vakfı, 2010, s.125-126
75. Halaçoğlu Y. XIV-XVII yüzyıllarda Osmanlılarda devlet teşkilatı ve sosyal yapı. A.: TTK Basımevi, 1998, 258 s.
76. Haleb livası mufassal tahrir defteri(Dizin ve transkripsiyon:Ahmet Özkılınç ve diğerleri). A.: T.C.Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, 2010, VII+520+417 s.
77. Hammer İ.P. Osmanlı tarihi. IIc. (Çeviren Mehmet Ata bugünkü Dile Özetleyerek Yeniden yazan Prof.Dr. Abdülkadir Karahan). İ.: 1991, 534 s.
78. I Mahmud-Nadir Şah Mektuplaşmaları. 3 Numaralı Name-yi Hümayun Defteri. İ.: T.C.Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, 2014, 368 s.

79. İnalcık H. Devlet-i ʹAliyye. Osmanlı İmparatorluğu Üzerine Araştırmalar – 1. İ.: Türkiye İş Bankası Kültür Yayınları, 2009, 377 s.
80. İnbaşı M. Nüfus ve Ekonomik Yönden XVI. ve XVII. Yüzyıl Kayserisinde Ermeniler / Erciyes Üniversitesi I.Uluslararası Sosyal Araştırmalar Sempozyumu. cilt 3. Erciyez Üniversitesi yayınları, 2007, s.130-132
81. İpşirli M. Naima. "İslam Ansiklopedisi", 44 ciltte, XXXII c., İ.: Türkiye Diyanet Vakfı, 2006, s.316-318
82. Kaşgari Mahmut. Divan-i lügat-it Türk. Tercümesi.Çeviren: Besim Atalay. A.: TDK yayınları, 1985, 530 s.
83. Katib Çelebi. Cihannüma. İ.: Matbaa-i Amire,1145, 725 s.
84. Kerkük livasi mufassal tahrir defteri (Kanuni devri). Dizin, transkripsiyon ve tıpkıbasım(Yayına Hazırlayanlar: Ahmet Özkılınç, Ali Coşkun ve diğerleri).A.: T.C.Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, 2003, 133s.
85. Keskin M. Osmanlı Hayatına ait Tesbitler. Kayseri ve Yöresi // Türk Yurdu Dergisi, 1999-2000, № 51-52, s.148-149
86. Mehmedov H.M. Azerbaycan'da Türkiye ve Osmanlı Tarihi Araştırmaları // Türkiye Araştırmaları Literatür Dergisi, 2010, № 15, cilt 8, s.209-230
87. Mehmedov H.M. Osmanlı dönemi Gence-Karabağ eyaletinde vakıflar (XVI yüzyılın sonları) // Dergiler. Ankara.edu.tr. s.635-644
88. Moğolların gizli tarihi: (yazılışı 1240). I tercüme (çev. Ahmet Temir). A.: TTK yayınları, 2010, 297 s.
89. Naima Mustafa. Tarih-i Naima. htpss: // archive. Org/detaills/tzkhtrkhto/naim oft. Naima.
90. Özgüdenli O.G. Osmanlı İranı: Batı İran ve Azerbaycan tarihi hakkında Osmanlı tahrir kayıtları: Coğrafi ve idari taksimat. http: // www. dergiler. Ankara.
91. Özgüdenli O.G. Tümen. "İslam Ansiklopedisi", 44 ciltte, XXXXI c., İ: Türkiye Diyanet Vakfı, 2012, s.461-462
92. Pakalin M.Z. Tarih Deyimleri ve Terimleri Sözlüğü, 3 ciltte, I c., İ.: Milli Eğitim Basımevi, 1983, 873 s.

93. Pakalin M.Z. Tarih Deyimleri ve Terimleri Sözlüğü, 3 ciltte, II c., İ.: Milli Eğitim Basımevi, 1983, 876 s.
94. Solak İ. XVI Yüzyılda Maraş ve Çevresinde Dülkadirli Türkmenleri // Türk Araştırmaları Dergisi, 2002, № 12, s.109-154
95. Sümer F. Oğuzlar (Türkmenler). A.: Ankara Universitesi yayınları,1935, 532 s.
96. Şemdanizade Fındıklı Süleyman Efendi Tarihi. Mür'it-Tevarih.I (Prof.Dr. M.Münir Aktepe). İ.: Edebiyat Fakültesi Matbaası, 1976, 205 s.
97. Tarih-i Küçükçelebizade Asım. İ.: Matbaa-i Amire, 1282, 654 s.
98. Uludağ S. Makam. "İslam Ansiklopedisi", 44 ciltte, XXVII c., İ.: Türkiye Diyanet Vakfı, 2007, s.410.
99. Uzunçarşılı İ.H. Osmanlı tarihi. Karlofça anlaşmasından XVIII yüzyılın sonlarına kadar. c. 4. A.: TTK Basımevi, 1988, XXIII+687 s.
100. Veliyeva Z.K. Safevi devlet teşkilatı "Tezkirat el-müluk"e göre. (Yayınlanmamış doktora tezi). A: 2007, 431 s.
101. Yediyıldız B. Vakıf. "İslam Ansiklopedisi", 44 ciltte, XXXXII c., İ.: Türkiye Diyanet Vakfı, 2012, s.479-486

## *Rus dilində*

102. Абдуллаев Г.Б. Азербайджан в XVIII в. и взаимоотношениях с Россией. Б.: Изд-во АН Азерб. ССР, 1965, 622 с.
103. Абдуррахманов А.А. Азербайджан во взаимоотношениях Турции, Росии и Ирана в первой половине XVIII в. Б.: Изд-во АН Азерб.ССР, 1964, 99 с.
104. Аграрный строй Османской империи XV – первая половина XVII вв. (документы и материалы. Составле-

ние, перевод и комментарии А.С.Тверитиновой). М.: Изд-во восточной литературы, 1963, 222 с.
105. Алиев Г.З. Турция в период правления Младотурок. М.: Наука, 1972, 388 с.
106. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в первой половине XVIII века. Б.: Элм, 1975, 230 с.
107. Ализаде А.А. Социально-экономическая история Азербайджана ХШ - XIV вв.Б.: Изд-во Академии Наук Азерб. ССР, 1956, 420 с.
108. Армянская анонимная хроника 1722-1736 гг. (переводс турецкого и примечания Буниятова З.М.). Б.: Элм, 1988, 64 с.
109. Арунова М.Р., Ашрафян К.З. Государство Надир-шаха Афшара. М.: Изд-во восточной литературы, 1958, 284 с.
110. Ашурбейли С.Б. История города Баку. Б.: Азернешр, 1992,402 с.
111. Баладзори. Книга завоевания стран (Текст и перевод П.Г.Жузе). Б.: Изд-во общества обследования и изучения Азербайджана,1927, 30 с.
112. Бартольд В.В. Сочинения в 9 томах. Т.7. Работы по исторической географии и истории Ирана. М.: Наука, 1971, 663 с.
113. Буниятов З.М. Государство хорезмшахов-ануштегенидов (1097-1231). Избранные сочинения в 3-х томах. Т.3.Б.: Элм,1999, 376 с.
114. Буниятов З.М. Сведения Османского летописца Ибрагима Печеви по истории Молдавии. Известия АН МССР, серия общ.наук. № 1, 1986, стр. 29-34
115. Буниятов Т.А. Из истории скотоводство в Азербайджане.Б.: Элм, 1969, 39 с.
116. Гайдаров М.Х. Города и ремесленное производство Азербайджана XIII- XVII веков. Ремесло и ремесленные центры. Б.: Элм, 1982, 281 с.

117. Гасанова Х. “Победная Реляция” о взятии Ревана оруженосца Кемани Мустафи Аги / Orta əsrlər Şərq tarixi: qaynaqlar və araşdırmalar. Б.: Нурлан, 2003, стр.140-173
118. Гасанова Э.Ю. Идеология буржуазного национализма в Турции в период младотурок (1908-1914). Б.: Изд-во АН Азерб. ССР, 1966, 162 с.
119. Гебры. Большая Советская Энциклопедия: в 30 т.Т 6.М.: Советская энциклопедия, 1971, 624 с.
120. Джалалян Е.Х. Краткая история страны Албанской (1702-1722 гг.) Перевод с древнеарм. языка Т.И. Тер-Григоряна. Предисловие и подготовка к изданию академика З.М.Буниятова. Б.: Элм, 1989, 48 с.
121. Дяконов И.М. Ассуро-вавилонские источники по истории Урарту. Предисловие, разделы I-III. Вестник древней истории, 1951, № 2, htpp:// annales.info/urartu/avi
122. Зевакин Е.С. Азербайджан в начале XVIII в. (Журнал посланника Волынского 1715-1718 гг.). Б.: Изд-во общества обследования и изучения Азербайджана, № 8, 1929, 31 с.
123. Ибн Хордат бек. Книга путей и стран. Перевод с арабского, комментарий, исследование, указатели и карты Н.Велихановой. Б.: Элм,1986, 428 с.
124. Иванов М.С. Очерк истории Ирана. М.:Государственное издательство политической литературы, 1952, 468 с.
125. История Ирана с древнейших времен до конца XVIII в. (под ред. Пигулевская Н.В. и др.) Л.: Изд-во ЛГУ, 1958, 390 с.
126. Йакут ал-Хамави. Мюджам ал-булдан. Хамдаллах Газвини. Нузхат-ал кулуб (материалы по Азербайджану, пер.З.М.Буниятова). Б.: Элм, 1983, 65 с.
127. Корнеиль де Бруин. «Извлечения из путешествия Корнеиля де Бруина (перев. с франц. Абезгуза). Архив ИИ НАНА, инв. № 481.
128. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Б.: Изд-во АН Азерб. ССР, 1948, 227 с.

129. Мамедов Г.М. Османская налоговая система в Азербайджане в 20-30-х годах XVIII в. (на материалах эялета Гяндже и санджака Казах). Автореф. дис.... канд. ист. наук. Б.: 1985, 23 с.
130. Мамедов С.А. Азербайджан по источникам XV – первой половины XVIII вв. Б.: Элм, 1993, 240 с.
131. Мейер М.С. Османская империя в XVIII веке. Черты структурного кризиса. М.: Наука, 1991, 261 с.
132. Мустафаев Ш.М. Восточная Анатолия: от Аккойунлу к Османской империи. М.: Восточная литература, 1994, 224 с.
133. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Б.: Элм, 1993, 240 с.
134. Новичев А.Д. Турция. Краткая история. М.: Наука, 1965, 270 с.
135. Орешкова С.Ф. Русско-турецкие отношения в начале XVIII в. М.: Наука, 1971, 202 с.
136. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XV- начале XIX вв. Л.: Изд-во ЛГУ, 1949, 380 с.
137. Рахмани А.А. “Тарих-и алем арай-и Аббаси” как источник по истории Азербайджана в XVIII веке. Б.: Изд-во АН Азерб. ССР, 1960, 191 с.
138. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700). Б.: Элм, 1981, 238 с.
139. Спильман Дж. Путешествие через Россию в Персию двух английских джентльменов (перевод с англ. на рус. яз. Абезгуз).Архив ИИ НАНА, инв. № 485.
140. Ханвей Дж. Исторический очерк Британской торговли на Каспийском море. Архив ИИ НАНА, инв. № 158.
141. Эвлия Челеби.Сияхатнаме. Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана. Вып. 3, М: Наука, 1983.375 с.

## *İngilis dilində*

142. Tadhkirat al-muluk. A manual of Safavid administration (circa 1137-1725). Persian text in facsimile. Translated and explained by V.Minorsky. London, 1943, XII+218 p.+130 p.

## *Fars dilində*

143. Əhrvanlı Rəhmani Mehrdad. Salmasın əski mədəniyyət izləri. S: Pərvaz qələm, 1385, 113 s.
144. Ənzəli Həsən. Urmiyə dər güzər-i zaman. T.: Dəstan, 1384, 926 s.
145. Fərhəng-i coğrafiyeyi-abadihayi Ostan-e Azərbaycan-e Qərbi. Şəhristan-i Urumiye. T.:1385, 470 s.
146. Məhəmmədi Əli. Urmiyyə Şəhri Kohən (Urmiya əski şəhər). T.: Fərzanə, 2009, 236 s.
147. Nəqib Seyyid Mahmud Məsud. Xalxal ve meşahir. T.: Məhəd Azadi, 1379, 881 s.
148. Zəndədil Həsən və əməkdaşları. Ostani Azərbaycani Qərbi. T.: Nəşriyye-i İrangərdi, 1377, 143 s.

# COĞRAFİ ADLARIN GÖSTƏRİCİSİ


**A**

Afrika-12
Ağcadaşbulaq-56
Ağcanur-56
Ağcaqaya-47
Ağkənd-56
Ağstafa-15
Ahıska-35
Altunçu-56
Anadolu-20, 62, 63
Ankara-7, 50
Arpaçay-33
Arsax-17
Asiya-11, 12, 13, 21,78
Astara-23, 37
Astrabad-23, 26
Avarıstan-33
Avrasiya-10, 126
Avropa-8, 9, 11, 13, 21, 30, 35, 78
Avstriya-20, 29
Azərbaycan- 4-14, 11-13, 21-23, 27-29, 31-37, 36, 42-46, 55, 37, 58, 62, 63, 73-76, 91-95, 102-110, 111-114, 118, 129, 134, 139,151, 153, 157-159

**B**

Bağdad-32, 99
Bakı-22-24, 26, 33
Baranduz-89
Barucuq-56
Başsızgələn-56

Bazarbaşı-51, 74, 79, 80, 98
Bəldə-52, 60, 64, 85, 96-98, 107, 110-120, 122, 124, 154
Bəlx-95
Bəlucistan-16
Bənaharm-101
Bənapərvazə-49, 52, 60, 64, 96-98, 107, 110-113, 115-120, 122, 124, 154
Bərdə-15, 29
Birkuşlu-56
Borçalı-7, 28, 29, 151, 153
Boz quş (dağları)-130
Burqanlı-56
Burşanlı-56

**C**

Canalmaz-56
Car-Balakən-14, 15, 34
Çarşı-51, 71, 79, 80, 154
Çuxursəd-45
Cəzirə-78, 142
Culfa-19, 76

**D**

Dağıstan-12, 16
Dədəli-56
Dərbənd-16, 17, 22, 24, 26, 33
Dəşti-Qıpçaq-62
Dehquyu- 44
Deyləman (Dilmuğan, Dilman)-75,76
Diz-56
Dizəc-i (Ağa Aala, Cəlbayi, Dusti, Əhməd, Halac, Sərdar Əli, Şərq, Tah-tah, Usta Xızır)- 79, 85
Dol-44, 49, 52, 60, 64, 107, 110, 112, 113, 115-119, 122, 124, 154

**E**
Emrudağac-57

**Ə**
Əhmədabad-47
Əkərli-56
Ələv-56
Əli Kürki-51, 79, 80
Ənzəl-50, 54, 55, 68-70, 141, 145-150, 154
Ənzəli-23
Ərbil-32
Ərdəbil-6, 7, 9, 22, 26, 28, 29, 31, 32, 43, 45. 67, 76, 78, 82, 84, 86, 91, 96, 106, 111, 114, 125, 126, 130, 132, 133, 143, 148, 153
Ərəbistan-37
Ərəş-76
Ərzin-91
Əyri ağac-56,
Əzdəkin-45, 50, 52, 53, 67, 126-129, 131-138, 154

**F**
Faris (Fars)-12
Firuzabad-44

**G**
Gəncə-6, 7, 9, 15, 17, 22, 28, 29, 32,33, 35, 38, 76, 89, 90, 96, 106, 151, 153
Gərmrud-37
Gilan-12, 16, 26, 43
Givi-135
Göyərçin (dağları) - 89
Göytəpə-56
Gülağacı-56
Güngörməz-56
Gürcüstan-12, 37

**H**

Herat-15, 19
Hələb-78, 142
Həmədan-28, 30-32,78, 126
Hənidahbil-44
Həştərxan-23,24
Həştrud-143
Hindistan-13
Hindu-51, 74, 79

**İ**

İmamrud-45
İran-5, 9-12, 19, 21, 27, 30, 44, 45, 58, 62, 63,73,74
İraq-i Əcəm-28
İrəvan (Rəvan)-6, 7, 12,15, 28, 29, 32, 33, 35, 96, 153
İsfahan-4, 15, 18, 19, 25, 28, 30, 31
İspaniya-29, 110
İstanbul-6, 8, 17, 26, 27, 35, 36, 42

**K**

Kağız-Konan-45
Karlovitsa (Karlofça)-20
Kartli-15, 18
Kəmər-56
Kəndivan-148
Kərəc-56
Kərkük-32
Kirman-12, 19
Kirmanşah-28, 30-32
Köçərli-56
Kükrəli-56
Kürdistan-37
Kürdqıran-50, 54, 55, 68-70, 141-145, 147, 149, 150, 154
Kürdşəhir-51, 79, 80
Kür (çayı)-23

**L**
Lazikiyə-78
Lori-7, 9, 153
Luristan-12, 37

**M**
Macarıstan-20
Mamanlı-48
Marağa-29, 37, 78, 114, 132
Maşqan-91
Mavərannəhr-12
Mazandaran-12, 23, 26
Məkkə-18
Məkran-12
Mərənd-76
Mərkəvər-44, 49, 51, 52, 60, 64, 107, 110, 112, 113, 115, 117-119, 122, 124, 154
Məşhəd-16, 19
Miscin (Mişəcin)-44
Miyanə-45, 78, 126
Moreya-21
Muğan-33, 34, 133
Muğancıq-56

**N**
Naxçıvan-7, 9, 28, 29, 32, 82, 89, 96, 106, 112, 139, 151, 153
Naxçıvantəpə-56, 57
Nuxa-16

**O**
Oraq-56
Ordubad-28, 29, 132
Ozanlı-56

**P**
Palanlı-56
Pəmbəcik-56
Peterburq (Sankt-Peterburq)-26
Polşa-20

**Q**
Qadan-89
Qaradağ-133
Qaracadağ-37
Qaragöz-57
Qara (dəniz)-21
Qaravul dağları-130
Qaziqumux-16
Qəbələ-15, 76
Qırgül-56
Qızılüzən-135
Quba-16
Qurdtəpə-56
Qəndəhar-12, 17, 18
Qarabağ-6, 7, 9, 17, 25, 29, 35, 38, 45, 50, 54, 55, 68, 69, 70, 90, 106, 133, 141, 145-147, 149, 150-154
Qəzvin-6, 16, 19, 25, 28, 29, 43
Qafqaz-11-13, 17, 21, 22, 24, 27, 30, 35, 133
Qazax-7, 28, 29, 151, 153

**R**
Rabilistan-12
Rəşt-26
Rəvan-133
Rusiya-8-11, 13, 17, 20-29, 31, 33, 35
Rzaiyyə-79

**S**

Sacacrud-44
Salmas- 4-8, 34, 36, 37, 43, 47, 50, 54-59, 64, 68-78, 91-94, 102-104, 106, 140-151, 153-158
Salyan-26
Samirə-99
Samur-24
Saqqızçı-56
Saraycıq-56
Sarçı-56
Savalan-133
Səhrabad- 49-52, 60, 64, 107, 110, 112, 113, 115-118, 119, 122, 124, 154
Səncəbəd-45, 50, 52-54, 66, 67, 97, 101, 102, 126-129, 131-135, 138, 154
Səngabad-134
Sərab-76, 86, 143
Seyhan-62
Sicistan-12
Sistan-16, 19
Sloveniya-20
Soyuqbulaq-44, 56
Sulduz-44
Suriya-142

**Ş**

Şabran-16, 76
Şahdur-89
Şahrud-45, 50, 52, 53, 66, 67, 126-129, 131-136, 138, 154
Şam-95
Şamaxı-13, 15, 17, 19, 21-23, 26, 32, 76
Şəki-15, 34
Şirinbulaq-56, 57
Şirvan-12,15-17, 19, 25, 27, 32, 34, 45, 133

**T**
Talış-133
Talış (dağları)-130
Təbriz-15,16, 22, 25, 28, 30-32, 35, 43, 45, 46, 73, 75, 76, 78, 91, 95, 101, 102, 111, 112, 142
Tehran-30
Tərkəvər-44, 49, 50, 52, 60, 64, 91, 107, 110, 112, 113, 115, 117-119, 122, 124, 154
Təsmalı-56
Tikəciq-56
Tiflis-7, 9, 32, 33, 35, 106, 133, 153
Transilvaniya-20
Türk-56
Türkiyə (Türkiyə Respublikası)-5, 7-9, 11, 30,

**U**
Ukrayna-20
Urmiya (Urumiyə, Urumi)-4-9, 28, 32, 36, 37, 43-47, 49-66, 71-91, 94, 96, 99, 102-104, 106-126, 131, 133, 137, 140, 141, 143, 150, 151, 153-159

**Ü**
Üşni-44, 49, 50, 52, 60, 64, 76, 78, 107, 110, 112, 113, 115, 117-119, 122, 124, 154

**V**
Venetsiya-20
Volqa-21, 23

**X**
Xalxal-4-8, 29, 36, 43-47, 50-59, 61, 66, 67, 68, 71, 72, 76-78, 93, 94, 96, 97, 99, 100-104, 106, 125-140, 143, 151, 153, 159
Xanəndbil-45, 50-54, 66, 67, 97, 100-102, 126-129, 131-136, 138

Xəlifəbulağı-48
Xəzər-21-24, 27
Xızıran-51, 80
Xorasan-12, 19, 31, 33, 43
Xoy-28, 34, 43, 45, 46, 76, 111, 114, 133
Xudat-16
Xuruş-Rüstəm-45, 50, 52, 53, 67, 126-129, 131-136, 138, 154
Xuzistan-12, 32

**Y**

Yarköhnə-56
Yəzd-19

**Z**

Zəncan-30, 78, 126
Zəngəzur-29

**ЯХШИХАНУМ НАСИРОВА**

# РЕГИОНЫ УРМИЯ И ХАЛХАЛ В ПЕРИОД ОСМАНСКОГО ПРАВЛЕНИЯ
## (20-е годы XVIII века)

### Резюме

Комплексное исследование архивных документов Османской империи является одной из актуальных проблем, стоящих перед тюркологией и национальной историографией. Исследование таких источников, как османские пространный и краткий реестры (дефтеры), имеет первостепенное значение при изучении социально-экономической истории различных областей Азербайджана. В соответствии с целью и задачей нашего исследования, «Пространный реестр ливы Халхал и Урмия» 1728 г., который содержит данные о таких областях Азербайджана, как Халхал, Урмия и Салмас, состоит из 409 страниц и хранится в Османском Архиве при Канцелярии Премьер-министра Турецкой Республики под номером 910, был впервые привлечен к научному исследованию. Этот важный источник позволяет изучить проблемы социально-экономического положения данных территорий. Источник содержит важную информацию об административном устройстве, этническом и религиозном составе населения упомянутых областей во времена османского правления, о демографических особенностях данной территории, топонимии, а также о сельскохозяйственных налогах, торговой и ремесленной деятельности городского населения.

В первой главе монографии была определена роль и социально-политическое положение Азербайджана в контексте взаимоотношений между Османской империей, Сефевидским государством и Россией в начале XVIII века. Во второй главе на основе данных пространного реестра был

проведен анализ и сделаны важные выводы об административном устройстве провинций Халхал, Урмия и Салмас в системе османского управления, о религиозно-этническом составе проживавшего на данных территориях населения, об экономическом и демографическом положении региона. В процессе исследования в третьей главе был проведен анализ содержащихся в реестре статистических данных, были рассчитаны, систематизированы и помещены в таблицу определенные для каждой области в соответствии с налоговой политикой Османской империи объем и количество налогов и пошлин.

Помимо этого, в научной работе нашли отражение сведения о деятельности религиозных учреждений, которые играли немаловажную роль в социально-экономической жизни ливы Халхал и Урмия. Было установлено, что созданные в XV-XVI веках в областях Халхал и Урмия вакфы и завие, все так же продолжали свою благотворительную деятельность даже после османского завоевания на основе уже новых документов. А это означает, что османы не только сохранили данные благотворительные учреждения, но и с предоставлением новых вакфных документов обеспечили их дальнейшее функционирование.

В монографии было установлено, что несмотря насуществовавшее в регионе по причине серьезных военно-политических событий нестабильное демографическое положение, мусульмане все же составляли большинство населения. Ономастический и топонимический анализ позволяет утверждать, что в регионе присутствовало сильное мусульманское тюркское присутствие и влияние.

**YAKHSHIKHANIM NASIROVA**

# URMIA AND KHALKHAL REGIONS DURING THE OTTOMAN SUPREMACY (20 years of the 18th century)

## Summary

A comprehensive study of the Ottoman archive documents appears as one of the topical problems of the Turkology and the National Historiography. Amoung mentioned documents census registers, ecpecially brief and comprehensive registers(Defters) play significant role in study of socio-economic history of various regions of Azerbaijan. According to objectives and purposes of the research, "Comprehensive register of Khalkhal and Urmia livas'", which is stored in the Ottoman Archives of the Prime Minister's Office under the number 910, consist of 409 pages and is relevant to census of Khalkhal, Urmia and Salmas regions of Azerbaijan in 1728, has been studied for the first time as an essential source of socio-economic information of those areas. The Register covers unique data on administrative structure on the above mentioned territories in times of the Ottoman dominion, ethnic and religious composition of population, demographic pe-culiarities of the area, toponymy, as well as taxes in agriculture, trade and crafts in which the city population was engaged.

The Chapter I of present monography shows socio-political state and position of Azerbaijan in an interaction between the Ottomans – the Safavis – Russia at the beginning of 18th century in the South Caucasus. In Chapter II in consonance with the comprehensive register analysis of ad-ministrative structure of Khalkhal, Urmia and Salmas in the Ottoman rule, ethnic-religious con-tent of population, economic and demographic state of region have been studied and remarkable results have been achieved. During research process in Chapter III statistic data in the com-

pre-hensive register relevant to mentioned regions have been analysed, in correspondence with the Ottoman tax policy amount of taxes and fees for each region have been organized according to calculations and placed in respective tables.

Along with that the research work presents information on activity of religious institutions which played an important role in socio-political life of Khalkhal and Urmia livas'. It was identi-fied that waqfs and zaviyes founded in Khalkhal and Urmia in 15-16th centuries continued their charity with new documentationafter the Ottoman occupation as well. It means that the Ottomans kept these charity places, also gave official documents to new waqf's and provided security of their activity.

In present monography it was revealed that Muslim population prevailed on researched terri-tory despite precarious demographic state due to serious political and military situation in region. Onomastic and toponymic analysis gives a prove to state that Turkish influence was very strong on researched area.

٦٤

٦٣

٦٥

TT_0910

YAXŞIXANIM BALAHÜSEYN qızı NƏSİROVA

# OSMANLI HAKİMİYYƏTİ DÖVRÜNDƏ URMİYA VƏ XALXAL BÖLGƏLƏRİ

## (XVIII əsrin 20-ci illəri)

| | |
|---|---|
| Kompüter tərtibçisi: | *Elçin Zeynalov* |
| Bədiitərtibat: | *Əli Hüseynov* |

Formatı $60x84^{1}/_{16}$
Həcmi 11,75 ç.v.
Tirajı 300
Qiymәti müqavilә әsasında

---

Kitab MİHAN MMC tərəfindən hazır
diapozitivlərdən istifadə olunmaqla
çap edilmişdir.